tədris dili



# AZƏRBAYCAN DİLİ

## METODİK VƏSAİT

# 7

**Rafiq İsmayılov**
**Aysel Xanalıyeva**
**Ülkər Nurullayeva**
**Dilrüba Cəfərova**
**Reyhan Həbibli**

Ümumi təhsil müəssisələrinin 7-ci sinifləri üçün

# AZƏRBAYCAN DİLİ *(tədris dili)*

fənni üzrə dərsliyin

METODİK VƏSAİTİ

Layihə

© Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

**Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International (CC BY-NC-SA 4.0)**

Bu nəşr Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International lisenziyası (CC BY-NC-SA 4.0) ilə **www.trims.edu.az** saytında əlçatandır. Bu nəşrin məzmunundan istifadə edərkən sözügedən lisenziyanın şərtlərini qəbul etmiş olursunuz:

İstinad zamanı nəşrin müəllif(lər)inin adı göstərilməlidir.

Nəşrdən kommersiya məqsədilə istifadə qadağandır.

Törəmə nəşrlər orijinal nəşrin lisenziya şərtlərilə yayılmalıdır.

Bu nəşrlə bağlı irad və təkliflərinizi
**trm@arti.edu.az** və **derslik@edu.gov.az**
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

# İÇİNDƏKİLƏR

## Giriş:


1. Dərslik komplektinin məzmun-struktur konsepsiyası ....3
2. Məzmun standartları və onların reallaşdırma yolları ....5
3. I yarımildə məzmun xətlərinin tədris vahidləri üzrə bölgüsü ....12
   II yarımildə məzmun xətlərinin tədris vahidləri üzrə bölgüsü ....14
4. Şagird nailiyyətlərinin qiymətləndirilməsi ....16


## Dərslərin şərhi:


**1-ci bölmə. Yurdda sülh, cahanda sülh!**
1. Nobel sülh mükafatı ....18
2. O mənim bacımdır... ....22
3. 17 yaşlı Nobel mükafatı laureatı ....26
4. Qara tut ağacı ....30
Ümumiləşdirici təkrar ....33-34

**2-ci bölmə. Coğrafi kəşflər**
1. Milyon yalan? ....36
2. Səyyahlar və onların coğrafi kəşfləri ....41
3. Niyə "Amerika"? ....47
Ümumiləşdirici təkrar ....56-57

**3-cü bölmə. Detektiv**
1. Detektiv ədəbiyyat ....59
2. Quba kapriççiosu ....63
3. Qatarda söhbət .... 68
Ümumiləşdirici təkrar ....79-80

**4-cü bölmə. Tarix, yoxsa mif?**
1. Uşaqlara Şaxta baba haqqında həqiqəti deyəkmi? ....82
2. Bir eposun izi ilə ....88
3. Heliosentrizmin əsasını kim qoyub: Aristarx, yoxsa Kopernik? ....93
Ümumiləşdirici təkrar ....99-100

**5-ci bölmə. Beynimizi işlədək**
1. İnsan beyni ....102
2. Oxuyub anlama və oxu sürəti ....108
3. Yaddaş texnikaları .... ....113
Ümumiləşdirici təkrar ....122

**6-cı bölmə. Niyə belə deyirik?**
1. Deyimlər ....124
2. Eponimlər ....132
3. Pollianna ....137
Ümumiləşdirici təkrar ....149-150

**7-ci bölmə. Məktublar**
1. Vanka ....152
2. Avraam Linkolnun oğlunun müəlliminə məktubu ....158
3. Çarli Çaplinin qızı Ceraldinaya məktubu ....162
Ümumiləşdirici təkrar ....172-173

**8-ci bölmə. Təbiətsevərlər**
1. Düşərgələr ....175
2. İki il ağacda yaşayan qadın: Culiya Hillin fədakarlığı ....180
3. Plastik materialın ixtirası, inkişafı, bu günü ....185
Ümumiləşdirici təkrar ....190-193


Layihə

# GİRİŞ

## 1. Dərslik komplektinin məzmun-struktur konsepsiyası

**Dərsliyin məzmun iyerarxiyası: bölmə – fəsil – dərs**

7-ci sinif üçün Azərbaycan dili dərsliyi 8 bölmədən (tədris vahidindən) ibarətdir. Hər yarımil üçün 4 bölmə nəzərdə tutulmuşdur.




Dərsliyin hər bir hissəsinin (yarımilin) sonunda "Söz boğçası" rubrikasındakı sözlərin izahı verilmişdir. Ümumiləşdirici təkrar dərsində müvafiq bölmədə mənimsədilmiş filoloji bacarıqlar xatırladılır, dil qaydalarının tətbiqi üzrə çalışmalar yerinə yetirilir.

Dərslikdə ən kiçik məzmun vahidi bölmənin bitkin hissəsini təşkil edən fəsildir. O, əsasən, dörd dərsi əhatə edir. Fəsildə müəyyən mövzu zəminində müxtəlif nitq bacarıqlarının inkişafı üçün materiallar verilir. Ona görə də dərsliyin məzmun kompozisiyası haqqında danışarkən fəsli təşkil edən mərhələlərdən danışmaq lazım gəlir. Hər dərs bir mərhələni əhatə edir.

### FƏSLİN STRUKTURU

**1**
- Mətnin oxunması
- Söz ehtiyatı üzrə iş
- Faktoloji qavrama

↓

**2**
- Mətnin ümumi məzmun səviyyəsində qavranması
- Açıq şəkildə ifadə olunmayan informasiyaların müəyyənləşdirilməsi
- Mətnin ideya, obrazlar sistemi, struktur baxımından təhlili

↓

**3**
- Əlavə informasiya mənbəyi ilə iş: oxu və ya dinləmə
- Müxtəlif mətnlərin məzmun, struktur, üslub baxımından müqayisəsi
- Yazı və ya təqdimat

↓

**4**
- Dil qaydaları
- Qaydanın mənimsədilməsi və nitqdə tətbiqi

Layihə

Fəsillərdə əsas fəaliyyət oxu üçün nəzərdə tutulmuş mətn(lər) üzərində qurulur, bütün məzmun xətləri üzrə standartlar müvafiq mövzuya aid nitq materialı üzərində reallaşdırılır.

Bu struktur hər bir fəsildə müxtəlif məzmun xətlərinə aid standartların taksonomiyanın mərhələlərinə uyğun reallaşdırılmasına imkan yaradır.

**Rubrikalar**

Dərslikdə tapşırıqlar müvafiq rubrikalar altında verilir. Bu rubrikalar haqqında məlumat dərsliyin 5-ci səhifəsində təqdim olunur. Şagirdlər onların əksəriyyəti ilə ibtidai təhsil dövründən tanışdırlar.

Mətn üzərində iş zamanı “Söz ehtiyatı”, “Nə anladın?”, “Düşün və cavab ver” kimi rubrikalar təqdim olunur ki, onlar fəslin yuxarıdakı sxemdə göstərilmiş mərhələlərini əhatə edir.

“Qlossari” rubrikasına xüsusi diqqət yetirmək tövsiyə olunur. Burada akademik sözlərin izahı verilir. Şagirdlərin həmin sözün mənasını mənimsədiyinə əmin olmaq lazımdır, çünki gələcəkdə tədris materiallarında həmin sözlərdən geniş istifadə olunacaq. Şagirdlərin akademik söz ehtiyatının genişlənməsi üçün bu rubrikanın əhəmiyyəti böyükdür.

“Qlossari”ni “Söz boğçası” rubrikasından fərqləndirmək lazımdır. “Söz boğçası”nda mətndə rast gəlinən yeni sözlərin siyahısı verilir. Mətn oxunduqdan sonra (bəzən əvvəl) bu sözlərlə bağlı iş aparılır. Həmin sözlərin izahı kitabın sonundakı “İzahlı sözlük”də verilir. Şagirdlər kontekstdən və ya morfemlərdən çıxış edərək sözün mənasını müəyyən etdikdən sonra təxminlərini lüğəvi izahla müqayisə edə bilərlər.

Dinləmə üçün nəzərdə tutulmuş mətnlər metodik vəsaitdə verilmişdir. Bununla yanaşı, həmin mətnlər səsləndirilmiş və müvafiq audifayllar trims.edu.az saytında yerləşdirilmişdir. Mətnlərin axtarışını asanlaşdırmaq üçün dərsliyin 5-ci səhifəsində QR-kod verilir. “Dinləmə” rubrikasında isə mətnin nömrəsi qeyd olunur. Saytda müvafiq nömrəli mətni seçməklə onu dinləmək mümkündür.

Yeni rubrikalardan biri də “Diqqət et” rubrikasıdır. Burada nitq bacarıqlarının inkişafı texnologiyasını açıqlayan tövsiyələr əks olunur, mətnin struktur elementləri ilə bağlı anlayışlar izah olunur.

Dərslikdə yazı və təqdimat fəaliyyəti üzrə materiallar da ayrıca rubrikalar şəklində təqdim olunur.

Hər bir fəslin son səhifəsi “Dil qaydaları” rubrikası üçün nəzərdə tutulur. Bölmənin sonunda isə “Ümumiləşdirici təkrar” üçün materiallar verilir.

**Dizayn**

Dərslikdə bölmələr rənglə fərqləndirilir.

Yuxarıdakı sxemdən göründüyü kimi dərsliyin iyerarxiya üzrə düzülmüş bir neçə struktur elementi var. Buna görə də bölmə, fəsil və dərslər rəqəmlə, tapşırıqlar isə hərflərin əlifba sırası ilə nömrələnmişdir. “A” tapşırığı yeni dərsin başlandığını bildirir. Hər bir dərsə aid tapşırıqların nömrələri rənginə görə digərlərindən fərqlənir.

Layihə

## 2. Məzmun standartları və onların reallaşdırması yolları

Aşağıda 7-ci sinif üçün nəzərdə tutulan nitq bacarıqları və dil bilgiləri müvafiq məzmun xətləri üzrə təsnif olunmuşdur. Qeyd etmək lazımdır ki, bu təsnifat struktur və konkretlik baxımından əvvəlki fənn kurikulumundan müəyyən qədər fərqlənsə də, mahiyyət və konseptual yanaşma baxımından eynidir. Əsas fərqlər aşağıdakılardır:

1. Altstandartlar müəyyən açıqlamalar və şərhlərlə müşayiət olunmuşdur ki, onlar standartın komponentlərini və ya onun reallaşmasına doğru aparan yolları ifadə edir.
2. Təqdim olunan məzmun standartlarında nitq bacarıqları və dil bilgilərinin (xüsusilə oxu, yazı və dil qaydaları üzrə) daha geniş spektri əks olunmuşdur ki, bu da tədris prosesini daha səmərəli qurmağa, daha rəngarəng çalışma modellərindən istifadə etməyə imkan verir.
3. "Söz ehtiyatı" standartı "Oxu" məzmun xəttindən "Dil qaydaları" məzmun xəttinə keçirilmişdir. Belə ki, 1) söz ehtiyatı bütün nitq bacarıqları üçün vacib olan amildir; 2) leksikologiya dilçiliyin sahələrindən biridir və onu yalnız "Oxu" məzmun xətti ilə məhdudlaşdırmaq düzgün olmazdı. Bununla belə, söz ehtiyatı oxuyub-anlamanın göstəricilərindən biri kimi "Faktoloji qavrama" məzmun standartında da altstandartlardan biri kimi yer tutur.

## 7-1. DİNLƏMƏ VƏ DANIŞMA

*Dinləmə – reseptiv, danışma – expressiv nitq bacarığı olsa da, hər ikisi şifahi nitq bacarığıdır. Dialoji nitq (müsahibə, müzakirə, debat və s.) zamanı bu bacarıqlar eyni prosesdə reallaşır. Məhz buna görə də dinləmə və danışma vahid məzmun xəttini təşkil edir. Məzmun standartlarından göründüyü kimi, şifahi nitq bacarıqlarından danışarkən monoloji nitqi dialoji nitqdən fərqləndirmək lazım gəlir. Danışma bacarığının əsas göstəriciləri rabitəli nitq və ədəbi dilin normalarına riayətdir.*

### 7-1.1. Dinləyib-anlama. Dinlədiyi məlumatı anlayır, izah edir və münasibət bildirir.

**7-1.1.1. Dinlədiyi mətndən götürdüyü qeydləri yarımbaşlıqlar üzrə qruplaşdırır.**
- Dinlədiyi mətndən götürdüyü qeydləri qruplaşdırıb nəql edir.
- Dinlədiyi mətndən götürdüyü qeydləri yaddaş xəritəsi üzrə qruplaşdırır.
- Dinləmə mətnindən götürdüyü qeydləri yaddaş xəritəsindəki başlıqlar üzrə qruplaşdırıb nəql edir.
- Dinləmə zamanı götürdüyü qeydlər əsasında mətnlə bağlı sualları cavablandırır.

**7-1.1.2. Dinlədiyi mətndəki fakt və fikirləri ümumiləşdirir.**
- Dinlədiyi mətndən götürdüyü qeydlər əsasında mətnin planını tutur.
- Dinlədiyi mətndəki fakt və fikirləri ümumiləşdirirərək nəticə çıxarır.

**7-1.1.3. Digər fənlər üzrə əldə etdiyi məlumatlardan çıxış edərək dinlədiyi məlumatlara münasibət bildirir.**
- Əlavə biliklərindən istifadə etməklə dinlədiyi fikirlərə münasibət bildirir.
- Dinlədiyi mətndəki fikirlərə münasibət bildirir.
- Dinlədiyi mətndəki fakt və fikirlərə münasibətini bildirir.
- Dinlənilən mətndəki faktların həqiqətə uyğunluğunu müəyyənləşdirir.

### 7-1.2. Dialoji nitq. Müzakirə və dialoqlarda dinlədiyi fikirlərə adekvat reaksiya verir.

**7-1.2.1. Müzakirə və debatlarda təyin olunmuş formata əməl edir.**
- Müsahibə almaq üçün müvafiq suallar tərtib edir.
- Çıxış üçün müəyyən olunmuş vaxt məhdudiyyətini nəzərə alır.

Layihə

**7-1.2.2. Müzakirə və debatlarda qarşı tərəfin fikrinə münasibətini ifadə etmək üçün arqument və əks-arqumentlər gətirir.**

- Həyatdan nümunələr gətirməklə və ya araşdırılan faktlardan istifadə etməklə qarşı tərəfin fikrinə münasibətini əsaslandırır.
- Həyatdan nümunələr gətirməklə söylənilən fikrə öz münasibətini bildirir.
- Müzakirə zamanı həyatdan nümunələr gətirməklə mövzu üzrə münasibətini bildirir.

### 7-1.3. Rabitəli nitq. Hər hansı mövzuda danışarkən rabitəli nitq nümayiş etdirir.

**7-1.3.1. Şəkil və qrafik informasiya üzrə mətn qurub nəql edir.**

- Verilmiş qrafik informasiya əsasında mətn qurub nəql edir.
- Verilmiş şəkillər üzrə mətn qurub nəql edir.

**7-1.3.2. Mövzu üzrə hazırladığı tezislər əsasında rabitəli mətn qurub təqdim edir.**

- Mövzu üzrə əldə edilən məlumatları açar sözlər, tezislər şəklində qeyd edir və onların əsasında mətn qurub danışır.
- Mövzu üzrə əldə edilən məlumatlardan çıxış etməklə müsahibə verir.

### 7-1.4. Ədəbi dilin normaları və ekspressiv nitq. Danışarkən ədəbi dilin normalarına əməl edir və ekspressiv nitq nümayiş etdirir.

**7-1.4.1. Müzakirə və debatlarda çıxışı zamanı uyğun standart ifadələrdən və ara sözlərdən istifadə edir.**

- Debatlarda çıxışı zamanı uyğun standart ifadələrdən istifadə edir.

**7-1.4.2. Danışarkən məzmuna uyğun intonasiya, jest və mimikadan istifadə edir.**

- Məzmuna uyğun intonasiya, jest və mimikadan istifadə etməklə deyilən fikri tamamlayır.

## 7-2. OXU

*Oxuyub-anlama yalnız dil bilgisi ilə deyil, ümumi intellektual səviyyə ilə bağlı olan bir bacarıqdır. Belə ki, mətni oxuyub anlamaq üçün şagird müəyyən dünyagörüşünə, məntiqi, analitik, tənqidi təfəkkür səviyyəsinə və söz ehtiyatına malik olmalıdır. Bu məzmun xəttində əsas standartlar taksonomiyanın səviyyələrinə uyğun formalaşdırılıb:*

- *Oxuduğu mətndəki məlumatları mənimsəmək;*
- *Fikir və faktları əlaqələndirərək mətni ümumi məzmun səviyyəsində qavramaq;*
- *Mətni məzmun, ideya, struktur baxımından təhlil etmək.*

### 7-2.1. Faktoloji qavrama. Oxuduğu mətndəki məlumatları müəyyənləşdirir.

**7-2.1.1. Qeyd götürməklə mətndəki əsas və ikinci dərəcəli faktları müəyyən edir.**

- Mətndən götürdüyü qeydləri cədvəl üzrə qruplaşdırır.
- Mətnin məzmunu ilə bağlı sualları cavablandırmaqla mətni mənimsədiyini nümayiş etdirir.
- Mətni oxumağa başlayarkən məqsədini müəyyənləşdirir.
- Mətni oxuduqca qeydlər götürür.
- Mətndəki əsas fakt və epizodları müəyyən edir.
- Oxuduğu mətndə əsas fakt və fikirləri fərqləndirir
- Oxuduğu mətndə əsas fakt və fikirləri müəyyən edir.

Layihə

**7-2.1.2. Kontekstdən (söz birləşməsi, cümlə, abzas, mətn) çıxış edərək tanış olmayan sözün mənasını müəyyən edir.**

• Kontekstdən və etimoloji izahlardan çıxış edərək tanış olmayan sözlərin mənasını müəyyən edir.
• Sözün kontekstə uyğun mənasını müəyyən edir.
• Omonim və ya çoxmənalı sözün kontekstə uyğun mənasını müəyyən edir.
• Kontekstdən çıxış edərək sözün məcazi mənasını müəyyən edir.

## 7-2.2. Şərhetmə və əlaqələndirmə. Mətndə açıq şəkildə ifadə olunmayan informasiya haqqında fikir yürüdür.

**7-2.2.1. Mətnin ideyasının açılmasında obrazların və əsas epizodun rolunu müəyyən edir.**

• Mətnin ideyasını şərh etmək üçün aforizm və atalar sözlərindən istifadə edir.
• Mətndən nümunələr gətirməklə verilən fikirləri əsaslandırır.
• Mətnin müxtəlif hissələrində əks olunmuş hadisələr arasındakı səbəb-nəticə əlaqəsini müəyyənləşdirir.

**7-2.2.2. Mətndəki məlumatlardan çıxış edərək yeni informasiya əldə edir.**

• Mətndə qeyd olunan tarixləri, rəqəmləri müqayisə edərək birbaşa ifadə olunmayan məlumatı müəyyənləşdirir.
• Mətndəki hadisə və faktları əlaqələndirərək açıq şəkildə ifadə olunmamış informasiyanı əldə edir.
• Mətndə qeyd olunan məlumatlardan çıxış edərək yeni informasiya əldə edir.
• Mövzu ətrafında daha çox məlumat əldə etmək üçün açıq suallar tərtib edir.
• Əldə etdiyi məlumatları dəqiqləşdirmək üçün araşdırma aparır.

## 7-2.3. Tənqidi təfəkkür və yaradıcı yanaşma. Mətni ideya, məzmun, struktur və dil-üslub baxımından təhlil edir.

**7-2.3.1. Mətnin ideyasının açılmasında xarakterlərin rolunu izah edir.**

• Dialoqlar əsasında obrazların xarakteri haqqında fikir yürüdür.
• Baş qəhrəmanın xarakterindəki əsas cəhəti müəyyənləşdirir və onu mətnin ideyası ilə əlaqələndirir.
• Mətnin məzmunundan çıxış edərək obrazları xarakterizə edir.

**7-2.3.2. Mətndəki arqumentlərdən çıxış edərək müəllifin mövqeyini şərh edir və məzmunu tezislərlə ifadə edir.**

• Mətndəki faktlara əsaslanaraq müəllif mövqeyinə münasibət bildirir.
• Mətndəki məlumatlardan çıxış edərək verilmiş fikirləri əsaslandırır.
• Mətndəki məlumatlardan çıxış edərək mühakimələr yürüdür.
• Mətndəki məlumatlardan çıxış edərək verilmiş fikirləri ümumiləşdirir.
• Müəllifinin oxucuya çatdırmaq istədiyi əsas fikri müəyyən edir.
• Arqumentlər gətirərək müəllifin fikrini təsdiq edir və genişləndirir.

**7-2.3.3. Bədii və qeyri-bədii mətnlərin srtuktur elementlərinin ümumi məzmuna təsirini izah edir.**

• Mətnin struktur elementlərini (illüstrasiya, haşiyə, epiqraf və s.) onun məzmunu ilə əlaqələndirir.
• Qeyri-bədii mətnin struktur elementlərinin ümumi məzmuna təsirini izah edir.
• Əsərin adını mətndəki əsas detal və ya ideya ilə əlaqələndirir.
• Qeyri-bədii mətnlərdə struktur elementlərini (fikir, arqument, dəlil, yarımbaşlıq və s.) müəyyənləşdirir.
• Əsərin əsas ideyasının açılmasında mətnin adının, tərkib hissələrinin rolunu müəyyənləşdirir.

Layihə

**7-2.3.4. Mətni dil-üslub xüsusiyyətlərinə görə təhlil edir.**
• Mətndə rast gəlinən söz və ifadələrin üslubi xüsusiyyətlərini izah edir.
• Məktubları dil-üslub və struktur xüsusiyyətlərinə görə fərqləndirir.

**7-2.3.5. Həqiqəti aşkar etmək məqsədilə müxtəlif mətnlərdəki fakt və fikirləri müqayisə edir.**
• Bədii və qeyri-bədii mətnləri dil-üslub xüsusiyyətlərinə görə müqayisə edir.
• Oxuduğu mətndə obyektiv və subyektiv fikirləri müəyyən edir.
• Müxtəlif mətnlərdəki fakt və fikirləri müqayisə edərək həqiqəti aşkar edir.
• Qeyri-bədii mətnləri dil-üslub, forma və məzmun xüsusiyyətlərinə görə fərqləndirir.

**7-2.3.6. Mətnin məzmununa yaradıcı yanaşmaqla süjetdə dəyişikliklər edir.**
• Mətnin məzmunundan çıxış edərək hadisələrin davamını təxmin edir.
• Mətni təxəyyülünə uyğun dəyişdirir, genişləndirir, davam etdirir.
• Mətnin məzmununa yaradıcı yanaşmaqla sonluq hissəsini dəyişir.
• Mətndə təhkiyəçini dəyişməklə məzmunu obrazlardan birinin dilindən nəql edir.

## 7-3. YAZI

*Yazı dil qaydaları sıx bağlı olan nitq bacarığıdır. Bu zaman həmçinin rabitəli mətn qurmaq və onu düzgün strukturlaşdırmaq bacarığına xüsusi diqqət yetirilir. Oxunmuş mətnlərin məzmun-struktur və dil-üslub baxımından analizi zamanı formalaşdırılan bacarıqlar yazıda tətbiq edilir. Hər bir mətn növünün özünəməxsus strukturu və üslub xüsusiyyətləri olur. Mətnin növü isə onun məqsədindən (informasiya vermək, izah etmək, inandırmaq və s.) asılı olur. Bu məqsədlə şagirdlərə müxtəlif tipli mətnlər yazmaq öyrədilir.*

### 7-3.1. Yazı normaları. Yazısında ədəbi dilin normalarına və mətnin struktur tələblərinə riayət edir.

**7-3.1.1. Mətnin növündən asılı olaraq yazısında fikir və məlumatların ardıcıllığına (xronoloji, qeyri-xronoloji, səbəb-nəticə) riayət edir.**
• Fikir – arqument əlaqəsini gözləməklə arqumentativ mətn yazır.
• Qeyri-xronoloji mətndə məlumatların ardıcıllığına riayət edir.
• İnformativ mətni düzgün strukturlaşdırıb yazır.

**7-3.1.2. Yazısında ədəbi dilin normalarına riayət edir.**
• Öyrəndiyi dil qaydalarını yazısında tətbiq edir.

### 7-3.2. Yazı məqsədləri və tipləri. Məqsədə uyğun olaraq müxtəlif tipli və formalı mətnlər yazır.

**7-3.2.1. Tanış olduğu məlumatlar əsasında informativ və izahedici mətnlər yazır.**
• Tanış olduğu məlumatlar əsasında informativ mətn (rəy) yazır.

**7-3.2.2. Mövzu ilə bağlı fikirlərini əsaslandırmaqla mətnlər yazır.**
• Esse yazarkən mövqeyini əsaslandırmaq üçün arqumentlər gətirir.
• Yazıda problemlə bağlı başqa mövqeləri təkzib etmək üçün əks-arqumentlər gətirir.
• Yazıda problemlə bağlı mövqeyini əsaslandırmaq üçün arqumentlərdən istifadə edir.

Layihə

**7-3.2.3. Sadə direktiv xarakterli mətnlər (müsabiqə qaydaları, əsasnamə və s.) tərtib edir.**
• Müsabiqə keçirmək məqsədilə qaydalardan ibarət əsasnamə tərtib edir.
• Hər hansı film haqqında afişa hazırlayır.
• Məqsədə uyğun rəsmi-işgüzar məktub yazır.

**7-3.2.4. Mənbələrdən istifadə etməklə mövzunu müxtəlif aspektlərdən araşdırır və tezislər şəklində təqdim edir.**
• Təqdimat materialında qrafik informasiyadan (şəkillərdən, cədvəllərdən, sxemlərdən, diaqramlardan) istifadə edir.
• Araşdırdığı məlumatları verbal-qrafik informasiya şəklində təqdim edir.
• Təqdimat materialında məzmunu aydın şəkildə strukturlaşdırır.
• Müxtəlif mənbələrə əsasən mövzu üzrə gəldiyi qənaətləri tezislər şəklində təqdim edir.

## 7-4. DİL QAYDALARI

*“Dil qaydaları” məzmun xəttində əsas standartlar dilçiliyin bəhsləri üzrə formalaşsa da, əsas məqsəd bu qaydaların yazılı və şifahi nitqdə tətbiqidir. Bir çox deklarativ qaydalar belə son nəticədə yazılı və şifahi nitqin ədəbi dilin normalarına uyğun olmasına xidmət edir. Bu baxımdan “Dil qaydaları” məzmun xəttinin əsas məqsədi aşağıdakılardır:*
*• Söz və şəkilçilərin düzgün yazılışı;*
*• Durğu işarələrindən yerli-yerində istifadə olunması;*
*• Sintaksik konstruksiyaların düzgün qurulması və sözlərin düzgün qrammatik formada işlədilməsi;*
*• Zəngin söz ehtiyatından istifadə, söz və ifadələrin üsluba uyğun seçilməsi.*

### 7-4.1. Orfoqrafiya və orfoepiya. Sözlərdə sait və samitlərin tələffüz və yazılış qaydalarına riayət edir.

**7-4.1.1. Vurğusu dəyişməklə mənası dəyişən sözlərdə vurğulu hecanı müəyyən edir.**
• Kontekstdən çıxış edərək vurğusu dəyişməklə mənası dəyişən sözlərin tələffüzünü fərqləndirir.

**7-4.1.2. Mürəkkəb adların böyük hərflə yazılışı qaydalarına riayət edir.**
• Bəzi mürəkkəb adların (səma cismi bildirən, tarixi gün və bayram adlarının) böyük hərflə yazılışı qaydalarına əməl edir.

**7-4.1.3. Bəzi sözlərin hal şəkilçiləri qəbul edərkən deyilişi və yazılışı arasında yaranan fərqi izah edir.**
• Yönlük halda olan sözlərdə açıq saitin qapalı saitə çevrilməsi qaydasına əməl edir.
• Sözlərdə -dan$^2$ çıxışlıq hal şəkilçisinin [nan$^2$] kimi tələffüzünə əməl edir.
• Ora, bura, hara sözlərinin bəzi hal şəkilçiləri qəbul edərkən deyilişi və yazılışı qaydalarına əməl edir.

**7-4.1.4. Komponentlər arasındakı məna əlaqələrindən çıxış edərək gələn mürəkkəb sözlərin yazılışı qaydalarına əməl edir.**
• Hiponimləri sinonimlərdən fərqləndirir və onların iştirakı ilə yaranan mürəkkəb sözlərin yazılış qaydalarına əməl edir.

**7-4.1.5. Bəzi köməkçi nitq hissələrinin bitişik və ayrı yazılış qaydalarına riayət edir.**
• Ədatların (-mı$^2$, -sana$^2$, -ca$^2$ və s.) bitişik və ayrı yazılış qaydalarına riayət edir.

Layihə

## 7-4.2. Qrammatika. Fikrin dəqiq ifadə olunmasında sözlərin qrammatik formalarının və sintaktik konstruksiyaların rolunu izah edir.

**7-4.2.1. Kontekstdən çıxış edərək əsas nitq hissələrinin morfoloji tərkibini və semantikasını izah edir.**

- Təsriflənən feillərin neçənci şəxsə aid olduğunu müəyyən edir.
- Feilin təsriflənən formalarını (şəkillərini) fərqləndirir.
- Mürəkkəb sözlərin yaranma yollarını və yazılışını müəyyən edir.
- Tərkibi sözlərin yaranma yollarını müəyyən edir.
- Kontekstdən çıxış edərək əsas nitq hissələrinin morfoloji tərkibini müəyyənləşdirir.

**7-4.2.2. Köməkçi nitq hissələrinin semantikasını müəyyən edir.**

- Kontekstdən çıxış edərək bəzi köməkçi nitq hissələrinin və şəkilçilərin omonimliyini müəyyən edir.
- Köməkçi nitq hissələrinin semantik xüsusiyyətlərini müəyyənləşdirir.

**7-4.2.3. Cümlədə söz birləşmələrini və onların sintaktik funksiyasını müəyyən edir.**

- Söz birləşmələrini mürəkkəb sözlərdən fərqləndirir.
- Əsas tərəfi məsdərlə ifadə olunan ismi birləşmələri feili birləşmələrdən fərqləndiririr.
- Söz birləşmələrini tərkibi sözlərdən və qoşma ilə işlənən sözlərdən fərqləndirir.
- Sadə və mürəkkəb söz birləşmələrini fərqləndirir.
- Feili birləşmələrin cümlədə sintaktik funksiyasını müəyyən edir.
- Cümlədə söz birləşmələrinin sintaktik funksiyasını müəyyən edir.

**7-4.2.4. Cümlədəki fikrin ifadə olunmasında cümlə üzvlərinin, qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmayan sözlərin rolunu müəyyən edir.**

- Cümlədə ara sözlərin funksiyasını müəyyən edir.
- Cümlədəki fikrin ifadə olunmasında cümlə üzvlərinin (xəbərin) rolunu müəyyən edir.
- Feili və ismi xəbərin ifadə vasitələrini müəyyənləşdirir.
- Cümlədə xitabı mübtədadan fərqləndirir və xüsusiyyətlərini müəyyənləşdirir.
- Həmcins cümlə üzvlərində şəkilçi və köməkçi nitq hissələrinin ixtisarı qaydalarına əməl edir.
- Xitabı mübtədadan fərqləndirir və ifadə vasitəsini müəyyənləşdirir.
- Həmcins cümlə üzvlərini müəyyən edir, aralarında müvafiq bağlayıcılar işlədir.

**7-4.2.5. Sual və nida cümlələrinin yaranma yollarını müəyyən edir.**

- Cümlənin məqsəd və intonasiyasının formalaşmasında ədat, sual əvəzliyi və nidanın rolunu müəyyənləşdirir.

## 7-4.3. Punktuasiya. Yazıda sadə punktuasiya qaydalarına əməl edir.

**7-4.3.1. Xitab, nida və ara sözlərdə durğu işarələrindən yerində istifadə edir.**

- Ara sözləri cümlədə yerindən asılı olaraq digər sözlərdən vergüllə ayırır.
- Xitabı cümlədə yerindən asılı olaraq digər sözlərdən vergüllə ayırır.

**7-4.3.2. Həmcins cümlə üzvlərində vergül işarəsindən yerində istifadə edir.**

- Həmcins cümlə üzvlərində vergül işarəsindən yerində istifadə edir.

**7-4.3.3. Durğu işarələrini tanıyır və onların yazılı nitqdəki funksiyalarını izah edir.**

- Dırnaq işarəsinin bəzi işlənmə məqamlarını izah edir.
- Nida ilə bağlı durğu işarəsini düzgün istifadə edir.

Layihə

## 7-4.4. Leksika. Sözlərin mənalarını anladığını nümayiş etdirir və üslubi xüsusiyyətlərini müəyyənləşdirir.

**7- 4.4.1. Sözün morfoloji tərkibindən çıxış edərək mənasını müəyyənləşdirir və lüğət vasitəsilə dəqiqləşdirir.**

• Söz tərkibindən çıxış edərək sözün mənasını müəyyən edir.
• Söz tərkibindəki morfemlərin semantikasından çıxış edərək sözün mənasını müəyyənləşdirir.
• Termini izah edərkən kontekstdən və tərkibindəki morfemlərdən çıxış edir.

**7-4.4.2. Sözü izah etmək üçün anlayışın xüsusiyyətlərini sadalayır, hiperonim, sinonim və antonimlərdən istifadə edir.**

• Sözü izah etmək üçün anlayışın xüsusiyyətlərini sadalayır, sinonim və antonimlərdən istifadə edir.
• Sözün izahını verərkən onu digər hiponimlərdən fərqləndirir.
• Sözü izah edərkən anlayışın xüsusiyyətlərinə, açar sözlərə, hiperonimlərə istinad edir.

**7-4.4.3. Mətnlərdə sadə məcazları və üslubi fiqurları müəyyən edir.**

• Mətndəki bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir.
• Təkrir, antiteza, lakonizm kimi bədii təsvir və ifadə vasitələrini fərqləndirir.
• Bədii mətnlərdə sadə məcazları və üslubi fiqurları (metafora, antiteza) müəyyənləşdirir.
• Cümlədə məcazi  mənada işlənmiş sözləri və üslubi fiqurları müəyyən edir.
• Metafor, kinayə kimi bədii təsvir və ifadə vasitələrini fərqləndirir.

Layihə

## I YARIMİLDƏ MƏZMUN XƏTLƏRİNİN TƏDRİS VAHİDLƏRİ ÜZRƏ BÖLGÜSÜ

| Fəsil | Oxu | Dinləmə | Danışma |
|---|---|---|---|
| **1-ci bölmə. Yurdda sülh, cahanda sülh!** | | | |
| 1 | **Nobel sülh mükafatı** | Sülhməramlı yardım təşkilatı | |
| 2 | **“O mənim bacımdır...”** | Yurdda sülh, cahanda sülh! | |
| 3 | **17 yaşlı Nobel mükafatı laureatı** | | |
| 4 | **Qara tut ağacı** | | “Müharibə ədalətli ola bilərmi?” |
| **1-ci bölmə üzrə ümumiləşdirici təkrar (Dil qaydaları)** | | | |
| **2-ci bölmə. Coğrafi kəşflər** | | | |
| 1 | **Milyon yalan** | Emilione | Təqdimat |
| 2 | **Səyyahlar və onların coğrafi kəşfləri** | | Debat |
| 3 | **Niyə “Amerika”?** | Amerikanın kəşfi | |
| **2-ci bölmə üzrə ümumiləşdirici təkrar (Dil qaydaları)** | | | |
| **3-cü bölmə. Detektiv** | | | |
| 1 | **Detektiv ədəbiyyat** | Şerlok Holmsun bilik dairəsi | |
| 2 | **Quba kapriççiosu** | Mətnin sonluğu | |
| 3 | **Qatarda söhbət** | Müəmmalı vəsiyyətnamə | Mətnin davamı |
| **3-cü bölmə üzrə ümumiləşdirici təkrar (Dil qaydaları)** | | | |
| **4-cü bölmə. Tarix, yoxsa mif?** | | | |
| 1 | **Uşaqlara Şaxta baba haqqında həqiqəti deyəkmi?** | | Debat |
| 2 | **Bir eposun izi ilə** | “Kitabi-Dədə Qorqud”un müqəddiməsi | Təqdimat |
| 3 | **Heliosentrizmin əsasını kim qoyub: Aristarx, yoxsa Kopernik?** | “Astronomiya tarixində ən böyük sual: heliosentrizm, yoxsa geosentrizm” | |
| **4-cü bölmə üzrə ümumiləşdirici təkrar (Dil qaydaları)** | | | |

Layihə

| Yazı | Dil qaydaları | Akademik sözlər | Dərs |
|---|---|---|---|
| | | | |
| "İlin şagirdi" müsabiqəsinin əsasnaməsi | Ədat | • əsasnamə • ədat | 5 |
| "Dünyamıza sülh gərəkdir" mövzusunda esse | Ədat və bağlayıcıların qrammatik omonimliyi | | 4 |
| | Modal sözlər | • modal sözlər | 2 |
| | Modal sözlərin cümlədə vəzifəsi. Ara sözlər | • munisipal • konfessiya • punktuasiya | 4 |
| | | | 1 |
| | | | |
| Təqdimat materialının hazırlanması | Feilin şəkilləri (əmr, vacib) | • vizual • verbal • slayd • qrafik informasiya | 6 |
| | Feilin şəkilləri (lazım, arzu) | • reqlament | 4 |
| | Məcaz. Dırnaq içərisində yazılan sözlər. Feilin şəkilləri (şərt, xəbər) | • xronika • ekspressiv | 4 |
| | | | 1 |
| | | | |
| Film afişası | Vurğu | • təhqiqat • tədqiqat • siluet • profil | 6 |
| | Mürəkkəb sözlərin yaranma yolları | • emosional • rasional • potensial | 4 |
| | Ayrı yazılan mürəkkəb sözlər | | 3 |
| | | | 1 |
| | | | |
| | Nida | • stereotip • subyektiv • obyektiv • Milad bayramı | 4 |
| Dədə Qorqud kim olub? | Sual, əmr və nida cüm-lələrinin yaranma yolları | • məqalə • epos • müqəddimə | 4 |
| Arqumenativ mətn | Mürəkkəb adların yazılışı | • eyham • ritorik sual | 6 |
| | | | 1 |

Layihə

## II YARIMİLDƏ MƏZMUN XƏTLƏRİNİN TƏDRİS VAHİDLƏRİ ÜZRƏ BÖLGÜSÜ

| Fəsil | Oxu | Dinləmə | Danışma |
|---|---|---|---|
| **5-ci bölmə. Beynimizi işlədək** | | | |
| 1 | **İnsan beyni** | | Təqdimat |
| 2 | **Oxuyub-anlama və oxu sürəti** | Beyin fırtınası | |
| 3 | **Yaddaş texnikaları** | Orxan İbadovun avtobioqrafiyası | Müsahibə |
| **5-ci bölmə üzrə ümumiləşdirici təkrar (Dil qaydaları)** | | | |
| **6-cı bölmə. Niyə belə deyirik?** | | | |
| 1 | **Deyimlər** | | Təqdimat |
| 2 | **Eponimlər** | | Eponimlər haqqında təqdimat<br>“Gəncə şəhərinin tarixi adları” təqdimat |
| 3 | **Pollianna** | “Pollianna” mətnindən hissələr<br>Herostrat sindromu | Təxəyyülünə uyğun danışma |
| **6-cı bölmə üzrə ümumiləşdirici təkrar (Dil qaydaları)** | | | |
| **7-ci bölmə. Məktublar** | | | |
| 1 | **Vanka** | | |
| 2 | **Avraam Linkolnun oğlunun müəlliminə məktubu** | Eynşteynin Atatürkə tarixi məktubu | |
| 3 | **Çarli Çaplinin qızı Ceraldinaya məktubu** | Səssiz kinonun kralı | |
| **7-ci bölmə üzrə ümumiləşdirici təkrar (Dil qaydaları)** | | | |
| **8-ci bölmə. Təbiətsevərlər** | | | |
| 1 | **Düşərgələr** | Dünya skaut hərəkatı təşkilatı | |
| 2 | **İki il ağacda yaşayan qadın: Culiya Hillin fədakarlığı** | | Müzakirə<br>Təqdimat |
| 3 | **Plastik materialın ixtirası, inkişafı, bu günü** | | Debat |
| **8-ci bölmə üzrə ümumiləşdirici təkrar (Dil qaydaları)** | | | |

Layihə

| Yazı | Dil qaydaları | Akademik sözlər | Dərs |
|---|---|---|---|
| | | | |
| | Morfemlər və onların semantikası | • adekvat • təkamül • polemika • təkrir • metafor • morfem • morfologiya | 4 |
| | Hal şəkilçiləri qəbul etmiş sözlərin deyilişi və yazılışı | • metod • antiteza • lakonizm | 4 |
| | Yer zərfinin semantik xüsusiyyətləri və orfoqrafiyası | • disleksiya • vunderkind • improvizasiya | 4 |
| | | | 1 |
| | | | |
| Esse | Məsdərin qrammatik xüsusiyyətləri | • publisistika • alliterasiya • assonans | 5 |
| | Sadə və mürəkkəb söz birləşmələri | • eponim | 4 |
| "Etimoloji araşdırmaların faydaları" mövzusunda esse | Feili birləşmələr cümlə üzvü kimi | • leksik vahid | 5 |
| | | | 1 |
| | | | |
| Rəy | Feili xəbər və ismi xəbər | • postskriptum • pasxa • Süd yolu • aspekt • məişət üslubu | 5 |
| | Mübtəda və xitabın fərqləndirilməsi | • bazar günü məktəbi • fövqəltəbii | 5 |
| | Həmcins cümlə üzvləri | • təzad | 3 |
| | | | 1 |
| | | | |
| Məktub | Köməkçi nitq hissələri (təkrar) | • kodeks | 5 |
| | Əsas nitq hissələri (təkrar) | • aksiya • parafraz | 4 |
| | | • polietilen • reklam | 4 |
| | | | 1 |

Laylə

## 3. Şagird nailiyyətlərinin qiymətləndirilməsi

Tədrisin tərkib hissəsi olan qiymətləndirmə həm müəllimə, həm də şagirdə məqsədə doğru irəliləyiş haqqında məlumat verir. Bu məlumatlardan çıxış edərək müəllim tədris prosesini necə davam etdirmək barədə qərarlar qəbul edir.

Qiymətləndirmənin növləri, prosedur qaydaları, forma və üsulları haqqında müxtəlif mənbələrdə xeyli sayda metodik tövsiyələr və direktiv göstərişlər var. Lakin bir məqamı daim diqqət mərkəzində saxlamaq lazımdır: **qiymətləndirmə elə təşkil olunmalıdır ki, təhsil mərhələsinin əvvəlindən sonuna qədər hər bir şagirdin nailiyyətləri haqqında fikir söyləmək mümkün olsun**. "Şagird nailiyyətləri" dedikdə təhsil proqramında təsbit olunmuş məzmun standartları – bilik və bacarıqlar nəzərdə tutulur. Beləliklə, həmin standartlarda əks olunan hədəflər qiymətləndirmə zamanı meyara çevrilir.

Diaqnostik qiymətləndirmə müvafiq təhsil mərhələsi üçün nəzərdə tutulan ilkin səviyyənin qiymətləndirilməsini nəzərdə tutur. Hər bir bölmənin ilk dərsində diaqnostik qiymətləndirmə keçirmək tövsiyə olunur. Belə ki, müəllim tədris prosesini səmərəli qurmaq, diferensial təlim strategiyasını düzgün müəyyənləşdirmək üçün hər bir şagirdin nitq bacarıqları, söz ehtiyatı və dil bilgiləri haqqında aydın təsəvvürə malik olmalıdır.

Formativ qiymətləndirmə imkan verir ki, müəllim "əlini daim şagirdin nəbzində saxlasın". Bu qiymətləndirmə müəllimə növbəti mərhələ üçün təlimin strategiyasını müəyyənləşdirməyə kömək edir. Qiymətləndirmənin meyarları isə müvafiq mərhələnin əvvəlində qoyulmuş məqsədlərdən asılıdır.

Metodik vəsaitdə hər bir dərsin sonunda qiymətləndirmə cədvəli verilir ki, burada qiymətləndirmə meyarı və qiymətləndirmə üçün tədris materialı (tapşırıq) qeyd olunur. Hər bir dərsin təlim nəticəsi sonda müvafiq bacarığı ölçmək üçün qiymətləndirmə meyarı kimi götürülür.

Summativ qiymətləndirmə vasitəsilə tədris vahidi ərzində şagirdlərin müxtəlif məzmun əldə etdikləri bilik və bacarıqların səviyyəsi müəyyən edilir. Bu qiymətləndirmə üçün materiallar müəllimlər və ya məktəb tərəfindən hazırlanır. Azərbaycan dili üzrə summativ qiymətləndirmə materialları, adətən, oxu, dinləmə və dil qaydaları məzmun xətlərini əhatə edir. Danışma üzrə şagirdin səviyyəsi tədris vahidi boyu müşahidələr nəticəsində müəyyən edilir.

Layihə

bölmə 1

# Yurdda sülh, cahanda sülh!

| Dərs | Mövzu | Məzmun xətləri | Dərslik səh. | İş dəftəri səh. | MV səh. |
|---|---|---|---|---|---|
| **1-ci fəsil** | | | | | |
| 1 | Sülhə gəlin, ey insanlar! | Danışma. Yazı | 6 | 3 | 18 |
| 2 | Nobel sülh mükafatı | Oxu. Oxuyub-anlama | 7-9 | 4 | 18-20 |
| 3 | Sülhməramlı yardım təşkilatı | Oxuyub-anlama. Dinləmə | 9-10 | 5 | 20-22 |
| 4 | Mövzu üzrə təqdimat | Danışma | 10 | - | 22-23 |
| 5 | Ədat | Dil qaydaları (qrammatika) | 11 | 6 | 23-24 |
| **2-ci fəsil** | | | | | |
| 1 | O mənim bacımdır... | Oxu. Dil qaydaları (leksika) | 12-13 | 7 | 25-26 |
| 2 | O mənim bacımdır... | Oxuyub-anlama. Dinləmə | 14 | 8 | 26-28 |
| 3 | Dünyamıza sülh lazımdır | Yazı | 14 | - | 28 |
| 4 | Ədat və bağlayıcının omonimliyi | Dil qaydaları (qrammatika) | 15 | 9 | 29 |
| **3-cü fəsil** | | | | | |
| 1 | 17 yaşlı Nobel laureatı | Oxu | 16-17 | 10 | 30-31 |
| 2 | Modal sözlər | Dil qaydaları (qrammatika) | 18 | 11 | 31-32 |
| **4-cü fəsil** | | | | | |
| 1 | Qara tut ağacı | Oxu. Oxuyub-anlama | 19-21 | - | 32-33 |
| 2 | Qara tut ağacı | Oxu. Oxuyub-anlama | 22-25 | 12 | 34-35 |
| 3 | Mətn üzrə iş | Danışma | 25 | - | 36-37 |
| 4 | Modal sözlərin cümlədə vəzifəsi. Ara sözlər | Dil qaydaları (qrammatika) | 26 | 13 | 37-38 |
| 6 | Ümumiləşdirici təkrar | Oxu. Dil qaydaları | 27 | 14-15 | 38-40 |

Layihə

# 1-ci fəsil

## 1-ci dərs. Sülhə gəlin, ey insanlar!

• Dərslik: səh. 6 İş dəftəri: səh. 3

**Təlim məqsədləri**

**1.** Əlavə biliklərindən istifadə etməklə dinlədiyi fikirlərə münasibət bildirir **(st. 7-1.1.3).**

**2.** Mövzu üzrə əldə edilən məlumatları açar sözlər, tezislər şəklində qeyd edir və onların əsasında mətn qurub danışır **(st. 7-1.3.2).**

**Mövzuya yönəltmə**

Müəllim şagirdlərin diqqətini bölmənin adına yönəldir və soruşur:

– Sizcə, bu bölmənin mövzusu nədir? “Yurdda sülh, cahanda sülh!” nə deməkdir?

**Danışma. Söz ehtiyatı**

**7-1.1.3. Tapşırıq a (dərslik).** Şagirdlər tarix fənnindən əldə etdikləri bilgilər əsasında verilən ifadələri və onların mənaları arasındakı fərqi izah edirlər.

Cavab: Vətən müharibəsi – dövlətin suverenliyi (müstəqilliyi) və ərazi bütövlüyü uğrunda işğalçı dövlətlə apardığı müharibə.

Vətəndaş müharibəsi – eyni dövlət daxilində mütəşəkkil qruplar arasında olan müharibədir. Bir tərəfin məqsədi ölkəyə və ya bölgəyə nəzarəti ələ keçirmək, bir bölgə üçün müstəqilliyə nail olmaq, hökumət siyasətini dəyişdirmək və ya devirmək ola bilər.

Dünya müharibəsi – bir sıra dövlətlər arasında eyni vaxtda gedən genişmiqyaslı müharibə.

**Danışma**

**7-1.3.2. Tapşırıq b (dərslik).** Şagirdlər “Sülhə gəlin, ey insanlar!” mövzusunda çıxışa hazırlaşmaq üçün verilmiş fakt və sitatları səssiz oxuyurlar. Faktoloji suallar:

*– Dünya müharibələrinin nəticəsində ümumilikdə nə qədər insan tələfatı olub?*

*Beynəlxalq Sülh Günü hər il nə vaxt qeyd olunur?* (Əlavə olaraq qeyd etmək olar ki, Sülh Günü 1981-ci ildə BMT-nin qərarı ilə təsis olunub) *Bu günün təsis edilməsinin əhəmiyyəti nədir? Albert Eynşteynin müharibələr haqqında fikrini izah edin. Nə üçün o, insanların gələcəkdə çomaq və daşlarla döyüşəcəklərini iddia edir?*

**Müəllimin nəzərinə!** Çıxışın sonluğunda mahnının xorla oxunmasına nail olmaq üçün şagirdlərə mahnı ilə əvvəlcədən tanış olmağı tapşırmaq tövsiyə olunur.

Müəllim çıxış üçün ayrılmış müddəti əvvəlcədən müəyyənləşdirib elan etməlidir. Həmçinin bir neçə vacib tövsiyəni diqqətə çatdırmalıdır:

• Çıxış zamanı dərslikdə verilmiş bütün fakt və sitatlardan istifadə etməyinizə gərək yoxdur. Həmçinin bildiyiniz əlavə məlumatlardan da istifadə edə bilərsiniz.

• Çıxışın üslubunu mövzuya uyğun seçin. Çıxışınızın cəlbedici olmasına çalışın. Yorucu, monoton səslə danışmayın.

• Bəzi fikirlərdən “niyə?” sualı yarana bilər. Dinləyicilərin sizin sözünüzü kəsib bu sualı verməsini gözləməyin. Çalışın aydınlıq gətirin. İnandırıcı danışın. Bunun üçün faktların, sitatların mənbəyini söyləyin (Məsələn, Albert Eynşteyn bu barədə demişdi; Dərslikdə müharibədə insan tələfatının sayı belə göstərilir və s.)

• Mövzunun ana xəttindən kənara çıxmayın.

**Yazı**

**Tapşırıq a (iş dəftəri).** Şagirdlər tapşırıqdakı mövzuya uyğun esse yazırlar.

**Müəllimin nəzərinə!** Esse yazmaqda çətinlik çəkən şagirdlərə tapşırıqda verilmiş sitatları yazılı şərh etməyi tapşırmaq olar.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dinlədiyi fikirlərə münasibət bildirir. | Tap. a (D.) |
| Mövzu üzrə açar sözlər və tezislər əsasında mətn qurub danışır. | Tap. b (D.) |

## 2-ci dərs. Nobel sülh mükafatı

• Dərslik: səh. 7-9 • İş dəftəri: səh. 4

**Təlim məqsədləri**

**1.** Kontekstdən və etimoloji izahlardan çıxış edərək tanış olmayan sözün mənasını müəyyən edir **(st. 7-2.1.2).**

**2.** Mətndəki məlumatlardan çıxış edərək verilmiş fikirləri əsaslandırır **(st. 7-2.3.2).**

**3.** Mətndə qeyd olunan tarixləri, rəqəmləri müqayisə edərək birbaşa ifadə olunmayan məlumatı müəyyənləşdirir **(st. 7-2.2.2).**

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik).** Şagirdlər Nobel mükafatı haqqında bildiklərini danışırlar.

Nobel mükafatı laureatları: Albert Eynşteyn (fizika), Barak Obama (sülh), Pyer Küri (fizika), Mariya Küri (fizika), Ernest Heminquey (ədəbiyyat), Orxan Pamuk (ədəbiyyat) və s.

**Oxu**

Mətnin əvvəlində verilmiş epiqraf oxunub izah edilir.

İstiqamətləndirilmiş oxu. Bu üsul aktiv oxu prosesini təmin edir. Müəllim lövhədə bir neçə maraqlı sual yazır və şagirdlərə oxu zamanı həmin sualların cavabını tapmağı tapşırır.

Suallar: *Alfred Nobel kimdir? O, necə oldu ki, dünyanın ən varlı adamlarından birinə çevrildi? Nobelin fəaliyyəti haqqında qəzetlər nə yazırdı? "Rədd olsun silah!" adlı kitabı kim yazmışdı və Alfred Nobel bu kitabı oxuyandan sonra nə etdi?*

Şagirdlərə mətni oxuduqca tarix və adlarla bağlı qısa qeydlər götürmələri tövsiyə olunur. Oxu bitdikdən sonra suallar cavablandırılır.

**Söz ehtiyatı**

**7-2.1.2. Tapşırıq b (dərslik).** Mətndə şagirdlərə tanış olmayan bir sıra sözlər var. Həmin sözlərin mənasını araşdırmaq üçün hər bir söz mətndən tapılır. Kontekstin və tapşırıqda verilmiş etimoloji məlumatların köməyi ilə yeni sözlərin (həmin sözlər mətndə fərqləndirilib) mənası izah olunur.

Cavab: pasifist – müharibələrə qarşı çıxan və Yer üzündə sülhün olmasını istəyən;

militarist – silahlanma və müharibəyə hazırlıq görən;

nominasiya – festival və müsabiqələrdə fəxri adların və mükafatların verilməsi üçün təyin olunmuş fəaliyyət növləri və sahələrin adları;

laureat – elm, texnika, incəsənət sahəsində xüsusi xidmətlərə görə verilən ad, həmçinin bu ada və xüsusi mükafata layiq görülmüş şəxs; müxtəlif festival və müsabiqələrin qalibi.

**Müəllimin nəzərinə!** Müəllim şagirdlərin diqqətini mətndə dırnaq içərisində verilmiş "ölümündən" ifadəsinə yönəldib soruşa bilər:

– *Sizcə, mətndə "ölümündən" ifadəsi nə üçün dırnaq içərisində yazılıb?*

Şagirdlər sual ətrafında şəxsi fikirlərini söyləyirlər. İfadə məcazi mənada işlənib. Alfred Nobelin ölüm xəbəri yayılsa da, o, sağ idi.

Bu barədə növbəti bölmədə ətraflı məlumat veriləcəkdir.

**Tapşırıq a (iş dəftəri).** Şagirdlər mətndə *fond* və *vəkil* sözlərinin əlavə mənaları ilə də tanış olurlar. Həmin sözlərin mətndəki mənasını müəyyənləşdirirlər:

1. Fond – hər hansı məqsəd üçün ayrılan pul, maddi vəsait;

2. Vəkil – kiminsə marağını təmsil edən şəxs, nümayəndə.

**Oxuyub-anlama**

**7-2.3.2. Tapşırıq c (dərslik).** Şagirdlər fikirlərini aşağıdakı kimi əsaslandıra bilərlər.

1. Alfred Nobel dinamiti 1889-cu ildə ixtira etmişdir. *Yanlış fikirdir. Dinamit 1889-cu ildən xeyli əvvəl ixtira olunmuşdur. Mətndə göstərilir ki, vaxtilə Nobelin yanında işləmiş Berta fon Zuttnerin "Rədd olsun silah!" adlı kitabı 1889-cu ildə nəşr olundu. Həmin dövrdə artıq insanlar odlu silahdan istifadə olunan müharibələrin acı nəticələrini yaşayırdılar.*

2. Nobel fondunun bir hissəsini Bakı neftindən əldə edilən gəlir təşkil edir. *Doğru fikirdir. Mətndə 1-ci haşiyədə bu barədə məlumat verilib.*

3. Nobel mükafatı üzrə nominasiyalar arasında riyaziyyat sahəsindəki kəşflər xüsusi yer tutur. *Yanlış fikirdir. Alfred Nobelin vəsiyyətnaməsində nominasiyalar arasında riyaziyyatın adı çəkilmir.*

4. Berta fon Zuttnerə Nobel mükafatını Anri Dünan təqdim etmişdi. *Ehtimal edilə bilər. Mətndə göstərilir ki, 1901-ci ildə mükafat alan ilk laureatlardan biri də Anri Dünandır. 2-ci haşiyədə isə göstərilir ki, Berta fon Zuttner 1905-ci ildə Nobel mükafatına layiq görülür. Bu o deməkdir ki, Berta fon Zuttnerə vaxtilə qalib olmuş Anri Dünanın mükafat təqdim etməsi ehtimal olunur.*

**Tapşırıq b (iş dəftəri).** Şagirdlər mətnə istinad edərək verilmiş fikirləri əsaslandırırlar.

1. Alfred Nobelin xeyriyyəçi olmasına səbəb qəzetdə çıxmış nekroloq oldu. *Bəli. Alfred Nobel qəzetlərdə ona verilən adları ("ölüm taciri", "dinamit kralı") qəbul edə bilmədi. İstədi ki, ölümündən sonra onu yaxşı insan kimi tanısınlar.*

2. Alfred Nobelin ixtirası olan dinamit quruculuq işlərində də faydalı idi. *Dinamitdən dağ-mədən işlərində, yolların və körpülərin salınmasında istifadə olunurdu.*

3. Alfred Nobel dağıdıcı silahlar istehsal etsə

Layihə

də, insan taleyinə biganə deyildi. *Berta fon Zuttnerin "Rədd olsun silah!" əsəri Nobeli sülh mükafatı təsis etməyə sövq etmişdi.*

**Tapşırıq c (iş dəftəri).** Şagirdlər Nobel fondunun riyaziyyat üzrə mükafat verməməsinin səbəbinə dair ehtimallarını təxminən belə yaza bilərlər:

*Alfred Nobel kimi elmə dəyər verən bir adamın riyaziyyatı elm hesab etməməsi məntiqli deyil. Çox güman ki, o, şəxsi münasibətinin yaxşı olmadığı bir riyaziyyatçıya mükafat verilməsini istəmədiyi üçün belə qərara gəlib.*

Tapşırıq yerinə yetiriləndən sonra müəllim şagirdlərə bu barədə əlavə məlumat verə bilər:

– Riyaziyyat sahəsində Nobel mükafatının verilməməsi haqda o vaxtdan indiyə qədər müxtəlif söz-söhbətlər dolaşır. Nisbətən ağlabatan variant İsveç riyaziyyatçısı M.Mittaq-Lefflerlə (1846–1927) bağlı olanıdır. A.Nobelin bu məşhur riyaziyyatçıya qarşı səbəbi bilinməyən bir antipatiyası var imiş və əgər Nobel mükafatı riyaziyyat sahəsində verilmiş olsaydı, ilk mükafata da elə Mittaq-Leffler layiq görüləcəkmiş. Onun qarşısını kəsmək üçün də Nobel riyaziyyatla bağlı belə ədalətsiz qərar verir.

**7-2.2.2. Tapşırıq ç (dərslik).** Şagirdlər mətndəki məlumatların köməyi ilə Alfred Nobelin yaşadığı illəri müəyyənləşdirirlər. Müəllim sualı cavablandırmaq üçün şagirdlərə vaxt verir. Onlar lazım olan informasiyanı tapmaq üçün mətnin müvafiq hissələrini nəzərdən keçirirlər. Tapşırıq axtarılan məlumatı daha tez tapa bilmək bacarığının inkişafına xidmət edir.

Mətndə göstərilir ki, 1895-ci ildə vəsiyyət yazan Alfred Nobel bir il sonra, yəni 1896-cı ildə vəfat edir. Həmçinin qeyd olunur ki, həmin vaxt onun 63 yaşı var idi. Bu isə o deməkdir ki, Alfred Nobel 1833-cü ildə doğulub.

Bundan əlavə mətn üzrə illüstrasiyalara diqqət etdikdə Mükafat medalının üzərində Roma rəqəmləri ilə Alfred Nobelin doğum və ölüm tarixi göstərilib. Şagirdlər aşağı siniflərdən Rum rəqəmlərindən istifadə qaydalarını öyrəniblər. Müəllim lövhədə Rum rəqəmlərini yazıb xatırlatma edə bilər: I – 1, V – 5, X – 10, L – 50, C – 100, D – 500, M – 1000.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstdən və etimoloji izahlardan çıxış edərək tanış olmayan sözün mənasını müəyyən edir. | Tap. b (D.); a (İ.D.) |
| Mətndəki məlumatlardan çıxış edərək verilmiş fikirləri əsaslandırır. | Tap. c (D.); b, c (İ.D.) |
| Mətndə birbaşa ifadə olunmayan məlumatı müəyyənləşdirir. | Tap. ç (D.) |

## 3-cü dərs. Sülhməramlı yardım təşkilatı

• Dərslik: səh. 9-10

**Təlim məqsədləri**

**1.** Mətndəki faktlara əsaslanaraq müəllif mövqeyinə münasibət bildirir **(st. 7-2.3.2).**

**2.** Mətnin struktur elementlərini (illüstrasiya, haşiyə, epiqraf və s.) onun məzmunu ilə əlaqələndirir **(st. 7-2.3.3).**

**3.** Dinlədiyi mətndən götürdüyü qeydlər əsasında mətnin planını tutur **(st. 7-1.1.2).**

**Mövzuya yönəltmə**

Frontal sorğu aparmaqla ötən dərsdə oxunan mətn xatırladılır. Alfred Nobelin xidmətləri sadalanır.

**Oxuyub-qavrama**

**7-2.3.2. Tapşırıq a (dərslik).** Şagirdlərin diqqəti mətnin sonunda qoyulmuş suala yönəldilir. Şagirdlər suala cavab verməklə Alfred Nobelin xidmətlərini dəyərləndirirlər. Onun Nobel sülh mükafatı yaratmağı ilə bəşəriyyətin inkişafında böyük xidmətlər göstərdiyi vurğulanır.

Şagirdlər tapşırıqda verilmiş sitata münasibət bildirirlər.

Müharibə tərəflərinin hər birinin kütləvi qırğın silahları olarsa, hər iki tərəf sülhə can atar. Çünki hər hansı tərəfin müharibəyə başlaması özünün də məhv olmasına səbəb ola bilər. Beləliklə, bu, tərəfləri müharibədən çəkindirən bir amil kimi çıxış edir. Tarixdə bu fikrin ən bariz nümunəsi Soyuq müharibə dövründə ABŞ və SSRİ arasındakı nüvə silahlanması yarışı idi. Hər iki supergüc digərinin də eyni dərəcədə dağıdıcı gücə malik olduğunu bilirdi və bu, birbaşa nüvə qarşıdurmasının qarşısını alırdı. Bu balans dünyanı nüvə

Layihə

fəlakətindən qorudu, lakin eyni zamanda daim gərgin bir atmosfer yaratdı. Beləliklə, sitatda vurğulanan əsas məqam odur ki, müharibə edən tərəflərin kütləvi qırğın silahlarına malik olması müharibəni dayandıran və tərəfləri sülhə məcbur edən bir vasitə kimi çıxış edə bilər.

**7-2.3.3. Tapşırıq b (dərslik).** Şagirdlərin diqqəti mətnin struktur elementlərindən biri olan epiqrafa yönəldilir. Mətnin əvvəlində verilmiş epiqraf yenidən oxunur və Nobelin həyatı ilə əlaqələndirilir.

Cavab: Alfred Nobel sitatında həyatın nə qədər qiymətli və nadir bir hədiyyə olduğunu vurğulayır. Həyat qiymətli bir daş kimi təbiətin bizə verdiyi xəzinədir. Bu daşı cilalamaq, yəni həyatı ən yaxşı şəkildə yaşamaq və inkişaf etdirmək üçün çalışmaq lazımdır. Bu zaman həyatımızın parıltısı, yəni müvəffəqiyyət və xoşbəxtlik bizə və başqalarına işıq saçaraq yolumuzu aydınladacaq. Nobelin öz həyatı bu fikrin ən gözəl nümunələrindən biridir. Nobel dinamitin ixtiraçısı kimi tanınır, lakin bu ixtiranın hərbi məqsədlər üçün geniş istifadə edildiyini gördükdən sonra öz kəşfinin zərərli nəticələrindən dərin peşmançılıq hissi keçirdi. Bu onun həyatını və baxışlarını yenidən nəzərdən keçirməyə səbəb oldu. Məhz bu düşüncələrdən sonra Nobel öz sərvətini insanlığın rifahına xidmət etmək üçün istifadə etmək qərarına gəldi. Nobel mükafatlarını təsis etdi. Nobel bu qərarı ilə həyatın dəyərini və onu necə cilalamaq lazım olduğunu göstərdi. O öz səhvlərindən dərs çıxardı və bu dərsləri həyatında müsbət dəyişikliklər etmək üçün istifadə etdi.

**Tapşırıq c (dərslik).** "Nobel Sülh mükafatı" mətnini müşayiət edən illüstrasiyalara nəzər salınır. Bu illüstrasiyaların bədii mətnlərə çəkilmiş illüstrasiyalardan fərqi müzakirə edilir. Şagirdlərin fikirləri "Diqqət et" rubrikası ilə ümumiləşdirilir.

**Tapşırıq ç (dərslik).** Şagirdlər şəkilaltı şərhləri mətndəki illüstrasiyalarla uyğunlaşdırmaqla mətnin struktur elementlərini tamamlayırlar. Cavab: 1 – mətndəki 2-ci illüstrasiya; 2 – mətndəki 3-cü illüstrasiya; 3 – mətndəki 1-ci illüstrasiya.

**Tapşırıq d (dərslik).** Haşiyələrdə verilmiş məlumatlar nəzərdən keçirilir. Bu məlumatların mətnin əsas mövzusu və məzmunu ilə nə dərəcədə bağlı olduğu izah edilir.

**Dinləmə**

**7-1.1.2. Tapşırıq e (dərslik).** Şagirdlər qeyd götürməklə "Sülhməramlı yardım təşkilatı" mətnini dinləyirlər.

***Sülhməramlı yardım təşkilatı***

*Bir gün isveçrəli iş adamı, xeyriyyəçi Anri Dünan səfərə çıxır. Yolu müharibə olan ərazidən keçir. Solferino adlı kənddə müharibənin törətdiyi dəhşətlərin şahidi olur. Anri görür ki, məğlub olan tərəf geri çəkilmiş, minlərlə yaralı insanköməksiz qalmışdır. O, yaralılara yardım etməyə başlayır. Amma tezliklə başa düşür ki, təkbaşına hamıya kömək edə bilməyəcək. Odur ki hücum edən əsgərlərin qarşısına çıxıb qışqırır: "Yaralılara aman verin! Axı biz hamımız insanıq". Onun bu sözlərindən qarşı tərəf hücumu dayandırıb yaralı əsgərlərə kömək etməyə başlayır.*

*Bu hadisədən sonra Anri Dünan düşünür ki, belə vəziyyətlərdə insanlara yardım edən beynəlxalq təşkilat yaradılmalıdır. O, ideyasını gerçəkləşdirmək üçün gördüyü dəhşətli hadisələrdən bəhs edən "Solferino xatirələri" əsərini yazır. Əsər tezliklə dünyada məşhur olur. Bu ideyanın tərəfdarlarının sayı günbəgün artır. Nəhayət, 1863-cü ildə yazıçının arzuladığı təşkilat – Beynəlxalq Qızıl Xaç Komitəsi yaranır.*

*Azərbaycan Qızıl Aypara Cəmiyyəti də bu beynəlxalq təşkilatın üzvüdür. Azərbaycan Qızıl Aypara Cəmiyyəti 1920-ci il mart ayının 10-da yaradılmışdır. Təşəbbüskarı general Əliağa Şıxlinski olmuşdur. Generalın həyat yoldaşı Nigar xanım isə Azərbaycanın ilk könüllü tibb bacısı kimi döyüşlərdə yaralanmış əsgər və zabitlərə tibbi yardım göstərmişdir. Xocalı soyqırımı zamanı Azərbaycana gələn Beynəlxalq Qızıl Xaç Komitəsi Azərbaycan Qızıl Aypara Cəmiyyəti ilə əməkdaşlıq edərək bütün qaçqın və məcburi köçkünlər üçün sığınacaq yerləri, çadır şəhərcikləri saldı, əhalini ərzaq və geyimlə təmin etdi.*

*Hazırda təşkilat dünyanın bütün ölkələrində fəaliyyət göstərir. Bu təşkilata milyonlarla könüllü dəstək olur. 1869-cu ildən bu günədək Beynəlxalq Qızıl Xaç Komitəsi dünyada baş verən müharibələrdən, daşqın, zəlzələ, epidemiya, aclıq və s. fəlakətlərdən zərər çəkən insanlara yardım etməkdə davam edir.*

Mətnin məzmununu əhatə edən suallar təxminən belə ola bilər:

Layihə

*– Anri Dünan “Solferino xatirələri” əsərini hansı məqsədlə qələmə almışdı?*

*– Əsər nədən bəhs edir?*

*– Beynəlxalq Qızıl Xaç Komitəsi kimin təşəbbüsü ilə yaranmışdı?*

*– Beynəlxalq Qızıl Xaç Komitəsi nə vaxt yaranmışdı?*

*– Beynəlxalq Qızıl Xaç Komitəsi hansı işləri görür?*

*– Qızıl Aypara Cəmiyyətinin yaradılmasının təşəbbüskarı kim olub?*

*– Azərbaycanın döyüşlərdə iştirak edən ilk könüllü tibb bacısı kim olub? və s.*

**Tapşırıq a (iş dəftəri).** Şagirdlər “Sülhməramlı yardım təşkilatı” mətninin məzmununa uyğun olaraq yarımbaşlıqların ardıcıllığını müəyyənləşdirirlər.

1. Solferino kəndində baş verən faciə
2. Anri Dünanın əsgərlərə müraciəti
3. Məşhurlaşan əsər
4. Beynəlxalq Qızıl Xaç Komitəsinin yaranması
5. General Əliağa Şıxlinskinin təşəbbüsü
6. Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycana yardımı

**Dil qaydaları**

İş dəftərində verilmiş **b** və **c** tapşırıqlarının məqsədi şagirdlərin dil qaydaları üzrə biliklərini xatırlatmaq, möhkəmləndirməkdir.

**Tapşırıq b (iş dəftəri).** Cavab:

**1920-ci –** -ıncı[4] şəkilçisi kökü saitlə bitən saylara qoşulduqda onun ilk saiti düşür.

**10-da** – Saylar eyni zamanda həm mənsubiyyət, həm də hal şəkilçisi qəbul etdikdə rəqəmdən sonra yalnız sonuncu şəkilçi yazılır.

**Tapşırıq c (iş dəftəri).** Cavab:

**Düzəltmə sözlər:** Xocalı, cəmiyyət, birgə, qaçqın, məcburi, köçkün, sığınacaq, geyim

**Mürəkkəb sözlər:** soyqırımı, Aypara

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndəki faktlara əsaslanaraq müəllif mövqeyinə münasibət bildirir. | Tap. **a** (D.) |
| Mətnin struktur elementlərini (illüstrasiya, haşiyə, epiqraf və s.) onun məzmunu ilə əlaqələndirir. | Tap. **b, c, ç, d** (D.) |
| Dinlədiyi mətndən götürdüyü qeydlər əsasında mətnin planını tutur. | Tap. **e** (D.); **a** (İ.D.) |

## 4-cü dərs. “İlin şagirdi” müsabiqəsi üzrə əsasnamənin hazırlanması

• Dərslik: səh. 10

**Təlim məqsədləri**

**1.** Mətndəki məlumatlardan çıxış edərək mühakimələr yürüdür **(st. 7-2.3.2).**

**2.** Müsabiqə keçirmək məqsədilə qaydalardan ibarət əsasnamə tərtib edir **(st. 7-3.2.3).**

**Mövzuya yönəltmə**

*Təsəvvür edin ki, kimya sahəsində böyük xidmətləri olan iki dost uzun illər birlikdə çalışaraq mühüm bir ixtiraya imza atıb. Sizcə, dostlar həmin ixtiraya görə Nobel mükafatı almaq üçün birlikdə müraciət edə bilərlərmi? Bunu necə dəqiqləşdirmək olar?*

Şagirdlər təxminlərini söyləyirlər və bunu dəqiqləşdirmək üçün müsabiqənin qaydaları ilə tanış olmağın lazım gəldiyini bildirirlər.

**Oxuyub-anlama**

**7-2.3.2. Tapşırıq a (dərslik).** Şagirdlər Nobel fondunun əsasnaməsindən seçilmiş maddələri oxuyub sualı cavablandırırlar. Mükafatın verilmə qaydaları dəqiqliklə tərtib olunur, çünki hər hansı bir anlaşılmazlıq olarsa, rəsmi qaydada əsasnaməyə istinad edilir.

**“Qlossari” rubrikası.** Rubrikadakı məlumat oxunur. Məqsəd şagirdlərin söz ehtiyatını artırmaqdır.

**7-3.2.3. Tapşırıq b (dərslik).** Tapşırığın kompüterlə təchiz olunmuş otaqda icra olunması tövsiyə olunur.

Şagirdlər qruplara bölünür. Hər qrupa əsasnamənin müəyyən bir hissəsini hazırlamaq tapşırılır.

**I qrup: Müsabiqənin məqsəd və vəzifələri.**

Müsabiqənin əsas məqsədi təxminən belə ifadə oluna bilər: “İlin şagirdi” müsabiqəsi şagirdlərin akademik, sosial və mədəni fəaliyyətlərini qiymətləndirmək və onların inkişafını təşviq etmək məqsədi daşıyır. Bu müsabiqə şagirdlərin məsuliyyət hissinin artırılmasına, onların liderlik keyfiyyətlərinin üzə çıxarılmasına, ictimai fəaliyyətlərdə iştiraklarının müntəzəmliyinə kömək

Layihə

edir.

**II qrup: Müsabiqədə iştirak üçün tələblər.** Dərslikdə verilmiş nümunəyə əlavə olaraq aşağıdakıları göstərmək olar:

1.3. Liderlik keyfiyyətləri yüksək olmalıdır. Şagirdin məktəbdə və ya cəmiyyətdə lider kimi göstərdiyi fəaliyyətlər nəzərə alınmalıdır.

1.4. İncəsənət, musiqi, idman və ya digər mədəni fəaliyyətlərdə əldə edilən nailiyyətləri olmalıdır.

1.5. Şagirdin davranışı, məktəbdəki əxlaqı və sosial münasibətləri təqdirəlayiq olmalıdır və s.

**III qrup: Müsabiqənin gedişatı:**

Müsabiqənin ilkin seçim, yarımfinal və final mərhələləri ola bilər. Final mərhələsində şagirdlərin münsiflər qarşısında çıxış edib-etməyəcəyi haqqında məlumat verilməlidir.

Əsasnamə həmçinin münsiflər heyətinin tərkibi (məsələn, müəllimlər, təhsil ekspertləri, məktəb rəhbərliyi) üzrə seçimin necə aparılması (səsvermə, püşk atma yolu ilə və s.) əksini tapa bilər.

**IV qrup: Mükafatların təyini və mükafatlandırma mərasimi**

Müsabiqədə qalib olan şagirdlərə hansı mükafatların veriləcəyi dəqiq göstərilməlidir. Məsələn, diplomlar, medallar, qiymətli hədiyyələr və ya təqaüdlər.

Mükafatların təqdim olunacağı xüsusi bir tədbirin olub-olmayacağı göstərilməli və tədbirin detalları haqqında məlumat verilməlidir.

Əsasnamənin hissələri tərtib edildikdən sonra hər bir qrup əsasnamənin digər hissələri ilə tanış olub əsasnamənin təkmilləşdirilməsi üçün müvafiq rəy və təkliflərini səsləndirə bilər.

Sonda əsasnamə sənədinin printerdə çap edilərək divardan asılması tövsiyə olunur.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndəki məlumatlardan çıxış edərək mühakimə yürüdür. | Tap. a (D.) |
| Müsabiqə keçirilmək məqsədilə qaydalardan ibarət əsasnamə tərtib edir. | Tap. b (D.) |

## 5-ci dərs. Ədat

• Dərslik: səh. 11 • İş dəftəri: səh. 6

**Təlim məqsədləri**

**1.** Kontekstdən çıxış edərək ədatın semantik xüsusiyyətlərini müəyyənləşdirir **(st. 7-4.2.2).**

**2.** Ədatların (-mı², -sana², -ca² və s.) bitişik və ayrı yazılış qaydalarına riayət edir **(st. 7-4.1.5).**

### Mövzuya yönəltmə

**Tapşırıq a (dərslik).** Şagirdlərin diqqəti mətndən seçilmiş nümunələrə yönəldilir. Cümlələrdə işlənən *ən* və *məhz* sözlərinin qrammatik funksiyası – cümlənin təsir gücünü artıran köməkçi nitq hissəsi olduğu izah edilir.

Müəllim şagirdlərə həmin sözləri cümlədən çıxarmaqla oxumağı tapşırır və bu zaman hansı dəyişikliyin baş verdiyini soruşur. Bununla da şagirdlərin diqqəti mövzuya yönəldilir.

**Müəllimin nəzərinə!** Şagirdlərə indiyə qədər qoşma və bağlayıcı ilə bağlı ətraflı məlumat verilmişdi. Bu bölmədə isə ədat və modal sözlər haqqında danışılacaq. Şagirdlərdən köməkçi nitq hissələri ilə əsas nitq hissələrinin arasındakı fərqləri soruşmaqla onların əvvəlki biliklərinin (5-ci sinif, I hissə, səh. 10, 6-cı sinif, II hissə, səh. 81, 87, 92) xatırladılması tövsiyə olunur.

Həmçinin belə bir düşündürücü tapşırıq da vermək olar:

*– Elə bir cümlə fikirləşin ki, həmin cümlə yalnız köməkçi nitq hissələrindən ibarət olsun.*

Bununla köməkçi nitq hissələrinin lüğəvi məna daşımaması, suala cavab verməməsi, şəkilçi qəbul edə bilməməsi, cümlə üzvü ola bilməməsi və s. xüsusiyyətləri bir daha şagirdlərin diqqətinə çatdırılır.

### Dil qaydaları

**7-4.2.2. "Yadda saxla" rubrikası.** Rubrikada ədat haqqında verilmiş məlumat və nümunələr şərh olunur.

**Müəllimin nəzərinə!** Şagirdlərin mövzunu mexaniki şəkildə əzbərləməsinin qarşısını almaq məqsədilə ədatın məna növlərinin adları və hər birinə aid ədatlar təqdim edilməmişdir. Şagirdlər ədatların cümlədəki qrammatik funksiyasını, yaratdığı məna çalarını kontekstə uyğun müəyyənləşdirməyi bacarmalıdırlar.

Layihə

**Tapşırıq b (dərslik).** Şagirdlər cümlələrdə ədatları seçib onların ifadə etdiyi mənanı müəyyənləşdirirlər. Cavab:

1. Unutma **ha,** sübhdən yola çıxırıq. *(əmr)*

2. Gözəl havadır, **bəs** deyirdilər, külək olacaq? *(sual)*

3. Bu alqışlar **məhz** müharibə iştirakçılarının şərəfinədir. *(dəqiqləşdirmə)*

4. **Barı** uğurlarımız bol olsun. *(arzu)*

**"Yadda saxla" rubrikası.** Rubrikada şəkilçiləşmiş ədatlar və onların yazılışı haqqında verilmiş məlumatlar şərh olunur. Həmçinin təsdiq və inkar bildirən ədatların cümlədə vergüllə ayrılması qaydasına diqqət yetirilir. Digər ədatlardan əvvəl və sonra vergülün qoyulmaması diqqətə çatdırılır.

**7-4.1.5. Tapşırıq c (dərslik).** Ədatların yazılışında və vergülün işlənməsində buraxılmış səhvlər müəyyənləşdirilir. Cavab:

1. Bəs baş əymədiniz?
– Əymədim**, bəli,**
Əyilməz vicdanın böyük heykəli. *(Səməd Vurğun)*

2. Mənim nə dərdim var, **təki** sən yaşa,
Of, Qacar, vicdanın döndü**mü** daşa? *(Səməd Vurğun)*

3. **Xeyr,** ölməmişəm, hələlik sağam,
İndi mən ölümlə çarpışacağam. *(Səməd Vurğun)*

4. Kimə deyim dərdimi,
Qəsbkar namərdə**mi?** *(Səməd Vurğun)*

**7-4.2.2. Tapşırıq a (iş dəftəri).** Cavab: 1. Ən bacarıqlı şagirdlərin əl işləri sərgiyə göndərildi. *(qüvvətləndirmə)*

2. Yeddincilərdən yalnız iki nəfər mükafat qazandı. *(məhdudlaşdırma)*

3. Kaş dünyanın hər yerində sülh bərqərar olaydı. *(arzu)*

4. Gözəl musiqi əsla sərhəd tanımır. *(inkar)*

5. Məhz sənin iştirakın komandaya qələbə qazandırdı. *(dəqiqləşdirmə)*

6. Yəni onun etibarlı insan olduğuna əminsən? *(sual)*

**Tapşırıq b (iş dəftəri).** Cavab: 1. Taksi stansiyanın **düz** qarşısında dayanmışdı.

2. **Məgər** ətraf mühiti qorumağın vacibliyini hamı dərk edir?

3. **Bəli,** mən uzaq yola avtomobillə çıxmağı sevirəm.

4. Bu məsələyə hamı **elə** sənin kimi yanaşmalıdır.

5. **Kaş** babam sağ olaydı, doğma Qarabağı yenidən görəydi.

6. Bu məsuliyyətli işi **ancaq** ona həvalə etmək olar.

**Müəllimin nəzərinə!** Cümlədə məhdudlaşdırma və dəqiqləşdirmə məna çaları yaradan ədatlar bir-birinə çox bənzəyir. Hətta kontekst daxilində bir-birini əvəz edə bilirlər. Bu məna yaxınlığına şagirdlərin diqqətini yönəltmək faydalı olar. Müqayisə etməklə, incə məna fərqlərini ortaya çıxarmaqla bunu daha dərindən mənimsətmək olar. Məsələn: *Bu məsələdə **yalnız** iki nəfərdən şübhələnirəm. (məhdudlaşdırma mənası); Bu məsələdə **məhz** iki nəfərdən şübhələnirəm. (dəqiqləşdirmə məna çaları).*

**7-4.1.5. Tapşırıq c (iş dəftəri).** Cavab:

1. Siz də **mi** keçənilki olimpiadanın qalibi olmusunuz**?**

2. Sən **ki** evin hər künc-bucağına bələdsən, qab-qaşığı öz yerinə qoy**sana.**

3. **Bəli,** yeni idman kompleksinin açılışında iştirak etmək maraqlı olardı**.**

**Tapşırıq ç (iş dəftəri).**

Cavab: 1-ci və 4-cü cümlələrdə "gəlsənə" və "qoysana" ədatlarını cümlədən çıxarsaq, cümlənin təsir gücü azalar, amma cümlənin kommunikativ və qrammatik funksiyası pozulmaz.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstdən çıxış edərək ədatın semantik xüsusiyyətlərini müəyyənləşdirir. | Tap. **a, b** (D.); **a, b** (İ.D.) |
| Ədatların bitişik və ayrı yazılış qaydalarına riayət edir. | Tap. **c** (D.); **c, ç** (İ.D.) |

Layihə

# 2-ci fəsil

## 1-ci dərs. O mənim bacımdır...

• Dərslik: səh. 12-13 • İş dəftəri: səh. 7

**Təlim məqsədləri**

**1.** Sözü izah etmək üçün anlayışın xüsusiyyətlərini sadalayır, sinonim və antonimlərdən istifadə edir **(st. 7-4.4.2).**

**2.** Söz tərkibindən çıxış edərək sözün mənasını müəyyən edir **(st. 7-4.4.1).**

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik).** Şagirdlər ötən dərslərin birində Beynəlxalq Qırmızı Xaç və Qızıl Aypara Hərəkatı haqqında mətn dinləyiblər. Müəllim həmin mətnə istinadən sual verə bilər:

– Sizcə, bu təşkilatlarda işləyən insanlar hansı keyfiyyətlərə malik olmalıdırlar? (Dözümlü, cəsarətli, tolerant, savadlı, çox dil bilən olmalıdır.)

**Oxu**

Şagirdlər mətnin başlığını oxuyur, illüstrasiyalara diqqət yetirirlər. Bununla şagirdlərin oxuyacaqları mətnin məzmununu təxmin etmək bacarığı inkişaf etdirilir, həmçinin oxu prosesinə maraq yaradılır.

Şagirdlər "O mənim bacımdır..." mətnini səssiz oxuyurlar. Mətn oxunub qurtardıqdan sonra müəllim mətnin məzmunu üzrə şagirdlərə faktoloji suallar verir:

– *Hadisələr harada baş verir?*
– *Allen Maksvel kim idi?*
– *Nərminə xəstəxanaya nə üçün gəlmişdi?*
– *Allen Maksvel Nərminə ilə söhbətdə nə üçün təəccübləndi? Onu heyran edən nə idi? və s.*

Şagirdlər faktoloji suallar cavablandırıldıqdan sonra müəllimin köməyi ilə mətnin ideyasını açan əsas epizodları müəyyənləşdirirlər.

**Dil qaydaları**

**7-4.4.2. Tapşırıq b (dərslik).**

Pasiyent – latınca "patiens" (səbirli, iztirab çəkən) sözündəndir. Müasir dövrdə mənası tibbi yardım alan insan, həkimin yanına müalicəyə gəlmiş şəxs deməkdir.

Şagirdlər "pasiyent" və "xəstə" sözləri arasındakı məna fərqini müzakirə edirlər. Deyə bilərlər ki, müayinə olunmaq üçün həkimə müraciət edənlərin hamısına pasiyent deyə bildiyimiz halda hamısına xəstə deyə bilmirik. Müayinədən sonra pasiyentlərin bəzilərinin xəstə olub-olmaması məlum olur. Düzdür, dilimizdə "xəstə" sözü var. Ancaq sağlamlıq problemi olanlara "xəstə" əvəzinə "pasiyent" deməklə psixoloji olaraq mənfi təsirin qarşısını almış oluruq.

Tapşırıq vasitəsilə şagirdləri dilə yersiz şəkildə daxil olan varvarizmlər barədə düşündürmək olar. Məsələn, "sok" (şirə), "turba" (boru), "vilka" (çəngəl), "vobşe" (ümumiyyətlə), "şoççik" (sayğac), "sideniye" (oturacaq) və s.

**7-4.4.1. Tapşırıq c (dərslik).** Şagirdlərin diqqəti mətnin son cümləsinə yönəldilir.

Alturizm – öz maraqlarını nəzərə almadan başqalarının xeyrinə fəaliyyət göstərmək və ya daim bu fəaliyyətə hazır olmaq; eqoizmin əksi olan insani keyfiyyət.

Alturist – öz mənafeyinə zidd olsa belə, başqalarına yardım edən.

Mətndə Nərminənin davranışından (bacısını xilas etmək üçün özünün ölümünü gözə almışdı) çıxış edib onu alturist adlandıra bilərik.

**Tapşırıq ç (dərslik).** Tapşırığı cütlərlə iş formasında yerinə yetirmək olar. Tapşırığın məqsədi - *izm* və *-ist* şəkilçilərinin sözə artırılarkən əmələ gətirdiyi mənaya diqqəti yönəltməkdir.

"-İzm" şəkilçisi ilə düzələn sözlər əsasən ideologiyaları, cərəyanları, nəzəriyyələri və inanc sistemlərini ifadə edir. "-İst" şəkilçisi ilə düzələn sözlər isə əsasən müəyyən bir peşə, fəaliyyət, ideologiya və ya maraq sahəsi ilə məşğul olan şəxsləri və ya müəyyən bir mövqeyi tutan insanları ifadə edir.

optimizm – gələcəyə inam, həyatsevərlik, nikbinlik; optimist – hər hadisənin sonunun yaxşı olacağını düşünən, sabaha ümidli olan;

pessimizm – bədbin adamın əhvali-ruhiyyəsi; ümidsizlik, gələcəyə inamsızlıq, düşkün əhvali-ruhiyyə; pessimist – bədbin, həyatda hər şeyi pis görən, hər şeyə ümidsiz baxan, gələcəyə inanmayan.

pasifizm – müharibələrə qarşı çıxma və yer üzündə sülhün olmasını təbliğ etmə;

pasifist – müharibələrə qarşı çıxan və Yer üzündə sülhün olmasını istəyən adam.

militarizm – imperialist dövlətlərin silahlanma və müharibəyə hazırlanma siyasəti, hərbçilik;

militarist – militarizm siyasəti yeridən; hərbçi.

Layihə

**Tapşırıq a (iş dəftəri).** Cavab:

a. Həqiqi vəziyyəti, şəraiti və s. dərketmə bacarığı – realizm;

b. Həqiqi vəziyyəti, şəraiti və s. düzgün qiymətləndirən şəxs – realist;

a. Ticarət və sənaye müəssisəsi yaradan şəxs – kapitalist;

b. Xüsusi mülkiyyət və azad rəqabətin hökm sürdüyü iqtisadi sistem – kapitalizm;

a. Həqiqəti ideallaşdıran, xəyalpərəst – idealist;

b. Həqiqətin ideallaşdırılması, onun mənfi tərəflərinə əhəmiyyət verilməməsi – idealizm.

**Oxuyub-anlama**

**Tapşırıq b (iş dəftəri).** Cavab:

1. Nərminə elə bilirdi ki, qan versə, həyatını itirəcək. *Doğru fikirdir. Çünki o, həkimdən nə vaxt öləcəyini soruşurdu.*

2. Nərminə bacısına qan vermək üçün xəstəxanaya gəlmişdi. *Yanlışdır. O, yaralı bacısından xəbər tutmaq üçün xəstəxanaya gəlmişdi.*

3. Doktor Maksvel azərbaycanlıları çox yüksək dəyərləndirirdi. *Doğrudur. Mətnin son cümləsində deyir ki, neçə ölkədə işləmişəm, amma sizin insanlardakı altruizmə heç yerdə rast gəlməmişəm.*

4. Nərminə bacısından böyük idi. *Doğrudur. Nərminənin 9, bacısının isə 7 yaşı var idi.*

5. Nərminə olmasaydı, bacısına donor tapılmaya bilərdi. *Doğrudur.*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözü izah etmək üçün anlayışın xüsusiyyətlərini sadalayır, sinonim və antonimlərdən istifadə edir. | Tap. b (D.) |
| Sözün tərkibindən çıxış edərək onun mənasını müəyyən edir. | Tap. c, ç (D.) |

## 2-ci dərs. O mənim bacımdır...

• Dərslik: səh. 14 • İş dəftəri: səh. 8

**Təlim məqsədləri**

**1.** Həyatdan nümunələr gətirməklə qarşı tərəfin fikrinə münasibətini əsaslandırır **(st. 7-1.2.2).**

**2.** Mətnin ideyasını şərh etmək üçün aforizm və atalar sözlərindən istifadə edir **(st. 7-2.2.1).**

**3.** Dinlədiyi mətndəki fakt və fikirləri ümumiləşdirərək nəticə çıxarır **(st. 7-1.1.2).**

**Mövzuya yönəltmə**

Müəllim ötən dərsdə oxunmuş "O mənim bacımdır..." mətnini xatırlatmaq üçün frontal sorğu keçirir:

– *Mətndə hansı obrazlar iştirak edir?*

– *Hadisələr harada baş verirdi? və s.*

**Danışma**

**7-1.2.2. Tapşırıq a (dərslik).** Şagirdlər səyyar tibb məntəqələrini təsəvvür etdikləri kimi təsvir edirlər. Səyyar tibb məntəqələrinin məhz döyüş bölgələrində qurulmasının səbəblərini müzakirə edirlər. Döyüş bölgələrində əsgərlərin və mülki şəxslərin tez-tez yaralanması səbəbindən bu məntəqələr dərhal tibbi yardım göstərmək üçün quraşdırılır. Döyüş bölgələrindən uzaqda olan xəstəxanalara yaralıları çatdırmaq çox vaxt aparır. Səyyar tibb məntəqələri isə döyüş xəttinin yaxınlığında quraşdırılaraq daha qısa zamanda müdaxilə etməyə imkan yaradır. Döyüş şəraitinə uyğun olaraq məntəqələr tez bir zamanda yerini dəyişə bilir.

Müəllim səyyar tibb məntəqəsinin şəklini göstərir. Şagirdlər şəkil üzrə müzakirəni davam etdirirlər.



**Tapşırıq b (dərslik).** Şagirdlər tapşırıqda verilənlərin hansının təhkiyəçinin, hansıların isə obrazların dilindən verilməsini müəyyənləşdirirlər:

1. Kəndin bombardman edilməsi (təhkiyəçinin dilindən);

Layihə

2. Bacısını xilas edən qızın adı (Nərminənin dilindən);

3. İnsanlarımızın fədakar olması (Allen Maksvelin dilindən);

4. Nərminənin ayağının burxulması (təhkiyəçinin dilindən);

5. Qızların bacı olması (Nərminənin dilindən).

**7-2.2.1. Tapşırıq c (dərslik).** Şagirdlər tapşırıqda verilmiş müdrik ifadəni mətnin məzmunundan nümunə gətirərək şərh edirlər. Mətndə göstərilir ki, Nərminənin yaşı az olsa da, o, ölümünü gözə alaraq bacısına qan verdi və bacısının həyatını xilas etdi. Bu, fədakarlığın ən yüksək nümunəsidir. Fədakarlıq yalnız bir şey vermək deyil, bəzən daha çox şeydən, hətta özümüz üçün dəyərli olanlardan imtina etməkdir.

**Dinləmə**

**7-1.1.2. Tapşırıq ç (dərslik).** "Yurdda sülh, cahanda sülh!" mətni səsləndirilir.

***Yurdda sülh, cahanda sülh!***

*İstanbul Hərb Muzeyində çox qiymətli bir eksponat – yazılı lövhə qorunub saxlanılır. Lövhənin üzərində "Yurdda sülh, cahanda sülh!" şüarının dünyanın müxtəlif dillərinə tərcüməsi həkk olunub.*

*Bu məşhur deyimin müəllifi Türkiyə Respublikasının qurucusu və ilk prezidenti Mustafa Kamal Atatürkdür. Osmanlı İmperiyasının Birinci Dünya müharibəsi nəticəsində süqut etməsi və ardından Türkiyə Cümhuriyyətinin qurulması Atatürkün liderliyində həyata keçirilmişdir. Bu dövrdə ölkə həm daxildə, həm də xaricdə bir çox problemlərlə üzləşirdi. Yeni qurulan dövlətin sülh şəraitində varlığını davam etdirməsi və özünü möhkəmləndirməsi üçün sabitliyə ehtiyac var idi. Atatürk Türkiyənin daxili və xarici siyasətində əsas məqsədin sülh olması gərəkdiyini vurğulayıb. O, müharibələrdən yorulmuş bir millətə sülh və sabitlik gətirməyə çalışırdı. Buna görə də həm ölkə daxilində ("yurdda"), həm də beynəlxalq aləmdə ("cahanda") sülhün qorunmasının vacibliyini bildirirdi.*

*Mustafa Kamal Atatürk dünya imperializminin planlarını pozaraq zəkası, intellekti hesabına Türkiyəni tayfalara bölünməkdən, parçalanmaqdan qorudu. Qarışıqlığın, hərc-mərcliyin hökm sürdüyü bir yerdə demokratik islahatlar keçirdi, Avropanın ən inkişaf etmiş ölkələri ilə rəqabət apara biləcək modern dövlət yaratdı, Türkiyə Cümhuriyyətini qurdu.*

*"Yurdda sülh, cahanda sülh" şüarı tezliklə Türkiyənin həm daxili, həm də xarici siyasətinin təməl prinsipinə çevrildi. Bir ölkənin içində hüzur, firavanlıq, sabitlik nə qədər hökm sürərsə, digər ölkələrlə münasibət də o qədər ürəkaçan olar. Bunun bariz nümunəsi Mustafa Kamal Atatürkün qonşu dövlətlərlə sülh müqavilələri bağlamağa nail olmasıdır. Onun həyata keçirdiyi genişmiqyaslı islahatlar arasında təhsil və hüquq sisteminin modernləşdirilməsi, qadınlara seçki hüququnun verilməsi və latın əlifbasına keçid kimi mühüm addımlar var idi.*

*Bu gün də Türkiyə Cümhuriyyəti aralarında münaqişə olan xalqlardan köməyini əsirgəmir, sülhün, barışın bərqərar olmasından ötrü əməli addımlar atır.*

Şagirdlər tapşırıqdakı sualları dinlədikləri mətnə əsasən cavablandırırlar.

**Tapşırıq d (dərslik).** M.K.Atatürkün "Ən böyük zəfər silahsız qazanılandır" deyimini izah edən şagirdlər deyimi dinləmə mətni ilə əlaqələndirirlər. Bu ifadənin "Yurdda sülh, cahanda sülh" deyimi ilə səsləşdiyini, M.K.Atatürkün siyasətini nümunə gətirə bilərlər.

M.K.Atatürkün "Ən böyük zəfər silahsız qazanılandır" deyimi onun sülh, diplomatiya və insan hüquqlarına verdiyi əhəmiyyətin ifadəsidir. Bu deyimlə Atatürk vurğulayır ki, əsl zəfər yalnız hərbi güclə və zorla deyil, əksinə, sülhlə, qarşılıqlı razılaşma ilə qazanıla bilər. Silahın gücü ilə əldə edilən qələbələr keçici və zərərli ola bilər, amma sülh yolu ilə qazanılan zəfərlər daha davamlı olar.

**Tapşırıq a (iş dəftəri).** Cavab:

• Qarabağın düşmən hücumuna məruz qalması;

• Beynəlxalq təşkilatların müharibə zonalarında fəaliyyəti;

• Azyaşlıların fədakarlığı.

**Tapşırıq b (iş dəftəri).** Tapşırıq şagirdlərin həm oxuyub-qavrama, həm də yazı bacarığını inkişaf etdirir.

Nərminə elə başa düşürdü ki, qan verəndən sonra öləcək. Şagirdlər Nərminənin həmin vaxt keçirdiyi hissləri onun dilindən yazırlar.

**Tapşırıq c (iş dəftəri).** Tapşırıq vasitəsilə mətndən seçilmiş nümunələr əsasında şagirdlərin ədatla bağlı qrammatik bilikləri möhkəmləndirilir.

Cavab: 1. – Nə olar, qurban olum, qoy keçim

Layihə

də! *(əmr, qüvvətləndirmə)*

2. – Axı o lap balacadır. *(qüvvətləndirmə)*

3. – Yox, balaca, bu otağa girmək olmaz. *(inkar)*

4. – Bəs mən nə vaxt öləcəyəm? *(sual)*

5. – Belə şeydən adam ölmür ki... *(qüvvətləndirmə)*

6. – Hə, vallah, bacımdır. *(təsdiq)*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Həyatdan nümunələr gətirməklə qarşı tərəfin fikrinə münasibətini əsaslandırır. | Tap. **a** (D.) |
| Mətnin ideyasını şərh etmək üçün aforizm və atalar sözlərindən istifadə edir. | Tap. **c** (D.) |
| Dinlədiyi mətndəki fakt və fikirləri ümumiləşdirərək nəticə çıxarır. | Tap. **ç, d** (D.) |

## 3-cü dərs. Dünyamıza sülh gərəkdir

• Dərslik: səh. 14

**Təlim məqsədləri**

**1.** Esse yazarkən mövqeyini əsaslandırmaq üçün arqumentlər gətirir **(st. 7-3.2.2).**

**Mövzuya yönəltmə**

Esseyə hazırlıq məqsədilə sual verilə bilər:

– Bu fəsildə öyrəndiyiniz hansı aforizmləri xatırlayırsınız?

**Yazı**

**7-3.2.2. Tapşırıq a (dərslik).** Tapşırıqda verilmiş tövsiyələrlə yanaşı, aşağıdakı nümunə də şagirdləri istiqamətləndirmək üçün təqdim edilir.

**Giriş**

Hər bir insan rahat və təhlükəsiz yaşamaq istəyir. Bunun isə bircə yolu var: sülh. Sülh bəşəriyyətin ən böyük arzusudur. Bunu gerçəkləşdirmək hər birimizin həyatında əsas prinsipə çevrilməlidir.

**Əsas hissə:**

Müharibələrin ağır fəsadları

Müharibələr, insanların yaratdığı ən böyük fəlakətlərdən biridir. Yaxın tariximizə nəzər salsaq, İkinci Dünya müharibəsinin dağıdıcı təsirlərini, milyonlarla günahsız insanın ölümünü və şəhərlərin yerlə yeksan olmasını görərik. Bu cür faciələr yalnız bir ölkənin deyil, bütün dünyanın taleyini dəyişdirir.

Sülhün dəyəri

Sülh yalnız müharibənin olmaması deyil, həm də insan həyatının çiçəklənməsi üçün zəruri olan bir mühitin yaradılmasıdır. Təhsil, iqtisadi inkişaf, elm və texnologiyanın inkişafı yalnız sülh şəraitində mümkündür.

Sülhə necə nail ola bilərik?

Hər bir insan sülhün qurulması prosesində iştirak etməlidir. Ən başlıcası, tolerantlıq və qarşılıqlı hörmət prinsipləri əsasında yaşamaqdır. Başqalarının inanclarını, mədəniyyətlərini və fərqliliklərini qəbul etmək, sülhün ilk addımıdır. Eyni zamanda, münaqişələri danışıqlar və diplomatik yollarla həll etmək, zorakılıqdan qaçmaq üçün səy göstərmək lazımdır. Bundan əlavə, sülhün təməli gənc nəslin düzgün tərbiyəsindədir. Gənclərə sülhün əhəmiyyəti, müharibələrin fəsadları və insan hüquqları haqqında biliklər vermək, onların gələcəkdə sülhpərvər və ədalətli bir cəmiyyət qurmasına kömək edəcəkdir.

Qlobal sülhün əhəmiyyəti

Müasir dünyada bir ölkənin rifahı digər ölkələrin sabitliyindən asılıdır. Qlobal sülhə nail olmaq üçün beynəlxalq təşkilatların, dövlətlərin və vətəndaş cəmiyyətlərinin birgə çalışması zəruridir.

**Nəticə**

Nəticə olaraq sülh həm bizə, həm də gələcək nəsillərə lazımdır. Əgər biz sülhü qorumağa çalışsaq, dünya daha gözəl və yaşamalı bir yer olacaq.

Yazı fəaliyyətini bitirdikdən sonra hər kəs öz yazısını bir daha oxuyur, mətnin strukturu üzrə müvafiq düzəlişlər aparır.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Esse yazarkən mövqeyini əsaslandırmaq üçün arqumentlər gətirir. | Tap. **a** (D.) |

Layihə

## 4-cü dərs. Ədat və bağlayıcının qrammatik omonimliyi

• Dərslik: səh. 15 • İş dəftəri: səh. 9

**Təlim məqsədləri**

**1.** Kontekstdən çıxış edərək bəzi köməkçi nitq hissələrinin və şəkilçilərin omonimliyini müəyyən edir **(st. 7-4.2.2).**

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik).** Tapşırıq vasitəsilə şagirdlərin diqqəti köməkçi nitq hissələrinin qrammatik omonimliyinə yönəldilir. Şagirdlər əvvəlki biliklərindən çıxış edib “ki”-nin 1-ci cümlədə bağlayıcı, 2-ci cümlədə isə ədat olduğunu müəyyənləşdirirlər.

**Dil qaydaları**

**7-4.2.2. “Yadda saxla” rubrikası.** Rubrikada **ki** və **da** köməkçi nitq hissələrinin qrammatik omonimliyi, həmçinin bəzən şəkilçi ilə qarışıq salınan **da** və **ki** bağlayıcıları barədə məlumatlar şagirdlərin diqqətinə çatdırılır.

**Müəllimin nəzərinə!** Şagirdlərin yazı işlərində tez-tez rast gəlinən səhvlərdən olduğu üçün bu mövzuya növbəti siniflərdə də toxunulacaq.

**Tapşırıq b (dərslik).** Cavab:
1. Burada təəccüblü nə var ki?! *(ədat)*
2. O bilirdi ki, anası narahatdır. *(bağlayıcı)*
3. Bu yol ki kəndə aparır. *(ədat)*
4. Sən ki tapşırığın öhdəsindən gəlirsən. *(ədat)*
5. Dünən**ki** imtahanda iştirak edirdin? *(şəkilçi)*
6. Sizin**ki** daha maraqlı təqdimat oldu. *(şəkilçi)*

**Tapşırıq c (dərslik).** Cavab:

1. Qonaqlarla yanaşı, ev sahibləri **də** maraqlı gün keçirdilər. *(iştirak bağlayıcısı)*

2. **Həyətdə** sınan ağacın ətrafına xeyli insan toplaşmışdı. *(yerlik hal şəkilçisi)*

3. Qoy nəticələr açıqlansın, müzakirə edərik **də.** *(qüvvətləndirmə ədatı)*

4. Danışın **da**, necə gedib gəldiniz, Şuşanı necə gördünüz? *(qüvvətləndirmə ədatı)*

5. Mən **də** öz təcrübəmdən çıxış edirəm. *(iştirak bağlayıcısı)*

**Tapşırıq a (iş dəftəri).** Şagirdlər cümlələrdə fərqləndirilmiş sözlərin ədat, yoxsa bağlayıcı olduğunu müəyyənləşdirib uyğun yerlərdə vergül işarəsi qoyurlar. Cavab:

1. bağlayıcı; 2. bağlayıcı; 3. bağlayıcı; 4. ədat; 5. bağlayıcı; 6. bağlayıcı; 7. ədat; 8. ədat.

**Tapşırıq b (iş dəftəri).** Şagirdlər **a** variantını seçib seçimlərini təxminən aşağıdakı kimi şərh edə bilərlər:

*“Bu haqda kitab da yazılıb” cümləsində müəyyən mövzu haqqında, həm də kitabın yazıldığı vurğulanır. Bu zaman **da** bağlayıcı funksiya daşıyır.*

*“Bu haqda kitabda yazılıb” cümləsində isə müəyyən məsələ barədə kitabda məlumat verildiyi diqqətə çatdırılır. Bu halda -**da** yerlik hal şəkilçisidir.*

**Tapşırıq c (iş dəftəri).** Şagirdlər tələbə uyğun cümlələr fikirləşib yazırlar. Bununla da mövzunu mənimsədiklərini nümayiş etdirirlər.

1. ki (bağlayıcı). Gözləyirəm ki, tətil başlansın.
2. ki (ədat). Sən ki məni tək qoymazdın.
3. da (bağlayıcı). Atam da razıdır.
4. da (ədat). Tələsmirəm. Yavaş-yavaş oxuyuram da.
5. -da$^2$ (şəkilçi). Bakıda hava istidir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstdən çıxış edərək bəzi köməkçi nitq hissələrinin və şəkilçilərin omonimliyini müəyyən edir. | Dərslik və iş dəftərindəki tapşırıqlar |

Layihə

## 3-cü fəsil

### 1-ci dərs. 17 yaşlı Nobel mükafatı laureatı

• Dərslik: səh. 16-17 • İş dəftəri: səh. 10

**Təlim məqsədləri**

**1.** Sözü izah etmək üçün anlayışın xüsusiyyətlərini sadalayır **(st. 7-4.4.2).**

**2.** Mətndə qeyd olunan tarixləri müqayisə edərək birbaşa ifadə olunmayan məlumatları müəyyənləşdirir **(st. 7-2.2.2).**

**3.** Mətndə rast gəlinən söz və ifadələrin üslubi xüsusiyyətlərini izah edir **(st. 7-2.3.4).**

**4.** Qeyri-bədii mətnin struktur elementlərinin ümumi məzmuna təsirini izah edir **(st. 7-2.3.3).**

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik).** Şagirdlərin diqqəti mətn üzrə verilmiş şəkillərə, mətnin adına yönəldilir. Mətnə ötəri nəzər saldıqda tarixlər, real şəxs və məkan adları görmək olar. Şagirdlər bu qənaətə gəlirlər ki, oxuyacaqları mətn qeyri-bədii mətndir.

**Oxu. Söz ehtiyatı**

**"17 yaşlı Nobel mükafatı laureatı" mətni.** Şagirdlər mətni müvafiq səs tonu ilə növbə ilə oxuyurlar. Oxu prosesi zamanı mətndə rast gəldikləri tanış olmayan sözlərin mənalarını kontekstə əsasən təxmini izah edirlər. Sonra müəllimin və ya izahlı lüğətin köməyi ilə sözlərin mənaları aydınlaşdırılır.

**7-4.4.2. Tapşırıq b (dərslik).** Şagirdlər tapşırıqda verilmiş sözlər arasındakı məna fərqini izah edirlər.

Terror – müəyyən məqsədə çatmaq üçün qətl, partlayış törətmək, adam oğurlamaq və s. zorakı hərəkətlər;

Müharibə – dövlətlər arasında mütəşəkkil silahlı mübarizə; hərb, dava;

Genosid – soyqırımı; ayrı-ayrı əhali qruplarının irqi, milli, yaxud dini əlamətə görə məhv edilməsi.

Terrorizm, adətən, siyasi və ya ideoloji məqsədlərlə sivil əhalini qorxutmaq üçün həyata keçirilir. Müharibə dövlətlər və ya silahlı qruplar arasında genişmiqyaslı hərbi münaqişədir. Genosid isə konkret bir qrupun tam məhv edilməsidir.

Bu terminlərin hər biri insanlıq tarixində çox dərin və acı izlər buraxmış hadisələri təsvir edir.

**7-2.2.2. Tapşırıq c (dərslik).** Mətndə göstərilir ki, 2007-ci ildə Svat vilayəti Taliban hərbi birləşmələri tərəfindən işğal olundu. Həmin vaxt Məlalənin 10 yaşı varmış. Deməli, Məlalə 1997-ci il təvəllüdlüdür. Mətndə Məlalənin doğum gününün, yəni 12 iyul tarixinin Məlalə Günü kimi qeyd edildiyi göstərilir.

**7-2.3.4. Tapşırıq ç (dərslik).** Şagirdlər Məlalənin BMT-dəki çıxışından gətirilən sitatı şərh edirlər.

"Bir uşaq": Hər bir uşaq, istər qız olsun, istər oğlan, gələcəyin formalaşdırılmasında böyük rol oynaya bilər. Təhsilli bir uşaq böyüyəndə bilik və bacarığını cəmiyyətinə töhfə vermək üçün istifadə edə bilər.

"Bir müəllim": Müəllimlər təhsilin əsas dirəyidir. Onlar yalnız bilik öyrətmirlər, eyni zamanda şagirdlərinə düşünməyi, problem həll etməyi və müstəqil qərarlar qəbul etməyi öyrədirlər.

"Bir kitab": Kitab bilik mənbəyidir. Onlar dünyaya açılan pəncərədir və müxtəlif mədəniyyətləri, düşüncə tərzlərini və ideyaları kəşf etməyə imkan verir. Bir kitab insanın həyatını dəyişə və ona yeni perspektivlər aça bilər.

"Bir qələm": Qələm yazı vasitəsidir, lakin burada daha geniş mənada işlənib. Qələm ideyaların, biliklərin və dəyərlərin yayılmasını təmin edir. Yazı hər kəsin öz düşüncələrini və hisslərini ifadə etməsinə imkan verir.

"Dünyanı dəyişdirə bilər": Təhsil dünyadakı problemlərin yeganə həll yoludur. Məlalənin bu sözləri təhsilin və onun vasitəsilə insanların gücünü əks etdirir. Hər bir fərd təhsillə dünyada müsbət dəyişikliklər edə bilər. Bu həm fərdlərin inkişafı, həm də cəmiyyətin ümumi rifahı üçün çox vacibdir.

**7-2.3.3. Tapşırıq d (dərslik).** Mətndə xronoloji ardıcıllığa uyğun olaraq girişdəki hissə "2012-ci il 9 oktyabr..." sözləri ilə başlayan abzasdan sonra verilməlidir. Müəllif həmin hissəni mətnin əvvəlində verməklə oxucuda mətnə maraq oyadır. Oxucuda suallar yaranır: Məlalə kimdir? Cavan oğlanlar Məlaləni nə üçün güllələdilər?

**7-2.2.2. Tapşırıq e (dərslik).**

Şagirdlər bu fəsildə aldıqları məlumatlardan – Məlalənin gördüyü işlərdən çıxış edərək "Nobel Sülh mükafatına layiq görülən fəaliyyətlər barədə" danışırlar.

Nobel Sülh mükafatı müharibə və münaqişə-

Layihə

lərin qarşısını almaq, millətlər arasında dostluğu təbliğ etmək, insan haqlarını qorumaq, yoxsulluğu azaltmaq və sülhün bərqərar olması üçün əhəmiyyətli fəaliyyətlərə görə verilir. Bu mükafat həm fərdlərə, həm də təşkilatlara verilə bilər.

**7-4.4.2. Tapşırıq a (iş dəftəri).**

terror – müəyyən məqsədə çatmaq üçün qətl, partlayış və s. zorakı hərəkətlər;

təxəllüs – yazıçı, şair və digər sənət adamlarının işlətdikləri uydurma ad;

təhdid – qorxutma, hədə-qorxu gəlmə, hədələmə;

bloq – müntəzəm olaraq yeni materiallar əlavə edilən veb-sayt; internet-jurnal.

**Tapşırıq b (iş dəftəri).** Cavab:

"Terrorist" – terror törədən şəxs və ya qrup;

"Terrorizm" – terror törədən şəxsin və ya qrupun fəaliyyəti.

**7-2.2.2. Tapşırıq c (iş dəftəri).**

1. Məlalənin xarakterinin formalaşmasında ailəsinin təsiri böyükdür. O, atasının açdığı məktəbdə təhsil alır. Atasının təhsil uğrunda mübarizə aparmağının şahidi idi. Onun atası təhdidlərə baxmayaraq açdığı məktəbin fəaliyyətini davam etdirirdi.

2. Terrorçular inkişafın və müasirliyin əleyhinə fəaliyyət göstərir, insanları cəhalətə sürükləyirlər. Taliban terrorçuları qızların təhsil almasının əleyhinə çıxır, musiqi dinləməyi, film izləməyi, rəqs etməyi qadağan edirdi. Onlar 400-ə yaxın məktəbin fəaliyyətini dayandırmışdı.

3. Qızların təhsil almasının digər tərəfdarları olsa da, böyük mükafatın məhz Məlaləyə verilməsi ədalətli qərardır. Məlalə azyaşlı olmasına baxmayaraq böyük işlər görmüş, bacarığı, savadı ilə milyonları öz ideyalarına inandıra bilmişdi.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözü izah etmək üçün anlayışın xüsusiyyətlərini sadalayır. | Tap. b (D.); a, b (İ.D.) |
| Mətndə birbaşa ifadə olunmayan məlumatları müəyyənləşdirir. | Tap. c, e (D.); c (İ.D.) |
| Mətndə rast gəlinən söz və ifadələrin üslubi xüsusiyyətlərini izah edir. | Tap. ç (D.) |
| Qeyri-bədii mətnin struktur elementlərinin ümumi məzmuna təsirini izah edir. | Tap. d (D.) |

## 2-ci dərs. Modal sözlər

• Dərslik: səh. 18 • İş dəftəri: səh. 11

**Təlim məqsədləri**

**1.** Modal sözlərin semantik xüsusiyyətlərini müəyyənləşdirir **(st. 7-4.2.2).**

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik).** Şagirdlərin modal sözlərlə bağlı ilkin bilikləri xatırlanır.

Cavab: 1 – c; 2 – a; 3 – b.

**Dil qaydaları**

**7-4.2.2. "Yadda saxla" rubrikası.** Rubrikada verilmiş nəzəri məlumat nümunələr əsasında şagirdlərə mənimsədilir. Şagirdlərin diqqətinə çatdırılır ki, modal sözlərin həm şifahi, həm də yazılı nitqdə kontekstə uyğun düzgün istifadəsi çox əhəmiyyətlidir. Modal sözlər fikrə münasibət ifadə etməklə yanaşı, həm də fikirlər arasında əlaqə yaratmağa kömək edən köməkçi nitq hissəsidir.

**Tapşırıq b (dərslik).** Cavab:

1. İnsanlar, **heyif ki,** şəhərin təmizliyinə riayət etmirlər. *ç. təəssüf*

2. **Məncə,** belə həssas məsələyə səbirlə yanaşmaq lazımdır. *a. fikrin mənbəyi*

3. **Bəlkə,** məlumatsız olduğumuz məsələ haqqında danışmayaq? *d. güman, şübhə*

4. **Təbii ki,** onun bu davranışı hamının təəccübünə səbəb oldu. *b. əminlik*

5. **Xülasə,** bu təklifi hamı yekdilliklə bəyəndi. *e. ümumiləşdirmə*

6. Bu sözdən sonra **elə bil** qurbağa gölünə daş atdılar. *c. bənzətmə*

**Tapşırıq c (dərslik).** Tapşırıqda cümlələrə fikirlər arasında əlaqə yaradan modal sözlər artırmaq tələb olunur. Şagirdlər bu zaman modal sözlərin cümlədəki funksiyasına bir daha diqqət edirlər.

1. Otağın işığı yanır, **deməli,** Vüqar hələ yatmayıb.

2. Onlar yol boyu xeyli söhbət etdilər, **beləcə,** gəlib kəndə çatdılar.

3. Yox, özümü yaxşı hiss edirəm, **sadəcə,** bir az yorğunam.

4. Biz ruhdan düşmədik, **əksinə,** daha əzmlə

Layihə

növbəti yarışa hazırlaşmağa başladıq.

**Tapşırıq a (iş dəftəri).** Cavab: a – 1, 3; b – 5, 6; c – 2, 4.

**Tapşırıq b (iş dəftəri).** Tapşırıq vasitəsilə modal sözlərin qrammatik sinonimliyinə diqqəti yönəltməklə şagirdlərin söz ehtiyatı inkişaf etdirilir.

Cavab: Təbii ki – əlbəttə; elə bil – sanki; əfsus ki – təəssüf ki.

**Tapşırıq c (iş dəftəri).** Cavab:

1. **Təəssüf ki,** işimizi vaxtında yekunlaşdıra bilmədik.
2. Ara-sıra gələn səslər, **nəhayət,** səhərə yaxın kəsildi.
3. Onun belə mülayim rəftarı, **şübhəsiz ki,** hamıya xoş idi.
4. **Yəqin ki,** birliyimiz işimizi sürətləndirəcək.
5. **Sanki** hər kəs bu günü həsrətlə gözləyirmiş.
6. Hamı bir nəfər kimi hazırlıqlı olmalıdır, **məncə.**

**Tapşırıq ç (iş dəftəri).** Şagirdlərdən hər sırada verilmiş modal sözləri cümlədə ifadə etdiyi mənaya görə qruplaşdırmaq tələb olunur. Bəzi şagirdlər bu tapşırığı yerinə yetirərkən çətinlik çəkə bilərlər. Bu zaman şagirdlər modal sözləri cümlədə işlətməklə onların ifadə etdiyi mənanı aydınlaşdıra bilərlər.

Cavab: 1-ci sırada "heyif ki" modal sözündən fərqli olaraq, digər modal sözlər güman, şübhə bildirir.

2-ci sırada "olsun ki" modal sözündən fərqli olaraq, digər modal sözlər fikrin mənbəyini bildirir.

3-cü sırada "əvvəla" modal sözündən fərqli olaraq, digər modal sözlər nəticə, ümumiləşdirmə bildirir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Modal sözlərin semantik xüsusiyyətlərini müəyyənləşdirir. | Dərslik və iş dəftərində verilmiş tapşırıqlar |

# 4-cü fəsil

## 1-ci dərs. Qara tut ağacı

• Dərslik: səh. 19-21

**Təlim məqsədləri**

**1.** Mətndəki məlumatlardan çıxış edərək mühakimələr yürüdür **(st. 7-2.3.2).**

**2.** Müsahibə almaq üçün müvafiq suallar tərtib edir **(st. 7-1.2.1).**

### Mövzuya yönəltmə

**Tapşırıq a (dərslik).** Şagirdlər Qarabağda gedən döyüşlər haqqında bildiklərini danışırlar.

Əlavə məlumat: 19 sentyabr 2023-cü ildə Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri zamanı Ermənistan ordusunun tör-töküntülərinə və separatçılara ağır zərbələr vuruldu. Düşmənin qüdrətli ordumuzun qarşısında 23 saat 43 dəqiqə dayanmağa gücü çatdı. Ağır itkilər verən işğalçılar ağ bayraq qaldıraraq təslim oldular. Ordumuzun Qarabağda keçirdiyi lokal xarakterli antiterror tədbirləri zamanı hərbi qulluqçularımız böyük igidlik və qəhrəmanlıq göstərdilər. 19 sentyabrda uğurla həyata keçirilən bu tədbirlər nəticəsində Qarabağda erməni separatizminə son qoyuldu.

### Oxuyub-anlama

**7-2.3.2. Tapşırıq b (dərslik).** Şagirdlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciətindən seçilmiş hissələri oxuyurlar. Tanış olmayan sözlərin mənasını "Qlossari" rubrikasında verilmiş izahın köməyi ilə aydınlaşdırırlar.

Müəllim suallar verə bilər: *"Oxuduğunuz hissə Prezidentin xalqa hansı müraciətindəndir?", (2023-cü il 20 sentyabr) "Prezident "...onların beyinlərini zəhərləmişdilər" deyəndə nəyi nəzərdə tuturdu?", "O hansı fikirlərini, həm də beynəlxalq ictimaiyyətin diqqətinə çatdırırdı?"*

Şagirdlər növbəti tapşırıqlarda qoyulan sualları cavablandırırlar.

**Tapşırıq c (dərslik).** Tapşırıq şagirdlərin faktoloji qavramasını yoxlayır.

**Tapşırıq ç (dərslik).** Şagirdlər Prezidentin müraciətinə istinad edərək Azərbaycanda yaşayan müxtəlif xalqlarla bağlı dövlət siyasətinin təməl prinsiplərini izah edirlər.

Azərbaycan çoxmillətli, çoxkonfessiyalı dövlətdir. Azərbaycanda yaşayan müxtəlif xalqların bü-

Layihə

tün hüquqları – təhsil, mədəniyyət, din, munisipal seçki və başqa hüquqları təmin edilir.

**Tapşırıq d (dərslik).** "Dırnaqarası" – qondarma, yalançı, qeyri-qanuni.

**Oxu**

Şagirdlər "Qara tut ağacı" mətninin girişini oxuyurlar.

**7-1.2.1. Tapşırıq e (dərslik).** Mətnin davamına maraq oyatmaq üçün şagirdlər tapşırığı yerinə yetirirlər.

Suallar təxminən belə ola bilər:

– Qarabağı tərk etmək qərarını necə qəbul etdiniz? Bu qərarı vermək sizin üçün nə qədər çətin oldu?

– Sizin üçün lazımi şərait yaradılacaq. Niyə Qarabağda qalıb azərbaycanlılarla birlikdə yaşamaq istəmirsiniz?

– Digər ermənilərə və ya azərbaycanlılara vermək istədiyiniz mesajınız varmı? və s.

**7-2.3.2. Tapşırıq ə (dərslik).** Mətnin sonluğunda Aşot deyir ki, ... onun yanında üzüm qaradır. Bu isə onu deməyə əsas verir ki, Aşot vicdan əzabı çəkdiyi üçün Azərbaycanda qala bilməzdi.

**Tapşırıq f (dərslik).** Hər iki mətndə vaxtilə Azərbaycan vətəndaşı olan ermənilərin II Qarabağ müharibəsindən sonra Azərbaycanı tərk etmələrindən bəhs olunur. Azərbaycan və erməni millətinin qonşuluq münasibətlərindən danışılır. Aşotdan müsahibə götürən jurnalist prezidentin xalqa müraciətinə istinad edərək bildirir ki, Azərbaycan vətəndaşı olan ermənilərin Qarabağda yaşamaları üçün lazımi şərait yaradılacaq, onların hüquqları, təhlükəsizliyi təmin olunacaq.

**7-1.2.1. Tapşırıq g (dərslik).** Mətndəki müsahibədə jurnalistin əsas məqsədi Aşotu danışdırıb ondan xeyli informasiya almaq idi. Amma o, qərəzli suallar verməklə Aşotun qəzəbinə səbəb oldu. Nəticədə Aşot müsahibə verməkdən imtina etdi.

**Tapşırıq ğ (dərslik).** Şagirdlər oxudan əvvəl tərtib etdikləri sualları mətndəki jurnalistin sualları ilə müqayisə edirlər. Əsas məqsəd sual tərtibi zamanı diqqəti daha çox informasiya almağa yönəltməkdir.

**"Diqqət et" rubrikası.** Şagirdlər rubrikada jurnalistin Aşota verdiyi sualların şərhini oxuyurlar, verilən sualların növləri ilə tanış olurlar. Bu məlumatlar şagirdlərin araşdırma, informasiya toplama bacarıqlarının inkişafına kömək edir.

**Tapşırıq h (dərslik).** Müəllim variantlarda verilmiş sual növləri haqqında ətraflı izahat verə bilər:

**Qərəzli suallar** sual verən şəxsin müsahibini müəyyən bir cavaba yönləndirmək və ya təsir etmək üçün istifadə etdiyi suallardır. Qərəzli suallar bir çox hallarda obyektivliyi pozur və cavab verənin düşüncələrinə qeyri-ixtiyari təsir edə bilər.

**Qapalı suallar** cavabı, adətən, qısa və konkret olan, əsasən "bəli", "xeyr" və ya digər qısa söz və ya ifadələrlə cavablandırılan suallardır. Bu cür suallar geniş izah tələb etmir və cavablar məhdud olur.

**"Danışdıran" suallar** müsahibə zamanı qarşı tərəfi daha çox danışmağa və daha təfərrüatlı cavablar verməyə təşviq edən suallardır. Məsələn: "Bu barədə daha ətraflı danışa bilərsinizmi?", "Sizin bu mövzuya yanaşmanız necədir?", "Bu məsələ ilə bağlı hansı təcrübələriniz var?"

Şagirdlər tapşırıqda verilmiş sualları şərh etməklə nəzəri bilgilərini tətbiq edirlər.

– Deyəsən, keçmişdə baş vermiş kədərli hadisələr sizə rahatlıq vermir. Bəlkə, o xatirələrinizi bölüşəsiniz, Qarabağı bu ağır dərdlə tərk etməyəsiniz?

1-ci sual "danışdıran" sualdır. Yəqin ki, Aşotun xatirələri çoxdur və o danışdıqca jurnalist də xeyli maraqlı informasiya toplamış olacaq.

– Yəqin ki, o qonşularınız, çörək kəsdiyiniz azərbaycanlılar bu müsahibəni efirdə görəcəklər. Onlara nə demək istəyərdiniz?

2-ci sual qərəzlidir, çünki sual Aşotun fikirlərini manipulyasiya etməyə yönəlib. Jurnalist Aşotun vaxtilə çörək kəsdiyi azərbaycanlılardan üzr istəməsinə nail olmaq istəyir. Bu isə obyektivlikdən uzaqdır. Jurnalist öz mövqeyini qarşı tərəfə hiss etdirməməlidir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndəki məlumatlardan çıxış edərək mühakimələr yürüdür. | Tap. **a, b c, ç, d, ə** (D.) |
| Müsahibə almaq üçün müvafiq suallar tərtib edir. | Tap. **e, g, ğ, h** (D.) |

Layihə

## **2-ci dərs.** Qara tut ağacı

• Dərslik: səh. 22-25 • İş dəftəri: səh. 12

**Təlim məqsədləri**

**1.** Mətnin məzmunundan çıxış edərək hadisələrin davamını təxmin edir **(st. 7-2.3.6).**
**2.** Mətndən nümunələr gətirməklə verilən fikirləri əsaslandırır **(st. 7-2.2.1).**
**3.** Əsərin adını mətndəki əsas detal və ya ideya ilə əlaqələndirir **(st. 7-2.3.3).**
**4.** Mətndə rast gəlinən söz və ifadələrin üslubi xüsusiyyətlərini izah edir **(st. 7-2.3.4).**

### Mövzuya yönəltmə

**Tapşırıq a (dərslik).** Şagirdlər müharibə mövzusunda oxuduqları bədii əsərləri xatırlayıb, tarix dərsliklərindəki müharibələr haqqında yazılmış mətnlərdən fərqini izah edirlər.

Tarix dərsliklərindəki mətnlər tarixi faktları, hadisələri və onların nəticələrini obyektiv və sistemli şəkildə təqdim etmək məqsədilə yazılır. Bu mətnlərdə müharibələrin səbəbləri, gedişatı və nəticələri faktlarla izah olunur.

Bədii əsərlər isə müharibə mövzusunu daha çox emosional və subyektiv bir şəkildə əks etdirir. Müəlliflər müharibənin insanlara, cəmiyyətə və fərdi talelərə təsirini göstərməyə çalışırlar. Bədii əsərlər oxucuda güclü duyğusal reaksiyalar oyandırmaq, müharibənin ağırlığını və insanlıq dramını hiss etdirmək üçün yazılır.

Müharibə mövzusunda yazılmış mətnlər üslubi xüsusiyyətlərinə görə də fərqlənir:

Tarix dərsliklərində verilmiş mətnlər rəsmi üslubda yazılır, daha çox statistika, xronologiya və faktlara əsaslanır. Bədii əsərlərin üslubu isə poetikdir, obrazların hissləri və düşüncələri geniş təsvir edilir.

"Diqqət et" rubrikasında şagirdlərin müzakirə əsasında gəldikləri qənaətlər ümumiləşdirilir.

### Oxuyub-anlama

**7-2.3.6. Tapşırıq b (dərslik).** Tapşırıq vasitəsilə şagirdlər mətnin davamını təxmin edirlər. İllüstrasiya da müəyyən fərziyyələr söyləməyə kömək edə bilər.

Şagirdlər təxminən belə söyləyə bilərlər: "Qara tut ağacı" mətnində Aşot "Onun yanında üzüm qaradır" deyəndə, yəqin ki, vaxtilə qonşuluqda yaşayan azərbaycanlını nəzərdə tuturdu. Çox güman ki, o, qonşusuna xəyanət edib, indi onunla üz-üzə gəlməkdən çəkinir.

**"Qara tut ağacı" mətni.** Şagirdlər mətnin II hissəsini oxuyurlar. Təxminləri ilə müqayisə edirlər.

**Tapşırıq c (dərslik).** Mətnin III hissəsini oxumazdan öncə şagirdlər obrazların nitqinə əsasən hadisələrin davamını təxmin edirlər. Əmir kişi ilə Aşotun görüşünü proqnozlaşdırırlar.

**7-2.2.1. Tapşırıq ç (dərslik).** Cavab: 1. Aşot Tuqayı ailəsinə təhvil verə biləcəyinə inanırdı. *Aşot deyir: "Siz gedəndən sonra oğlun Tuqayı etibarlı yerdə gizlətdim. ...Fikirləşirdim ki, ara sakitləşəndən sonra birtəhər qaçıraram siz tərəfə".*

2. Həm Əmir kişi, həm də Aşot çətin anlarında bir-birinə dayaq durmuşdular. Əmir kişi onun qızının müalicəsinə xeyli kömək edib. Aşot da Əmir kişinin ailəsinə erməni döyüşçülərindən qaçmağa, yaralı Tuqayı gizlətməyə kömək etmişdi.

3. Əmir kişi oğlunun taleyi ilə bağlı hələ də ümidini itirməmişdi. *O düşünürdü ki, Aşotun dar günündə ona çox dəstək olub. Ona görə də Aşot Tuqaya qıymaz.*

4. Əmir kişinin naxələf qonşuları da var idi. *Aşot deyir ki, qonşulardan kimsə onun Tuqayı gizlətdiyindən duyuq düşüb Vitali Abramyana xəbər vermişdi.*

5. Aşot Tuqayı asanlıqla düşmənə təslim etmədi. *Aşot Tuqayı bir müddət gizlətmişdi. Tuqayın yerini demədiyi üçün onu xeyli döyüb, işgəncə veriblər. Arvadı ilə qızını öldürməklə hədələyənə qədər dözüb Tuqayın yerini deməyib.*

**7-2.3.3. Tapşırıq d (dərslik).** Mətnin sonluğunda Aşot söyləyir ki, Tuqayı qara tut ağacının altında dəfn etdim. Bütün ağaclar quruyub getdi, bircə o qara tut ağacı hələ də qalıb. Amma o ildən sonra bir də bar vermədi.

Mətndə "qara tut ağacı" əsas detallardan biridir. Şagirdlər həmin detalı mətnin ideyası ilə əlaqələndirib mətnin adını şərh edirlər. Müəllif qara tut ağacını simvolikləşdirib. Qara tut ağacı 30 il öz yurdundan didərgin düşən, sinəsində min cür dərd gəzdirən, üzü gülməyən, amma yaşayan insanları və onların ağrı-acılarını ifadə edir.

**Tapşırıq e (dərslik).** Tapşırıq vasitəsilə şagirdlər mətndəki situasiyanı dəyərləndirib öz müna-

Layihə

sibətlərini ifadə edirlər.

**Tapşırıq ə (dərslik).** Mətndə 1992-ci il Xocalının işğalı və 2023-cü il Xocalının azad olunması hadisələrindən danışılır.

**Söz ehtiyatı**

**7-2.3.4. Tapşırıq f (dərslik).** Cavab:

a. sinəsini dağlamaq – dərindən təsir etmək

b. bığ yeri yenicə tərləmək – həddi-büluğa çatmaq

c. bir ton çörək kəsmək – dostluq etmək

ç. duyuq düşmək – xəbər tutmaq.

**Tapşırıq g (dərslik).** Cavab: Mətndə göy rəngdə verilmiş ifadələrin düzgün yazılışı: *bilməyəcəyəm, sənədir, qayıdacağam, haradadır.*

**Tapşırıq ğ (dərslik).**

Cavab: *ömür sürmək – yaşamaq, torpağa tapşırmaq – dəfn etmək, gözünün yaşını sel kimi axıtmaq – hönkürmək, qayğısını çəkmək – qulluq etmək.*

Şagirdlər mətnin sonuncu abzasında fərqləndirilmiş ifadələri tapşırıqda verilmiş frazeoloji ifadələrlə əvəz edib yenidən oxuyurlar. Bu zaman cümlələrin təsir gücünün nə dərəcədə dəyişdiyinə münasibət bildirirlər. Bununla da frazeoloji ifadələrin nitqə gətirdiyi emosionallıq, obrazlılıq, ekspressivlik onların diqqətinə çatdırılır. Bədii mətnlərdə frazeoloji ifadələrin geniş istifadə olunmasının səbəbini aydınlaşdırırlar.

**Tapşırıq a (iş dəftəri).** "Qara tut ağacı" mətnində baş vermiş hadisələrin ardıcıllığı:

1. Əmir kişinin Aşotun qızına yardımı
2. Tuqayın ailəsindən ayrı düşməsi
3. Aşotun Tuqayı gizlətməsi
4. Abramyanın Aşotun evinə gəlməsi
5. Jurnalistin Aşotdan müsahibə alması
6. Reportaja baxan Əmir kişinin Aşotu tanıması
7. Əmir kişinin icra başçısı ilə görüşü
8. Aşotun diz çöküb Əmir kişidən üzr istəməsi

**Tapşırıq b (iş dəftəri).** Cavab:

1. Əmir kişi Xocalıdan çıxanda Günay çox balaca idi. *Yanlışdır. Mətndə göstərilir ki, onun indi 18 yaşı var. Hadisələr isə 30 il öncə baş vermişdi.*

2. Anası Tuqayın dərdinə tab gətirə bilmədi. *Doğrudur. Əmir kişi deyir ki, anası "balam" deyib dünyadan köçdü.*

3. Tuqay Əmir kişinin yeganə oğlu idi. *Bu barədə mətndə məlumat yoxdur. Ehtimal olunur.*

4. Əmir kişi köç daşıyan maşının sərnişinini tanıdı. Doğrudur. Bu, vaxtilə qonşu olduğu Aşot idi.

5. Tuqayı Vitali Abramyan güllələmişdi. *Ehtimal olunur.*

6. Aşot Əmir kişinin xarakterinə yaxşı bələd idi. *Doğrudur. Onlar uzun illər yaxın qonşu olublar.*

7. Vicdan əzabı Aşota rahatlıq vermirdi. *Doğrudur. Elə ona görə də Qarabağı tərk edirdi, Əmir kişi ilə üz-üzə gəlmək istəmirdi.*

**Dil qaydaları**

**Tapşırıq c (iş dəftəri).** Şagirdlər mətndə işlənmiş modal sözlər və ədatları təhlil etməklə köməkçi nitq hissələri üzrə biliklərini möhkəmləndirirlər.

| Ədat | İfadə etdiyi məna | Modal söz | İfadə etdiyi məna |
|---|---|---|---|
| yəni | sual | bəlkə də | güman, şübhə |
| ki | qüvvətləndirmə | yəqin | güman, şübhə |
| -cə | qüvvətləndirmə | təəssüf ki | təəssüf |
| -mi | sual | | |
| elə | dəqiqləşdirmə | | |
| -mi | sual | | |

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnin məzmunundan çıxış edərək hadisələrin davamını təxmin edir. | Tap. b, c (D.) |
| Mətndən nümunələr gətirməklə verilən fikirləri əsaslandırır. | Tap. ç, e, ə (D.), a (İ.D.) |
| Əsərin adının mətndəki əsas detal və ya ideya ilə əlaqələndirir. | Tap. d (D.) |
| Mətndə rast gəlinən söz və ifadələrin üslubi xüsusiyyətlərini izah edir. | Tap. f, g, ğ (D). |

Layihə

## 3-cü dərs. Müzakirə: Müharibə ədalətli ola bilərmi?

• Dərslik: səh. 25

**Təlim məqsədləri**

**1.** Həyatdan nümunələr gətirməklə və ya araşdırılan faktlardan istifadə etməklə qarşı tərəfin fikrinə münasibətini əsaslandırır **(st. 7-1.2.2).**
**2.** Müsahibə almaq üçün müvafiq suallar tərtib edir **(st. 7-1.2.1).**

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik).** Şagirdlər I Qarabağ müharibəsi dövründə azərbaycanlıların doğma yurdlarını tərk etməsi ilə 44 günlük müharibədən sonra ermənilərin Qarabağı tərk etməsini müqayisə edirlər.

I Qarabağ müharibəsi zamanı azərbaycanlılar zorla, silah gücünə öz torpaqlarından qovuldular. Onların evləri işğal edildi və 1 milyona yaxın insan yurdundan didərgin düşdü.

44 günlük müharibədən sonra isə həmin torpaqlarda məskunlaşmış ermənilər könüllü olaraq evlərini tərk etdilər. Bu köç məcburi olmadı, Azərbaycan tərəfi dinc erməni əhalisinin təhlükəsizliyini təmin edəcəyini bildirmişdi, lakin bir çox erməni ailəsi Qarabağı tərk etməyi seçdi.

**Danışma**

**7-1.2.2. Tapşırıq b (dərslik).** “Müharibə ədalətli ola bilərmi?” mövzusunda müzakirəni aşağıdakı ardıcıllıqla təşkil etmək olar.

1. Giriş və mövzunun təqdimatı

Müzakirə başlamazdan əvvəl müəllim mövzunu qısa şəkildə təqdim edir. “Müharibə nədir?”, “Ədalətli müharibə” nə deməkdir?” kimi suallarla müzakirəyə giriş edilir.

2. Mövzuya hazırlıq. Şagirdlərdən müzakirəyə hazırlaşmaq üçün bir neçə dəqiqə düşünmələri və ya qrup daxilində kiçik müzakirələr aparmaları xahiş olunur. Tarixdən konkret nümunələr gətirməklə müzakirə aparılır. Məsələn, II Dünya müharibəsi, azadlıq müharibələri və ya müasir dövrdə baş verən müharibələr barədə danışırlar. Şagirdlər öz mövqelərini hazırlamaq üçün qeydlər götürə bilərlər.

3. Təqdimat. Şagirdlər bir-birinin fikirlərini dinləyirlər və hər kəs öz mövqeyini izah edir. Məsələn, biri müharibənin müəyyən hallarda ədalətli ola biləcəyini düşünürsə, bu fikri əsaslandırır. Başqaları isə müharibənin heç vaxt ədalətli olmadığını müdafiə edə bilərlər. Təqdimat zamanı şagirdlər tarix fənnindən əldə etdikləri bilgilərə əsaslanmalıdırlar.

Məsələn, II Dünya müharibəsi: faşizmə və insanlığa qarşı törədilən zülmə qarşı bir çox ölkələr özünü müdafiə etmək və dünyada ədaləti bərpa etmək üçün müharibəyə girdi.

II Qarabağ müharibəsi: Azərbaycanın işğal altındakı torpaqlarını geri qaytarmaq üçün apardığı 44 günlük müharibəni göstərə bilərlər. Azərbaycanın məqsədi beynəlxalq hüquq çərçivəsində öz ərazi bütövlüyünü bərpa etmək idi.

Şagirdlər nümunələrin sayını artırıb bu müharibələrin hansı hallarda ədalətli və ya ədalətsiz hesab oluna biləcəyi barədə fikirlər səsləndirirlər.

4. Nəticə. Müəllim şagirdlərdən müzakirə prosesini dəyərləndirmələrini xahiş edir. Onlar nələri öyrəndiklərini, hansı mövqelərin daha inandırıcı olduğunu və müzakirənin ümumi gedişatını müzakirə edirlər. Bu cür müzakirələr şagirdlərin tənqidi düşünmə, arqumentasiya və empatiya bacarıqlarını inkişaf etdirməyə kömək edir.

5. Müzakirənin sonunda müəllim müharibənin mürəkkəb və çoxaspektli olduğunu vurğulayır. Müxtəlif perspektivlərdən baxılmalı olan müharibə anlayışı, onun ədalətli və ya ədalətsiz olmasının müxtəlif kontekstlərdən asılı olduğunu izah edir.

**7-1.2.1. Tapşırıq c (dərslik).** Tapşırığın cütlərlə iş formasında yerinə yetirilməsi tövsiyə olunur. Cütlər tapşırıqdakı təlimatı oxuyub müsahibə üçün suallar hazırlayırlar.

– Salam! Öncə sizi yenidən doğma yurdunuza qayıtmağınız münasibətilə təbrik edirəm. Özünüzü necə hiss edirsiniz?

– Uzun müddət doğma yurdunuzdan uzaq qalmısınız. Qayıtdığınızda nə kimi dəyişikliklər gördünüz? Sizcə, indi burada yaşamaq keçmişdə olduğu kimi olacaqmı?

– Ailənizin digər üzvləri də sizinlə birlikdə qayıdıbmı? Onlar Qarabağa qayıtmaq barədə nə düşünürlər?

– Burada yaşayışınızı bərpa etmək üçün hansı çətinlikləriniz var?

– Son olaraq, Qarabağa qayıtmaq arzusunda

Layihə

olan, amma hələ ki bu addımı atmayanlara nə demək istərdiniz?

– Çox sağ olun, sizinlə söhbət etmək mənim üçün çox maraqlı oldu. Sizə bu yeni yolda uğurlar arzu edirəm!

**Müəllimin nəzərinə!** Cütlərin birlikdə hazırladıqları suallar digər cütlüklər tərəfindən cavablandırıla bilər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Həyatdan nümunələr gətirməklə və ya araşdırılan faktlardan istifadə etməklə qarşı tərəfin fikrinə münasibətini əsaslandırır. | Tap. b (D.) |
| Müsahibə almaq üçün müvafiq suallar tərtib edir. | Tap. c (D.) |

## 4-cü dərs. Modal sözlərin cümlədə vəzifəsi. Ara sözlər

• Dərslik: səh. 26 • İş dəftəri: səh. 13

**Təlim məqsədləri**

**1.** Cümlədə ara sözlərin funksiyasını müəyyən edir **(st. 7-4.2.4).**

**2.** Ara sözləri cümlədə yerindən asılı olaraq digər sözlərdən vergüllə ayırır **(st. 7-4.3.1).**

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik).**

Müəllim suallar vasitəsilə şagirdlərin ötən dərsdə modal sözlər haqqında əldə etdikləri bilgiləri xatırladır.

Şagirdlər tapşırıqda verilmiş cümlələri təhlil etməklə aydınlaşdıra bilərlər ki, "Uzun sözün qısası" və "bəlkə də" ifadələri cümlədə əsas fikirdən kənarda qalan sözlər və ya ifadələrdir. Onlar cümlənin əsas məzmununa təsir etmir. Həmçinin cümlədə heç bir suala cavab vermir, cümlə üzvü olmur. Bu ifadələrin cümlədəki funksiyası ara söz olmaqdır.

Müəllimin şagirdlərin diqqətini fərqləndirilmiş ifadələrin ifadə formasına da yönəltməsi tövsiyə olunur. Belə ki, ara söz funksiyasında olan ifadələrdən biri söz birləşməsi ilə, digəri isə modal sözlə ifadə olunmuşdur. Şagirdlər bu dərsdə məhz ara sözlər barədə informasiya alacaqlar.

**Dil qaydaları**

**7-4.2.4. "Yadda saxla" rubrikası.** Ara sözlər barəsində verilmiş informasiya nümunələr əsasında şərh olunur.

**Tapşırıq b (dərslik).** Şagirdlər cümlələri oxuyub ara sözləri müəyyənləşdirirlər.

1. Təzə xəstəxana, <u>sən demə</u>, artıq pasiyentlərini qəbul edir.
2. <u>Böyük ehtimalla</u>, bizi çox gözəl anladılar, hələ razılaşdılar da.
3. <u>Əlqərəz</u>, söhbəti burda bitirək, sonralar bir də bu məsələyə qayıdarıq.
4. Yoldan geri qayıtmaq, <u>bəzi inanclara görə</u>, yaxşı əlamət deyil.
5. <u>Birincisi</u>, getməyin mənası yoxdur, <u>ikincisi</u>, onsuz da gecdir.
6. <u>Düzdür</u>, eşitdiklərinə inanmaq istəmirsən, amma bu, həqiqətdir.

**7-4.3.1. "Yadda saxla" rubrikası.** Ara sözlərlə bağlı punktuasiya qaydaları şərh olunur.

**Tapşırıq c (dərslik).** <u>Cavab</u>:

1. **Əlbəttə,** məşhur insanların həyatı çox vaxt maraqlı olur. *(əminlik)*
2. Yenicə yağmış qarın üstündə gəzməyi, **yəqin ki**, hamı sevir. *(güman, şübhə)*
3. **Məncə,** hər işi vaxtında görmək lazımdır. *(fikrin mənbəyi)*
4. **Əvvəla,** o, qaydaya əməl etməlidir, **ikincisi,** onun özünə də belə sərfəlidir. *(sıra, ardıcıllıq)*
5. Yağışa görə evdən çıxmaq mümkün olmadı, **heyif ki!** *(təəssüf)*
6. Onun çöhrəsi o qədər işıqlıdır **sanki** üzündən nur yağır. *(bənzətmə, müqayisə)*
7. **Ümumiyyətlə,** sizin planlarınızdan xəbərimiz yox idi. *(nəticə)*

**Tapşırıq a (iş dəftəri).** <u>Cavab</u>:

2. Ətraf mühitin qorunmasında insanların fəaliyyətini, **sizcə,** qənaətbəxş hesab etmək olarmı? *(fikrin mənbəyi)*
3. Sən narahat olma, **bəlkə də,** mən yanılıram, vəziyyət heç o qədər də qorxulu deyil! *(güman, şübhə)*
4. Təmkinli, səbirli olmaq, tələsik qərar qəbul etməmək, **doğrudan da,** müdrikliyin əlamətidir. *(əminlik)*
5. **Təəssüf ki,** mən həmin ərəfədə sizi dinləmədim, dediklərinizi ciddi qəbul etmədim, **çox**

Layihə

**heyif...** *(təəssüf)*

**Tapşırıq b (iş dəftəri).** Bu tapşırıq vasitəsilə şagirdlər ara sözlərin funksiyasını daha dərindən mənimsəyirlər. Belə qənaətə gəlirlər ki, cümlələrdə fərqləndirilmiş bəzi ifadələri cümlədən çıxardıqda məna və qrammatik cəhətdən heç bir xəta baş vermir, yəni cümlədəki söz və ifadələr arasında məna və qrammatik əlaqə pozulmur. Bu halda həmin ifadələr ara sözdür. Cavab:

a. **Sözün düzü,** heç kim işin belə bitəcəyinə inanmırdı.

a. **Görəsən,** qrup adından kim təqdimat edəcək?

b. Ona görə də, **necə deyərlər,** işini ehtiyatlı tut.

b. **Yaxşı,** sən deyən olsun.

**Tapşırıq c (iş dəftəri).** Şagirdlər tapşırıqda verilmiş ara sözləri tələbə uyğun olaraq cümlələrdə işlədib yazırlar.

**Nümunə:**

1. **Bəlkə,** sən bu məsələni yenidən düşünəsən?
2. **Əlbəttə,** dərhal bu işi tamamla!
3. **Nəhayət,** o da gəldi!
4. **Fikrimcə,** bu qərar ən doğru olanıdır.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Cümlədə ara sözlərin funksiyasını müəyyən edir. | Tap. b (D.), c, ç (İ.D.) |
| Ara sözləri cümlədə yerindən asılı olaraq digər sözlərdən vergüllə ayırır. | Tap. c (D.), a, b, ç (İ.D.) |

## Ümumiləşdirici təkrar

• Dərslik: səh. 27 • İş dəftəri: səh. 14-15

**Təlim məqsədləri**

**1.** Kontekstdən çıxış edərək ədatın semantik xüsusiyyətlərini müəyyənləşdirir **(st. 7-4.2.2).**
**2.** Kontekstdən çıxış edərək bəzi köməkçi nitq hissələrinin və şəkilçilərin omonimliyini müəyyən edir **(st. 7-4.2.2).**
**3.** Modal sözlərin semantik xüsusiyyətlərini müəyyənləşdirir **(st. 7-4.2.2).**
**4.** Ara sözləri cümlədə yerindən asılı olaraq digər sözlərdən vergüllə ayırır **(st. 7-4.3.1).**
**5.** Ədatların bitişik və ayrı yazılış qaydalarına riayət edir **(st. 7-4.1.5).**

### Mövzuya yönəltmə

Müəllim soruşur:

*– Bu bölmədə hansı köməkçi nitq hissələri barədə məlumat aldınız?*

### Dil qaydaları

**7-4.2.2. Tapşırıq 1 (dərslik).** Cavab:

1. Mən**mi** qocalmışam, ya zəmanə**mi**? *("Koroğlu" dastanından)* cümləsində "-mi" ədatı sual mənasını gücləndirir.

2. Bu belə **də** olmalı, **axı** dünya fırlanır. *(Bəxtiyar Vahabzadə)* cümləsindəki "də" ədatı fikri qüvvətləndirir, "axı" ədatı sual mənasını gücləndirir.

3. Gəl bizim dağlara, **gör nə** gözəldir! *(Həmid Abbas)* cümləsindəki "gör" ədatı əmr mənasını, "nə" ədatı isə ümumi fikri qüvvətləndirir.

4. Mənim könlüm bu sözlərə **heç** yatmaz. *(Mikayıl Müşfiq)* cümləsindəki "heç" ədatı inkar mənasını gücləndirir.

5. **Kaş ki** gözəl olmayaydın... *(Aşıq Ələsgər)* Cümlədəki "*kaş ki*" ədatı arzu mənasını gücləndirir.

6. Sən **elə** gözəlsən binadan, Pəri. *(Molla Pənah Vaqif)* cümləsindəki "elə" ədatı fikri dəqiqləşdirir.

**7-4.2.2. Tapşırıq 2 (dərslik).** Şagirdlərdən cümlələrdəki **ki** və **da** köməkçi nitq hissələrinin bağlayıcı, yoxsa ədat olduğunu müəyyənləşdirmək tələb olunur.

a. Əlabbas kişi təsbehini çevirə-çevirə fikirləşdi **ki,** istirahət qiyamət şeydir. *(Elçin)*



Layihə

*"**Ki**" mürəkkəb cümlənin komponentlərini birləşdirən bağlayıcıdır.*

Ay uşaqlar, əlimdən nə gələr, nə gəlməz, siz **ki** yaxşı bilirsiniz. *(N.Vəzirov) Bu cümlədəki **"ki"** fikri qüvvətləndirən ədatdır.*

b. O, çirkin **də** olsa, həqiqət olduğu üçün gözəldir! *(C.Cabbarlı) Cümlədəki **"də"** fikri qüvvətləndirən ədatdır.*

O biri çuvalda **da** qarpızdan başqa heç nə yox idi. *(Ə.Haqverdiyev) Bu cümlədəki **"da"** iştirak mənası yaradan bağlayıcıdır.*

c. Kərim baba gördü **ki**, Qızıl sürünü iki təpənin arasına yığıb. *(A.Şaiq) Bağlayıcıdır.*

O **ki** özgə yerə gedəcəkdi, bizi niyə qonaq çağırdı? *(C.Məmmədquluzadə) Ədatdır.*

ç. Hacı Nəsir bir neçə məşhur həkim gətirdisə **də**, onu sağalda bilmədi. *(S.S.Axundov) Ədatdır.*

Bu üç teleqramı **da** çatdırım yiyəsinə, gedim kəlləmi atıb yatım. *(Anar) Bağlayıcıdır.*

**7-4.2.2. Tapşırıq 3 (dərslik).** Cümlələrdəki modal sözləri əvəz edə bilən modal sözlər və onların düzgün yazılışı müəyyənləşdirilir. Cavab:

1. **Həqiqətən,** sən heyvanlar aləmi ilə çox maraqlanırsan.
2. **Təəssüf ki,** teatr mövsümünün başa çatmağına az qalıb.
3. **Nəhayət,** ağacların üzərində xırda tumurcuqlar göründü.
4. **Məncə,** bu qarayanız oğlanın gözəl səsi var!
5. **Birincisi,** "Balaca şahzadə" böyüklərin də sevimli əsəridir.
6. Xallı ceyranın gözləri **elə bil** nəsə demək istəyirdi.

**7-4.3.1. Tapşırıq 4 (dərslik).** Ara sözlərlə bağlı şagirdlərin öyrəndikləri biliklər yoxlanılır.

Cavab: 1. **Deyilənə görə,** hamı bu hadisədən məyus olub.

2. Dayanacaqda adam çox idi, **deyəsən,** avtobus gecikmişdi.

3. **Bununla belə,** məsləhət dinləsən, düzgün qərar verə bilərsən.

4. Bu tamaşaya, **heyif ki,** axıra qədər baxmamısınız.

**7-4.1.5. Tapşırıq 5 (dərslik).** Şagirdlərdən cümlələrdə orfoqrafiya və punktuasiya səhvlərini müəyyənləşdirməklə yanaşı, fikirlərini əsaslandırmaqları da tələb olunur.

1. **Qardaşında mı** sənin kimi idman yarışlarında qalib olub?
2. Xanım, bu gələnlər, **deyəsən, elə** dünənki qonaqlardır. *(C.Məmmədquluzadə)*
3. Firidunun **atası da, babası da** bu obada doğulmuşdu. *(M.İbrahimov)*
4. Səadətini tanrım qədər sevdiyim bu **xalq** bircə səni yaşatmadı. *(C.Cabbarlı)*
5. Başını qaldırıb ətrafına **baxsana,** gör, nə dəyişib, necə dəyişib.
6. **Siz ki** belə məlumatlısınız, **bizə də** danışın.

İş dəftərindəki **1-6-cı tapşırıqlar** bölmə üzrə mənimsədilən bilik və bacarıqların yoxlanılması məqsədi daşıyır.

**7-4.1.5. Tapşırıq 1 (iş dəftəri).** "Da", "də" bitişik, yoxsa ayrı yazılmalıdır? Səbəbini izah edib yaz.

Cavab: 1. **Saytda** verilən bütün məlumatları birlikdə müzakirə etdik. *Yerlik hal şəkilçisidir.*

2. Siz **də** bilirsiniz ki, isti havada işləmək çətindir. *Bağlayıcıdır.*

3. Həyətə əl gəzdirək **də**, kimi gözləyirik? *Ədatdır.*

4. **Yayda** hər tədarükünü görsən, qışda əziyyət çəkməzsən. *Yerlik hal şəkilçisidir.*

**Tapşırıq 2 (iş dəftəri).** Bu tapşırıqda da "ki"-nin zərf düzəldən şəkilçi, ədat, yoxsa bağlayıcı olması aydınlaşdırılır. Şagirdlərin orfoqrafiya və punktuasiya qaydalarını dərindən mənimsəmələrinə imkan verir.

Cavab: 1. Hamının istəyi budur **ki,** sülh, əmin-amanlıq bərqərar olsun.

2. İnsan **ki** sözünün, hərəkətinin yerini bilir, hamının hörmətini qazanır.

3. **Dünənki** görüşün təsirindən hələ də çıxa bilmirik.

4. Sən müsabiqəyə qatılmaq istəmirsən **ki?**

**7-4.2.2. Tapşırıq 3 (iş dəftəri).** Şagirdlər müvafiq ədatlar artırmaqla cümlələri aşağıdakı kimi tamamlaya bilərlər.

1. **Kaş** sabah hava mülayim olaydı.
2. Verdiyin sözü yaddan çıxarma **ha.**
3. Səyahətimizin maraqlı keçməsində **məhz** valideynlərin rolu böyükdür.
4. Sən nənə-babanla bu gün görüşəcəksən **ki?**
5. **Xeyr,** sən yanılırsan, heç də hər şey sən fikirləşən kimi deyil.

**7-4.2.2. Tapşırıq 4 (iş dəftəri).** Bu tapşırıqda şagirdlərdən cümlələrdə işlənən modal sözlərin yaratdığı mənanı müəyyənləşdirmək tələb olunur.

Cavab: 1 – ç; 2 – c; 3 – a; 4 – d; 5 – b.

Layihə

**7-4.1.6. Tapşırıq 5 (iş dəftəri).**

1. **Əvvəla,** bu işin öhdəsindən gəlmək çətin olar, **ikincisi,** artıq gecdir.

2. **Bəs** gedənlər **deyirlər ki,** dağların ətəyi qan-qalla doludur.

3. **Bəli, mən də inanıram ki,** onun niyyəti saf, ürəyi təmizdir.

4. **Axı** hər şeyi maddiyyata bağlamaq düzgün deyil**.**

5. **Axır ki, sən də** cəsarətini toplayıb sözünü deyə bildin.

**7-4.3.1. Tapşırıq 6 (iş dəftəri).** Tapşırıq şagirdlərin ara sözlər üzrə biliklərini yoxlamağa imkan verir. Cavab:

1. Atalar demişkən, yaman günün ömrü az olar.
2. Təbii ki, xalqımızı qarşıda daha gözəl günlər gözləyir.
3. Bu kəndin tarixi, deyilənə görə, çox qədim və maraqlıdır.
4. Bununla belə, hamı yekdilliklə bu qərarı alqışladı.
5. Sözün doğrusu, bütün yorğunluğu unutdum.
6. Bu şənliyə, ehtimal ki, qatılanlar çox olacaq.
7. Görünür, əziyyətimiz yerdə qalmayacaq.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstdən çıxış edərək ədatın semantik xüsusiyyətlərini müəyyənləşdirir. | Tap. 1 (D.), 3 (İ.D.) |
| Kontekstdən çıxış edərək bəzi köməkçi nitq hissələrinin və şəkilçilərin omonimliyini müəyyən edir. | Tap. 2 (D.), 1, 2 (İ.D.) |
| Ara sözləri cümlədə yerindən asılı olaraq digər sözlərdən vergüllə ayırır. | Tap. 4 (D.) 6 (İ.D.) |
| Modal sözlərin semantik xüsusiyyətlərini müəyyənləşdirir. | Tap. 3 (D.); 4 (İ.D.) |
| Ədatların bitişik və ayrı yazılış qaydalarına riayət edir. | Tap. 5 (D.); 1, 2 (İ.D.) |

Layihə

bölmə **2**

# COĞRAFİ KƏŞFLƏR

| Dərs | Mövzu | Məzmun xətləri | Dərslik səh. | İş dəftəri səh. | MV səh. |
|---|---|---|---|---|---|
| **1-ci fəsil** | | | | | |
| 1 | Emilione | Dinləmə | 28-29 | 16 | 42-43 |
| 2 | Milyon yalan? | Oxuyub-anlama | 30-32 | 17 | 44-45 |
| 3 | Milyon yalan? | Oxuyub-anlama | 32-33 | 18 | 45-46 |
| 4 | Böyük İpək yolu haqqında təqdimat | Danışma | 33 | - | 46 |
| 5 | Feilin şəkilləri | Dil qaydaları (qrammatika) | 34 | 19 | 46-47 |
| 6 | Feilin şəkilləri (əmr, vacib) | Dil qaydaları (qrammatika) | 35 | 20 | 47 |
| **2-ci fəsil** | | | | | |
| 1 | Səyyahlar və onların coğrafi kəşfləri | Danışma | 36-37 | 21 | 48-49 |
| 2 | Manuel Vasko da Qama | Oxuyub-anlama | 38-39 | 22 | 49-50 |
| 3 | Debat | Danışma | 39 | 23 | 50-51 |
| 4 | Feilin şəkilləri (lazım, arzu) | Dil qaydaları (qrammatika) | 40 | 24 | 51-52 |
| **3-cü fəsil** | | | | | |
| 1 | Amerikanın kəşfi. Niyə “Amerika”? | Dinləmə. Oxuyub-anlama | 41-43 | 25 | 52-54 |
| 2 | Niyə “Amerika”? | Oxuyub-anlama. Yazı | 43-44 | 26 | 54-55 |
| 3 | Niyə “Amerika”? | Oxuyub-anlama | 44-45 | 27 | 55-56 |
| 4 | Feilin şəkilləri (şərt, xəbər) | Dil qaydaları (qrammatika) | 46 | 28 | 56-57 |
| 5 | Ümumiləşdirici təkrar | Dil qaydaları (qrammatika) | 47 | 29-30 | 58-59 |

Layihə

# 1-ci fəsil

## 1-ci dərs. Emilione

• Dərslik: səh. 28-29 • İş dəftəri: səh. 16

**Təlim məqsədləri:**

**1.** Əlavə biliklərindən istifadə etməklə dinlədiyi fikirlərə münasibət bildirir **(st. 7-1.1.3).**

**2.** Dinlədiyi mətndən götürdüyü qeydləri qruplaşdırır **(st. 7-1.1.1).**

**3.** Araşdırdığı məlumatları verbal-qrafik informasiya şəklində təqdim edir **(st. 7-3.2.4).**

**4.** Mövzu üzrə əldə edilən məlumatları açar sözlər şəklində qeyd edir və onların əsasında mətn qurub danışır **(st. 7-1.3.2).**

**Mövzuya yönəltmə**

Müəllim şagirdlərin diqqətini bölmənin adına yönəldir və soruşur:

Sizcə, bu bölmədə nədən danışılır?

Şagirdlər suala cavab verməklə bölmənin mövzusu haqqında fikirlərini bildirirlər. Bu mövzuda ilkin biliklərini nümayiş etdirirlər.

**Danışma**

**7-1.1.3. Tapşırıq a (dərslik).** Cavab: Şagirdlər 5-ci sinif Azərbaycan dili dərsliyində “Səyahət” bölməsi ilə tanış olublar (II hissə, VI bölmə). Bu bölmədə Övliya Çələbi, Enni Koen, Aleksandr Düma və Nelli Blay kimi səyyahlar haqqında məlumat alıblar. Ona görə də sualı cavablandırmaq elə də çətin olmayacaq. Məqsəd şagirdlərin diqqətini səyyahların səyahətlərinin nəticəsinə, faydasına yönəltməkdir.

**Dinləmə**

**7-1.1.1. Tapşırıq b (dərslik).** Şagirdlər qeyd götürməklə “Emilione” mətnini dinləyirlər. Tapşırıqları yerinə yetirmək üçün şagirdlərə mətnə diqqətlə qulaq asmaq tövsiyə olunur.

***Emilione***

*XIII əsrin ortalarından Avropa tacirləri Şərqlə ticarətə can atırdılar. Şərqin qızılı və ədviyyatı, bəzək əşyaları varlanmaq istəyən avropalıları cəlb edirdi. Bu məhsullar Çindən Asiya ölkələrinə aparan ticarət yolu – “İpək yolu” ilə gətirilir və baha qiymətə satılırdı. Belə ki, İpək yolu boyunca məhsullar əldən-ələ keçir və Avropaya çatana qədər bahalaşırdı.*

*İtaliya səyyahı Marko Polo 1254-cü ildə Venesiyada tacir ailəsində anadan olmuşdu. Onun atası və əmisi malları birbaşa Venesiyaya gətirmək məqsədilə Çinə səyahət etmişdilər. Onlar bu ticarət sayəsində xeyli sərvət qazanmışdılar. Polo dayısının himayəsində böyümüş, yaxşı təhsil almışdı. O, yük gəmilərinin idarə edilməsini öyrənmiş, ticarətin sirlərinə yiyələnmişdi.*

*Atasının ikinci dəfə Şərqə səfərində Polo ona qoşulmuşdu. Onlar 1271-ci ildə səyahətə başladılar. Əvvəlcə Venesiyadan Aralıq dənizi sahillərindəki Akka şəhərinə üzdülər. Sonra İran və Asiyanın səhralarını keçib Pamir dağlarını aşaraq Çinin Kaşqar şəhərinə çatdılar. Daha sonra Qobinin quru ərazilərini keçərək Şərqə doğru davam etdilər və 1275-ci ildə Şimali Çinə çatdılar.*

*O dövrdə Monqol imperiyasının paytaxtı Çində idi. Marko Polo 17 il Xubilay xanın sarayında maliyyə işlərinə rəhbərlik etdi. O dövrdə o bütün Çini gəzdi və bu səfərlərdə müxtəlif mədəniyyətlər, yeməklər, şəhərlər və xalqlar haqqında məlumat topladı.*

*Polo 1292-ci ildə geriyə – vətəni Venesiyaya döndü. Səfərdən qayıtdıqdan bir neçə il sonra Venesiya ilə Genuya arasında müharibə başladı. Toqquşmaların birində Marko həbs edildi. O, Rustiçello da Piza adlı bir yazıçı ilə eyni kamerada saxlanılırdı. Kitabı da Polonun söhbətləri əsasında Rustiçello fransız dilində qələmə aldı. Polonun səyahət təfərrüatları 1298-ci ildə “Emilione” adı altında nəşr olundu. Mütəxəssislərin fikrincə, bu ad Markonun təxəllüsü olub. Bu kitab Markonun gəzdiyi şərq ölkələrinin coğrafiyası, tarixi haqqında qiymətli mənbədir. Kitabda Bakı neftindən, Şamaxı və Bərdə ipəyindən də söz açılır.*

*Marko Polonun səyahətinin nəticəsində coğrafiyaçılar Şərqin adları çəkilən yeni-yeni ölkə və şəhərlərini xəritələrdə göstərdilər. Şərqi Hindistan və Çinə ticarət yolları açıldı. Avropalılar kağız pul, barıt, çini məmulatlarının istifadəsi və kompasın ixtirası ilə tanış oldular. Marko Polonun kitabı bir çox dəniz səyyahlarına, o cümlədən Xristofor Kolumba dərin təsir göstərmişdir.*

**Məsələn, mətndəki məlumatları aşağıdakı yarımbaşlıqlar altında qruplaşdırmaq olar:**

1. Marko Polo
2. Marko Polonun Çinə səyahət marşrutu
3. “Emilione” kitabı
4. Marko Polonun səyahətinin nəticələri

Dinləyib anlamanı yoxlamaq üçün iş dəftərində verilmiş tapşırıqları yerinə yetirmək olar.

**Tapşırıq a (iş dəftəri).** Cavab:

Layihə

Marko Polo – venesiyalı səyyah
Rustiçello da Piza – yazıçı
Xubilay xan – Monqol imperiyasının xanı

**Tapşırıq b (iş dəftəri).** Cavab:

Çünki Şərqin qızılı və ədviyyatını, xalça və bəzək əşyalarını alıb satmaqla varlanmaq istəyirdilər.

Çünki tacirlərin çoxu İpək yolunu bütünlüklə səyahət etmirdi. Ticarət, əsasən, yolun kiçik hissələri arasında yerləşən şəhərlər arasında aparılırdı. Bir şəhərdən digər şəhərə satılan məhsullar əldən-ələ keçir və Avropaya çatana qədər bahalaşırdı.

Buna görə də bütün Çini gəzib müxtəlif mədəniyyətlər, yeməklər, şəhərlər və xalqlar haqqında məlumat toplayır.

**Tapşırıq c (iş dəftəri). Yaddaş xəritəsinin məzmunu təxminən belə ola bilər:**

**İpək yolu**
Ticarət yoludur.
Çin və Asiya ölkələri arasındadır.
Ticarət şəhərlərindən keçir.

**Marko Polo**
Venesiyalı səyyah
Tacir ailəsi
Doğum tarixi: 1254-cü il
Çinə səyahət etdiyi tarix: 1271-ci il
Çində yaşadığı müddət: 17 il
Səyahət təəssüratları

**"Emilione" kitabı**
Marko Polonun Rustiçello da Piza ilə görüşü
Yazıldığı dil: fransız dili
Məzmunu: Polonun gəzdiyi ölkələrin coğrafiyası, tarixi haqqında
Nəşr olunduğu il: 1298-ci il

**Polonun səyahətinin nəticəsi**
Xəritələrin yenilənməsi
Şərqi Hindistan və Çinə ticarət yollarının açılması
Dəniz səyyahlarına təsiri

**Tapşırıq c (dərslik).**

**Müəllimin nəzərinə.** Şagirdlərə "slayd" sözünün mənasını izah etmək məsləhət görülür. Təqdimatlar müxtəlif slaydlardan ibarət olur. Slayd – eyni mövzuda, bir-birini əvəzləyən təqdimat səhifələridir. Slaydları müxtəlif üsullarla, məsələn, proyektor vasitəsilə ekranda və ya kompüter proqramı vasitəsilə monitorda nümayiş etdirmək olar.

Daha sonra şagirdlər "Emilione" dinləmə mətninə əsasən hazırlanmış slaydlarda yol verilmiş səhvləri müəyyənləşdirirlər. Bununla da dinləyib-anlama bacarıqlarını nümayiş etdirirlər.

Cavab: 1-ci slaydda: Əmisinin deyil, dayısının himayəsində böyüyüb.

Marko Polo 1271–1295-ci illər arasında deyil, 1271–1292-ci illər arasında İpək yolu ilə Asiyaya səyahət edib.

2-ci slaydda: Polo ailəsi Venesiyadan Aralıq dənizi sahillərindəki Akka şəhərinə 1273-cü ildə deyil, 1271-ci ildə gedib. Çinin Kaşqar şəhərinə deyil, Kəşmir şəhərinə çatdılar.

3-cü slaydda: "Emilione" kitabı 1296-cı ildə deyil, 1298-ci ildə nəşr olunur.

4-cü slaydda: Yaponiya və Sakit okean adalarına deyil, Şərqi Hindistan və Çinə ticarət yolları açıldı.

**Yazı. Danışma**

**7-3.2.4. Tapşırıq ç (dərslik).** Şagirdlər qruplara ayrılır və tapşırıqdakı slaydları **c** tapşırığındakı slaydlarla müqayisə edirlər. Məlumatları konkret, yorucu olmayan slaydları müəyyən edirlər. Şagirdlərin fikirləri "Diqqət et" rubrikası ilə ümumiləşdirilir. Belə ki, müəllim təqdimat hazırlayarkən slaydları tərtib etməyin yollarını izah edir.

**"Qlossari" rubrikası.** Rubrikadakı məlumatlar oxunur. Məqsəd şagirdlərin söz ehtiyatını artırmaqdır.

**7-1.3.2.** Ç tapşırığının ikinci hissəsi danışma bacarığını inkişaf etdirir. Şagirdlər seçdikləri slayddakı məlumatları rabitəli mətnə çevirib təqdim edirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dinlədiyi fikirlərə münasibət bildirir. | Tap. **a** (D.) |
| Dinlədiyi mətndən götürdüyü qeydləri qruplaşdırır. | Tap. **b** (D.); **a, b, c** (İ.D.) |
| Araşdırdığı məlumatları verbal-qrafik informasiya şəklində təqdim edir. | Tap. **c** (D.) |
| Mövzu üzrə əldə edilən məlumatlar əsasında mətn qurub danışır. | Tap. **ç** (D.) |

Layihə

## **2-ci dərs.** Milyon yalan?

• Dərslik: səh. 30-32 • İş dəftəri: səh. 17

**Təlim məqsədləri:**

**1.** Söz tərkibindəki morfemlərin (namə, sui) semantikasından çıxış edərək sözün mənasını müəyyənləşdirir **(st. 7-4.4.1).**

**2.** Mətnin məzmunu ilə bağlı sualları cavablandırmaqla mətni mənimsədiyini nümayiş etdirir **(st. 7-2.1.1).**

**3.** Qeyri-bədii mətnlərdə struktur elementlərini (fikir, arqument, dəlil və s.) müəyyənləşdirir **(st. 7-2.3.3).**

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik).** Şagirdlər mətnin başlığına və mətnə çəkilmiş illüstrasiyaya əsasən mətnin mövzusunu təxmin edirlər.

**Söz ehtiyatı**

**7-4.4.1. Tapşırıq b (dərslik).** Cavab: b. Onun bu iddiası elmi dairələrdə qəbul olunmuş fikirləri alt-üst edirdi. Bu cümlədə və mətndə iddia sözü haqlı-haqsız bir fikrin üstündə inad etmək, bir şeyi başqalarına da qəbul etdirməyə çalışmaq mənasında işlənmişdir. "İddialı" sözü "iddia" sözünün digər, yəni özü haqqında böyük fikirdə olma mənası ilə bağlıdır.

**Tapşırıq c (dərslik).** Kontekstin və tapşırıqda verilmiş etimoloji məlumatların köməyi ilə "salnamə" və "sui-qəsd" sözlərinin mənası izah edilir.

Cavab: **salnamə** – il ərzində bir yerdə baş verən tarixi hadisələri qeydə alan kitab; hadisələrin hər il qeydə alınması; gündəlik, xronika və s.

**Sui-qəsd** – birinin canına qəsd etmək, öldürmək və ya yaralamaq cəhdi.

**"Orfoqrafiya" rubrikası.** "Salnamə" və "sui-qəsd" sözlərinin düzgün yazılışı şagirdlərin diqqətinə çatdırılır.

**Oxuyub-anlama**

**7-2.1.1. Tapşırıq ç (dərslik).** Şagirdlər 1-ci dərsdə Marko Polo haqqında "Emilione" dinləmə mətni ilə tanış olmuş və onun haqqında müəyyən məlumatlar almışlar. Bu dərsdə isə "Milyon yalan" mətnini oxumuş və səyyah haqqında yeni məlumatlar əldə etmişlər. Şagirdlərin aldıqları yeni məlumatlara aşağıdakıları nümunə göstərmək olar:

Marko Polo Çinə səfəri haqqında "Milyon" adlı kitab yazıb.

Marko Polonun Çinə səfəri və bu haqda öz kitabında verdiyi məlumatların həqiqiliyi bir çoxlarında şübhə doğurur.

Marko Polo haqqında müxtəlif kitablar yazılmışdır: Frensis Vud "Marko Polo Çinə səfər edibmi?"

Stefen Faynştayn "Çinli Marko Polo" kitabı və s.

**Tapşırıq a (iş dəftəri).** Cavab: d

**Tapşırıq b (iş dəftəri).** Cavab: 1 – D, 2 – Y, 3 – D, 4 – Y, 5 – D, 6 – D.

**Tapşırıq c (iş dəftəri).** Cavab:

"Milyon" kitabını sonralar "Milyon yalan" adlandıranlar da oldu. *Çünki Marko Polonun Çinə səfəri və bu haqda öz kitabında verdiyi məlumatların həqiqiliyi bir çoxlarında şübhə doğururdu.*

"Milyon" kitabının nüsxələri əlyazma yolu ilə çoxaldılıb, xəttatlar və tərcüməçilər kitaba "yaradıcı" əlavələr ediblər. *Nəticədə kitabda bir sıra təhriflərə yol verilib.*

Marko Polo öz kitabında Böyük Çin səddi haqqında məlumat verməmişdi. *Çünki bu tikili XVII əsrdə indi gördüyümüz möhtəşəm istehkama çevrilmişdi. Marko Polonun zamanında (XIII əsrdə) isə bu divar başqa müdafiə tikililərindən bir o qədər də fərqlənmirdi. Bir avropalı üçün bu cür istehkamlar o qədər də maraqlı olmaya bilərdi.*

**7-2.3.3. Tapşırıq d (dərslik).** Şagirdlər Marko Polo haqqında iki mətnlə tanış olublar. "Emilione" mətnində Marko Polo haqqında məlumatlar xronoloji ardıcıllıqla təqdim edilib. Müəllif bu mətni yazmaqla dinləyiciyə Marko Polo haqqında ümumi məlumat vermək istəyib. "Milyon yalan?" mətnində isə müəllifin məqsədi Marko Polonun Çinə səfərinin bir çoxlarında şübhə doğurması fikrini oxucunun diqqətinə çatdırmaqdır. Müəllif bu haqda müxtəlif fikirləri qarşılaşdırıb, arqumentlərdən, dəlillərdən istifadə edib.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Söz tərkibindəki morfemlərin (namə, sui) semantikasından çıxış edərək sözün mənasını müəyyənləşdirir. | Tap. **b, c** (D.) |
| Mətnin məzmunu ilə bağlı sualları cavablandırmaqla mətni mənimsədiyini nümayiş etdirir. | Tap. **ç** (D.); **a, b, c** (İ.D.) |

Layihə

| Qeyri-bədii mətnlərdə struktur elementlərini (fikir, arqument, dəlil və s.) müəyyənləşdirir. | Tap. d (D.) |
|---|---|

## 3-cü dərs. Milyon yalan?

• Dərslik: səh. 32-33 • İş dəftəri: səh. 18

**Təlim məqsədləri:**

**1.** Mətndəki faktlara əsaslanaraq müəllif mövqeyinə münasibət bildirir **(st. 7-2.3.2).**

**Mövzuya yönəltmə**

Frontal sorğu aparmaqla ötən dərsdə oxunan mətn xatırladılır. Marko Polonun Çinə səfəri haqqında tədqiqatçıların söylədiyi fikirlər şagirdlərin diqqətinə bir daha çatdırılır.

**Oxuyub-qavrama**

**7-2.3.2. Tapşırıq a (dərslik)**. Tapşırıq şagirdlərin diqqətini mətnin strukturuna yönəldir. Mətnin son iki abzasında müəllif mühakimələrini belə yekunlaşdırır ki, Marko Polonun kitabının nüsxələri əlyazma yolu ilə çoxaldılıb. Bu zaman xəttatların və tərcüməçilərin yaradıcı əlavələrinə görə bəzi təhriflərə rast gəlmək mümkündür. Bununla belə, onun Çinə səfər etməsi bu gün heç bir ciddi tədqiqatçıda şübhə doğurmur.

**Müəllimin nəzərinə!** Müəllimə "Diqqət et" rubrikasındakı məlumatları şərh etmək üçün "Milyon yalan?" mətninə istinad etməsi, bu mətndən nümunələr gətirməsi tövsiyə edilir. Məsələn, müəllimin izahatına nümunə ola bilər:

Müəllim "Diqqət et" rubrikasındakı məlumatın ilk cümləsini oxuyur: "Bəzən arqumentativ mətndə müəllif problemlə bağlı fikirləri – tezisləri qarşılaşdırır".

Müəllim daha sonra şagirdlərə sual verir:

– Müəllif "Milyon yalan?" mətnində hansı problemi işıqlandırır?

Şagirdlərin cavabı təxminən belə ola bilər:

– Marko Polo, həqiqətən, Çinə səfər edibmi?

Müəllimin növbəti sualı:

– Müəllif bu problemlə bağlı hansı **fikirləri – tezisləri** qarşılaşdırır?

<u>Şagirdlərin cavabı təxminən belə ola bilər</u>:

Çin kolleksiyasının rəhbəri xanım Frensis Vud iddia edir ki, Marko Polo Çində olmayıb. Öz fikrini də belə əsaslandırır ki, kitabda Çin heroqlifləri, Çin farforu, Böyük Çin səddi haqqında məlumata rast gəlinmir. Ola bilməz ki, 17 il bu ölkədə yaşamış bir avropalını Çin mədəniyyətinin bu özəllikləri maraqlandırmasın.

Müəllimin növbəti sualı:

– Bəs bu problemlə bağlı daha hansı fikir – tezis verilib?

<u>Şagirdlərin cavabı təxminən belə ola bilər</u>:

"Çinli Marko Polo" kitabının müəllifi Stefen Faynştayn isə düşünür ki, Marko Polo Çinə səfər edib. O bildirir ki, Marko Polo ticarətçi olub; yazı, əlifba onu maraqlandırmaya bilərdi. Bunun əvəzində o, kağız pulların istehsalını ətraflı təsvir edib.

Müəllim izahatını ümumiləşdirir. Deməli, bir problem haqqında müxtəlif fikirlər – tezislər ola bilər. Hər kəs öz fikrini arqumentlərlə saslandırır və opponentinin arqumentini əks-arqumentlə təkzib etməyə çalışır.

**Tapşırıq b (dərslik).** Şagirdlər mətndəki arqumentlərdən və əks-arqumentlərdən istifadə edərək sxemi şərh edirlər. Bununla da fikir – tezis, arqument, əks-arqument kimi ifadələrin mənalarını anladıqlarını və arqumentativ mətnlərin strukturunu mənimsədiklərini nümayiş etdirirlər.

**Tapşırıq c (dərslik).** Frensis Vudun 1-ci arqumenti: Marko Polo heç Qara dənizdən o yana keçməyib. Tapşırıqda verilən əks-arqumentlərin hər üçü xanım Vudun arqumentini təkzib edir. Lakin şagirdlər ən tutarlı hesab etdikləri əks-arqumenti seçir və səbəbini izah edirlər.

**Tapşırıq ç (dərslik).** Frensis Vudun 2-ci arqumenti: Marko Polonun Xubilay xanın sarayında yüksək vəzifə tutması inandırıcı deyil. Tapşırıqda verilən əks-arqumentlərin hər üçü xanım Vudun arqumentini təkzib edir. Lakin şagirdlər ən tutarlı hesab etdikləri əks-arqumenti seçir və səbəbini izah edirlər.

Daha sonra müəllim "Diqqət et" rubrikasındakı məlumatla şagirdlərin fikirlərini ümumiləşdirir.

**Tapşırıq d (dərslik).** <u>Cavab</u>: Bu məlumatdan Frensis Vudun 2-ci, yəni Polonun Xubilay xanın sarayında yüksək vəzifə tutmaması arqumentinə qarşı əks-arqument kimi istifadə etmək olar.

**Yazı**

**Tapşırıq a (iş dəftəri).** Şagirdlər məlumatlara əsasən mətndə qoyulmuş problemlə (Marko Polo, həqiqətən, Çinə səfər edibmi?) bağlı öz şəxsi qənaətini yazırlar.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

Layihə

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndəki faktlara əsaslanaraq müəllif mövqeyinə münasibət bildirir. | Tap. a, b, c, ç, d (D.) |

## 4-cü dərs. Böyük İpək yolu haqqında təqdimat

• Dərslik: səh. 33

**Təlim məqsədləri:**

**1.** Təqdimat materialında qrafik informasiyadan (şəkillərdən, cədvəllərdən) istifadə edir (st. 7-3.2.4).

**Mövzuya yönəltmə**

Müəllim şagirdlərin diqqətini səhifə 29-a yönəldir. Təqdimat materialını hazırlayarkən diqqət ediləcək məqamlar xatırlanır:

• Təqdimat bir neçə slayddan ibarət ola bilər;

• Slaydları verbal informasiya ilə yükləməmək üçün geniş cümlələrdən deyil, açar söz və birləşmələrdən istifadə etmək lazımdır;

• Slaydları cəlbedici etmək üçün vizual məlumatlardan da istifadə etmək məqsədəuyğundur.

7-3.2.4. **Tapşırıq a (dərslik).** Tapşırığın kompüterlə təchiz olunmuş otaqda icra olunması tövsiyə olunur. Tapşırığı qruplarla yerinə yetirmək məqsədəuyğundur. Hər qrup təqdimatın bir slaydını hazırlaya bilər:

**I Qrup:** "İpək yolu" adlandırılmasının səbəbi

**II Qrup**: Böyük İpək yolunun əhatə etdiyi ərazilər

**III Qrup**: Bu xəritədə Azərbaycanın yeri

**IV Qrup:** Böyük İpək yolunun əhəmiyyəti

Qrup üzvləri müvafiq yarımbaşlıq üzrə araşdırma aparır və slayd hazırlayır. Daha sonra "Böyük İpək yolu" təqdimatının slaydları sıra ilə təqdim olunur. Şagirdlər digər qrupların hazırladığı slaydlar haqqında rəy bildirirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Təqdimat materialında qrafik informasiyadan (şəkillərdən, cədvəllərdən) istifadə edir. | Tap. a (D.) |

## 5-ci dərs. Feilin şəkilləri (əmr, vacib)

• Dərslik: səh. 34 • İş dəftəri: səh. 19

**Təlim məqsədləri:**

**1.** Təsriflənən feillərin neçənci şəxsə aid olduğunu müəyyən edir (st. 7-4.2.1).

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik).** Şagirdlər tapşırıqda qoyulmuş suallara cavab verir, təsriflənməyən feilləri xatırlayırlar. "Xatırla" rubrikasında təsriflənməyən feillər haqqında xatırlatma verilib.

**Tapşırıq b (dərslik). Müəllimin nəzərinə!** Şagirdlərə indiyə qədər təsriflənməyən feillərlə bağlı ətraflı məlumat verilmişdi. Bu bölmədə isə təsriflənən feillər haqqında danışılacaq. Şagirdlərdən təsriflənməyən feillər ilə təsriflənən feillər arasındakı fərqləri soruşmaqla əvvəlki biliklərinin (5-ci sinif, II hissə, səh. 62, 63, 68, 69) xatırladılması tövsiyə olunur.

**Dil qaydaları**

7-4.2.1. **"Yadda saxla" rubrikası.** Rubrikada feilin şəkilləri haqqında verilmiş məlumat və nümunələr şərh olunur.

**Müəllimin nəzərinə!** Şagirdlərin mövzunu mexaniki şəkildə əzbərləməsinin qarşısını almaq məqsədilə feilin şəkillərinin adları cümlənin kontekstinə uyğun təqdim edilmişdir.

**Tapşırıq c ( dərslik).** Cavab:

Dərsə gecikmə.

Bu gün sinif iclası keçirəcəklər.

Sabah gəlsəm, sözümü deyərəm.

Gərək deyək ki, işlərini planlaşdırsın.

Sabaha qədər öz qərarımızı verməliyik.

İş dəftərində təqdim edilmiş tapşırıqlar şagirdlərin feilin şəkilləri haqqında aldıqları biliklərin möhkəmləndirilməsinə xidmət edir.

**Tapşırıq a ( iş dəftəri).** Cavab:

1. yerləşən – feili sifət
4. çıxanda – feili bağlama
5. keçmək – məsdər

**Tapşırıq b ( iş dəftəri).** Cavab:

1. III şəxsin cəmi
2. II şəxsin cəmi, I şəxsin təki
3. III şəxsin təki
4. I şəxsin cəmi
5. II şəxsin təki

**Tapşırıq c ( iş dəftəri).** Cavab:

Layihə

1 – e, 2 – a, 3 – b, 4 – c, 5 – ç, 6 – d.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Təsriflənən feillərin neçənci şəxsə aid olduğunu müəyyən edir. | Tap. **c** (D.); **b** (İ.D.) |

## 6-cı dərs. Feilin şəkilləri (əmr, vacib)

• Dərslik: səh. 35  • İş dəftəri: səh. 20

**Təlim məqsədləri:**

**1.** Feilin əmr və vacib şəkillərini fərqləndirir **(st. 7-4.2.1).**

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik).** Şagirdlər cümlənin kontekstinə əsasən danışanın hərəkətə olan münasibətini müəyyənləşdirərək tapşırıqdakı sualı cavablandırırlar. Cavab: 2. Dostla su iç, düşmənlə bal yemə.

**Dil qaydaları**

**7-4.2.1. "Yadda saxla" rubrikası.** Rubrikada feilin əmr şəkli haqqında verilmiş məlumat və nümunələr şərh olunur.

**Tapşırıq b (dərslik).** Cavab:

1. Başını el içində həmişə uca gör**üm**.
2. Çörək verən əlin kəsilmə**sin**.
3. Zəhmət olmasa, kitabı mənə ver**in**.
4. Get və yenə də yaz, yarat. II şəxsin təkində şəxs şəkilçisi işlənmir.
5. Gəl səninlə bir eksperiment ed**ək**.
6. Qoy bir daha nəzərdən keçir**sinlər**.

**Tapşırıq a (iş dəftəri).** Cavab:

| | baxmaq | | oxumaq | |
|---|---|---|---|---|
| | **təsdiq** | **inkar** | **təsdir** | **inkar** |
| Mən | baxım | baxmayım | oxuyum | oxumayım |
| Sən | bax | baxma | oxu | oxuma |
| O | baxsın | baxmasın | oxusun | oxumasın |
| Biz | baxaq | baxmayaq | oxuyaq | oxumayaq |
| Siz | baxın | baxmayın | oxuyun | oxumayın |
| Onlar | baxsınlar | baxmasınlar | oxusunlar | oxumasınlar |

**Tapşırıq b (iş dəftəri).** Cavab:

1. Dünyada qalma**sın** nə pislik, nə şər. *(S.Vurğun)* (III şəxsin təki)
2. Baxın ha həyətdə səs-küy salma**yın**. (II şəxsin cəmi)
3. Gəlin növbəti iclasın gündəliyini müəyyən ed**ək**. (I şəxsin cəmi)
4. Gedim içəri otaqları da sahmana sal**ım**. (I şəxsin təki)
5. Ovçu, insaf elə, keçmə bu düzdən... . *(S.Vurğun)* (II şəxsin təki, şəkilçisi yoxdur)
6. Qoy uşaqlar yay tətilində bədii əsər oxu**sunlar**. (III şəxsin cəmi)

**Tapşırıq c (iş dəftəri).** Cavab:

1 – xahiş, 2 – təklif, 3 – əmr, 4 – məsləhət.

**Tapşırıq c (dərslik).** Tapşırıq şagirdlərin diqqətini cümlənin kontekstinə yönəldir. Cavab: -malı[2]

**"Yadda saxla" rubrikası.** Rubrikada feilin vacib şəkli haqqında verilmiş məlumat və nümunələr şərh olunur.

**Tapşırıq ç (dərslik).** Cavab:

II şəxsin təki, təsdiq
I şəxsin təki, təsdiq
I şəxsin cəmi, inkar
I şəxsin cəmi, inkar
III şəxsin cəmi, təsdiq

**Tapşırıq ç (iş dəftəri).** Cavab: c

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Feilin əmr şəklini fərqləndirir. | Tap. **a, b** (D.); **a, b, c** (İ.D.) |
| Feilin vacib şəklini fərqləndirir. | Tap. **ç** (D.); **ç** (İ.D.) |

Layihə

# 2-ci fəsil

## 1-ci dərs. Səyyahlar və onların coğrafi kəşfləri

• Dərslik: səh. 36-37 • İş dəftəri: səh. 21

**Təlim məqsədləri:**

**1.** Əlavə biliklərindən istifadə etməklə dinlədiyi fikirlərə münasibət bildirir **(st. 7-1.1.3).**

**2.** Verilmiş qrafik informasiya əsasında mətn qurub nəql edir **(st. 7-1.3.1).**

**3.** Sözün izahını verərkən onu digər hiponimlərdən fərqləndirir **(st. 7-4.4.2).**

**4.** Mətndəki məlumatlardan çıxış edərək verilmiş fikirləri ümumiləşdirir **(st. 7-2.3.2).**

**Mövzuya yönəltmə**

Müəllim şagirdlərin diqqətini şəkillərə və məlumat vərəqlərindəki yarımbaşlıqlara yönəldərək soruşur:

Sizcə, bu fəsildə nədən danışılır?

Şagirdlər suala cavab verməklə fəslin mövzusu haqqında fikirlərini bildirirlər. Bu mövzuda ilkin biliklərini nümayiş etdirirlər.

**Danışma**

**7-1.1.3. Tapşırıq a (dərslik).** Cavab: Şagirdlər coğrafiya fənnindən əldə etdikləri bilgilər əsasında verilən sual ətrafında danışırlar.

**7-1.3.1. Tapşırıq b (dərslik).** Şagirdlər qruplara ayrılırlar. Məlumat vərəqlərinə əsasən səyyahlar və onların coğrafi kəşfləri haqqında məlumatları rabitəli mətn şəklində təqdim edirlər.

**Diferensial təlim.** Artıq bir neçə ildir ki, şagirdlərin qrafik informasiyanı rabitəli nitq şəklində təqdim edə bilmək bacarıqları inkişaf etdirilir. Müəllim tapşırığı yerinə yetirərkən bu bacarığı zəif olan şagirdləri eyni qrupa cəlb edir. Onlara tapşırığı asanlıqla yerinə yetirmək üçün suallar təqdim edilir. Şagirdlər suallara cavab verərək məlumat vərəqindəki məlumatları rabitəli mətnə çevirirlər.

Məsələn, I məlumat vərəqi üzrə şagirdlərə təqdim oluna biləcək suallara nümunə:

Xristofor Kolumb kimdir? O hansı əsrlərdə yaşamışdır? Kolumb neçə dəfə ekspedisiyaya çıxmışdı? Onun ekspedisiyalarının məqsədi nə idi? Bu ekspedisiyaları hansı ölkə təşkil etmişdi? Onun ekspedisiyaları nə ilə nəticələndi?

**Söz ehtiyatı**

**7-4.4.2. Tapşırıq c (dərslik).** Şagirdlər tapşırıqda verilmiş sözlər arasındakı məna fərqini izah edirlər.

Ekspedisiya – müəyyən məqsəd üçün edilən səyahət, səfər.

Kruiz – gəmi ilə bir çox ölkələrin limanlarında dayanmaqla uzunmüddətli dəniz səyahəti.

Qastrol – müğənninin, artistin, teatr və ya sirk truppasının tamaşa və ya konsert vermək məqsədilə başqa şəhər və ya ölkələrə səfəri.

Şagirdlərin cavabı təxminən belə ola bilər: Ekspedisiyanı, adətən, səyyahlar müxtəlif məqsədlərlə təşkil edirlər. Məsələn, hər hansı yeni bir torpaq kəşf etmək üçün təşkil oluna bilər. Turistlər isə yeni-yeni ölkələr görmək üçün dəniz yolu ilə səyahətə çıxırlar. Müğənnilər, aktyorlar tamaşalarda iştirak etmək üçün qastrollara çıxırlar.

Bu sözlər "səfər" hiperoniminə aid olan hiponimlərdir.

**Tapşırıq ç (dərslik).** Cavab: "Quru yol" birləşməsində quru sözü **hansı?** sualına cavab verir və sifətdir. Yolun yaş deyil, quru olduğunu göstərir. "Quru yolu" söz birləşməsində isə quru sözü dəniz yolu ilə deyil, məhz torpaq yol ilə mənasında işlənir.

**Tapşırıq d (dərslik).** Cavab:

"Boğaz" sözü coğrafiya termini kimi işlənir: dənizin iki quru arasındakı dar hissəsi. *Dardanel boğazı.*

"Boğaz" sözü eyni zamanda çoxmənalı sözdür. Bu sözün ilkin, həqiqi mənası boyunun, qida borusunun başı və nəfəs yollarının yerləşdiyi ön hissəsi; boyun deməkdir. Müxtəlif qabların (şüşələrin və s.-nin) ağızları ilə gövdələri arasındakı dar hissə və yaxud çəkmə və corabın ayaqlıqdan yuxarı hissəsi mənaları isə "boğaz" sözünün törəmə, yəni məcazi mənalarıdır. Beləliklə, demək olar ki, "boğaz" termini də həmin sözün törəmə mənalarından biridir, yəni digər mənalarla çoxmənalılıq təşkil edir.

**Oxuyub-qavrama**

**7-2.3.2. Tapşırıq e (dərslik).** Tapşırıqda qoyulmuş suallara cavab vermək məlumat vərəqlərindəki informasiyanı ümumiləşdirməyə kömək edir. Cavab:

1. Haqqında danışılan coğrafi kəşflər XV–XVIII əsrləri əhatə edir. Şagirdlər məlumat vərəqində

Layihə

yerləşdirilmiş xəritələrə diqqət etməli, ekspedisiyaların təşkil edildiyi illərə nəzər yetirməlidirlər.

2. XV–XVI əsrlərdə təşkil olunmuş ekspedisiyaların əsas məqsədi Avropadan Asiyaya dəniz yolu tapmaq idi. XVIII əsrdə isə Ceyms Kuk naməlum Cənub torpağını (Terra Australis) tapmaq istəyirdi.

3. Ekspedisiyaları daha Avropa ölkələri təşkil edirdi.

4. Ekspedisiyaların nəticəsində Avropadan Hindistana dəniz yolu tapıldı. Yeni torpaqlar (Amerika qitəsi, Avstraliya materiki) kəşf olundu. Asiya və Afrikada müstəmləkə imperiyası yarandı. Yer kürəsini dəniz yolu ilə dövr etməyin mümkünlüyü sübut olundu.

**Tapşırıq ə (dərslik).** Cavab:

Xristofor Kolumb Amerika qitəsini kəşf etdi.

Vasko da Qama Avropadan Hindistana dəniz yolu tapdı.

Ferdinand Magellan Yer kürəsi ətrafına dəniz yolu ilə səyahət etdi.

Ceyms Kuk Avstraliya materikini kəşf etdi.

**Tapşırıq a (iş dəftəri).** Cavab: 1 – A, 2 – Ç, 3 – B, 4 – C, 5 – Ç.

**Tapşırıq f (dərslik).** Cavab:

Çünki məhz XV–XVI əsrlərdə yeni ticarət yollarının axtarılması məqsədilə ekspedisiyalar təşkil edildi və yeni okeanların, qitələrin kəşfi ilə nəticələndi.

Çünki avropalılar Hindistan və digər zəngin Asiya ölkələri ilə ticarət əlaqələrini genişləndirmək istəyirdilər.

**Yazı**

**Tapşırıq b (iş dəftəri).** Şagirdlər bu dərsdə coğrafi kəşflər haqqında öyrəndikləri məlumatları ümumiləşdirirlər. Bu məlumatlardan istifadə edərək tapşırıqda təqdim edilmiş plana və struktura əsasən informativ mətn yazırlar.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Əlavə biliklərindən istifadə etməklə dinlədiyi fikirlərə münasibət bildirir. | Tap. **a, f** (D.) |
| Verilmiş qrafik informasiya əsasında mətn qurub nəql edir. | Tap. **b** (D.) |
| Sözün izahını verərkən onu digər hiponimlərdən fərqləndirir. | Tap. **c, ç, d** (D.) |
| Mətndəki məlumatlardan çıxış edərək verilmiş fikirləri ümumiləşdirir. | Tap. **e, ə, f** (D.); **a** (İ.D.) |

## 2-ci dərs. Manuel Vasko da Qama

• Dərslik: səh. 38-39 • İş dəftəri: səh. 22

**Təlim məqsədləri:**

**1.** Sözün izahını verərkən onu digər hiponimlərdən fərqləndirir **(st. 7-4.4.2).**

**2.** Mətnin məzmunu ilə bağlı sualları cavablandırmaqla mətni mənimsədiyini nümayiş etdirir **(st. 7-2.1.1).**

**3.** Mətndəki hadisə və faktları əlaqələndirərək açıq şəkildə ifadə olunmamış informasiyanı əldə edir **(st. 7-2.2.2).**

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik).** Motivasiya xarakterli bu tapşırıqla şagirdlər Vasko da Qama haqqında bildiklərini xatırlayırlar.

> **Müəllimin nəzərinə!** Dərsin bu mərhələsində BİBÖ cədvəlindən istifadə edilməsi məqsədəuyğundur. Şagirdlər cədvəlin "Bilirəm" sütununa Vasko da Qama haqqında bildikləri məlumatları qeyd edirlər. "Bilmək istəyirəm" sütununa bu səyyah haqqında daha çox məlumat almaq üçün suallar yazırlar. Cədvəlin son sütunu isə oxudan sonra doldurulur.

**Oxu**

**"Manuel Vasko da Qama" mətni üzrə iş**

**Səssiz oxu.** Əvvəlcə şagirdlər onlara verilmiş vaxt ərzində "Manuel Vasko da Qama" mətnini səssiz oxuyurlar.

**Söz ehtiyatı**

**7-4.4.2. Tapşırıq b (dərslik).** "Burun" sözü coğrafiyaya aid termin kimi işlənir: Qurunun dənizin içinə girən dağlıq, qayalıq hissəsi. *Zığ burnu. Ümid burnu.*

"Burun" sözü eyni zamanda çoxmənalı sözdür. Çoxmənalı sözlər arasında semantik məna əlaqəsi olur. Bu sözü ilkin, həqiqi mənası belədir: insan və heyvanın üzündə iybilmə və tənəffüs orqanı. Müxtəlif şeylərin, alətlərin və s.-nin uc tərəfi, irəli çıxan hissəsi mənası isə "burun" sözünün törəmə, yeni məcazi mənasıdır.

Layihə

**Tapşırıq c (dərslik).** Müəllim şagirdlərin diqqətini mətndə altından xətt çəkilmiş cümləyə yönəldir: Avropalılar gətirdikləri malları çoxlu ədviyyata – darçın, mixək və qara istiota dəyişib tələsik şəhəri tərk etdilər.

Cavab: Bu cümlədə işlənmiş "darçın", "mixək", "qara istiot" sözləri hiponim, "ədviyyat" sözü isə hiperonimdir. "Ədviyyat" sözünə aid digər hiponimlər: sarıkök, zəfəran, cirə, zəncəfil və s.

**Oxuyub-qavrama**

**7-2.1.1. Tapşırıq a (iş dəftəri).** Tapşırıq şagirdlərin mətnlə bağlı faktoloji məlumatları necə qavradıqlarını yoxlamağa imkan yaradır.

• Vasko da Qama ekspedisiyaya Portuqaliya bayrağı altında çıxır. A

• Ərəb tacirləri ilə Vasko da Qamanın heyəti arasında atışma olur. C

• Vasko da Qama gənc olsa da, təcrübəli idi. B

• Müsəlman tacirləri Vasko da Qamanın nəcib insan olduğunu deyirdilər. B

• Ekspedisiya heyətinin çoxu xəstəlikdən tələf olmuşdu. C

• Vasko da Qama Hindistana iki dəfə səyahət etmişdir. A

**Tapşırıq ç (dərslik).** Cavab:

Vasko da Qamanın ilk ekspedisiyasının məqsədi Afrikanın cənubundan dəniz yolu ilə Hindistana yol tapmaq və zəngin Asiya ölkələri ilə ticarət əlaqələri yaratmaq idi. Lakin ikinci ekspedisiya müstəmləkəçilik siyasəti daşıyırdı. Belə ki, portuqallar Afrikanın Hind okeanı sahillərini, Ərəbistan və Hindistan yarımadalarını müstəmləkəyə çevirirlər.

**Tapşırıq b (iş dəftəri).** Cavab: e. 2,4.

**7-2.2.2. Tapşırıq c (iş dəftəri).** Cavab: I ekspedisiya oktyabr ayında başlanmışdır.

**Tapşırıq ç (iş dəftəri).** Şagirdlər bu tapşırığı yerinə yetirdikdən sonra 1-ci dərsdə Manuel Vasko da Qamaya aid məlumat vərəqinə əsasən yoxlaya bilərlər.

**Tapşırıq d (dərslik).** Cavab: Mətnin III abzasında qeyd olunub ki, müsəlman tacirləri Vasko da Qamanı dəniz qulduruna bənzədirdilər. Ərəb dənizçisi Əhməd ibn Məcidin xatirələri bu fikri təsdiqləyir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözün izahını verərkən onu digər hiponimlərdən fərqləndirir. | Tap. b, c (D.) |
| Mətnin məzmunu ilə bağlı sualları cavablandırmaqla mətni mənimsədiyini nümayiş etdirir. | Tap. ç (D.); a, b (İ.D.) |
| Mətndəki hadisə və faktları əlaqələndirərək açıq şəkildə ifadə olunmamış informasiyanı əldə edir. | Tap. d (D.); c, ç (İ.D.) |

## 3-cü dərs. Debat

• Dərslik: səh. 39 • İş dəftəri: səh. 23

**Təlim məqsədləri:**

**1.** Həyatdan nümunələr gətirməklə və ya araşdırılan faktlardan istifadə etməklə qarşı tərəfin fikrinə münasibətini əsaslandırır **(st. 7-1.2.2).**

**2.** Debatlarda çıxışı zamanı uyğun standart ifadələrdən istifadə edir **(st. 7-1.4.1).**

**Mövzuya yönəltmə**

Müəllim "Coğrafi kəşflər" mövzusunda frontal sorğu keçirir və şagirdlərin bu mövzudakı biliklərini xatırladır.

**Danışma**

**7-1.2.2. 7-1.4.1. Tapşırıq a (dərslik).** Bu dərsdə coğrafi kəşflərin yerli xalqlara təsiri mövzusunda debat keçiriləcək. Debatı aşağıdakı ardıcıllıqla təşkil etmək olar.

**Giriş və mövzunun təqdimatı.** Əvvəlcə müəllim mövzunu təqdim edir. Şagirdlər tapşırıqda təqdim edilmiş fikirlər haqqında öz mövqelərini bəyan edirlər. Şagirdlərə mövqelərini müəyyənləşdirmək üçün faktlar təqdim edilmişdir.

**Qrupların təşkili və vəzifə bölgüsü.** Mövqeləri eyni olan şagirdlər bir qrupda iştirak edir. Qrup üzvləri arasında vəzifə bölgüsü aparılır.

**Müəllimin nəzərinə.** Komanda iştirakçıları arasında vəzifə bölgüsü zamanı hər bir şagirdin bacarığını, istedadını nəzərə almaq tövsiyə edilir. Məsələn, danışma bacarığı yüksək olan, aydın, axıcı nitqə sahib olan şagirdlərin komandanın spikeri seçilməsi məqsədəuyğundur. Liderlik bacarığı olanlar moderator kimi seçilə bilər.

**Təlimatla tanışlıq.** Müəllim şagirdlərin diqqətini təlimata yönəldir. Hər bir iştirakçı vəzifələri ilə

Layihə

tanış olur. "Qlossari" rubrikasında verilmiş "reqlament" sözünün mənası izah edilir.

Debat zamanı hər bir iştirakçının reqlamentə, yəni debatın qaydalarına, məsələn, çıxışların, sual-cavabların ardıcıllığına, hər bir çıxış üçün ayrılmış vaxta və s. ciddi riayət etməsi şagirdlərin nəzərinə çatdırılmalıdır.

**Oxuyub-qavrama**

**Tapşırıq a (iş dəftəri).** Şagirdlər fikirlərini aşağıdakı kimi əsaslandıra bilərlər.

***Yeni ticarət yolları müəyyən edildi və ölkələr arasında ticarət əlaqələri yarandı.*** Amerika qitəsi kəşf olundu. Köhnə və "Yeni dünya" arasında mədəni-ticari əlaqələr yarandı. Avropadan Hindistana dəniz yolu tapıldı. Bununla da Asiya–Avropa arasında ticarət əlaqələri yarandı.

***Dünya xəritəsinin dəqiq konturlarını tərtib etməyə imkan verdi.*** Manuel Vasko da Qamanın ekspedisiyasından sonra Afrika sahil məntəqələrinin xəritəsi müəyyənləşdi. Magellanın Yer kürəsi ətrafına səyahətindən sonra Yer kürəsinin təsəvvür ediləndən daha böyük olduğu müəyyən edildi. Ceyms Kukun ekspedisiyasının nəticəsində dünya xəritəsi Asiyanın cənub və şərq hissəsindəki bir çox torpaqlar, eləcə də Sakit okeandakı adalarla zənginləşdi.

***Ölkələr arasında qida məhsullarının mübadiləsinə, yeni ərzaqlarla tanışlığa imkan yaratdı.*** Kolumbun kəşf etdiyi Amerika qitəsindən, yeni torpaqlardan köhnə dünyaya qarğıdalı, kartof, pomidor kimi ərzaqlar yayıldı. Yeni dünya isə buğda, düyü, şəkər qamışı kimi ərzaqlarla tanış oldu.

***Müxtəlif ərazilərin flora və faunası haqqında məlumatlar toplandı.*** Səyyahlar kəşf etdikləri yeni torpaqlarda yaşayan heyvanlar, yetişən bitkilər haqqında yeni məlumatlar öyrəndilər.

***Yeni torpaqlara yiyələnmək üçün ölkələr arasında rəqabət yarandı.*** Yeni torpaqları kəşf etmək, həmin torpaqları müstəmləkəyə çevirmək və yaxud ticarət əlaqələri yaradıb varlanmaq üçün Avropa ölkələri arasında güclü rəqabət yaranmışdı. Məsələn, müəyyən dövrdə portuqallar Asiya–Avropa arası ticarətdə üstünlük əldə etmişdilər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Həyatdan nümunələr gətirməklə və ya araşdırılan faktlardan istifadə etməklə qarşı tərəfin fikrinə münasibətini əsaslandırır. | Tap. a (D.) |
| Debatlarda çıxışı zamanı uyğun standart ifadələrdən istifadə edir. | Tap. a (D.) |

## 4-cü dərs. Feilin şəkilləri (lazım, arzu)

• Dərslik: səh. 40 • İş dəftəri: səh. 24

**Təlim məqsədləri:**

**1.** Feilin lazım və arzu şəkillərini fərqləndirir **(st. 7-4.2.1).**

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik).** Şagirdlər cümlələrə əsasən danışanın hərəkətə olan münasibətini müəyyənləşdirirlər. Cavab: 1 – c, 2 – a, 3 – b.

**Dil qaydaları**

**7-4.2.1. "Yadda saxla" rubrikası.** Rubrikada feilin lazım şəkli haqqında verilmiş məlumat və nümunələr şərh olunur. Lazım şəklinin inkar formasının yalnız "deyil" sözünün köməyi ilə düzəldiyini vurğulamaq, bir çox nümunələr göstərmək, şagirdin diqqətinə çatdırmaq lazımdır.

**Tapşırıq b (dərslik).** Cavab:

1. Uşaqlar məktəbin həyətində ağac ək**əsi**dirlər.
2. Bu gün atam işə çıx**ası** deyil.
3. Axşam güclü yağış yağ**ası**dır.
4. Biz bu yolda mübarizəni dayandır**ası** deyilik.
5. Yayda siz də bizim kənddə dincəl**əsi**siniz.
6. Mən sabah bütün günü təqdimata hazırlaş**ası**yam.

**Tapşırıq a (iş dəftəri).** Cavab: c. Bəzi qeydlərə yenidən bax**ası**yıq.

**"Yadda saxla" rubrikası.** Rubrikada feilin arzu şəkli haqqında verilmiş məlumat və nümunələr şərh olunur.

**Tapşırıq c (dərslik).** Cavab: Gərək biləsən. Gərək çağlaya. Burada "biləsən" feili II şəxsin təkində, "çağlaya" feili isə III şəxsin təkində işlənmişdir.

Layihə

**Müəllimin nəzərinə.** "ç" tapşırığını yerinə yetirməzdən əvvəl tapşırığın yanında yerləşdirilmiş qeydi şagirdlərin diqqətinə çatdırmaq vacibdr.

**Tapşırıq ç (dərslik).** Cavab:

1. Əmr şəklindədir, çünki əmr ədatı (qoy) ilə işlənmişdir.
2. Arzu şəklindədir, çünki arzu ədatı (kaş) ilə işlənmişdir.
3. Arzu şəklindədir, çünki arzu ədatı (gərək) ilə işlənmişdir.
4. Əmr şəklindədir, çünki əmr ədatı (gəl) ilə işlənmişdir.

**Tapşırıq b (iş dəftəri).** Cavab:

Gəlin qaranlıq düşməmiş evə qayıdaq.

Barı sağ-salamat evimizə qayıdaq.

**Tapşırıq c (iş dəftəri).** Cavab:

Əmr şəklində işlənən feillər: yaz-aq, oxu-yaq, bil-ək

Arzu şəklində işlənən feillər: yaz-a-q, oxu-ya-q, bil-ə-k

**Tapşırıq ç (iş dəftəri).** Cavab:

| Feil | Feilin şəkli | Feilin şəklinin əlaməti | Təsdiq, yoxsa inkar | şəxs şəkilçisi |
|---|---|---|---|---|
| nəzərə almalısan | vacib | -malı | təsdiq | -san |
| kəs | əmr | - | təsdiq | - |
| yabalaşma-yasan | arzu | -ya | inkar | -san |
| qərar vermə | əmr | - | inkar | - |
| planlaşdır-malısınız | vacib | -malı | təsdiq | -sınız |
| yadımdan çıxası deyil | lazım | -ası | inkar | - |

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Feilin lazım və arzu şəkillərini fərqləndirir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar |

# 3-cü fəsil

## 1-ci dərs. Amerikanın kəşfi

• Dərslik: səh. 41-43 • İş dəftəri: səh. 25

**Təlim məqsədləri:**

**1.** Dinlədiyi mətndəki fakt və fikirlərə münasibətini bildirir st. 7-1.1.3).

**2.** Mətndən götürdüyü qeydləri cədvəl üzrə qruplaşdırır (st. 7-2.1.1).

### Mövzuya yönəltmə

**Tapşırıq a (dərslik).** Şagirdlər aşağı siniflərdə və digər fənlər üzrə əldə etdiyi məlumatlardan çıxış edərək "Amerika açmaq" ifadəsinin hansı situasiyada işləndiyini xatırlayırlar.

Cavab: Bir şəxs artıq hamıya məlum olan şeydən danışanda deyirlər ki, sanki Amerika açıb. Bu ifadənin yaranması Xristofor Kolumbun Amerikanı kəşf etməsi tarixi hadisəsi ilə bağlıdır.

### Dinləmə

**7-1.1.3. Tapşırıq b (dərslik).** "Amerikanın kəşfi" mətni səsləndirilir.

***Amerikanın kəşfi***

*Oktyabrın ikinci bazar ertəsi ABŞ-də "Kolumb günü" qeyd olunur. Beləcə, amerikalılar 1492-ci il oktyabrın 12-də bu qitəni kəşf etmiş italyan səyyahı Xristofor Kolumbu yad edirlər. Lakin Kolumba qədər bu torpaqlara bir çox səyyahlar səfər etmişdilər.*

*Amerikaya ilk ayaq basan dənizçi skandinaviyalı Leyf Erikson olmuşdur. O, X əsrdə indiki Kanada ərazisinə səfər etmişdir. Bu ərazidə tapılmış səkkiz taxta evin qalıqları burada vikinqlərin yaşadığını sübut edir. Onlar bu yerdən, ehtimal ki, gəmilərini təmir etmək və yaxud dayanacaq kimi istifadə etmişlər. Leyfin səfərləri haqqında "Qırmızı Erikin dastanı" və "Qrenlandiyalıların dastanı" kimi əlyazmalarda bəhs edilmişdir.*

*XV əsrin sonlarında Kolumb Hindistana yeni bir ticarət yolu tapmaq məqsədilə 4 ekspedisiya təşkil etdi. 1492–1493-cü illərdə baş tutan birinci ekspedisiyada üç gəmi və 90 nəfər heyət iştirak edib. Bu səyahətdə indiki Baham, Haiti, Kuba adaları kəşf edilib. Kolumb kəşf etdiyi yeni torpaqları Çin və Hindistan əraziləri hesab edib. Kolumbun ikinci səyahəti 1493-cü ildən 1496-cı ilədək davam edir. Ekspedisiya nəticəsində Puerto-Riko, Yamayka və bir sıra başqa adalar kəşf edilir. Hər gəlişində kəşf etdiyi ərazilərdən xeyli qənimət*

Layihə

*toplayan Kolumb 1498–1500-cü illərdə Amerikaya üçüncü səyahətini edib. Onun son səyahəti isə 1502-ci ildən 1504-cü ilə qədər davam edib. Bu səyahət zamanı o, Mərkəzi Amerikanın materik hissəsini kəşf edib. Lakin Kolumb ömrünün sonuna kimi Hindistana dəniz yolu kəşf etdiyini düşünüb.*

*Həmin dövrdə bir neçə səyyah Amerikaya eyni məqsədlə səfər etmişdi. 1497-ci ildə ingilis səyyahı Con Kabotun təşkil etdiyi ekspedisiya Amerikanın şimal-şərq sahillərini tədqiq etdi.*

*1499-cu ilin yayında ispan bayrağı altında üzən Ameriqo Vespuççi isə Cənubi Amerika sahillərini tədqiq etdi. Vespuççi 1501–1502-ci illərdə Cənubi Amerika sahillərinə üz tutaraq sübut etdi ki, bu ərazilər Kolumbun ehtimal etdiyi kimi, Asiyanın şərq sahilləri deyil, "Yeni dünya", yəni indiyə kimi avropalılara bəlli olmayan ayrı bir qitədir.*

Şagirdlər dinlədikləri mətnə və tapşırıqda verilmiş cədvələ əsasən ora səyahət edən səyyahların bu qitənin kəşfində tarixi rolu haqqında danışırlar.

Skandinaviyalı **Leyf Erikson** X əsrdə ilk dəfə Amerikaya ayaq basmışdır.

**Xristofor Kolumb** XV əsrdə Hindistana yeni bir ticarət yolu tapmaq məqsədilə ekspedisiyalar təşkil edir. Kolumb ilk səyahətində Amerika qitəsini kəşf edib.

1497-ci ilin mayında ingilis səyyahı **Con Kabotun** təşkil etdiyi ekspedisiya Amerikanın şimal-şərq sahillərini tədqiq edir.

1499-cu ilin yayında ispan bayrağı altında üzən daha bir kəşfiyyatçı **Ameriqo Vespuççi** sübut etdi ki, Kolumbun kəşf etdiyi yeni torpaqlar Asiyanın şərq kənarı deyil (əvvəlcə Kolumbun səyahətlərindən ehtimal edildiyi kimi), "Yeni dünya" kimi təsvir edilən ayrı bir qitədir.

**Tapşırıq c (dərslik).** Cavab: Avropalılar bu qitəni yalnız XV əsrdən sonra kəşf etmişdilər. Deməli, avropalılar üçün bu torpaqlar tanıdıqları yerlərə nisbətən yeni idi.

**Tapşırıq a (iş dəftəri).** Cavab:

1. 1492-ci il oktyabrın 12-də italyan səyyahı **Xristofor Kolumb** Amerika qitəsinə ayaq basıb.

2. Amerikaya ilk ayaq basan dənizçi skandinaviyalı **Leyf Erikson** olmuşdur.

3. Kolumbla eyni dövrdə ingilis səyyahı **Con Kabot** Amerikanın şimal-şərq sahillərini tədqiq edib.

4. 1499-cu ilin yayında ispan dənizçisi **Ameriqo Vespuççi** Cənubi Amerika sahillərini tədqiq etdi.

### Oxuyub-qavrama

**Tapşırıq ç (dərslik). "Niyə "Amerika"?" mətni**
Şagirdlər mətnin adına diqqət yetirir, mətni yazmaqda müəllifin məqsədini müəyyən edirlər. Mətni müvafiq səs tonu ilə növbə ilə oxuyurlar. Oxu prosesi zamanı şagirdlər mətndə rast gəldikləri tanış olmayan sözlərin mənalarını kontekstə əsasən təxmin edirlər. Sonra müəllimin və ya izahlı lüğətin köməyi ilə sözlərin mənaları aydınlaşdırılır.

**7-2.1.1. Tapşırıq d (dərslik).** Şagirdlər suallara cavab verir, mətni diqqətlə oxuduqlarını nümayiş etdirirlər.

**Tapşırıq e (dərslik).** Şagirdlər tapşırığı yerinə yetirməzdən əvvəl "Qlossari" rubrikasında verilmiş "xronika" sözünün izahı ilə tanış olurlar.

Cavab:

| Tarix | Nəşr | Yenilik |
|---|---|---|
| 1503-cü il | Mundus Novus | Qərbdə Avropa ilə Asiya arasında yeni naməlum torpaqların olduğu bəyan edildi. |
| 1504-cü il | Vespuççinin ekspedisiyalarından bəhs edən məktublar | Vespuççinin şəxsiyyəti haqqında dəqiq məlumatlar verildi və insanlar məşhur məktubların müəllifini yaxından tanıdılar. |
| 1507-ci il | "Kəşflər haqqında antologiya" kitabı | İlk dəfə Vespuççinin adı qarşısında "Yeni dünyanı kəşf edən" ifadəsi işlədildi. |
| 1507-ci il 25 aprel | "Kosmoqrafiyaya giriş" kitabı | Vespuççinin ekspedisiyaları haqqında geniş məlumat verilir. "Yeni dünya"nın kəşfi tamamilə Vespuççiyə aid edilir. |

### Söz ehtiyatı

**Tapşırıq b (iş dəftəri).** Cavab:

1. Kartoqraf – coğrafiya xəritələri çəkən mütəxəssis; xəritəçi

Layihə

2. Kartoqrafiya – coğrafiya xəritələri düzəltmək üsulundan bəhs edən elm

3. Şəhadətnamə – bir şeyi təsdiq edən, icazə verən sənəd, rəsmi kağız

4. Kosmoqrafiya – kainatın quruluşu, yaranması haqqında elm

5. Antologiya – müxtəlif müəlliflərin seçilmiş əsərlərinin toplusu

6. Bəyannamə – xüsusi şəxsin, yaxud təşkilatın məlumatı

**Oxuyub-qavrama**

**7-2.1.1. Tapşırıq c (iş dəftəri).** Cavab:

Vespuççinin məktubları daha çox oxucu kütləsi toplayırdı, *çünki onun gözəl təsviretmə qabiliyyəti və cəlbedici üslubu var idi. Səyahət boyu rastlaşdığı hadisələri canlı, dəqiq təsvir etməsi oxucularda maraq yaradırdı.*

Vespuççi Kolumbun kəşf etdiyi torpağın Hindistan deyil, Asiya ilə Avropa arasında tamamilə naməlum bir yer olduğunu sübut edir. *Nəticədə dünya xəritəsinin dəqiq konturlarının tərtib edilməsinə imkan verdi.*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dinlədiyi mətndəki fakt və fikirlərə münasibətini bildirir. | Tap. **b, c** (D.); **a** (İ.D.) |
| Mətndən götürdüyü qeydləri cədvəl üzrə qruplaşdırır. | Tap. **d, e** (D.) |

## 2-ci dərs. Niyə "Amerika"?

• Dərslik: səh. 43-44 • İş dəftəri: səh. 26

**Təlim məqsədləri:**

**1.** Mətnin struktur elemetlərindən olan haşiyəni onun məzmunu ilə əlaqələndirir **(st. 7-2.3.3).**

**2.** Qeyri-bədii mətnləri dil-üslub xüsusiyyətlərinə görə müqayisə edir **(st. 7-2.3.5).**

**3.** Fikir – arqument əlaqəsini gözləməklə arqumentativ mətn yazır **(st. 7-3.1.1).**

**Mövzuya yönəltmə**

Frontal sorğu vasitəsilə "Niyə "Amerika"?" mətninin məzmunu xatırlanır.

**Oxuyub-qavrama**

**7-2.3.3. Tapşırıq a (dərslik).** Tapşırıq şagirdlərin diqqətini mətnə aid haşiyəyə yönəldir və burada verilən məlumatı mətnin məzmunu ilə əlaqələndirməyi öyrədir.

Cavab: "Kosmoqrafiyaya giriş" kitabından verilmiş məlumata əsasən güman etmək olar ki, Avropa və Asiya qitələri qadınların adını daşıyıb. Yeni qitə isə onu kəşf edən kişinin adı ilə Amerika adlandırılıb.

**7-2.3.5. Tapşırıq b (dərslik).** Şagirdlər 1-ci dərsdə dinlədikləri "Amerikanın kəşfi" mətni ilə oxuduqları "Niyə "Amerika"?" mətnini mövzu, məzmun, müəllifin məqsədi baxımından müqayisə edirlər.

Cavab: "Amerikanın kəşfi" mətnində kim? nə? harada? nə zaman? suallarına cavab axtarılır və xronoloji ardıcıllıq gözlənilir. Bu mətni yazmaqda müəllifin məqsədi sadəcə informasiya verməkdir. Lakin "Niyə "Amerika"?" mətnində necə? nə üçün? suallarına cavab axtarılır, hadisənin mərhələlərini təşkil edən faktlar sadalanır. Bu mətni yazmaqda müəllifin məqsədi hadisənin səbəbini izah etməkdir.

**"Diqqət et" rubrikası.** Müəllim rubrikada verilmiş məlumatları şərh edir və "Amerikanın kəşfi" ilə "Niyə "Amerika"?" mətnlərini nümunə göstərərək izah edir ki, mətnlərin mövzusu eyni olsa da, müəllifin məqsədi fərqlidir.

**Tapşırıq c (dərslik).** Müəllim şagirdlərin diqqətini "Niyə "Amerika"?" mətninin giriş hissəsinə yönəldir. Şagirdlər mətnin giriş hissəsini bir daha oxuyurlar. Tapşırıqda qoyulmuş suala cavab axtarırlar.

Cavab: Müəllif yönəldici suallarla beyin həmləsi edir və oxucunu mövzu haqqında düşünməyə məcbur edir. Niyə "Yeni dünya" Kolumbiya deyil, Amerika adlandırıldı?

Şagirdlər müəllifin mətnin nəticə hissəsində verilmiş ümumiləşdirici fikrinə münasibət bildirirlər.

**Yazı**

**7-3.1.1. Tapşırıq ç (dərslik).** Tapşırıq şagirdlərdə arqumentativ mətn yazmaq bacarığını inkişaf etdirir. Şagirdlər şifahi şəkildə yazacaqları mətnin mövzusunu, məqsədini, strukturunu müzakirə edirlər.

**Mövzu:** "Yeni dünya"nın adı

**Mətni yazmaqda müəllifin məqsədi:** Sübut etmək istəyirsiniz ki, Amerikanın Ameriqo Vespuççinin şərəfinə adlandırılması tarixi ədalətsizlikdir.

**Strukturu:** Şagirdlər mətnin giriş hissəsində



Layihə

mövzu ilə bağlı problemi açıqlayırlar. Bu problemə öz baxışlarını müəyyən edirlər. Mətnin əsas hissəsində bu fasildə aldıqları məlumatları, bilgiləri, faktları arqument kimi istifadə edərək fikirlərini əsaslandırmağa, sübut etməyə çalışırlar. Mətnin nəticə hissəsində mövzu ilə bağlı ümumiləşdirici fikir söyləyirlər.

**Tapşırıq a (iş dəftəri).** Şagirdlər dərslikdə verilmiş "c" tapşırığının müzakirəsindən sonra iş dəftərində sərbəst şəkildə arqumentativ mətn yazırlar.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnin struktur elemetlərindən olan haşiyəni onun məzmunu ilə əlaqələndirir. | Tap. **a** (D.) |
| Qeyri-bədii mətnləri dil-üslub xüsusiyyətlərinə görə müqayisə edir. | Tap. **b** (D.) |
| Fikir – arqument əlaqəsini gözləməklə arqumentativ mətn yazır. | Tap. **ç** (D.); **a** (İ.D.) |

## 3-cü dərs. Niyə "Amerika"?

• Dərslik: səh. 44-45 • İş dəftəri: səh. 27

**Təlim məqsədləri:**

**1.** Termini izah edərkən kontekstdən və tərkibindəki morfemlərdən çıxış edir **(st. 7-4.4.1).**

**2.** Mətndəki bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir **(st. 7-4.4.3).**

**3.** Dırnaq işarəsinin bəzi işlənmə məqamlarını izah edir **(st. 7-4.3.3).**

**Mövzuya yönəltmə**

Şagirdlərin diqqəti "Niyə "Amerika"?" mətninə yönəldilir.

**7-4.4.1. Tapşırıq a (dərslik).** Şagirdlər mətnə bir daha nəzər yetirirlər və mətndən coğrafi terminləri seçib mənasını izah edirlər. Cavab: Qitə – Yer qabığının ən böyük torpaq parçaları, quru massivləri.

Materik – hər tərəfdən dəniz və okeanlarla əhatə olunmuş ən böyük quru sahəsi.

**Tapşırıq b (dərslik).** Cavab: Şagirdlər tapşırıqda verilmiş cümləni səsli oxuyurlar. Bəlkə, kartoqrafiya sahəsində təcrübəsi olan Ameriqo tərtib etdiyi xəritələrdə yeni qitənin üzərində öz adını yazıb? Deməli, Ameriqo xəritə tərtib edib və onun bu işdə, yəni xəritə tərtib etməkdə (kartoqrafiya sahəsində) böyük təcrübəsi var. Şagirdlər kontekstdən anladıqları mənanı morfemlərin etimologiyasından çıxış edərək dəqiqləşdirirlər. Kartoqrafiya – coğrafiya xəritələri düzəltmək üsulundan bəhs edən elm, habelə bu xəritələrin tərtibi.

**Tapşırıq c (dərslik).** Cavab: Şagirdlər tapşırıqda verilmiş cümləni səsli oxuyurlar. 1507-ci il aprelin 25-də işıq üzü görən "Kosmoqrafiyaya giriş" adlı kitab Vespuççinin adını zirvəyə qaldırdı. Bu cümlənin konteksti "kosmoqrafiya" sözünün mənasını izah etməyə ipucu vermədi. Deməli, sözün izahını başqa bir üsulla, "kosmoqrafiya" sözünün tərkib hissələrinin (kosmos, qrafiya) etimologiyasına əsasən izah etmək lazımdır. Kosmos – dünya, kainat deməkdir. Qrafiya (yun. grapho – çəkirəm) isə bir çox sözlərə qoşularaq "elm" mənası yaradır: biblioqrafiya, etnoqrafiya və s. Kosmoqrafiya, yəni kainatın, dünyanın quruluşu, yaranması haqqında elmi və mifoloji təsəvvürlərin məcmusu.

**Tapşırıq a (iş dəftəri).** Cavab: "Qitə" sözü Yer kürəsinin okean və dənizlərlə əhatə olunmuş böyük hissəsi mənasında coğrafi termin, klassik Azərbaycan poeziyasında ictimai-siyasi, əxlaqi-tərbiyəvi məzmunlu şeir janrı mənasında isə ədəbiyyatşünaslıq termini kimi işlənir. "Qitə" sözü omonimdir, çünki yazılışı və tələffüzü eyni olsa da, mənaları müxtəlifdir. Həm də hər iki mənası həqiqidir.

**Tapşırıq b (iş dəftəri).** Cavab: Qurunun dənizin içinə girən dağlıq, qayalıq hissəsi burun adlanır. Bu hissə irəliyə doğru uzanaraq insan burnunu xatırlatdığı, yəni "burun" sözünün ilkin mənasından törədiyi üçün çoxmənalıdır.

**7-4.4.3. Tapşırıq ç (dərslik).** Tapşırığı yerinə yetirməzdən əvvəl müəllim şagirdlərin diqqətini "Qlossari" rubrikasına yönəldir və "ekspressiv" sözünün mənasını izah edir. Şagirdlər tapşırıqda verilmiş ifadələri oxuyur və daha təsirli olanı seçib onu izah edir.

**"Yadda saxla" rubrikası.** Şagirdlər rubrikada verilmiş məlumatlarla tanış olurlar.

**Tapşırıq d (dərslik).** Cavab:

Əslində, bəyannamə sözünün mənası "xalqa, camaata xitabən yazılı müraciət" deməkdir. Ameriqo öz məktublarında Portuqaliyadan naməlum



Layihə

torpaqlara etdiyi səyahət haqqında xalqa məlumat verirdi. O, xalqa bəyan edirdi ki, Kolumbun qərbə gedərkən çatdığı torpaq Hindistan deyil, Asiya ilə Avropa arasında tamamilə naməlum bir yerdir, yeni dünyadır. "Ameriqonun məktubları Amerikanın ilk "Müstəqillik Bəyannaməsi" idi" cümləsində "Müstəqillik Bəyannaməsi" məcazdır.

Bir şeyi təsdiq edərkən, bir şeyə icazə verərkən həmin adama sənəd, rəsmi kağız, vəsiqə, yəni şəhadətnamə verilir. 1507-ci il aprelin 25-də işıq üzü görən "Kosmoqrafiyaya giriş" adlı kitabda müəllif ilk dəfə olaraq sonradan bəşəriyyətin qəbul edəcəyi bir təklif irəli sürür: "Dünyanın yeni hissəsini Ameriqo tapdığı üçün bu torpaqlar məhz onun şərəfinə adlandırılmalıdır". Bu sətirlər sanki "Yeni dünya"nın adını rəsmiləşdirir və onun şəhadətnaməsi sayılır.

Kolumb məhz həmin gün "Yeni torpaq"ları görüb.

25 aprel 1507-ci il isə "Kosmoqrafiyaya giriş" kitabı nəşr edilib. Məhz bu kitabda "Yeni torpaq"lar ilk dəfə "Amerika" adlandırılıb.

**Tapşırıq c (iş dəftəri).** Cavab:

1. 1507-ci il aprelin 25-də işıq üzü görən "Kosmoqrafiyaya giriş" adlı kitab Vespuççinin adını zirvəyə qaldırdı.

2. "Mundus Novus" məktublarının müəllifi digərlərini kölgədə qoyurdu.

3. 1507-ci il – "Kosmoqrafiyaya giriş" kitabının işıq üzü gördüyü gün Amerikanın ad günü sayıla bilər.

7-4.3.3. **Tapşırıq e (dərslik).** Şagirdlərin diqqəti mətnin adına və yarımbaşlıqlara yönəldilir. Şagirdlər bəzi sözlərin dırnaq içərisində yazılmasının səbəbini təxmin edirlər.

**"Yadda saxla" rubrikası.** Şagirdlər rubrikada verilmiş məlumatları oxuyur və öz təxminləri ilə müqayisə edirlər.

**Tapşırıq ə (dərslik).** Cavab:

1. Onun bu yaxşılığı mənə çox "baha" başa gəldi. Burada "baha" ifadəsi məcazi mənada işlənib, çünki bu ifadə yaxşılıq sözünə aid ola bilməz.

2. Mətnin son abzasından belə çıxır ki, "tapıntı" sözü kəşfin hiperonimidir.

3. Çin mənbələrindən məlum oldu ki, bu yazılar "tukyuye (türk)" xalqına məxsusdur.

2-ci və 3-cü cümlələrdə isə söz və ya ifadənin mənası, mənşəyi vurğulandığı üçün həmin sözlər dırnaq içərisində yazılmışdır.

**Tapşırıq ç (iş dəftəri).** Cavab: Tapşırıqda verilmiş cümləyə əsasən aydın olur ki, "antologiya" ədəbiyyata aid termindir. Qədim yunan şairi Meleaqr "Çələng" adlı antologiya tərtib edib. Müxtəlif gülləri bir yerə toplayıb çələng hörürlər. Kontekstdən də aydın olur ki, 46 şairin şeirləri antologiyaya daxil edilib. Deməli, "antologiya" müxtəlif əsərlərin toplusudur.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Termini izah edərkən kontekstdən və tərkibindəki morfemlərdən çıxış edir. | Tap. a, b, c (D.); a, b, ç (İ.D.) |
| Mətndəki bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir. | Tap. ç (D.); c (İ.D.) |
| Dırnaq işarəsinin bəzi işlənmə məqamlarını izah edir. | Tap. e, ə (D.) |

## 4-cü dərs. Feilin şəkilləri (şərt, xəbər)

• Dərslik: səh. 46 • İş dəftəri: səh. 28

**Təlim məqsədləri:**

**1.** Feilin şərt və xəbər şəkillərini fərqləndirir (st. 7-4.2.1).

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik).** Şagirdlər şərt mənası ifadə edən feilləri müəyyənləşdirirlər. Cavab: bacarsan, yorulsan.

**Dil qaydaları**

7-4.2.1. **"Yadda saxla" rubrikası.** Rubrikada feilin şərt şəkli haqqında verilmiş məlumat və nümunələr şərh olunur.

**Tapşırıq b (dərslik).** Cavab:

1. etsən, çəksən (II şəxsin təki, təsdiq)
2. tapmasa (III şəxsin təki, inkar)
3. olmasaydım (I şəxsin təki, inkar)
4. sınsa (III şəxsin təki, təsdiq)

**Tapşırıq c (dərslik).** Cavab:

Əgər gün **çıxsa**, hava isinəcək.

Əgər yalan **danışsan**, doğru sözünə də inanmazlar.

Yol hərəkəti nişanlarını **tanısa**, qaydaları pozmayacaq.

**Tapşırıq ç (dərslik).** Cavab: gətirəcəklər, bilinməyir, dinləyirik, qoşular, sevindilər.



Lahiye

**Tapşırıq a (iş dəftəri).** Cavab:

1. Bir qum dənəsinin sirrini bilsəydik, (I şəxsin cəmi) bütün dünyanın sirrini öyrənmiş olardıq. *(A.Eynşteyn)*

2. Bağlı bir qapıya açar axtarsan, (II şəxsin təki)
Ancaq alimlərdə axtar, taparsan. *(N.Gəncəvi)*

3. Ağac nə qədər boy atsa da, (III şəxsin təki) kökü torpaqda olur.

**Tapşırıq b (iş dəftəri).** Cavab:

| | çalışmaq | |
|---|---|---|
| | **təsdiq** | **inkar** |
| Mən | çalışsam | çalışmasam |
| Sən | çalışsan | çalışmasan |
| O | çalışsa | çalışmasa |
| Biz | çalışsaq | çalışmasaq |
| Siz | çalışsanız | çalışmasanız |
| Onlar | çalışsalar | çalışmasalar |

**Tapşırıq c (iş dəftəri).** Cavab:

Əgər oğlu qayıdıb gəlsə, bütün ailə sevinəcək.

Əgər məktəbdə qazilərlə görüş keçirilsə, atam da iştirak edəcək.

**"Yadda saxla" rubrikası.** Rubrikada feilin xəbər şəkli haqqında verilmiş məlumat və nümunələr şərh olunur.

**Tapşırıq d (dərslik).** Cavab:

1. Gecədən yağan yağış səhərə yaxın ***kəsildi***. (III şəxsin təki)

2. Külək əsdikcə güllərin xoş ətri ətrafa ***yayılırdı***. (III şəxsin təki)

3. Görünür, uşaqlar məsələnin şərtini yaxşı ***anlayıblar***. (III şəxsin cəmi)

4. Bu hörməti sən özün ***qazanmısan***. (II şəxsin təki)

5. Şagirdlərimiz Qarabağa həsr olunmuş bayram tədbirinə ***hazırlaşırlar***. (III şəxsin cəmi)

**Tapşırıq ç (iş dəftəri).** Cavab:

| | |
|---|---|
| Xəbər şəkli, indiki zaman, I şəxsin təki | **tapıram** |
| Lazım şəkli, II şəxsin təki | **tapasısan** |
| Arzu şəkli, II şəxsin cəmi | **tapasınız** |
| Vacib şəkli, I şəxsin cəmi | **tapmalıyıq** |
| Şərt şəkli, III şəxsin təki | **tapsa** |
| Əmr şəkli, III şəxsin cəmi | **tapsınlar** |

## Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Feilin şərt və xəbər şəkillərini fərqləndirir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar |

Layihə

# Ümumiləşdirici təkrar

• Dərslik: səh. 47 • İş dəftəri: səh. 29-30

**Təlim məqsədləri:**

**1.** Feilin təsriflənən formalarını (şəkillərini) fərqləndirir **(st. 7-4.2.1).**

**Mövzuya yönəltmə**

Müəllim soruşur:

– Bu bölmədə feilin təsriflənməyən formaları haqqında nə öyrəndiniz?

**Dil qaydaları**

**7-4.2.1. Tapşırıq 1 (dərslik).** Cavab: 1 – e, 2 – a, 3 – b, 4 – c, 5 – ç, 6 – d.

**Tapşırıq 2 (dərslik).** Cavab:

1. Dost-düşmən yanında üzüağ ol-a-san. (arzu)
2. Kölgən üstümüzdən əskik ol-ma-sın. (əmr)
3. Övladlarının xoş gününü gör-ə-sən. (arzu)
4. Evindən həmişə şadlıq səsi gəl-sin. (əmr)
5. Allah səni min budaq et-sin. (əmr)
6. Bədnəzərdən uzaq ol-a-san. (arzu)

**Tapşırıq 3 (dərslik).** Cavab:

a. lazım şəkli
b. feili sifət
a. vacib şəkli
b. feili sifət
a. feili bağlama
b. xəbər şəkli

**Tapşırıq 4 (dərslik).** Cavab:

1. Barı bu istirahət günü ***görüşək***.
2. Xeyr, məsələni bir daha ***izah edəsi deyiləm***.
3. Yaxşı olardı ki, belə işlərə ***qarışmasın***.
4. Bugünkü tədbirdən sonra yaxşıca ***dincələrsən***.
5. Gənc həkimlər mütləq müşavirədə ***iştirak etməlidirlər***.

**Tapşırıq 5 (dərslik).** Cavab: Feilin şərt şəklində işlənmişdir.

1. Od ***olmasa***, tüstü çıxmaz.
2. Varsa əgər hünərin, hara ***getsən***, var yerin.
3. Əgər həyatda həmişə xoşbəxt ***olsan***, xəyalını quracaq nəyin qalar? (F.Dostoyevski)

**İş dəftərindəki 1-7-ci tapşırıqlar bölmə üzrə mənimsədilən bilik və bacarıqların yoxlanılması məqsədi daşıyır.**

**Tapşırıq 1 (iş dəftəri).** Cavab:

| Təsriflənməyən feillər | | | Təsriflənən feillər |
|---|---|---|---|
| **məsdər** | **feili sifət** | **feili bağlama** | |
| dayanmağı | yazılmış | vərəqləyib | baxdı |
| bacarmaqdır | seyrəkləşən | işləyib | yorulmuşdu |
| öyrənməyə | görünən | | işıqlandırırdı |
| | görən | | çalışır |
| | vuran | | çevrililər |

**Tapşırıq 2 (iş dəftəri).** Cavab: 1-ci və 3-cü cümlələrdə feillər əmr şəklində işlənmişdir.

**Tapşırıq 3 (iş dəftəri).** Cavab:

1. Kəşflərlə bağlı araşdırma aparasısan.
2. Bu mövzuda bir kəlmə belə danışası deyiləm.
3. Beynəlxalq müsabiqədə ölkəmizi təmsil edəsiyik.
4. Görünür, bu ölkələr arasında iqtisadi-siyasi əlaqələr düzələsi deyil.

**Tapşırıq 4 (iş dəftəri).** Cavab: e. Biz haqq səsimizi ucaltmağı bacarmalıyıq.

**Tapşırıq 5 (iş dəftəri).** Cavab:

| Feil | Feilin şəkli | Feilin şəklinin əlamətləri | Şəxs şəkilçiləri |
|---|---|---|---|
| getməliyik | vacib | -məli | -yik |
| yoxlayasıdır | lazım | -yası | -dır |
| düşünsün | əmr | - | -sün |
| yaşayasan | arzu | -ya | -san |
| qorxsaq | şərt | -sa | -q |
| söylədilər | xəbər | -di | -lər |
| göndərməliyəm | vacib | -məli | -yəm |

**Tapşırıq 6 (iş dəftəri).** Cavab:

Əgər hamı gəlsə, iclas vaxtında başlayacaq.

Əgər birlikdə çalışsaq, işlərimizi daha tez bitirərik.

Əgər möhkəm şaxtalar düşsə, nənəmin toxuduğu əlcəkləri geyinəcəyəm.

**Tapşırıq 7 (iş dəftəri).** Cavab:

Layihə

| | |
|---|---|
| Lazım şəkli, I şəxsin təki | alasıyam |
| Arzu şəkli, II şəxsin təki | alasan |
| Xəbər şəkli, keçmiş zaman, III şəxsin cəmi | aldılar, almışlar, alıblar |
| Əmr şəkli, III şəxsin təki | alsın |
| Vacib şəkli, II şəxsin cəmi | almalısınız |
| Şərt şəkli, I şəxsin cəmi | alsaq |
| Xəbər şəkli, indiki zaman, II şəxsin təki | alırsan |

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Feilin təsriflənən formalarını (şəkillərini) fərqləndirir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar |

Layihə

bölmə **3** 

# DETEKTİV

| Dərs | Mövzu | Məzmun xətləri | Dərslik səh. | İş dəftəri səh. | MV səh. |
|---|---|---|---|---|---|
| **1-ci fəsil** | | | | | |
| 1 | Detektiv ədəbiyyat | Oxu. Oxuyub-anlama | 48-49 | 31 | 61-62 |
| 2 | Şerlok Holms kimdir? | Oxu. Danışma. Yazı | 50 | 32 | 62-63 |
| 3 | Şerlok Holms və doktor Vatson | Oxu. Oxuyub-anlama | 51-53 | 33 | 63-64 |
| 4 | Şerlok Holms və doktor Vatson | Oxuyub-anlama | 53-54 | | 64-65 |
| 5 | Şerlok Holmsun bilik dairəsi | Dinləmə | 54 | 34 | 65-67 |
| 6 | Vurğu | Dil qaydaları | 55 | 35 | 67-68 |
| **2-ci fəsil** | | | | | |
| 1 | Quba kapriççiosu | Oxu. Oxuyub-anlama. Danışma | 56-57 | 36 | 68-70 |
| 2 | Quba kapriççiosu | Oxu. Oxuyub-anlama | 58-60 | 37 | 70 |
| 3 | Quba kapriççiosu | Oxu. Dinləmə | 60-61 | 38 | 70-72 |
| 4 | Mürəkkəb sözlərin yaranma yolları | Dil qaydaları | 62-63 | 39-40 | 72-73 |
| **3-cü fəsil** | | | | | |
| 1 | Qatarda söhbət | Danışma. Oxu. Oxuyub-anlama | 64-66 | 41 | 74-75 |
| 2 | Müəmmalı vəsiyyətnamə | Oxu. Oxuyub-anlama. Dinləmə | 67 | 42 | 75-76 |
| 3 | Ayrı yazılan mürəkkəb sözlər | Dil qaydaları | 68 | 43 | 76-77 |
| 4 | Ümumiləşdirici təkrar | Dil qaydaları | 69 | 44 | 78-79 |

Layihə

# 1-ci fəsil

## 1-ci dərs. Detektiv ədəbiyyat

• Dərslik: səh. 48-49 • İş dəftəri: səh. 31

**Təlim məqsədləri:**

**1.** Mətnin məzmunu ilə bağlı sualları cavablandırmaqla mətni mənimsədiyini nümayiş etdirir **(st. 7-2.1.1).**

**2.** Sözün kontekstə uyğun mənasını müəyyən edir **(st. 7-2.1.2).**

**3.** Mətnin struktur elementlərini onun məzmunu ilə əlaqələndirir **(st. 7-2.3.3).**

**Mövzuya yönəltmə**

Dərslikdəki ilk tapşırıqla şagirdləri mövzuya yönəltmək olar. Müəllim məşhur detektivlərin (xəfiyyələrin) portretini uşaqlara göstərə bilər. Hər hansı bir məşhur detektiv filmdən (məsələn, Şerlok Holms haqqında) epizod nümayiş etdirmək olar.

**Danışma**

**Tapşırıq a (dərslik).** Şagirdlər oxuduqları detetiv əsərlər, oradakı xəfiyyə obrazları barədə məlumat verir, fikir bildirirlər.

**Müəllimin nəzərinə!** Sinifdə detektiv əsər oxumamış və ya detektiv filmə baxmamış şagirdlər ola bilər. Müəllim onlara bu əsərlər barədə belə məlumat verə bilər: Detektiv əsərlər, əsasən, bir cinayətin və ya sirrin açılmasından bəhs edir. Bu əsərlərdə, adətən, bir detektiv əsas rolda olur. Bu şəxs sirri açmaq üçün hadisələri araşdırır. Əsərdə həmçinin şahidlər, şübhəlilər və cinayətkarlar kimi digər xarakterlər də olur. Detektiv əsərlər/filmlər oxucunu hadisələrin içində saxlayan gərginlik və intriqa ilə zəngindir. Əsas məqsəd cinayətin kim tərəfindən və niyə törədildiyini tapmaqdır. Bir hadisə/cinayət törədilir. Detektiv sübutlar toplayır, şahidlərlə danışır, nəticədə cinayəti və ya sirri açır. Şagirdlərə klassik detektiv əsərlərdən nümunələr göstərmək olar. Məsələn, Aqata Kristinin "Erkül Puaro" və ya Artur Konan Doylun "Şerlok Holms" seriyası.

**7-2.1.1. Tapşırıq b (dərslik).** Bu tapşırıq vasitəsilə şagirdlər detektiv ədəbiyyat haqqındakı ən vacib məlumatları qeyd edirlər. Tapşırıq şagirdlərin mətndən əsas informasiyaları seçmək və fikirlərini ümumiləşdirmək bacarığını inkişaf etdirir.

**Oxu**

Şagirdlərə oxu fəaliyyətindən öncə tapşırılır ki, oxu zamanı mətnin struktur hissələrinə diqqət etsinlər.

**"Detektiv ədəbiyyat" mətni üzrə iş. Qeyd götürməklə oxu.** Şagirdlər mətni səssiz, qeyd götürməklə oxuyurlar. Məqsəd şagirdlərin oxu prosesində fəallığını artırmaq, vacib məlumatları, fikir və hadisələri yadda saxlamağına şərait yaratmaqdır. Qeydlər apararkən diqqət ediləcək məqamlara toxunmaq lazımdır. Oxu bitdikdən sonra şagirdlərin qeydləri dəyərləndirilir.

**Söz ehtiyatı**

Mətn oxunduqdan sonra, ilk növbədə, söz ehtiyatı üzərində iş aparılır.

**7-2.1.2. Tapşırıq c (dərslik). "Söz boğçası" rubrikası.** Müəllim şagirdlərin diqqətini "Söz boğçası"na yönəldir və şagirdlər sözlərin mənasını təxmin edirlər. Sonra isə müəllim sözləri lüğətə əsasən izah edir. Tapşırığın məqsədi şagirdlərdə sözün mənasını müəyyənləşdirmək bacarığını inkişaf etdirməkdir. Şagirdlər izahların köməyi ilə tapşırıqda verilmiş sözləri müəyyənləşdirirlər.

Cavab: 1 – xəfiyyə; 2 – alibi; 3 – kriminal

**Oxuyub-qavrama**

**7-2.1.1. Tapşırıq ç (dərslik).** "Nə anladın?" rubrikasında verilmiş tapşırıq oxuyub-qavrama, ümumiləşdirmə bacarığının inkişafına yönəlmişdir. Tapşırıq şagirdlərin mətni nə qədər diqqətlə oxuduqlarını yoxlamağa imkan yaradır.

Cavab: 1 – c; 2 – d; 3 – ç; 4 – a; 5 – b

**Tapşırıq a (iş dəftəri).** Dərslikdə oxuyub-qavrama ilə bağlı tapşırıq yerinə yetirildikdən sonra iş dəftərindəki **a** tapşırığının yerinə yetirilməsi tövsiyə olunur. Tapşırıq şagirdlərin mətni necə qavradıqlarını müəyyən etmək məqsədi daşıyır.

Cavab: 1. Edqar Allan Po; 2. "Brilyant məsələsi", "Qara Volqa"; 3. Çingiz Abdullayev

**Tapşırıq b (iş dəftəri).** Cavab: 1– Y, 2 – D, 3 – Y, 4 – D, 5 – Y, 6 – Y.

**7-2.3.3. Tapşırıq d (dərslik).** Tapşırıq oxuyub-qavrama üzrə bilik və bacarıqların möhkəmlənməsinə xidmət edir. Şagirdlər burada mətndəki yarımbaşlıqların ardıcıllığını və hadisələrlə əlaqəsini müəyyən edirlər. Cavab:

**Əsas hissəyə aid yarımbaşlıqların ardıcıllığı:**

a) Detektiv janrının xüsusiyyətləri
2-ci və 3-cü abzaslar
b) Detektiv ədəbiyyatın yaranması və inkişafı



Layihə

4, 5, 6-cı abzaslar

c) Azərbaycan ədəbiyyatında detektiv janrı

7, 8-ci abzaslar

Şagirdlər mətnin giriş və sonluq hissələrini təxminən belə adlandıra bilərlər:

*"Detektiv" sözünün mənası*

*Detektiv əsərlərin əhəmiyyəti*

**"Qlossari" rubrikası.** Bu rubrikada şagirdlər "təhqiqat" və "tədqiqat" sözlərinin mənasını öyrənirlər.

**Tapşırıq c (iş dəftəri).** Şagirdlərin cavabı təxminən belə ola bilər:

II abzas – Detektiv əsərlərin kriminal əsərlərdən fərqi

III abzas – Detektiv əsərlərin strukturu

IV abzas – İlk detektiv əsər və obraz

V abzas – Məşhur Şerlok Holms

VI abzas – Yeni detektiv obrazlar

VII abzas – Cəmşid Əmirovun detektiv əsərləri

VIII abzas – Çingiz Abdullayevin "Dronqo"su

**Müəllimin nəzərinə!** Şagirdlərə tapşırılsın ki, növbəti dərs üçün "Şerlok Holms və doktor Vatsonun macəraları" seriyasından bir filmə baxsınlar.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnin məzmunu ilə bağlı sualları cavablandırmaqla mətni mənimsədiyini nümayiş etdirir. | Tap. **b, ç** (D.); **a, b** (İ.D.) |
| Sözün kontekstə uyğun mənasını müəyyən edir. | Tap. **c** (D.) |
| Mətnin struktur elementlərini onun məzmunu ilə əlaqələndirir. | Tap. **d** (D.); **c** (İ.D.) |

## 2-ci dərs. Şerlok Holms kimdir?

• Dərslik: səh. 50 • İş dəftəri: səh. 32

**Təlim məqsədləri:**

**1.** Mətnin məzmunu ilə bağlı sualları cavablandırmaqla mətni mənimsədiyini nümayiş etdirir **(st. 7-2.1.1).**

**2.** Mövzu üzrə əldə edilən məlumatları açar sözlər şəklində qeyd edir və onların əsasında mətn qurub danışır **(st. 7-1.3.2).**

**3.** Hər hansı film haqqında afişa hazırlayır **(st. 7-3.2.3).**

**Mövzuya yönəltmə**

Müəllim şagirdlərə frontal sorğu ilə "Detektiv ədəbiyyat" mətnini xatırladır. O həmin mətn əsasında suallar verə bilər:

*Detektiv əsərlərdə xəfiyyəni necə xarakterizə etmək olar?*

*"Gözlənilməz sonluq" nə deməkdir?*

Bundan əlavə, müəllim evə verdiyi tapşırığı, yəni şagirdlərin hansı filmə baxdıqlarını soruşur.

**7-2.1.1. Tapşırıq a (dərslik).** Cavab: 60 əsər

**Oxu**

**7-1.3.2. Tapşırıq b (dərslik).** Müəllim şagirdlərin diqqətini Şerlok Holms haqqındakı məlumat vərəqinə yönəldir. Şagirdlər məlumat vərəqi ilə tanış olurlar və oxuduqları əsasında mətn qurub danışırlar.

**"Qlossari" rubrikası.** Şagirdlər "siluet" və "profil" sözlərinin mənasını öyrənirlər.

**"Bu, maraqlıdır" rubrikası.** Rubrikada fransız yazıçısı Moris Löblanın Şerlok Holms kimi məşhur personaj yaratmaq istəyindən, yazdığı əsərə Şerlok Holmsun adını verməsindən bəhs edilir. Buna cavab olaraq A.Konan Doylun onu müəllif hüquqlarını pozmaqda ittiham etməsi qeyd olunur. Nəticədə Löblan əsərinin və personajın adında dəyişiklik edir.

**Tapşırıq c (dərslik).** Şagirdlər Şerlok Holms haqda baxdıqları filmlərdən danışa bilərlər.

**Yazı**

**7-3.2.3. Tapşırıq ç (dərslik).** Şagirdlər təlimata əsasən afişa hazırlayırlar.

**7-2.1.1. Tapşırıq a (iş dəftəri).** Şagirdlərdən mətnin məzmununa aid cümləléri tamamlamaq tələb olunur. Bu tapşırıq oxuyub-anlama və yazı bacarıqlarını möhkəmləndirmək üçündür. Şagirdlər mətndəki məlumatlardan çıxardıqları nəticələrə əsasən cümlələri tamamlayırlar.

Cavab: 1. Fakt və dəlillər əsasında cinayətin tam mənzərəsini yarada bilir, çünki *analitik zəkası, müşahidə qabiliyyəti və güclü məntiqi təfəkkürü var.*

2. Moris Löblan öz əsərində Şerlok Holms adını Herlok Şolms ilə əvəz etdi, çünki *Artur Konan Doyl Löblanı müəllif hüquqlarını pozmaqda ittiham edir.*

**Tapşırıq b (iş dəftəri).** Şagirdlər baxdıqları filmi "Şerlok Holms kimdir?" mətni ilə əlaqələndirib filmdə obrazın hansı xüsusiyyətlərinin öz əksini



Layihə

tapmasını müəyyənləşdirirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnin məzmunu ilə bağlı sualları cavablandırmaqla mətni mənimsədiyini nümayiş etdirir. | Tap. **a** (D.); **a** (İ.D.) |
| Mövzu üzrə əldə edilən məlumatları açar sözlər şəklində qeyd edir və onların əsasında mətn qurub danışır. | Tap. **b, c** (D.) |
| Hər hansı film haqqında afişa hazırlayır. | Tap. **ç** (D.) |

## 3-cü dərs. Şerlok Holms və doktor Vatson

• Dərslik: səh. 51-53 • İş dəftəri: səh. 33

**Təlim məqsədləri:**

**1.** Sözün kontekstə uyğun mənasını müəyyən edir **(st. 7-2.1.2).**

**2.** Mətnin məzmunu ilə bağlı sualları cavablandırmaqla mətni mənimsədiyini nümayiş etdirir **(st. 7-2.1.1).**

**Mövzuya yönəltmə**

Şagirdləri mövzuya yönəldərkən əvvəlki dərslərdə Şerlok Holms haqda öyrəndiklərini, habelə baxdıqları filmləri xatırlatmaq olar.

**Oxu**

**"Şerlok Holms və doktor Vatson" mətni üzrə iş. Rollu oxu.** Bu üsulla oxu zamanı şagirdlər mətnin quruluşunu, dilini, obraz və personajların xarakterini anlaya bilirlər. Hətta mətnin oxusunu səhnəcik formasında da təşkil etmək olar.

**Tapşırıq a (dərslik).** Cavab təxminən bu məzmunda ola bilər:

*Şerlok Holms ətrafında baş verən hadisələri, detalları diqqətlə izləyirdi. O, başqalarının gözündən qaçan xırda məqamları belə görə bilirdi. Holms analitik təfəkkürü ilə müşahidə etdiklərini məntiqi şəkildə təhlil edir, əlaqələndirir və nəticələr çıxarırdı. Daha sonra problemlərin uyğun həll yollarını tapırdı. Bu iki qabiliyyət bir araya gəldikdə insanın hadisələri daha dərindən anlamaq və baş verənləri daha yaxşı dərk etmək imkanı artır.*

Mətni oxuduqdan sonra şagirdlər bu fikirlərə öz mülahizələrini əlavə edə bilərlər.

**Söz ehtiyatı**

**7-2.1.2. Tapşırıq b (dərslik).** Mətn oxunduqdan sonra söz ehtiyatı üzərində iş aparılır. Şagirdlər "Söz boğçası"ndakı sözlərin izahını dərsliyin sonunda verilmiş lüğət vasitəsilə araşdırırlar.

Cavab: **Tatu** – şəkil və yazıların döymə üsulu ilə bədənə həkk olunması.

**Bakenbard** – buxaq qırxılmaqla üzdə saxlanan saqqal və yarımsaqqal.

**Oxuyub-qavrama**

**7-2.1.1. Tapşırıq c (dərslik).** Tapşırıqda mətnin məzmunu ilə bağlı bir neçə sual verilir. Bu suallardan birinə mətndə cavab yoxdur. Şagirdlər həmin sualı tapmalıdırlar. Cavab: d

**Tapşırıq ç (dərslik).** Tapşırıqda bir neçə cümlə verilir. Bunlardan bəziləri mətnin məzmununa uyğun, digərləri isə ziddir. Şagirdlər bunu müəyyən etməlidirlər.

Cavab: 1 – D, 2 – D, 3 – Y, 4 – D, 5 – Y.

**Tapşırıq a (iş dəftəri).** Şagirdlər oxuduqları mətn əsasında hadisələrin ardıcıllığını müəyyənləşdirirlər. Tapşırıq qazanılmış biliklərin möhkəmləndirilməsində, faktları qruplaşdırmaq bacarığının inkişafında mühüm rol oynayır. Cavab:

1. Vatson məqaləni oxuyub narazılığını bildirir.
2. Holms məqaləni yazdığını etiraf edir.
3. Holms Vatson haqda fikirlərini deyir.
4. Şerlok Holms qasidin kim olduğunu deyir.

**Tapşırıq b (iş dəftəri).** Bu tapşırıqda şagirdlərdən Şerlok Holmsun müasir dövrdəki fəaliyyətini öz təxəyyülünə uyğun təsvir etmək tələb olunur. Cavab təxminən belə ola bilər:

*Əgər Şerlok Holms müasir dövrdə yaşasaydı, onun fəaliyyətində və iş metodlarında bir sıra maraqlı dəyişikliklər olardı. Holms müasir texnologiyalardan istifadə edərdi. Şerlok internetdə onlayn məlumat bazalarından istifadə edərək daha sürətli araşdırma apara bilərdi. Dronlar, gizli kameralar kimi müasir müşahidə vasitələri ilə daha effektiv izləmə və nəzarət metodlarından istifadə edərdi. Müasir dövrdə Holms təkcə Londonda deyil, beynəlxalq səviyyədə də cinayət araşdırmaları aparardı. İnterpol və digər beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edə bilərdi.*

**Tapşırıq c (iş dəftəri).** İş dəftərində verilmiş c tapşırığının məqsədi şagirdlərin dil qaydaları üzrə biliklərini xatırlatmaq, möhkəmləndirməkdir. Bu tapşırıqda köməkçi nitq hissələri ilə bağlı biliklər

Layihə

xatırlanır. Verilmiş abzasdakı müvafiq nitq hissələri seçilir və cədvəl üzrə qruplaşdırılır.

Cavab: bağlayıcı – lakin, ancaq, çünki, isə
ədat – məhz, daha
modal söz – ehtimal ki, deməli, çox güman ki, demək olar

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözün kontekstə uyğun mənasını müəyyən edir. | Tap. **b** (D.) |
| Mətnin məzmunu ilə bağlı sualları cavablandırmaqla mətni mənimsədiyini nümayiş etdirir. | Tap. **c, ç** (D.); **a** (İ.D.) |

## 4-cü dərs. Şerlok Holms və doktor Vatson

• Dərslik: səh. 53

**Təlim məqsədləri:**

**1.** Mətnin məzmunu ilə bağlı sualları cavablandırmaqla mətni mənimsədiyini nümayiş etdirir **(st. 7-2.1.1).**

**2.** Mətndəki məlumatlardan çıxış edərək mühakimələr yürüdür **(st. 7-2.3.2).**

**3.** Dialoqlar əsasında obrazların xarakteri haqqında fikir yürüdür **(st. 7-2.3.1).**

**4.** Mətnin məzmunundan çıxış edərək hadisələrin davamını təxmin edir **(st. 7-2.3.6).**

**Mövzuya yönəltmə**

Müəllim mətnlə bağlı frontal sorğu keçirir və şagirdlərin mətni necə qavradıqlarını yoxlayır. Bundan başqa, yutub kanalından bu əsər əsasında çəkilmiş filmdən həmin epizoda tamaşa etmək olar.

**7-2.1.1. Tapşırıq a (dərslik).** Şagirdlərdən mətnin məzmununa aid cümlələri tamamlamaq tələb olunur. Bu tapşırıq oxuyub-anlama bacarığını möhkəmləndirmək üçündür. Şagirdlər mətndəki məlumatlardan çıxardıqları nəticələrə əsasən cümlələri tamamlayırlar. Cavab:

1. Doktor Vatson insan anatomiyası üzrə dərin biliklərə malikdir, deməli, *həkimdir.*

2. *Duruşundan hərbçiyə oxşayır*, deməli, hərbi həkimdir.

3. Sol qolunu hərəkət etdirmir, etdirəndə isə ağrı çəkir, deməli, *sol qolundan yaralanıb.*

4. Sifəti qaralıb, amma biləkləri ağdır, deməli, *cənub ölkələrindən təzəlikcə qayıdıb.*

5. *İndiki vaxtda İngiltərə ordusu Əfqanıstanda döyüşlər aparır,* deməli, Əfqanıstandan gəlib.

**Tapşırıq b (dərslik).** Şagirdlər mətnə əsasən təhkiyəçinin doktor Vatson olduğunu müəyyən edirlər. Cavab: c

**7-2.3.2. Tapşırıq c (dərslik).** Şagirdlər bu tapşırıqda mətndəki hansı epizodun diqqəti daha çox cəlb etdiyinin səbəbini izah etməlidirlər.

**7-2.3.1. Tapşırıq ç (dərslik).**

"Əqli hücum". Müəllimin tapşırığı ilə şagirdlər Şerlok Holmsun xarakterini bir sözlə səciyyələndirməyə çalışırlar. Hərə keyfiyyət bildirən bir söz deyir. Bu proses lazım olan sözlər səslənənə qədər davam edir. Sonrakı fəaliyyəti müəllim bu sözlərin izahı üzərində qurur.

Cavab: soyuqqanlı, təmkinli, səbirli. Çox sakit reaksiya verdi. Bu onun təmkinli və soyuqqanlı olduğunu göstərir.

**Tapşırıq d (dərslik).** Şagirdlər artıq bilirlər ki, haşiyədə bəzi vacib məlumatlar təqdim edilir. Tapşırıqda şagirdlərdən Ogüst Düpen haqqında haşiyə tərtib etmək tələb olunur.

Cavab: Haşiyə təxminən bu məzmunda ola bilər:

*Ogüst Düpen yazıçı Edqar Allan Ponun yaratdığı ilk xəfiyyə (detektiv) obrazıdır. Bu obraz meydana çıxdıqdan sonra detektiv ifadəsi yaranmışdır. Ogüst Düpen milliyyətcə fransızdır və Parisin Sen-Jermen məhəlləsində yaşayır. Oxucular ilk dəfə onunla "Morq küçəsində qətl" hekayəsində tanış olurlar. Düpen heç də peşəkar detektiv deyil. Onun güclü intellekti var. Düpen başqa insanların fikirlərini oxuma və xəyalən cinayətkarın cildinə girə bilmə qabiliyyətinə malikdir.*

**Tapşırıq e (dərslik).** Cavab: b. ekspozisiya

**7-2.3.6. Tapşırıq ə (dərslik).** Şagirdlər mətnin son epizodlarından çıxış edərək onun davamını öz təxəyyüllərinə uyğun təxmin etməyə çalışırlar.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnin məzmunu ilə bağlı sualları cavablandırmaqla mətni mənimsədiyini nümayiş etdirir. | Tap. **a, b** (D.) |

Layihə

| | |
|---|---|
| Mətndəki məlumatlardan çıxış edərək mühakimələr yürüdür. | Tap. c, d (D.) |
| Dialoqlar əsasında obrazların xarakteri haqqında fikir yürüdür. | Tap. ç (D.) |
| Mətnin məzmunundan çıxış edərək hadisələrin davamını təxmin edir. | Tap. ə (D.) |

## 5-ci dərs. Şerlok Holmsun bilik dairəsi

• Dərslik: səh. 54 • İş dəftəri: səh. 34

**Təlim məqsədləri:**

**1.** Dinləmə zamanı götürdüyü qeydlər əsasında mətnlə bağlı sualları cavablandırır **(st. 7-1.1.1).**

**2.** Həyatdan nümunələr gətirməklə və ya araşdırılan faktlardan istifadə etməklə qarşı tərəfin fikrinə münasibətini əsaslandırır **(st. 7-1.2.2).**

**Mövzuya yönəltmə**

Müəllim şagirdləri mövzuya yönəltmək üçün aşağıdakı sualları verə bilər:

*Bilik əldə etmək üçün hansı üsullar var?*

*Bilik dairəsini genişləndirmək nə deməkdir?*

*Hansı sahə ilə bağlı yeni bilikləri öyrənmək istərdiniz?*

*Sizcə, insanlar nə üçün daim yeni məlumatlar öyrənməyə çalışırlar?*

*Bəs siz öz bilik dairənizi necə genişləndirirsiniz?*

*Sizcə, bilik insanı necə dəyişir?*

Bu suallar şagirdləri mövzuya yönəltməklə yanaşı, onların bilik əldə etməyə marağını artırmağa kömək edə bilər.

**Dinləmə**

**7-1.1.1. Tapşırıq a (dərslik).** "Şerlok Holmsun bilik dairəsi" mətni səsləndirilir. Şagirdlər qeyd götürməklə mətni dinləyirlər.

***Şerlok Holmsun bilik dairəsi***

*("Al-qırmızı etüd" əsərindən parça)*

*Holms çox şey barədə xəbərdar idi və bu, adamı nə qədər heyrətləndirirdisə, onun bir çox mövzulardan məlumatsızlığı da bir o qədər təəccüb doğururdu. Müasir ədəbiyyatdan, siyasətdən, fəlsəfədən, demək olar, xəbəri yox idi. Onun Günəş sistemi haqqında tamamilə məlumatsız olduğunu biləndə isə heyrətdən çaşıb qaldım. On doqquzuncu əsrdə yaşayasan, Yerin Günəş ətrafında fırlandığını bilməyəsən! Bu ki dəhşətdir!*

*Bunu özünə deyəndə Holms heyrətdən donub qalmış sifətimə baxıb gülümsədi:*

*– Bilirsiniz, necədir? Məncə, insan beyni balaca, boş çardaq kimidir. Yalnız axmaq adam əlinə keçən zir-zibili ora yığa bilər, çünki sonradan lazım olan şeyləri qoymağa yer tapmayacaq. Ağıllı adam təzə bir şey öyrənəndə köhnədən bildiyi nəyisə unutmalı olur.*

*– Sizi başa düşürəm, lakin Günəş sistemindən xəbərsiz olmaq... – Mən ucadan dedim.*

*– Nəyimə lazımdır? – Holms sözümü kəsərək tələsik dilləndi. – Yer Günəşin yox, Ayın ətrafında fırlansaydı, bunun mənim işimə nə faydası olardı?*

*Bu adam beynini gərəksiz hesab etdiyi məlumatlarla doldurmaq istəmirdi. Yalnız işi, həyatı üçün faydalı olan məlumatları yadda saxlayırdı. Bir dəfə, eləməyib tənbəllik, onun maraq dairəsini dəftərçəmdə qeyd etdim.*

*1. Ədəbiyyat və fəlsəfəyə dair bilikləri çox aşağı səviyyədədir.*

*2. Astronomiyadan, demək olar ki, xəbəri yoxdur.*

*3. Botanikanı zəif bilir. Amma uyuşdurucu və zəhərli bitkilərin, eləcə də xanımotunun, tiryəkin xüsusiyyətlərinə dərindən bələddir.*

*4. Kimyanı mükəmməl bilir.*

*5. Geologiya üzə bilikləri heyrətamizdir. Fərqli yerlərə aid torpaqları elə ilk baxışdaca ayırd edir. Hətta bir dəfə gəzintidən qayıtdıqdan sonra balağına sıçramış ayrı-ayrı zığları mənə göstərdi, sonra da bu zığlardan hər birinin Londonun hansı ərazisinə aid olduğunu söylədi.*

*6. Anatomiyadan – çox şey bilir, lakin bu bilgilər sistemli deyil.*

*7. Cinayət xronikası – əla. Az qala, bir əsr qabaq baş vermiş bütün cinayətlərdən xəbərdardır.*

*8. Skripkada gözəl çalır.*

*9. Şpaqa və təlim qılıncı ilə mükəmməl davranır. Əla boksçudur.*

*10. İngilis qanunlarından çox yaxşı baş çıxarır.*

Tapşırıqda şagirdlərə faktoloji suallar təqdim olunur. Onlar dinləmə mətninə əsaslanmaqla bu sualları cavablandırırlar. Şagirdlərə öz fikirlərini sərbəst şəkildə ifadə etmək üçün şərait yaradılır. Tapşırıq şagirdlərin dinlədiyi mətndən qeyd götürmək bacarığını təkmilləşdirir.

<u>Cavab</u>:

Layihə

1. Vatsonun təəccübünün səbəbi nə idi?

Holms bir çox mövzulardan məlumatsız idi.

2. Holms hansı məlum faktları bilmirdi?

Yerin Günəş ətrafında fırlandığını bilmirdi.

3. Nə üçün o bəzi şeyləri unutmaq istəyirdi?

O, beynini artıq məlumatlarla doldurmaq istəmirdi.

4. Vatson Holms barədə hansı nəticəyə gəldi?

Yalnız o məlumatları unutmur ki, onlardan nə vaxtsa, nə üçünsə yararlanmaq fikrindədir.

**Tapşırıq b (dərslik).** Şagirdlər dinləmə mətninə əsasən Şerlok Holmsun bilik və bacarıqları haqqında fikir bildirirlər.

Cavab: kimya, geologiya, anatomiya, cinayət xronikası, musiqi, idman, hüquq

**Tapşırıq c (dərslik).** Cavab: doktor Vatson ədəbiyyat, fəlsəfə kimi elmlərlə bağlı daha çox şey bilməyin tərəfdarı idi. Şerlok Holms isə insanın ona lazım olan, istifadə edəcəyi məlumatları bilməsinin vacibliyini vurğulayırdı.

**7-1.2.2. Tapşırıq ç (dərslik).** Cavab təxminən belə ola bilər:

*Əslində, hər bir insan seçdiyi peşəyə dair hərtərəfli biliyə malik olmalıdır. Çox vaxt praktik cəhətdən bu yanaşma yetərsiz olur. Müasir dünyada uğur qazanmaq üçün insanlar müxtəlif biliklərə və bacarıqlara malik olmalıdırlar. Məsələn, bir həkim yalnız tibbi biliklərə malik olsa, xəstələrinə tam şəkildə kömək edə bilməz. O həm də psixologiya, ünsiyyət qurmaq sahəsində də biliklərə sahib olmalıdır. Çünki xəstənin fiziki xəstəliyi ilə bağlı psixoloji dəstəyə də ehtiyacı ola bilər. Həkim bu durumda yalnız tibbi müalicə ilə kifayətlənməyərək, psixoloji dəstək də verməlidir. Müxtəlif sahələrdə biliklərə malik olmaq insanın peşəsində daha uğurlu olmasına və daha dolğun bir həyat yaşamasına kömək edir.*

**Tapşırıq d (dərslik).** Şagirdlər qruplara bölünürlər. Onlara araşdırdıqları mövzu üzrə suallar hazırlamaq və başqa qruplara vermək tapşırılır. Fənlərə aid suallar yazırlar. Qrup liderləri sualları oxuyurlar. Suallar müzakirə olunur. Uşaqlar biliklərin vacibliyini əsaslandırırlar.

Bu tapşırıqları verməkdə məqsəd şagirdləri dərsin mövzusu ilə bağlı müstəqil düşünməyə yönəltməkdir.

**Tapşırıq a (iş dəftəri).** Şagirdlər dinləmə mətninə əsasən cədvəli tamamlayırlar. Məzmundan çıxış edərək Vatsonun mövqeyini müəyyən edirlər.

Cavab: Doktor Vatsonun mövqeyi

Hər şeydən məlumatlı olmaq lazımdır. Elə şeylər var ki, onları mütləq bilməlisən. Məsələn, Yerin Günəş ətrafında fırlanması.

**Tapşırıq b (iş dəftəri).** Şagirdlər tapşırıqda qoyulan fikirlərə təxminən belə münasibət bildirə bilərlər:

**1. Biz yeni informasiya alanda köhnələr yaddan çıxır.**

*Yeni informasiya axını ilə qarşılaşdıqda insanların diqqəti, əsasən, bu yeniliklərə yönəlir. Hər gün aldığımız yeni məlumatlar, yəni "Xəbərlər" proqramlarından, internetdən, ətrafımızdakı insanlardan eşitdiklərimiz marağımızı və diqqətimizi cəlb edərək əvvəlki informasiyaların unudulmasına və ya arxa plana keçməsinə səbəb olur. Nəticədə köhnə məlumatlar və ya keçmişdə vacib sayılan informasiyalar zamanla unudula bilər.*

**2. Biz yeni informasiya alanda köhnələr tam yoxa çıxmır, sadəcə, onları yada salmaq çətin olur.**

*Beynimiz hər gün aldığımız yeni məlumatları işləməyə və yadda saxlamağa çalışır. Bu məlumatlar ön planda qalır, çünki onlar aktuallığını qoruyur və gündəlik həyatımızda daha çox istifadə olunur. Köhnə məlumatlar yaddaşımızda qalmağa davam edir, lakin onları xatırlamaq üçün daha çox cəhd göstərmək lazımdır. Məsələn, məktəbdə öyrəndiyimiz bir mövzu illər keçdikcə unudula bilər, amma müəyyən bir kontekst və ya assosiasiya yolu ilə bu məlumatı yenidən yaddaşımızdan çıxarmaq mümkündür. Bu o deməkdir ki, köhnə məlumatlar tamamilə yox olmur, sadəcə, onları yenidən xatırlamaq üçün müəyyən bir stimul və ya təkan tələb olunur. Beləliklə, yeni informasiya axını köhnə məlumatları arxa plana itələsə də, onlar yaddaşımızın dərinliklərində qalır və lazım gəldikdə yenidən üzə çıxa bilər.*

**3. Bəzən köhnə informasiya müəyyən hadisə ilə əlaqədar yada düşür.**

*Yaddaşımız bir-biri ilə əlaqəli məlumatları birləşdirmək qabiliyyətinə malikdir. Bu o deməkdir ki, hər hansı bir hadisə və ya təcrübə keçmişdə öyrəndiyimiz və ya yaşadığımız bir məlumatı yada sala bilər. Məsələn, bir mahnı eşitdiyimiz zaman bu musiqi ilə bağlı keçmişdə yaşadığımız müəyyən bir hadisəni xatırlaya bilərik. Bu, köhnə informasiyanın yaddaşımızda qaldığını, lakin müəyyən bir hadisə ilə yenidən aktivləşdiyini göstərir. Yaxud*

Layihə

*dostunuzla köhnə bir mövzuda söhbət etdikdə illər əvvəl oxuduğunuz bir kitabın məzmununu və ya həmin dövrdə baş verən hadisələri xatırlaya bilərsiniz. Bu hadisələr köhnə informasiyanı yaddaşımızdan çıxarıb onu yenidən aktual hala gətirir.*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dinləmə zamanı götürdüyü qeydlər əsasında mətnlə bağlı sualları cavablandırır. | Tap. **a, b, c** (D.) |
| Həyatdan nümunələr gətirməklə və ya araşdırılan faktlardan istifadə etməklə qarşı tərəfin fikrinə münasibətini əsaslandırır. | Tap. **ç, d** (D.) |

## 6-cı dərs. Vurğu

• Dərslik: səh. 55 • İş dəftəri: səh. 35

**Təlim məqsədləri:**

**1.** Kontekstdən çıxış edərək vurğusu dəyişməklə mənası dəyişən sözlərin tələffüzünü fərqləndirir **(st. 7-4.1.1).**

**Mövzuya yönəltmə**

Şagirdləri mövzuya yönəltmək üçün müəllim lövhədə müxtəlif sözlər yazır. Şagirdlər sözləri tələffüz edir və hansı hecanın digərlərinə nisbətən qüvvətli deyilməsini müəyyənləşdirirlər.

**Dil qaydaları**

**7-4.1.1. Tapşırıq a (dərslik).** Tapşırıq vasitəsilə şagirdlərin diqqəti sözlərə yönəldilir. Şagirdlər verilmiş sözləri tələffüz edib qüvvətli hecaları təyin edirlər.

Cavab: Şérlok, Vátson, Lóndon, álibi, astronómiya, botánika, ki’mya, geológiya, xrónika

**“Yadda saxla” rubrikası.** Rubrikada vurğulu heca barədə məlumat verilir. Müəllim sözlərdə vurğunun işlənmə yeri haqqında şagirdlərə bu məlumatları çatdırmalıdır: 1) Azərbaycan dilində vurğu, əsasən, sözün son hecasındakı saitin üzərinə düşür; 2) Alınma sözlərdə vurğunun yeri sərbəstdir.

Şagirdlər bilməlidirlər ki, sözdə vurğunu düzgün işlətməmək orfoepik cəhətdən nöqsan sayılır. Onlara izah etmək lazımdır ki, sözdə vurğunun yerini müəyyənləşdirmək üçün müqayisədən istifadə etmək olar: óxumaq – oxúmaq – oxumáq və s.

**Tapşırıq b (dərslik).** Bu tapşırıqda dördündən biri vurğunun yerinə görə fərqlənir.

Cavab: 1-ci sıra: b. dünən; 2-ci sıra: d. prototip; 3-cü sıra: c. aktyor; 4-cü sıra: a. diskussiya

**Tapşırıq a (iş dəftəri).** İş dəftərindəki tapşırıqlar mənimsədilmiş qaydaların tətbiqinə xidmət edir. Bu tapşırıqda şagirdlərin sözlərdə vurğunu müəyyən etmək bacarığı yoxlanılır.

Cavab: 1-ci sıra: 2-ci heca; 2-ci sıra: 4-cü heca; 3-cü sıra: 1-ci heca; 4-cü sıra: 3-cü heca

**Tapşırıq b (iş dəftəri).** Bu tapşırıqda şagirdlər vurğusu səhv göstərilən sözləri seçirlər.

Cavab: fábrik, bugecəki’, donánma, réytinq, buldózer, cangüdə’n

**Tapşırıq c (dərslik).** Məlumdur ki, bəzi sözlərdə vurğunun yerini dəyişdikdə məna da dəyişir. Verilmiş tapşırıqda belə nümunələr var. Şagirdlər tələffüzə və kontekstə əsasən sözlər arasındakı fərqi ortaya çıxarmalıdırlar. Cavab: satiri’k (sifət) – sati’rik (isim)

**“Yadda saxla” rubrikası.** Burada vurğusu dəyişməklə mənası dəyişən sözlərdən danışılır. Azərbaycan dilində bəzi sözlərdə vurğunun yerini dəyişəndə o sözün mənası da dəyişir: gə’lin – gəli’n, alín – álın, süzmə’ – sű́zmə, burmá – búrma, axín – áxın və s. Şagirdlərə çatdırılır ki, vurğunu dəyişməklə mənası dəyişən sözlər omonimik cərgə yarada bilmir.

**Tapşırıq ç (dərslik).** Şagirdlər bu tapşırıqda vurğusu dəyişən sözlərin mənasını müəyyən edirlər. Həmin sözlərin qrammatik xüsusiyyətini dəqiqləşdirib uyğunluğu əsaslandırırlar. Cavab: 1 – a; 2 – b; 3 – a; 4 – c; 5 – a; 6 – b; 7 – a; 8 – c

Şagirdlər bilməlidirlər ki, vurğusu dəyişən sözlərin mənası dəyişməklə bərabər, onlar həm də başqa nitq hissəsinə keçir.

**Tapşırıq c (iş dəftəri).** Tapşırıqda sözlərin həm vurğusunu, həm də hansı nitq hissəsi olduğunu tapmaq tələb olunur.

Cavab: 1. 1-ci heca. Feil, 2. 2-ci heca. Feil
1. 2-ci heca. İsim, 2. 1-ci heca. Feil
1. 3-cü heca. İsim, 2. 2-ci heca. Feil

**Tapşırıq ç (iş dəftəri).** Bu tapşırıqda şagirdlər verilmiş sözlərdə vurğunun yerini dəyişməli, sonra cümlələrdə işlətməlidirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

Layihə

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstdən çıxış edərək vurğusu dəyişməklə mənası dəyişən sözlərin tələffüzünü fərqləndirir. | Dərslikdə və iş dəftərində olan tapşırıqlar |

# 2-ci fəsil

## 1-ci dərs. Quba kapriççiosu

• Dərslik: səh. 56-57 • İş dəftəri: səh. 36

**Təlim məqsədləri:**

**1.** Mətnin struktur elementlərini onun məzmunu ilə əlaqələndirir (st. 7-2.3.3).

**2.** Sözün kontekstə uyğun mənasını müəyyən edir (st. 7-2.1.2).

**3.** Mətndəki məlumatlardan çıxış edərək mühakimələr yürüdür (st. 7-2.3.2).

**4.** Mətnin məzmunundan çıxış edərək hadisələrin davamını təxmin edir (st. 7-2.3.6).

**Mövzuya yönəltmə**

İlk tapşırıqla şagirdləri mövzuya yönəltmək olar. Şagirdlərə belə suallar verilə bilər:

*Çingiz Abdullayevin yaradıcılığı haqqında məlumatınız varmı?*

*Yazıçının hansı əsərini oxumusunuz?*

*Sizcə, nə üçün mətnin adında musiqi termindən istifadə olunub?*

*Təxəyyüldən təkcə musiqidə istifadə oluna bilər?*

**Oxu**

**7-2.3.3. Tapşırıq a (dərslik).** Mətnin əvvəlində verilmiş epiqraf oxunub izah edilir.

> **Müəllimin nəzərinə!** Şagirdlər "kapriççio" termininin tələffüzündə çətinlik çəkə bilərlər. Sözün düzgün deyilişini və vurğusunu şagirdlərin diqqətinə çatdırmaq lazımdır. Sözün mənşəyi və mənası haqqında da məlumat verilə bilər.

**"Quba kapriççiosu" mətni üzrə iş. Rollu oxu.** Bu üsulla şagirdlər mətnin quruluşunu, dilini, obrazların xarakterini daha yaxşı anlaya bilərlər. Mətnin birinci hissəsi oxunur.

Şagirdlərə tövsiyə oluna bilər ki, mətni oxuyarkən fərqləndirilmiş cümlələrə diqqət etsinlər.

**Söz ehtiyatı**

**7-2.1.2. Tapşırıq b (dərslik).** Şagirdlər verilən izahlar arasında sözün mətnə uyğun mənasını seçməlidirlər. Cavab: b

**Tapşırıq c (dərslik).** Şagirdlər əvvəlki fəsildə "təhqiqat" və "tədqiqat" sözlərinin mənası ilə tanış olublar. Həmin mənalardan çıxış edərək bu sözləri cümlədə işlətmək tələb edilir.

**Oxuyub-qavrama**

**7-2.3.2. Tapşırıq ç (dərslik).** Şagirdlər mətndə fərqləndirilmiş suallarla bağlı öz fikirlərini deyə

Layihə

bilərlər. Cinayətin araşdırılması üçün həmin sualların əhəmiyyətini təxminən aşağıdakı kimi əsaslandırmaq olar:

**1) Bəlkə, əminiz almazı satıb?**

Təxmini cavab: *Əmi ağır xəstə idi. Buna görə almazı sata bilərdi ki, müalicə olunsun. Bu halda almazı axtarmağa dəyməz.*

**2) Yaxşı, bəs əminiz vəfat edəndə yanında kim vardı?**

Təxmini cavab: *Əminin yanındakı adamlardan hər biri almazı oğurlaya bilərdi. Bu adamları müəyyən edib almazı axtarmaq olar.*

**3) Əminiz bu adamlara öz var-dövlətindən nəsə vəsiyyət edibmi?**

Təxmini cavab: *Əgər həmin adamlara var-dövlətdən heç nə düşməyibsə, onda onlar fürsətdən istifadə edib almazı ələ keçirə bilərdilər.*

**4) Almazın itdiyini sizdən başqa kim bilir?**

Təxmini cavab: *Almazın itdiyini qardaşlardan başqa da kimsə bilirsə, deməli, artıq bu məsələni cinayət hadisəsi saymaq olar. Deməli, o adam da almazı axtarmağa çalışacaq. Onda Dronqonun da xəfiyyə olduğu üzə çıxa bilər.*

Xəfiyyə kimi daha hansı suallar verilə bilər? Suallar və onların cavabları təxminən belə ola bilər:

- **Əminizin almazı sizə vəsiyyət edəcəyini əvvəlcədən bilən vardı?**
- **Əminiz kimə nə vəsiyyət edəcəyini həmin adamlara demişdi?**

**Tapşırıq d (dərslik).** Bu tapşırıqda şagirdlər təhqiqatla bağlı fikirlər irəli sürə bilərlər.

Bu suala təxminən belə cavab vermək olar:

*Detektiv əsərlərdə xəfiyyə, adətən, təhqiqata bir neçə əsas məqamdan başlayır:*

***Cinayət yerinə baxış:*** *Xəfiyyə cinayətin baş verdiyi məkanı diqqətlə araşdırır. Burada izlər, dəlillər, əşyalar və ya hadisənin gedişatı ilə bağlı məlumatlar toplayır.*

***Şahidlərdən məlumat toplama:*** *Cinayət hadisəsi ətrafında olan şahidlərlə söhbətlər aparılır. Şahidlər cinayət hadisəsinin necə baş verdiyi və kimlərin şübhəli olduğu ilə bağlı vacib məlumatlar verə bilərlər.*

***Dəlillərin araşdırılması:*** *Toplanan fiziki dəlillər – barmaq izləri, qan izləri, geyim, əşyalar və s. laboratoriyada analiz edilir. Bu analizlər cinayətkarın izini sürmək üçün vacib ola bilər.*

***Şübhəlilərin müəyyənləşdirilməsi:*** *Xəfiyyə hadisə ilə əlaqəsi olan insanları araşdırmağa başlayır. Şübhəli şəxslərin hərəkətləri, keçmişləri və münasibətləri araşdırılır.*

***Cinayət motivinin axtarışı:*** *Xəfiyyə cinayətin arxasında duran səbəbləri tapmağa çalışır. Pul, şəxsi münasibətlər, qisas və ya başqa motivlər təhqiqatın istiqamətini müəyyənləşdirə bilər.*

***Zaman və məkan analizi:*** *Cinayətin baş verdiyi zaman və yer xəfiyyəyə cinayət zamanı kimlərin həmin ərazidə olduğunu və hadisəni kimin törədə biləcəyini anlamağa kömək edir.*

**7-2.3.6. Tapşırıq e (dərslik).** Şagirdlərdən tələb olunur ki, mətnin davamını öz təxəyyüllərinə uyğun qursunlar.

**Tapşırıq a (iş dəftəri).** Şagirdlər mətndəki məlumatlara əsasən sualları cavablandırırlar.

<u>Cavab</u>: 1. Boris Dronqo ilə hansı məqsədlə görüşdü?

Ailəsinə məxsus "Şah Abbas" almazını axtarıb tapmaq üçün

2. Miras qalan ən dəyərli əşya nə idi?

"Şah Abbas" almazı

3. Şübhəlilərin siyahısında kimlər vardı?

Həkim, xala, qulluqçu, bağban, sürücü, xalanın oğlu

4. Borisin əmisi öz qohumlarına nə miras qoymuşdu?

O, Boris və Asifə var-dövlətinin böyük bir hissəsini, "Şah Abbas" almazını miras qoymuşdu.

5. Dronqo nə üçün Qubaya yola düşdü?

Məsələni araşdırmaq üçün

**Tapşırıq b (iş dəftəri).** Şagirdlər mətnə istinad edərək öz fikirlərini əsaslandırırlar.

<u>Cavab təxminən bu məzmunda ola bilər</u>:

*Əminin Bakıdakı evi qarət edilir. Amma oğru evdəki pula, daş-qaşa toxunmur. Deməli, o da almazı axtarırmış. Dronqo sürücüdən öyrənir ki, bağban bir gün əvvəl Bakıya gəlib, sonra təcili Qubaya qayıdıbmış. Bu, Dronqonu şübhələndirir.*

**Tapşırıq c (iş dəftəri).** Tapşırıq səbəb-nəticə əlaqəsinin müəyyənləşdirilməsi ilə bağlı olub şagirdlərin analizetmə bacarığını inkişaf etdirir.

<u>Cavab</u>: 1. Səbəb – Əminin övladı yox idi.

Səbəb – Şübhəlilərin sayı çoxalmışdı.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnin struktur elementlərini onun məzmunu ilə əlaqələndirir. | Tap. **a** (D.) |
| Sözün kontekstə uyğun mənasını müəyyən edir. | Tap. **b, c** (D.) |
| Mətndəki məlumatlardan çıxış edərək mühakimələr yürüdür. | Tap. **ç, d** (D.) |
| Mətnin məzmunundan çıxış edərək hadisələrin davamını təxmin edir. | Tap. **e** (D.) |

## **2-ci dərs.** Quba kapriççiosu

• Dərslik: səh. 58-60 • İş dəftəri: səh. 37

**Təlim məqsədləri:**

**1.** Mətnin məzmunu ilə bağlı sualları cavablandırmaqla mətni mənimsədiyini nümayiş etdirir **(st. 7-2.1.1).**

**2.** Təqdimat materialında qrafik informasiyadan (diaqramlardan) istifadə edir **(st. 7-3.2.4).**

**Mövzuya yönəltmə**

Müəllim frontal sorğu ilə mətnin birinci hissəsini şagirdlərə xatırladır.

*"Şah Abbas" almazının hansı tarixçəsi var?*

*Nə üçün "Şah Abbas" almazı ailə üçün çox dəyərli idi?*

*Bu hissənin sonunda hansı şübhəli hadisələr qeyd edilib?*

**Oxu**

**Tapşırıq a (dərslik).** Şagirdlər "Rollu oxu" üsulu ilə mətnin ikinci hissəsini oxuyurlar. Sonra həmin hissəni öz süjetləri ilə müqayisə edirlər.

**7-2.1.1. Tapşırıq b (dərslik).** Mətndəki məlumatlardan çıxış edərək sualları cavablandırmaq tələb olunur. Cavab:

**• Nə üçün Dronqo oğrunun evdəkilərdən biri olduğunu düşünürdü?**

Otağın pəncərələrində dəmir barmaqlıqlar var idi, yad adam bura gizlin girə bilməzdi.

**• Semyonun köməkçisi Dronqoya almaz haqqında əlavə hansı məlumatı verdi?**

Köməkçinin dediyinə görə, Qacarlar nəslindən bir iranlı almazı almaq istəyib, amma pulu çatmayıb.

**• Asif hansı xəstəlikdən əziyyət çəkirdi?**

Epilepsiya

**• Dronqonun təhqiqatını çətinləşdirən nə idi?**

Dronqo xəfiyyə olduğunu gizlətməli, almaz haqqında birbaşa suallar verməməli idi.

Bu tapşırıq yerinə yetirildikdən sonra iş dəftərindəki birinci tapşırığa keçmək olar.

**Tapşırıq a (iş dəftəri).** Şagirdlər oxuduqları hissəyə istinad edərək fikirlərin doğru, yanlış, yoxsa ehtimal olduğunu müəyyən edirlər.

Cavab: 1 – D, 2 – Y, 3 – D, 4 – Y, 5 – E, 6 – D, 7 – Y.

**7-3.2.4. Tapşırıq c (dərslik).** Bu tapşırıqda verilmiş suallar əsasında şagirdlər sorğu keçirirlər və nəticəni diaqram şəklində təqdim edirlər.

**Tapşırıq b (iş dəftəri).** Bu tapşırıq dərslikdəki **c** tapşırığına uyğun şəkildə yerinə yetirilir.

Cavab: *Nümunə: Fatma İzmaylovun şəhərdəki evini qarət edə bilməzdi, çünki o, Qubadan kənara çıxmamışdı.*

Şagirdlər sorğuya əsasən öz fikirlərini yazılı şəkildə ifadə edə bilərlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnin məzmunu ilə bağlı sualları cavablandırmaqla mətni mənimsədiyini nümayiş etdirir. | Tap. **b** (D.); **a** (İ.D.) |
| Təqdimat materialında qrafik informasiyadan (diaqramlardan) istifadə edir. | Tap. **c** (D.) |

## **3-cü dərs.** Quba kapriççiosu

• Dərslik: səh. 60-61 • İş dəftəri: səh. 38

**Təlim məqsədləri:**

**1.** Dinləmə zamanı götürdüyü qeydlər əsasında mətnlə bağlı sualları cavablandırır **(st. 7-1.1.1).**

**2.** Mətnin struktur elementlərini onun məzmunu ilə əlaqələndirir **(st. 7-2.3.3).**

**Mövzuya yönəltmə**

Müəllim ikinci hissəni frontal sorğu ilə şagirdlərə xatırladır:

*Nə üçün Boris Dronqonu dostu kimi təqdim etdi?*

*Semyonun köməkçisindən və Fatmadan aldığı məlumatlar Dronqoya necə kömək etdi?*

Layihə

*Sizcə, Borisi kim yaralamışdı?*

**Oxu**

**Tapşırıq a (dərslik).** Yenə "Rollu oxu" üsulu ilə mətnin üçüncü hissəsi oxunur. Mətnin davamı şagirdlərin qurduğu süjetlə müqayisə edilir.

**7-1.1.1. Tapşırıq b (dərslik).** Şagirdlər mətni dinlədikdən sonra sualları cavablandırırlar.

**Dinləmə**

***Quba Kapriççiosu***

*Polislər İsa Aşurini apardıqdan sonra Dronqo, İzmaylov qardaşlarını ayrı bir otağa dəvət etdi. Qardaşlar divanda oturub intizar dolu nəzərlərlə xəfiyyəyə baxırdılar.*

*– Sizə artıq məlumdur ki, – Dronqo sözə başladı, – İsa Aşuri cinayətkar olsa da, almazı oğurlayan o deyil. Əslində, mənim vəzifəm Aşurini həbs etmək yox, almazı tapmaq idi. Bəri başdan deyim ki, mən vəzifəmi yerinə yetirmişəm. Budur, bu da "Şah Abbas" almazı!*

*Dronqo əlini cibinə salıb almazı çıxardı. Onu baş və şəhadət barmaqları arasında tutub qalibanə görkəmlə yuxarı qaldırdı. Qardaşların sifətində təəccüb və sevinc ifadələri bir-birinə qarışmışdı:*

*– Necə?!. Kim?!.*

*– Elə mən də bu suallara cavab vermək üçün sizi dəvət etmişəm: almazı kim oğurlayıb və mən bunu necə aşkar etdim? Boris, ilk görüşdə siz mənə həmin gün evdə olanları sadalamışdınız. Biləsiniz ki, bura gələnə qədər onların hamısı, hətta siz və qardaşınız belə mənim üçün potensial cinayətkar idi. Amma siz bir nəfəri unutmuşdunuz – qulluqçunuz Fatmanın bacısı qızı Nəzrini.*

*– Axı onun cəmi dörd yaşı var.*

*Dronqo Borisin sözlərinə əhəmiyyət vermədən üzünü Asifə tutdu:*

*– Asif, hiss olunur ki, emosional adamsınız. Deyilənə görə, əminizin vəfatından ən çox təsirlənən siz olmusunuz. Ancaq, görünür, siz eyni zamanda kifayət qədər rasional adamsınız. Əminizin cənazəsini evdən çıxarandan sonra gizli seyfdən daş-qaşlar olan mücrünü götürmək yadınızdan çıxmayıb.*

*Asif əsəbi halda:*

*– Şübhəsiz, – dedi. – Mücrünü orada saxlamaq təhlükəli idi. Onun yerini başqaları da bilirdi. Nədir ki, siz məni günahlandırırsınız?!*

*– Əlbəttə, yox. Sadəcə, hadisənin mənzərəsini yaratmağa çalışıram. Deməli, siz mücrünü götürüb otaqdan çıxmaq istəyəndə tutmanız olub. Huşunuzu itirib yerə yıxılmısınız. Çox güman ki, mücrü əlinizdən düşüb və almaz yoxa çıxıb. Bundan sonra siz özünüzə gələnə qədər otaqda həkim, Fatma və balaca Nəzrin olub. Qızcığaz kənara diyirlənmiş almazı döşəmədəki xalçanın altından tapıb. Qəşəng bir əşya kimi cibinə qoyub ki, sonra onunla oynasın. Mən gəlinciyi ona verəndə, həmin daşı qaytarmağa razı oldu.*

*Dronqo bir daha işıqda bərq vuran almaza baxdı:*

*– O, doğrudan da, çox gözəldir, – deyib daşı Borisə uzatdı.*

Cavab: 1. Dronqo İzmaylov qardaşlarına nə barədə məlumat verdi?

Almazı necə tapması barədə.

2. Asif nəyə görə Dronqonun sözlərindən əsəbiləşdi?

Elə bildi ki, Dronqo onu günahlandırır.

3. Asifin emosionallığı və rasionallığı özünü nədə göstərdi?

Asif əminin ölümündən təsirlənsə də, daş-qaşla dolu mücrünü götürməyi unutmamışdı.

4. Almazın yoxa çıxmasını oğurluq adlandırmaq olarmı? Fikrinizi əsaslandırın.

Xeyr. Çünki Nəzrin onu təsadüfən tapmış və oynamaq üçün götürmüşdü.

**Tapşırıq a (iş dəftəri).** Cavab:

1. İsa Aşuri Semyon İzmaylovla necə tanış olmuşdu?

Bu suala cavab yoxdur.

2. Aşuri almazı nə üçün ələ keçirmək istəyirdi?

O özünü Qacarlar nəslindən hesab edirdi. Almazı Qacarlar nəslinə qaytarmaq istəyirdi.

3. Asifin mücrüsündə nə var idi?

Bu suala cavab yoxdur.

4. Bağban şəhərə getdiyini niyə gizlətmişdi?

Bağban ev sahiblərinin qəzəbindən qorxub şəhərdəki qəzanı Dronqoya deməmişdi.

5. İsanın nifrətinin səbəbi nə idi?

İsa bu adamlara nökərlik etmişdi ki, böyük Qacarlar nəslinə aid olanı geri qaytarsın.

**7-1.1.1. Tapşırıq b (iş dəftəri).** Cavab: doğru fikirlər – 1, 4

**"Qlossari" rubrikası.** Şagirdlər rubrikadakı sözlərlə tanış olurlar.

**Tapşırıq c (dərslik).** "Qlossari" rubrikasındakı məlumatlardan çıxış edərək şagirdlər "potensial" sözünü cümlədə işlədirlər.

**7-2.3.3. Tapşırıq ç (dərslik).** Şagirdlərdən mət-

Layihə

nə uyğun olaraq epizodları müəyyənləşdirmək tələb edilir. Cavab: Ekspozisiya: *Dronqo Boris adlı gənclə tanış olur.*

Düyün (konflikt): Almaz itir.

Hadisələrin inkişafı: Əminin evi qarət edilir. Dronqo təhqiqata başlayır.

Kulminasiya (zirvə): Kimsə Borisi yaralayır. Mücrü yoxa çıxır.

Açılma: Dronqo İsa Aşurini ifşa edir.

Final: Dronqo almazı tapıb qardaşlara verir.

**Tapşırıq d (dərslik).** Cavab: a. gözlənilməzdir

**7-1.1.1. Tapşırıq c (iş dəftəri).** Şagirdlər mətnin oxuduqları və dinlədikləri hissələrinə istinad edərək məlumatları müəyyənləşdirirlər. Cavab: 1 – A; 2 – B; 3 – A; 4 – A; 5 – B; 6 – C

**Tapşırıq ç (iş dəftəri).** Şagirdlərdən verilmiş sxem üzrə hadisələrin ardıcıllığını tapmaq tələb olunur. Cavab: 1 – c; 2 – d; 3 – b; 4 – a

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dinləmə zamanı götürdüyü qeydlər əsasında mətnlə bağlı sualları cavablandırır. | Tap. b (D.); b, c (İ.D.) |
| Mətnin struktur elementlərini onun məzmunu ilə əlaqələndirir. | Tap. ç, d (D.) |

## 4-cü dərs. Mürəkkəb sözlərin yaranma yolları

• Dərslik: səh. 62-63 • İş dəftəri: səh. 39-40

**Təlim məqsədləri:**

**1.** Hiponimləri sinonimlərdən fərqləndirir və onların iştirakı ilə yaranan mürəkkəb sözlərin yazılış qaydalarına əməl edir **(st. 7-4.1.4).**

**2.** Mürəkkəb sözlərin yaranma yollarını və yazılışını müəyyən edir **(st. 7-4.2.1).**

**3.** Söz birləşmələrini mürəkkəb sözlərdən fərqləndirir **(st. 7-4.2.3).**

**Mövzuya yönəltmə**

**7-4.1.4. Tapşırıq a (dərslik).** Bu tapşırıq şagirdlərin mürəkkəb sözlər haqqında aldıqları biliklərin təkrarına yönəldilib. Şagirdlər aşağı siniflərdə mürəkkəb sözlər haqqında biliklərə yiyələniblər. Müəllim yönəldici suallarla şagirdlərin bu mövzuda bilgilərini xatırlamağa, həm də tapşırığı yerinə yetirməyə yardımçı ola bilər. Şagirdlər mürəkkəb sözləri tapırlar və yaranma yollarını müəyyən edirlər. Cavab: 1 – c; 2 – d; 3 – a; 4 – b

**Tapşırıq a (iş dəftəri).** Cavab:

| | |
|---|---|
| söz-söhbət | yan-yörə |
| dərə-təpə | az-çox |
| ucsuz-bucaqsız | qol-qanad |
| nəvə-nəticə | yaxşı-yaman |

**"Xatırla" rubrikası.** Bu rubrikada şagirdlərə əvvəlki siniflərdə öyrəndikləri qaydalar xatırladılır. Həmin qaydalar eyni sözün təkrarı ilə yaranan bəzi mürəkkəb sözlərə aiddir.

**7-4.2.1. Tapşırıq b (dərslik).** Fərqləndirilmiş sözlərin yazılışını müəyyən etmək tələb olunur. Bunlardan üçü defislə yazılır. Çünki həmin sözlər vahid məna bildirir.

Cavab: **1. Əldən-ələ** keçir vəfasız həyat. *(Səməd Vurğun)*

**2.** Zalın döşəməsi **başdan-başa** xalça ilə örtülmüşdü.

**3. Adamdan adama** fərq var.

**4.** Onunla **üz-üzə** oturub söhbət etmək lazımdır.

**Tapşırıq b (iş dəftəri).** Cavab:

| Defislə yazılır | Ayrı yazılır |
|---|---|
| *başdan-ayağa süzmək* | *çiçəkdən çiçəyə qonmaq* |
| *gündən-günə gözəlləşmək* | *sətirdən sətrə keçirmək* |
| *uzaqdan-uzağa tanımaq* | *otaqdan otağa keçmək* |
| *başdan-başa bəzəmək* | *dişi dişinə dəymək* |

**Tapşırıq c (dərslik).** Bu tapşırıq vasitəsilə daha bir qayda şagirdlərə xatırladılır. Hansı sözlərin defislə yazılması müəyyənləşdirilir.

Cavab: eks-çempion, qeyri-dəqiq, əks-səda, art-biznes, vitse-spiker

**Tapşırıq c (iş dəftəri).**

Cavab: 1. veb-master; 2. veb-kamera; 3. veb-sayt.

**"Xatırla" rubrikası.** Bu rubrikada tərkibində müəyyən hissəciklər olan mürəkkəb sözlərin defislə yazılması ilə bağlı qayda xatırladılır.

**Tapşırıq ç (dərslik).** Bu tapşırıq mürəkkəb sözlərlə bağlı nəzəri materialın mənimsədilməsi

Layihə

üçün motivasiya rolunu oynayır.

Cavab: 1. Festival iştirakçıları şəhərbəşəhər gəzirdilər.

2. Güclü külək qapıları taybatay açdı.

3. Zəng vurulan kimi qaçaqaç düşdü.

4. Sərnişin axını stansiyada basabas yaratdı.

5. Qarışıqlıq düşdü, vurhavur başlandı.

**“Yadda saxla” rubrikası.** Bu rubrikada mürəkkəb sözlərin yazılışı barədə məlumat verilir. Qaydalarla yanaşı, nümunələr də göstərilir.

**Tapşırıq ç (iş dəftəri).** Şagirdlər verilmiş sözlərin yazılışını öyrəndikləri qaydalar əsasında müəyyənləşdirirlər.

növbənöv, anbaan – eyni ismin təkrarı və “ba”, “bə” bitişdiriciləri ilə düzələn mürəkkəb sözlər bitişik yazılır.

ora-bura, əvvəl-axır – əksmənalı sözlərin birləşməsi ilə yaranan mürəkkəb sözlər defislə yazılır.

axşamçağı, kəklikotu – müxtəlifmənalı sözlərin birləşməsi ilə düzələn mürəkkəb sözlər bitişik yazılır.

qat-qat, səhər-səhər – eyni sözün təkrarı ilə düzələn mürəkkəb sözlər defislə yazılır.

tutatut, gəlhagəl – eyni feil kökünün təkrarı və “a”, “ə”, “ha” bitişdiriciləri vasitəsilə yaranan mürəkkəb sözlər bitişik yazılır.

**Tapşırıq d (iş dəftəri).** Cavab: dildən-dilə düşmək

**Tapşırıq e (iş dəftəri).** Müxtəlifmənalı sözlərin birləşməsindən düzələn mürəkkəb sözlərin mənası komponentlərin mənası ilə bəzən uyğun olmur. Tapşırıqda həmin sözlər bunlardır:

çobanyastığı, itburnu, dəvədabanı.

7-4.2.3. **Tapşırıq d (dərslik).** Şagirdlər əvvəlki siniflərdə mürəkkəb sözlər və söz birləşmələri haqqında məlumat alıblar. Müəllim yönəldici suallarla şagirdlərə bu mövzuda bilgilərini xatırlamağa, həm də tapşırığı yerinə yetirməyə yardımçı ola bilər. Tapşırıq vasitəsilə şagirdlər söz birləşməsindən fərqli olaraq mürəkkəb sözün bir anlayış ifadə etməsini mənimsəyirlər.

Cavab: 1. Qonşumuz Fəridə xala çox **şirindil** insandır.

2. **Şirin dil** ilanı yuvasından çıxarar.

3. **Gülər üz** xoş münasibət yaradır.

4. Həkimlərin fikrincə, **güləruz** insanlar daha az xəstələnir.

5. Mağazadan yeni **paltaryuyan** maşın aldıq.

6. Qızlar çayda **paltar yuyan** qadına kömək etdilər.

Şagirdlər fikirlərini belə əsaslandıra bilərlər ki, 1, 4, 5-ci cümlələrdə bitişik yazılan mürəkkəb sözlər vahid məna bildirir, bir vurğu ilə deyilir.

2, 3, 6-cı cümlələrdə fərqləndirilmiş ifadələrin komponentlərinə ayrı-ayrılıqda sual vermək olar.

“Yadda saxla” rubrikasında qeyd edilir ki, mürəkkəb sözlər müxtəlifmənalı sözlərdən də əmələ gəlir. Bu üsulla yaranan mürəkkəb sözlər struktur baxımından söz birləşmələrinə bənzəyir. Amma onların arasında müəyyən fərqlər var.

**Tapşırıq e (dərslik).** Şagirdlərdən tələb olunur ki, verilmiş söz birləşmələrini mürəkkəb söz kimi cümlələrdə işlətsinlər. Onlar nümunəyə əsaslana bilərlər.

**Tapşırıq ə (iş dəftəri).** Tapşırığın tələbinə görə, söz birləşmələrindən mürəkkəb sözlər düzəltmək lazımdır. Bu zaman tərəflərdən birinə müvafiq şəkilçi artırıla bilər.

Cavab:
yüz il – yüzillik
altı nəfər – altınəfərlik
bir dəfə – birdəfəlik
keçən il – keçənilki
çox mərtəbə – çoxmərtəbəli
paltar yumaq – paltaryuyan
uzun ömür – uzunömürlü
səkkiz guşə – səkkizguşəli

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Hiponimləri sinonimlərdən fərqləndirir və onların iştirakı ilə yaranan mürəkkəb sözlərin yazılış qaydalarına əməl edir. | Tap. a (D.); a (İ.D.) |
| Mürəkkəb sözlərin yaranma yollarını və yazılışını müəyyən edir. | Tap. b, c, ç (D.); b, c, ç (İ.D.) |
| Söz birləşmələrini mürəkkəb sözlərdən fərqləndirir. | Tap. d, e (D.); ə (İ.D.) |



Layihə

# 3-cü fəsil

## 1-ci dərs. Qatarda söhbət

• Dərslik: səh. 64-66 • İş dəftəri: səh. 41

**Təlim məqsədləri:**

**1.** Omonim və ya çoxmənalı sözün kontekstə uyğun mənasını müəyyən edir **(st. 7-2.1.2).**
**2.** Dialoqlar əsasında obrazların xarakteri haqqında fikir yürüdür **(st. 7-2.3.1).**
**3.** Mətnin müxtəlif hissələrində əks olunmuş hadisələr arasındakı səbəb-nəticə əlaqəsini müəyyənləşdirir **(st. 7-2.2.1).**
**4.** Mürəkkəb sözlərin yaranma yollarını müəyyən edir **(st. 7-4.2.1).**

**Mövzuya yönəltmə**

Şagirdləri mövzuya yönəltmək üçün müəllim klaster üsulundan istifadə edə bilər. Lövhənin mərkəzində dairə çəkilir və orada “müşahidə” sözü yazılır. Şagirdlər sözün ifadə etdiyi anlayışlarla bağlı yeni sözlər yazmalı və onları əlaqələndirməlidirlər. Bu üsul şagirdləri mövzu ətrafında açıq və sərbəst düşünməyə yönəldir.

“Müşahidə” sözünün müxtəlif işlənmə məqamlarına aşağıdakılar uyğun ola bilər: *izləmə, baxma, gözdən keçirmə, dərketmə, nəzarət.*

Müəllim şagirdlərə belə suallar verə bilər:

– *Müşahidə qabiliyyətinin əhəmiyyəti nədir?*
– *İnsan müşahidəçi olmalıdırmı?*

**Müəllimin nəzərinə!** Əvvəlki fəsillərdə verilmiş mətnlərdə detektivlərin müşahidə qabiliyyətini, bunun sayəsində cinayətləri necə araşdırdıqlarını şagirdlərə xatırlatmaq olar.

**Tapşırıq a (dərslik).** Bu tapşırıq şagirdlərin oxuyacağı mətn üçün motivasiya rolunu oynayır.
Cavab belə ola bilər:

*Müşahidəçi insan – ətrafında baş verənləri diqqətlə izləyən, xırda detalları görən və bu məlumatları analiz edərək düzgün nəticələr çıxaran bir şəxsdir. Müşahidəçi olmaq, yalnız baxmaqla kifayətlənməyib, gördüklərini dərk etmək və bu dərk olunanları faydalı şəkildə istifadə etmək bacarığıdır.*

*Daha sonra şagirdlər özlərinin müşahidə qabiliyyəti haqqında fikir yürüdürlər.*

**Oxu**

**“Qatarda söhbət” mətni üzrə iş. Rollu oxu.** Şagirdlərdə ifadəli oxu və danışma bacarığını inkişaf etdirən üsul kimi yenə rollu oxudan istifadə etmək olar. Dialoqlar üstünlük təşkil etdiyi üçün mətn səhnələşdirilə bilər.

**Söz ehtiyatı**

Şagirdlər oxu zamanı tanış olmayan sözlərin mənasını öyrənirlər.

**7-2.1.2. Tapşırıq b (dərslik).** Bu tapşırıqda mətndə mavi rəngdə verilmiş sözün kontekstə uyğunluğu yoxlanılır. Cavab: 3. Görəsən, dükanı kim yarıb?

**Danışma**

**7-2.3.1. Tapşırıq c (dərslik).** Şagirdlər şəkilləri obrazlarla uyğunlaşdırıb onlar haqqında mətndə öyrəndiklərini danışırlar.

**7-2.2.1. Tapşırıq ç (dərslik).** Şagirdlər mətnə əsasən mayor Rəsulovun fikirlərini diqqətə çatdırırlar.

*Mayor Rəsulovun müşahidə qabiliyyəti ona kupedəkilər barədə ətraflı məlumat əldə etməyə imkan vermişdi. Eynəkli kişi haqqında dedikləri:*

*Mühasibatlıq üzrə kitab oxuyursunuz. Kitabı elə vərəqləyirsiniz, sanki çötkə ilə işləyirsiniz. Sağ əlinizdə barmaqlarınızın ucları qabardır. Deməli, hesabdarsınız. Dilinizin üstündəki ağ ləkələr göstərir ki, mədəniz xəstədir, gözlərinizin altındakı şiş isə böyrəklərinizin xəstə olmasından xəbər verir. Pencəyiniz qara rəngdədir, amma yuxarıdan ikinci düyməsi ağ sapla tikilib.*

*Gənc xanım haqqında dedikləri:*

*Sağ əlinizin barmaqları yoda batıb. Düşündüm ki, ya tibb bacısı, ya da həkimsiniz. Sonra çantanızı açanda oradakı fonendoskop gözümə sataşdı.*

*Dolu qadın haqqında dedikləri:*

*Bayaqdan cibinizdəki qəzetdə uduş cədvəlinə baxırsınız. Orada 01226 nömrəsinin altından xətt çəkilib. Bu, lotereyanızın nömrəsidir.*

**7-4.2.1. Tapşırıq d (dərslik).** Bu tapşırıqda şagirdlərdən tələb olunur ki, verilmiş mürəkkəb sözlərin yaranma yollarını müəyyən etsinlər.

Cavab: a – 2; b – 4; c – 1; ç – 3

**7-2.1.2. Tapşırıq a (iş dəftəri).** Şagirdlər mətnə istinad edərək krosvordu doldururlar. Onlar krosvordu həll etməklə mətndə rast gəldikləri yeni sözləri mənimsədiklərini nümayiş etdirirlər.

Krosvordun cavabı:

Yuxarıdan aşağı – 1. hesabdar; 2. – protokol; 5. – milis

Soldan sağa – 3. fonendoskop; 4. – mühasib; 6. – maliyyə

**7-2.2.1. Tapşırıq b (iş dəftəri).** Bu tapşırıqda

Layihə

mətnə əsasən cümlələri tamamlamaq lazımdır.

1. Eynəkli kişi qarabəniz kişini kinayə ilə “Şerlok Holms” adlandırdı, çünki *qarabəniz kişi onun haqqında bəzi şeylər deyə biləcəyini söylədi.*

2. Düymə söhbəti eynəkli kişinin xoşuna gəlmədi, çünki *utandı.*

3. Qarabəniz kişi dolu qadının sirrini açmaq üçün icazə istədi, çünki *həmin sirr pulla əlaqədar idi.*

**Müəllimin nəzərinə!** Növbəti dərs üçün Aqata Kristinin xəfiyyə obrazı Erkül Puaro haqqında filmlərdən birinə baxmaq tapşırılır.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Omonim və ya çoxmənalı sözün kontekstə uyğun mənasını müəyyən edir. | Tap. **b** (D.); **a** (İ.D.) |
| Dialoqlar əsasında obrazların xarakteri haqqında fikir yürüdür. | Tap. **c** (D.) |
| Mətnin müxtəlif hissələrində əks olunmuş hadisələr arasındakı səbəb-nəticə əlaqəsini müəyyənləşdirir. | Tap. **ç** (D.); **b** (İ.D.) |
| Mürəkkəb sözlərin yaranma yollarını müəyyən edir. | Tap. **d** (D.) |

## 2-ci dərs. Müəmmalı vəsiyyətnamə

• Dərslik: səh. 67 • İş dəftəri: səh. 42

**Təlim məqsədləri:**

**1.** Mətnin struktur elementlərini onun məzmunu ilə əlaqələndirir **(st. 7-2.3.3).**

**2.** Mətndəki məlumatlardan çıxış edərək mühakimələr yürüdür **(st. 7-2.3.2).**

**3.** Mətni təxəyyülünə uyğun dəyişdirir, genişləndirir, davam etdirir **(st. 7-2.3.6).**

**4.** Dinlədiyi mətndəki fikirlərə münasibət bildirir **(st. 7-1.1.3).**

**Mövzuya yönəltmə**

Əvvəlcə müəllim şagirdlərdən Puaronun iştirak etdiyi filmlər barədə soruşur. Daha sonra hər hansı bir əsərin struktur elementləri barədə əvvəllər öyrəndiklərini soruşa bilər.

**Tapşırıq a (dərslik).** Verilmiş plan əsasında şagirdlər müəyyən bir detektiv əsərin strukturunu nəql edirlər.

**Oxu**

**“Müəmmalı vəsiyyətnamə” mətni üzrə iş. Səsli oxu.** Şagirdlər mətni növbə ilə səsli oxuyurlar. Bu oxu özündə təkcə anlamağı deyil, həm də anlatmağı ehtiva edir. Buna görə də sözlərin düzgün tələffüzünə, mətnin normal templə (tələsmədən), məzmuna müvafiq intonasiya ilə oxunmasına fikir verilməlidir.

**7-2.3.3. Tapşırıq b (dərslik).** Şagirdlər mətni oxuyub süjetin mərhələsini tapmalıdırlar.

Cavab: b. düyün. Çünki Vayoletin əlindəki vəsiyyətnaməyə görə, o, bir il ərzində ağlının gücü ilə, fərasəti ilə mirasa sahib olmalıdır. Yoxsa hər şey əlindən çıxar. Vayolet isə fərasətini necə göstərəcəyini bilmir. O, kömək üçün Puaroya müraciət edir.

**7-2.3.2. Tapşırıq c (dərslik).** Bu tapşırığın şərtinə əsasən şagirdlər əsərdə təsvir olunan hadisə barədə məlumat verməlidirlər.

Cavab: Əmisi Vayoletə öz var-dövlətini vəsiyyət edir. Amma şərt qoyur: 1 il ərzində ağıllı və fərasətli olduğunu sübut etsin. Puaro Vayoletə izah edir ki, deməli, başqa bir vəsiyyətnamə də var. Onu tapmaq lazımdır.

**Tapşırıq ç (dərslik).** Şagirdlər mətnə istinad edərək fikir yürütməlidirlər. Cavab təxminən belə ola bilər:

Endrü Mars Vayoletin ali təhsil almasını istəməyib. Onun fikrincə, həyat təcrübəsi və fərasət universitet təhsilindən daha vacib imiş.

**7-2.3.6. Tapşırıq d (dərslik).** Mətnin davamını şagirdlər öz təxəyyülünə uyğun davam etdirirlər. Buna görə də mətnin davamı müxtəlif variantlı ola bilər.

**7-1.1.3. Tapşırıq e (dərslik).** Dinləmə mətni səsləndirilir və şagirdlər bu hissəni öz hekayələri ilə müqayisə edirlər.

**Dinləmə**

***Müəmmalı vəsiyyətnamə***

*Köməkçisi Hastinqslə malikanəyə gələn kimi Puaro, ilk növbədə, mister Marşın otağını nəzərdən keçirdi. Şkafdakı qovluqların arasında əzik və çirkli bir zərf diqqətini cəlb etdi. Tez zərfi açdı, amma onun içində kiçik bir açardan başqa heç nə yox idi. “Açar niyə zərfin içinə qoyulsun ki?” – deyə düşündü, amma bir qənaətə gələ bilmədi.*

Layihə

*Sonra xidmətçilərlə söhbət etdi. Məlum oldu ki, mister Marş onlara şahid qismində iki vəsiyyətnamə imzalatdırıb. Puaro onu da öyrəndi ki, əmi ölümündən bir neçə gün əvvəl ustalara buxarının içində gizli yer düzəltdiribmiş. Buxarının divarındakı kərpici itələməklə gizli yeri açmaq olurmuş. Puaro sevincək gizli yeri açdı, amma oradan yalnız yanmış kağız qalıqları tapdı. Puaro çox məyus oldu. Qərara gəldi ki, təhqiqatı dayandırıb Londona qayıtsın.*

*Puaro və köməkçisi qatara mindilər. Qatar yenicə tərpənirdi ki, Puaro birdən çığırdı:*

*– Zərf!.. Açar!.. Hastinqs, tez olun, qatardan düşürük!*

*Onlar malikanəyə çatanda səhər hələ açılmamışdı. Puaro yuxulu xidmətçilərə əhəmiyyət vermədən özünü kabinetə atdı. Yazı masasına yaxınlaşıb zərfi açdı və açarı masanın üstünə qoydu.*

*– Mən necə də axmağam, – deyə o öz-özünə deyinirdi. – Axı mərhum açıq-aydın işarə qoyub. Bildirib ki, sirrin açarı zərfdədir.*

*Puaro ehtiyatla zərfi açaraq tərsinə çevirdi. Sonra şam yandırıb ehtiyatla kağızı qızdırdı. Bir neçə dəqiqədən sonra zərfin boş içəri üzündə solğun hərflər peyda olmağa başladı. Bu yazılarda bildirilirdi ki, mister Marş bütün var-dövlətini qardaşı qızı Vayolet Marşa vəsiyyət edir.*

*Puaro əlində kağız kresloya oturdu:*

*– Necə də ağıllı davranıb! Buxarıda gizlətdiyi ikinci vəsiyyətnamə ilə bizi labirintə salıb. Sən demə, üçüncüsü də varmış. Qardaşı qızı bu müəmmanı çözməklə sərbəst yaşamağa və ali təhsilə haqqı olduğunu sübut edəcəkdi və düşünürəm ki, əmisi bunun belə olmasından ancaq məmnunluq duyardı.*

*– Lakin qız bu müəmmanı çözə bilmədi, – Hastinqs dilləndi. – Bunu siz etdiniz.*

*– Xeyr, Hastinqs. Xanım Marş işi dərhal mənə həvalə etməklə ağıllı olduğunu və aldığı təhsilin faydalılığını sübut etmiş oldu. Hər zaman mütəxəssisə müraciət etmək lazımdır, dostum.*

**Tapşırıq ə (dərslik).** Dinləmə mətni ilə də tanış olduqdan sonra şagirdlər öz fikirlərini irəli sürürlər. Cavab təxminən belə ola bilər:

*Mister Marş qardaşı qızının nə dərəcədə ağıllı olduğunu və aldığı təhsilin faydasını yoxlamaq istəyirdi.*

**7-2.3.2. Tapşırıq a (iş dəftəri).** Verilmiş açar sözlərdən mətnə uyğun olanı seçilməlidir.

Cavab: miras, vəsiyyətnamə, xəfiyyə, müəmma, təhqiqat, fərasət

**Tapşırıq b (iş dəftəri).** Şagirdlər bu tapşırığın cavabını oxu və dinləmə mətnlərinə əsasən verə bilərlər. Cavab:

Problem – mirasa sahib olmaq və vəsiyyətnamənin sirrini açmaq

Problemin həlli – üçüncü vəsiyyətnamə tapıldı və miras Vayoletə qaldı

**Tapşırıq c (iş dəftəri).** Şagirdlər mətnə çəkilmiş illüstrasiyaya əsasən epizodla bağlı öz fikirlərini yazmalıdırlar. Cavab təxminən belə ola bilər:

Puaro gizli vəsiyyətnaməni tapır. Şamı məktuba yaxınlaşdırır, elə bu zaman orada yazılar görünür. Puaro vəsiyyətnamənin mətnini oxuyub çox sevinir. Çünki məktubda yazılmışdı ki, mister Marş bütün var-dövlətini Vayoletə vəsiyyət edib.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnin struktur elementlərini onun məzmunu ilə əlaqələndirir. | Tap. **b** (D.) |
| Mətndəki məlumatlardan çıxış edərək mühakimələr yürüdür. | Tap. **c, ç** (D.); **a** (İ.D.) |
| Mətni təxəyyülünə uyğun dəyişdirir, genişləndirir, davam etdirir. | Tap. **d** (D.) |
| Dinlədiyi mətndəki fikirlərə münasibət bildirir. | Tap. **e, ə** (D.) |

## 3-cü dərs. Ayrı yazılan mürəkkəb sözlər

• Dərslik: səh. 68 • İş dəftəri: səh. 43

**Təlim məqsədləri:**

**1.** Tərkibi sözlərin yaranma yollarını müəyyən edir **(st. 7-4.2.1).**

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik).** İlk tapşırıqla şagirdləri

mövzuya yönəltmək olar. Şagirdlər cümlələrdə fərqləndirilmiş ifadələri oxuyur və sual verirlər. Müəllim hansı ifadələrin bir suala cavab verdiyini onlardan soruşur, daha sonra həmin ifadələrlə bağlı izahat verir.

Cavab: 2. Amma sizin haqqınızda bəzi şeylər **deyə bilərəm.**

3. **Bu gün** Tarix muzeyinə ekskursiyaya gedəcəyik.

### Dil qaydaları

**"Yadda saxla" rubrikası.** Rubrikada ayrı yazılan mürəkkəb sözlər haqqında verilmiş nümunələr şərh olunur. Həmin sözlərin aid olduğu nitq hissələri də göstərilir.

**Tapşırıq b (dərslik).** Şagirdlər verilmiş cümlələrdə ayrı yazılan mürəkkəb sözləri tapmalı və hansı nitq hissəsi olduğunu müəyyən etməlidirlər.

Cavab: 1. bir zaman – zərf

2. oxuya bilmirəm – feil

3. heç yerə – zərf

4. on iki – say

**Tapşırıq c (dərslik).** Bu tapşırıqda "bir" sözünün köməyi ilə yaranan mürəkkəb sözlər seçilir.

> **Müəllimin nəzərinə!** Şagirdlərin diqqətinə çatdırılır ki, dilimizdə miqdar sayı olan "bir" sözündən söz yaradıcılığında geniş istifadə olunur. "Bir" sözü ayrılıqda da bir neçə mənaya malik olur, başqa sözlərlə birlikdə də müxtəlif mənalı sözlərin yaradılmasında iştirak edir.

Cavab: bir ağızdan, bir anda, bir ara, bir azdan, bir qədər, bir zaman, bir kərə

**Tapşırıq ç (dərslik).** Şagirdlər nöqtələrin yerinə uyğun mürəkkəb sözləri yazmalı və hansı nitq hissəsi olduğunu qeyd etməlidirlər. Cavab:

**1.** Qızlar daha da səylə çalışmağa başladılar. (ədat)

**2.** Yəqin ki, dostumun mövqeyini dəstəkləyəcəyəm. (modal söz)

**3.** Ay haray, köməyə gəlin! (nida)

**4.** Yağış yağırdı, ona görə də çətir götürdüm. (bağlayıcı)

**Tapşırıq a (iş dəftəri).** Cavab:

| | |
|---|---|
| **say** | bir neçə |
| **əvəzlik** | heç kim |
| **feil** | baxa bilmədim |
| **zərf** | dörd bir tərəf |
| **bağlayıcı** | ona görə ki |
| **modal söz** | yəqin ki |
| **nida** | ay hay |

**Tapşırıq b (iş dəftəri).** Tapşırığın tələbinə görə sözləri bir-biri ilə uyğunlaşdırmaq və mürəkkəb söz yaratmaq lazımdır.

Cavab: yaza bilmək, hər zaman, yardım etmək, nə isə, bir çox, yaxşı olmaq

**"Diqqət et" rubrikası.** Rubrikada "etmək", "olmaq" sözləri ilə işlənən bəzi mürəkkəb feillərdən bəhs edilir. Şagirdlərin nəzərinə çatdırılır ki, belə feillərdə əsas söz ayrılıqda işlənə bilmir.

> **Müəllimin nəzərinə!** Şagirdlərin diqqətinə çatdırılır ki, "olmaq", "etmək" sözləri həm köməkçi, həm də müstəqil feillər kimi işlənir. Hər iki feil qoşulduğu sözlərin mənası ilə bağlı olan hərəkəti bildirəndə mürəkkəb feilin komponenti kimi çıxış edir. "Etmək" "həyata keçirmək", "yerinə yetirmək" mənalarında işləndikdə, "olmaq" "yaşamaq", "baş vermək", "qalmaq" kimi mənalar bildirdikdə müstəqil feil olur. Bundan əlavə, "olmaq" ən çox işlənən feillərdəndir. O həm milli, həm də alınma sözlərlə işlənə bilir, çoxlu sayda mürəkkəb feil əmələ gətirir.

**Tapşırıq c (iş dəftəri).** Tapşırıq şagirdlərin diqqətini mürəkkəb sözlərlə bağlı daha bir məqama yönəldir. Müəllim qeyd edir ki, bəzi mürəkkəb feillər yalnız "olmaq" və yaxud "etmək" sözləri ilə, bəziləri isə həm "olmaq", həm də "etmək" sözləri ilə yaranır.

Cavab:

| ***etmək* feili ilə işlənən** | ***olmaq* feili ilə işlənən** | **hər ikisi ilə işlənən** |
|---|---|---|
| razılıq | müvəffəq | daxil |
| zəng | bələd | əmin |
| əməl | mane | qəbul |

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Tərkibi sözlərin yaranma yollarını müəyyən edir. | Dərslikdə və iş dəftərində olan tapşırıqlar |

Layihə

# Ümumiləşdirici təkrar

• Dərslik: səh. 69 • İş dəftəri: səh. 44

**Təlim məqsədləri:**

**1.** Kontekstdən çıxış edərək vurğusu dəyişməklə mənası dəyişən sözlərin tələffüzünü fərqləndirir **(st. 7-4.1.1).**

**2.** Mürəkkəb sözlərin yaranma yollarını və yazılışını müəyyən edir **(st. 7-4.2.1).**

**3.** Söz birləşmələrini mürəkkəb sözlərdən fərqləndirir **(st. 7-4.2.3).**

**Mövzuya yönəltmə**

Müəllim soruşur:

– Bu bölmədə hansı dil qaydalarını öyrəndiniz?

**Dil qaydaları**

**7-4.1.1. Tapşırıq 1 (dərslik).** Tapşırığın tələbinə görə şagirdlər sözlərin vurğusunu müəyyən edib uyğun sütunlara yazmalıdırlar.

Cavab:

| **vurğusu 1-ci hecaya düşənlər** | **vurğusu 2-ci hecaya düşənlər** | **vurğusu 3-cü hecaya düşənlər** |
|---|---|---|
| *dünən* | *komediya* | *qalereya* |
| *stansiya* | *coğrafiya* | *qəhrəmancasına* |
| *həmişə* | *lampa* | *zoologiya* |
| *bəzi* | *fayton* | |
| | *defis* | |

**Tapşırıq 1 (iş dəftəri).** Şagirdlər sözləri tələffüz edərək vurğulu hecanı tapırlar.

bi'rbəbir – 1-ci heca

biri'gün – 2-ci heca

filarmóniya – 3-cü heca

mə'sələn – 1-ci heca

gimnáziya – 2-ci heca

ekológiya – 3-cü heca

**Tapşırıq 2 (dərslik).** Şagirdlər sözlərdə vurğunun yerini dəyişməklə cümlə qururlar.

*alín – álın*

*süzmə' – sü'zmə*

*gəli'n – gə'lin*

*dondurmá – dondúrma*

*sapi'n – sa'pin*

*bölmə' – bö'lmə*

**7-4.2.1. Tapşırıq 3 (dərslik).** Bu tapşırıqda komponentlərə əsasən mürəkkəb sözlər yaradılır.

**1) yaxınmənalı:** qayda-qanun, adət-ənənə

**2) hiponim:** şalvar-köynək, süd-qatıq

**3) eyni sözün təkrarı:** asta-asta, deyinə-deyinə

**4) əksmənalı:** dərə-təpə, gediş-gəliş

**Tapşırıq 2 (iş dəftəri).** Şagirdlər mənimsədikləri qaydalara istinad edərək mürəkkəb sözlərin yazılışını müəyyən edirlər.

| | | |
|---|---|---|
| cənubşərq | - | *Hiponimlərin birləşməsindən yaranan sözlər defislə yazılır.* |
| qapı-pəncərə | + | *Yaxın mənalı sözlərin birləşməsindən yaranan sözlər defislə yazılır.* |
| yol üstü | - | *Müxtəlif mənalı sözlərin birləşməsindən yaranan sözlər bitişik yazılır.* |
| böyük kiçik | - | *Antonimlərin birləşməsindən yaranan sözlər defislə yazılır.* |
| kəsəkəs | + | *Eyni sözün təkrarı və "ə" bitişdiricisi ilə yaranan sözlər bitişik yazılır.* |
| azaz | - | *Eyni sözün təkrarından yaranan sözlər defislə yazılır.* |

**7-4.2.3. Tapşırıq 4 (dərslik).** Həm söz birləşməsi, həm də mürəkkəb söz kimi işlənən ifadələri tapmaq tələb olunur. Cavab: düzbucaq, qısasaç, otbiçən, qaragöz

**Tapşırıq 5 (dərslik).** Verilmiş cümlələrdə bir suala cavab verən və bir cümlə üzvü kimi çıxış edən ifadələri seçmək lazımdır. Cavab:

**1.** *Bu saat* yanıma gəl, səni gözləyirəm.

**3.** O *bir balaca* nəfəsini dərib sonra sözə başladı.

**7-4.2.1. Tapşırıq 6 (dərslik).** Bu tapşırıqda elə sözlər tapmaq lazımdır ki, müvafiq olaraq "etmək" və "olmaq" feillərinin hər ikisi ilə işlənə bilsin. Cavab: ram, biabır, darmadağın, halbahal

**Tapşırıq 3 (iş dəftəri).** Verilmiş ifadələr arasından defislə yazılanları seçmək lazımdır.

Cavab: vitse-spiker, qeyri-ixtiyari, əks-hücum, veb-proqram

**7-4.2.3. Tapşırıq 4 (iş dəftəri).** Bu tapşırığın yerinə yetirilməsi mərhələli baş verir: əvvəl verilmiş ifadələrdən mürəkkəb sözlər yaradılır: şirindil, dilucu, sarıbəniz, əlüstü



Layihə

Sonra düzgün yazılış müəyyən edilir. Həmin sözlər cümlədə işlədilir. Hansı nitq hissəsinə aid olduğu müəyyən edilir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstdən çıxış edərək vurğusu dəyişməklə mənası dəyişən sözlərin tələffüzünü fərqləndirir. | Tap. **1, 2** (D.); **1** (İ.D.) |
| Mürəkkəb sözlərin yaranma yollarını və yazılışını müəyyən edir. | Tap. **3, 6** (D.) **2, 3** (İ.D.) |
| Söz birləşmələrini mürəkkəb sözlərdən fərqləndirir. | Tap. **4, 5** (D.) **4** (İ.D.) |

Layihə

bölmə 4

# TARİX, YOXSA MİF?

| Dərs | Mövzu | Məzmun xətləri | Dərslik səh. | İş dəftəri səh. | MV səh. |
|---|---|---|---|---|---|
| **1-ci fəsil** | | | | | |
| 1 | Şaxta baba haqqında həqiqət | Oxu. Dil qaydaları (Leksika) | 70-72 | - | 81 |
| 2 | Şaxta baba haqqında həqiqət | Oxuyub-anlama. Danışma | 72-73 | | 81-82 |
| 3 | Şaxta baba Laplandiyadan-dır? | Oxu. Oxuyub-anlama | 74-75 | 45 | 82-83 |
| 4 | Nida | Dil qaydaları (Qrammatika) | 76-77 | 46 | 84-85 |
| **2-ci fəsil** | | | | | |
| 1 | Bir eposun izi ilə | Oxu. Oxuyub-anlama | 78-80 | 47 | 85-87 |
| 2 | Mövzu üzrə təqdimat | Danışma | 80-81 | 48 | 87-88 |
| 3 | Dədə Qorqud kimdir? | Dinləmə. Yazı | 82-83 | 49 | 88-90 |
| 4 | Sual, əmr və nida cümlələrinin yaranma yolları | Dil qaydaları (Qrammatika) | 84 | 50 | 90-91 |
| **3-cü fəsil** | | | | | |
| 1 | Astronomiya tarixində ən böyük sual: heliosentrizm, yoxsa geosentrizm? | Dinləmə | 85 | 51 | 91-94 |
| 2 | Heliosentrizmin əsasını kim qoyub: Aristarx, yoxsa Kopernik? | Oxu | 86-87 | 52 | 94-95 |
| 3 | Əks arqumentlər gətirməklə mövzu üzrə danışma | Danışma | 88 | | 95 |
| 4 | Fədai alimlər | Oxuyub-anlama | 89-90 | 53 | 95-96 |
| 5 | Mövzu üzrə arqumentativ mətnin yazılması | Yazı | 91 | 54 | 96-98 |
| 6 | Mürəkkəb adların yazılışı | Dil qaydaları (Orfoqrafiya) | 92 | 55 | 98 |
| 7 | Ümumiləşdirici təkrar | Dil qaydaları (Qrammatika) | 93 | 56 | 99-100 |

Layihə

# 1-ci fəsil

## 1-ci dərs. Şaxta baba haqqında həqiqət

• Dərslik: səh. 70-72

**Təlim məqsədləri**

**1.** Həyatdan nümunələr gətirməklə söylənilən fikrə öz münasibətini bildirir **(st. 7-1.2.2).**

**2.** Oxuduğu mətndəki əsas fakt və fikirləri müəyyən edir **(st. 7-2.1.1).**

**Mövzuya yönəltmə**

Müəllim şagirdlərin diqqətini bölmənin adına yönəldir və soruşur:

*– Sizcə, bu bölmənin mövzusu nədir?*

**Danışma**

**7-1.2.2. Tapşırıq a (dərslik).** Şagirdlər aşağı siniflərdən və tarix fənnindən əldə etdikləri bilgilər əsasında sualı cavablandırırlar.

Cavab: *Mif sözünün həqiqi mənası:* Yer üzündə həyatın yaranışı, təbiət hadisələri, əfsanəvi qəhrəmanlar və ilahlar haqqında qədim xalq rəvayətləri.

*Mif sözünün məcazi mənası:* fantastik, həqiqətə uyğun olmayan, əsassız şişirtmələr, uydurma.

"Stereotip" sözünün mənası diqqətə çatdırıldıqdan sonra şagirdlərlə növbəti sual ətrafında söhbət aparılır. Məqsəd şagirdlərin diqqətini eşitdikləri, oxuduqları məlumatların həqiqətə uyğun olub-olmamasına yönəltmək, onların sorğulamaq bacarıqlarını inkişaf etdirməkdir. "Mif, yoxsa tarix?" bölməsinin ana xəttini də məhz bu motiv təşkil edir.

**Tapşırıq b (dərslik).** Tapşırıq vasitəsilə şagirdlərin diqqəti müxtəlif məlumat mənbələrinə yönəldilir. Kollektiv iş formasında şifahi sorğu aparılır. Sorğunun nəticələri əsasında lövhədə diaqram tərtib oluna bilər. Şagirdlərdən bir neçə nəfər diaqramı rabitəli mətn şəklində şərh edir.

**Oxu**

**7-2.1.1.** İndiki dövrdə elektron vasitələrdən istifadə daha da geniş vüsət alır. Buna görə də müasir insanın müxtəlif məlumat mənbələri, xüsusilə rəqəmsal mənbələrlə işləmək səriştəsi olmalıdır. Odur ki dərslikdə ilk dəfə olaraq şagirdlərin gündəlik həyatda tez-tez rast gəldikləri sosial şəbəkəyə aid mətn nümunəsi təqdim edilib.

Şagirdlər mövzu üzrə giriş mətni ("Uşaqlara Şaxta baba haqqında həqiqəti deyəkmi?") və sosial şəbəkə istifadəçilərinin müzakirə edilən məsələ ilə bağlı rəylərini oxuyurlar.

Şagirdlərin məumatları diqqətlə oxuduqlarını yoxlamaq məqsədilə verilən tapşırıqlar üzrə iş aparılır.

**Tapşırıq c (dərslik).** Cavab: Aytən öz sualı ilə bağlı psixoloq Pərvin və Solmazın fikirlərindən daha çox faydalandı.

**Tapşırıq ç (dərslik).** Cavab: Aynur adlı iştirakçı mövzuya uyğun şərhlər yazmadığına, sorğu ilə bağlı öz tövsiyələrini vermədiyinə görə başqa iştirakçılar onun sözlərinə münasibət bildirmirlər.

**Tapşırıq d (dərslik).** Aytənin qaldırdığı sualla bağlı psixoloq Pərvinin və Solmazın mövqeləri bir-birinə ziddir. Solmaz Şaxta baba haqqında həqiqətin uşaqlara söylənilməsinin tərəfdarıdır, psixoloq Pərvin isə bu həqiqətin uşaqlarda xəyal qırıqlığı yarada biləcəyini düşünür.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Həyatdan nümunələr gətirməklə söylənilən fikrə öz münasibətini bildirir. | Tap. **a, b** (D.) |
| Oxuduğu mətndəki əsas fakt və fikirləri müəyyən edir. | Tap. **c, ç, d** (D.) |

## 2-ci dərs. Şaxta baba haqqında həqiqət

• Dərslik: səh. 72-73

**Təlim məqsədləri**

**1.** Müxtəlif mətnlərdəki fakt və fikirləri müqayisə edərək həqiqəti aşkar edir **(st. 7-2.3.5).**

**2.** Həyatdan nümunələr gətirməklə və ya araşdırılan faktlardan istifadə etməklə qarşı tərəfin fikrinə münasibətini əsaslandırır **(st. 7-1.2.2).**

**3.** Oxuduğu mətndə əsas fakt və fikirləri fərqləndirir **(st. 7-2.1.1).**

**Mövzuya yönəltmə**

Müəllim sual verə bilər:

*– Şaxta baba obrazı ilə bağlı sizin hansı uşaqlıq xatirələriniz var? Həmin xatirələrinizdən çıxış edərək Aytən Nuriyevaya hansı tövsiyələrinizi verə bilərsiniz?*

Layihə

**7-2.3.5. Tapşırıq a (dərslik).** Tapşırıqda verilmiş 1-ci fakt psixoloq Pərvinin mövqeyini əks etdirir. 2-ci fakt isə Solmaz adlı iştirakçının fikirlərini dəstəkləyə bilər. Solmaz uşaqlara həqiqəti söyləməyin tərəfdarıdır.

**7-1.2.2. Tapşırıq b (dərslik).** Müzakirədə qaldırılmış məsələ ilə bağlı müvafiq mövqeni seçən şagirdlər onu həyatdan nümunələr gətirməklə (mövzu ilə bağlı uşaqlıq xatirələrini bölüşməklə) müdafiə edirlər.

"Diqqət et" rubrikasında verilmiş məlumatlar əsasında şagirdlər fikir və fakt anlayışlarının fərqini mənimsəyirlər. Bu barədə ibtidai təhsil dövründə (ikinci sinifdə) də şagirdlər müəyyən bilgilərə yiyələnmişlər.

"Qlossari" rubrikasındakı obyektiv və subyektiv sözlərinin izahı şagirdlərin fakt və fikir anlayışlarının fərqini anlamasına kömək edir.

**7-2.1.1. Tapşırıq c (dərslik).** Şagirdlər "Analar və balalar" səhifəsindəki məlumatlar içərisində fakt və fikirləri təxmin edib seçirlər:

1. Kiçikyaşlı uşaqlara Şaxta baba haqqında həqiqəti söyləmək lazımdır. (fikir)
2. Tarixdə Şaxta babanın prototipi olub. (fakt)
3. 7 yaşlı uşaqlara məktəbdə həyat bilgisi keçirlər. (fakt)
4. Dünyada Laplandiya deyilən yer yoxdur. (fakt)
5. Bəzi həqiqətlər var ki, uşaqlardan gizlətmək daha məqsədəuyğundur. (fikir)
6. Şaxta baba obrazını "Koka-kola" şirkəti yaradıb. (fakt)

Şagirdlər bu tapşırıqda fakt hesab etdikləri məlumatları növbəti dərsdə təqdim olunan mətn vasitəsilə dəqiqləşdirəcəklər.

**"Faydalı məsləhət" rubrikası.** Bu rubrikada şagirdlərin məlumatla düzgün işləmək səriştəsinin formalaşdırılması üçün verilən məsləhətlər oxunur. Şagirdləri müxtəlif mənbələrdən aldıqları informasiyaların etibarlı olub-olmaması barəsində düşündürmək vacibdir. Bu bölmənin əsas məqsədlərindən biri də məhz bu bacarıqları inkişaf etdirməkdir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Müxtəlif mətnlərdəki fakt və fikirləri müqayisə edərək həqiqəti aşkar edir. | Tap. a (D.) |
| Debat zamanı qarşı tərəfin fikrinə münasibətini həyatdan nümunələr gətirməklə əsaslandırır. | Tap. b (D.) |
| Oxuduğu mətndə əsas fakt və fikirləri fərqləndirir. | Tap. c (D.) |

## 3-cü dərs. Şaxta baba Laplandiyadandır?

• Dərslik: səh. 74-75 • İş dəftəri: səh. 45

**Təlim məqsədləri**

**1.** Mətni oxuduqca qeydlər götürür **(st. 7-2.1.1).**
**2.** Müəllifinin oxucuya çatdırmaq istədiyi əsas fikri müəyyən edir **(st. 7-2.3.2).**
**3.** Mətndə faktlara əsaslanaraq müəllif mövqeyinə münasibət bildirir **(st. 7-2.3.2).**
**4.** Dırnaq işarəsinin bəzi işlənmə məqamlarını izah edir **(st. 7-4.3.3).**

### Mövzuya yönəltmə

Müəllim suallar verməklə şagirdlərin Laplandiya haqqında bildiklərini soruşur.

Müəllim şagirdlərin diqqətini verilmiş mətnə yönəltmək üçün söyləyir:

– Laplandiya haqqında ötən dərsdə əldə etdiyiniz məlumatların doğru olub-olmadığını oxuyacağınız mətndən öyrənə biləcəksiniz.

### Oxuyub-qavrama

**7-2.1.1. Tapşırıq a (dərslik).** Şagirdlərin mətni oxuduqca tarix və adlarla bağlı qısa qeydlər götürmələrinə diqqət yetirilməsi tövsiyə olunur.

**7-2.3.2. Tapşırıq b (dərslik).** Bu məqalədə tapşırıqda verilmiş bütün suallara cavab tapmaq mümkündür, ancaq müəllifin məqaləni yazmaqda əsas məqsədi "Santa Klaus obrazı necə yaranıb?" sualına aydınlıq gətirməkdir. Çünki mətnin əvvəlindən sonuna qədər bu sualla bağlı məqamlar aydınlaşdırılır. Mətnin sonluğu da bunu deməyə əsas verir.

**Tapşırıq c (dərslik).** Ötən dərsdə şagirdlər Aytən Nuriyevanın müzakirə açdığı mövzu ilə bağlı Samirə92-nin fikirlərini oxudular. Həmin fikirlər fakt kimi təqdim olunsa da, bəzilərinin

Layihə

doğru olmadığı aşkara çıxdı.

*1. Doğrudur. Tarixdə Şaxta baba obrazının prototipi Milladdan sonra III–IV əsrlərdə indiki Türkiyədə yerləşən Patara şəhərində yaşamış Müqəddəs Nikolas (Saint Nicolas) adlı bir keşiş hesab olunur.*

*2. Yanlışdır. Laplandiya deyilən yer mövcuddur. Mətndə göstərilir ki, Laplandiya Finlandiyanın şimalında bir vilayətdir.*

*3. Qismən doğrudur. Şaxta baba obrazını 1931-ci ildə Haddon adlı rəssam "Koka-Kola"nın reklamı üçün yaradıb.*

**Tapşırıq ç (dərslik).** Şagirdlərin ötən dərsdə fakt və fikir anlayışları ilə bağlı əldə etdikləri bilgiləri möhkəmləndirmək məqsədi daşıyır.

1. Laplandiya Finlandiyanın şimalında bir vilayətdir. (Faktdır.)

2. Bütün bunlar balacalar üçün düşünülmüş şirin nağıllardır. (Fikirdir, məqalə müəllifinin münasibətini ifadə edir.)

3. Deyilənə görə, hər il Milad bayramında Santa Klaus buradan dünya səyahətinə çıxır. (Fikirdir, sübutu yoxdur.)

4. Bu əsər həmin il Nyu-Yorkun "Sentinel" qəzetində dərc olundu. (Faktdır, çünki qəzet materialı sübutdur.)

5. 1931-ci ildə Haddon adlı rəssam Şaxta babanın zahiri obrazını yaratdı. (Faktdır, sübut etmək mümkündür.)

**Tapşırıq d (dərslik).** Şagirdlər mətndən çıxış edərək Santa Klaus obrazının XIX əsrin əvvəllərində yarandığını əsaslandıra bilərlər. Belə ki, Klement Murun yazdığı "Milad gecəsi" adlı mənzum nağıl qəzetdə dərc olunandan sonra nağılın baş qəhrəmanı Santa Klaus məşhurlaşdı.

**7-4.3.3. Tapşırıq e (dərslik).** Cavab:

1. Məcazi mənada işləndiyinə görə – "ofis"
2. Əsər adı olduğuna görə – "Milad gecəsi"
3. Televiziya kanalının adı olduğuna görə – "History Channel"

**7-2.1.1. Tapşırıq a (iş dəftəri).** Cavab:

1. Şaxta Babanın tarixi prototipi Müqəddəs Nikolas (Saint Nicolas) adlı bir keşiş olub. (III–IV əsrlərdə)
2. Amerikada Klement Mur baş qəhrəmanı Santa Klaus olan "Milad gecəsi" adlı nağıl yazdı. (1823)
3. "Koka-Kola" şirkəti tərəfindən Şaxta babanın zahiri obrazı yaradıldı. (1931)
4. Laplandiyada əyləncə və turizm məqsədilə Santa Klausun "ofis"i yaradılıb. (1985)

**Tapşırıq b (iş dəftəri).** Şagirdlər mətn əsasında təxminən aşağıdakı kimi məlumat vərəqi hazırlaya bilərlər:

**Adları:** Şaxta baba, Ded Maroz, Noel baba.

**Ofisi:** Laplandiyada "Santa Klausun koması"

**Məşhurlaşdığı vaxt:** 1823-cü il

**Məşhurlaşdıran əsər:** Amerikada Klement Murun yazdığı "Milad gecəsi" adlı nağılda Milad bayramında uşaqlara hədiyyə paylayan Santa Klaus adlı xeyirxah qoca obrazı var idi.

**Rəsmini çəkən rəssam:** Haddon

**7-2.3.2. Tapşırıq c (iş dəftəri).** Şagirdlər mətnə istinad edərək verilmiş faktların doğru, yoxsa yanlış olduğunu əsaslandırırlar.

*1. Bəli. Laplandiya Finlandiyanın şimalında bir vilayətdir. Buradakı parklardan birində "Santa Klausun koması" yerləşir.*

*2. Xeyr. Santa Klausun indiki zahiri görkəminin rəsmini 1931-ci ildə Haddon adlı rəssam "Koka-Kola"nın reklamı üçün çəkmişdi.*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətni oxuduqca qeydlər götürür. | Tap. a (D.); a, b (İ.D.) |
| Müəllifin oxucuya çatdırmaq istədiyi əsas fikri müəyyən edir. | Tap. b (D.) |
| Mətndə faktlara əsaslanaraq müəllif mövqeyinə münasibət bildirir. | Tap. c, ç, d (D.); c (İ.D.) |
| Dırnaq işarəsinin bəzi işlənmə məqamlarını izah edir. | Tap. e (D.) |

Ləyihə

## **4-cü dərs.** Nida

• Dərslik: səh. 76-77 • İş dəftəri: səh. 46

**Təlim məqsədləri**

**1.** Nidanın semantik xüsusiyyətlərini müəyyənləşdirir **(st. 7-4.2.2).**

**2.** Nida ilə bağlı durğu işarəsini düzgün istifadə edir **(st. 7-4.3.3).**

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik).** Şagirdlər cümlənin kontekstinə əsasən "Aaa" sözünün təəccüb ifadə etdiyini aydınlaşdırırlar.

**Dil qaydaları**

**7-4.2.2. "Yadda saxla" rubrikası.** Rubrikada nida ilə bağlı verilmiş məlumatlar oxunur və şərh olunur.

**Tapşırıq b (dərslik).** Şagirdlər kontekstə əsasən nidaların ifadə etdiyi mənaları aydınlaşdırırlar. Cavab: 1 – c; 2 – ç; 3 – b; 4 – a.

**"Yadda saxla" rubrikası.** Məqsəd şagirdlərin diqqətini nidaların cümləyə gətirdiyi mənalara yönəltməkdir.

**Tapşırıq c (dərslik).** Şagirdlər cümlələrdə kontekstə əsasən "ah" nidasının ifadə etdiyi hissləri müəyyən edirlər. Cavab: 1 – a; 2 – c; 3 – b.

**"Yadda saxla" rubrikası.** Şagirdlərin diqqəti nidaların qrammatik omonimliyinə yönəldilir və nümunələr əsasında cümlədə işlənən nidanın digər nitq hissələrindən fərqi izah olunur.

**Tapşırıq ç (dərslik).** Cavab:

Verilən cümlələrdə fərqləndirilmiş sözlərin nida olub-olmaması araşdırılır və onların nida ilə məna əlaqəsi təhlil olunur:

1. a. *Ahına* anan qurban, ay bala!

"Ah" burada nida deyil, isimdir. Bu cümlədə "ah" bir insanın kədərini və ya ahını təsvir edir.

b. *Ah,* biz bir daha görüşməyəcəyik!

"Ah" burada nidadır. Hiss və emosiyaların ifadəsi üçün istifadə olunmuşdur. Bu cümlədə "ah" təəssüf və ya kədər ifadə edir.

2. a. *Vayda* da, toyda da əskik olmaz.

"Vay" burada nida deyil, isimdir.

b. *Vay,* nə yaman qəzəblə baxır!

"Vay" burada nidadır. Təəccüb və qorxu hissi ifadə edir.

3. a. *Ay aman,* uşağın qızdırması var!

"Ay" burada nidadır və diqqəti çəkmək, narahatlığı ifadə etmək üçün istifadə olunub.

b. Ondan *aman* gözləmə.

"Aman" burada nida deyil, isimdir. Kömək və ya mərhəmət mənasını ifadə edir.

**Tapşırıq d (dərslik).** Cavab: "Aha, səninlə tamamilə razıyam" cümləsi hiss-həyəcan bildirmir. Bu cümlədə "aha" sözünü "bəli" və ya "hə" ədatı ilə əvəz etmək olar.

Şagirdlər bu tapşırıq vasitəsilə bir daha əmin olurlar ki, nidanı digər nitq hissələrindən fərqləndirmək üçün onun işləndiyi kontekstə nəzər salmaq lazımdır.

**7-4.3.3. "Yadda saxla" rubrikası.** Rubrikada nidalarla bağlı durğu işarələri diqqətə çatdırılır.

**Tapşırıq e (dərslik).** Cavab:

1. Nələr gördün, *aman,* Vaqif?! *(Səməd Vurğun)*

2. *Ay-hay,* mənə badalaq gələnə bax.

3. *Ura!* Biz yenə birinciyik!

4. Nə gözəl havadır, *bəh-bəh!*

5. *Ax!..* Necə kef çəkməli əyyam idi... *(M.Ə.Sabir)*

6. *Ay* qardaş, bir bax gör, hara sürürsən?

2, 3 və 5-ci nümunəyə əsasən söyləmək olar ki, nida cümlənin əvvəlində işlənəndə *ondan sonra ya vergül, ya nida işarəsi, yaxud da nida və üç nöqtə qoyulur.*

1-ci nümunəyə əsasən söyləmək olar ki, nida cümlənin ortasında işlənəndə *onun hər iki tərəfindən vergül qoyulur.*

4-cü nümunəyə əsasən söyləmək olar ki, nida cümlənin sonunda işlənəndə *ondan əvvəl vergül, sonra nida işarəsi işlənir.*

6-cı nümunəyə əsasən söyləmək olar ki, nida xitabın tərkibində işlənəndə *vergül xitabdan sonra qoyulur.*

Şagirdlər iş dəftərində təqdim edilmiş tapşırıqlar vasitəsilə nida mövzusu üzrə bilik və bacarıqlarını nümayiş etdirirlər.

**Tapşırıq a (iş dəftəri).** Cavab: "Ay" nidası hər üç cümləyə uyğundur.

**Tapşırıq b (iş dəftəri).** Cavab: Cümlədə işlənən "of" nidası təəssüf bildirir. "Oxay" nidası isə məmnunluq mənası ifadə edir.

**Tapşırıq c (iş dəftəri).** Cavab:

1. Quşlar, quşlar nə gözəl oxuyur.

Bəh-bəh, bəh-bəh, nə gözəl oxuyur! *(Zeynal Cabbarzadə)*

Layihə

2. Vay-vay! Nə yaman müşkülə düşdü işim, Allah! *(Mirzə Ələkbər Sabir)*

3. Padşah gördü ki, paho, saqqalına dən düşüb, qəm dəryasına qərq oldu. *(Nağıl)*

**Tapşırıq ç (iş dəftəri).** Cavab:

**Ox** qədim silah növüdür.

Kötüyün içini **oy,** yerinə su doldur.

**Tapşırıq d (iş dəftəri).** Cavab: 1 – d; 2 – b; 3 – d.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Nidanın semantik xüsusiyyətlərini müəyyənləşdirir. | Tap. **b, c, ç, d, e** (D.); **a, b, ç, d** (İ.D.) |
| Nida ilə bağlı durğu işarələrini düzgün istifadə edir. | Tap. **e** (D.); **c** (İ.D.) |

## 2-ci fəsil

### 1-ci dərs. Bir eposun izi ilə

• Dərslik: səh. 78-80 • İş dəftəri: səh. 47

**Təlim məqsədləri**

**1.** Mətni oxuduqca qeydlər götürür **(st. 7-2.1.1).**

**2.** Mətndəki məlumatlardan çıxış edərək mühakimələr yürüdür **(st. 7-2.3.2).**

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik).** Şagirdlər ədəbiyyat və Azərbaycan dili fənlərindən öyrəndiklərini xatırlayıb danışırlar. Aşağı siniflərdə şagirdlər “Səgrəyin dastanı”, “Qaraca çoban”, “Dirsə xan oğlu Buğac” (3-cü sinif, II hissə), “Qanlı qoca oğlu Qanturalı” mətni (5-ci sinif II hissə) mətnlərini oxuyublar.

**Tapşırıq b (dərslik).** Şagirdlər mətnin başlığını oxuyur, illüstrasiyalara diqqət yetirirlər. Bununla şagirdlərin oxuyacaqları mətnin məzmununu təxmin etmək bacarığı inkişaf etdirilir, həmçinin oxu prosesinə maraq yaradılır.

**Oxu. Söz ehtiyatı**

**7-2.1.1. Tapşırıq c (dərslik).** Şagirdlər “Bir eposun izi ilə” mətnini səssiz oxuyurlar. Tapşırığa əsasən 4-6-cı hissələr üzrə qeydlərini verilmiş nümunə əsasında qruplaşdırırlar.

IV hissə – Araşdırılan sual: Eposun hansı nüsxəsinin dili Azərbaycan dilinə daha yaxındır?

İrəli sürülən fikir: Drezden nüsxəsinin dili o dövrün Azərbaycan dilinə, Vatikan nüsxəsinin dili isə Osmanlı türkcəsinə daha yaxındır.

Mənbə: Fərhad Zeynalov, Ettore Rossi

V hissə – Dədə Qorqud boyları nə vaxt yaranmışdır?

İrəli sürülən fikir: Dədə Qorqud boylarının ilkin variantı IX–X əsrlərdə yaranıb.

Mənbə: Türkiyə alimi Faruk Sümer

VI hissə – Dastanda təsvir edilən hadisələr hansı dövrə aiddir?

*İrəli sürülən fikir:* Dastanın bizə çatmış variantında bəzi hadisələr Ağqoyunlular dövründə baş verir.

*Mənbə:* Rus alimi Bartold

Dastanda təsvir olunan mifoloji varlıqlar daha qədim dövrə aiddir.

*Mənbə: İngilis türkoloqu Cefri Luis*

**“Qlossari” rubrikası.** Şagirdlər *məqalə, epos*

Layihə

və *müqəddimə* sözlərinin mənasını oxuyur, bu barədə ədəbiyyat fənnindən əldə etdikləri bilikləri xatırlayırlar.

**Tapşırıq ç (dərslik).** Şagirdlər mətni oxuyarkən müvafiq qeydlər götürmüşdülər. Həmin qeydlərə əsasən faktoloji qavramanı yoxlayan sualları cavablandırır və aydınlaşdırırlar ki, mətndə "Drezden əlyazmasını kim aşkar edib?" sualına cavab yoxdur.

a. "Kitabi-Dədə Qorqud" haqqında araşdırmalar nə vaxt başlanıb? *1815-ci ildə alman alimi Fridrix Fon Ditsin "Kitabi-Dədə Qorqud" haqqında kitabı dərc olunandan sonra.*

b. Dastanın hansı əlyazmaları daha çox məşhurdur? *Drezden və Vatikan nüsxələri.*

d. Vatikan əlyazmasını kim aşkar edib? *İtalyan alimi Ettore Rossi.*

e. "Kitabi-Dədə Qorqud"un Bursa əlyazması neçə boydan ibarətdir? *12 boydan ibarətdir.*

**7-2.3.2. Tapşırıq d (dərslik).** Şagirdlər dastanın tam variantı barədə fikirlərini təxminən belə əsaslandıra bilərlər:

*Drezden nüsxəsi 154, Vatikan nüsxəsi isə 109 səhifədən ibarətdir. Drezden nüsxəsinin boyları 12 olduğu halda, Vatikan nüsxəsində 6 boy var. Drezden nüsxəsində Vatikan nüsxəsindən fərqli olaraq həm də müqəddimə yer alır. Bütün bunlar Drezden nüsxəsinin Vatikan nüsxəsi ilə müqayisədə tam variant olduğunu göstərir.*

**Tapşırıq e (dərslik).** Mətni yazmaqda müəllifin məqsədi mənbələrə istinad edərək qədim eposla bağlı bəzi suallara aydınlıq gətirməkdir. Mətnin 3-cü hissəsində suallar göstərilir.

**Tapşırıq ə (dərslik).** Mətnin 4-6-cı hissələrində müəllif "Kitabi-Dədə Qorqud"la bağlı bu suallara aydınlıq gətirməyə çalışır:

IV hissə: Dədə Qorqud boyları nə vaxt qələmə alınmışdır?

V hissə: Dastan nə vaxt yaranmışdır?

VI hissə: Dastandakı hadisələr hansı dövrü əhatə edir?

Şagirdlər mətni oxuyarkən götürdükləri qeydlər əsasında həmin suallarla bağlı alimlərin fikirlərini və müəllifin gəldiyi nəticələri şərh edirlər.

Mətnin 4-6-cı hissələrini məzmuna uyğun olaraq təxminən aşağıdakı yarımbaşlıqlarla adlandırırlar.

IV hissə – dastanın yazıya köçürüldüyü dövr

V hissə – dastanın yarandığı dövr

VI hissə – dastandakı hadisələrin aid olduğu dövr.

**IV hissədə** Fərhad Zeynalov və Ettore Rossinin dastanın nüsxələrinin dili ilə bağlı fikirləri üst-üstə düşür.

**V hissədə** Amerika alimi Maykl Mekerlə Türkiyə alimi Faruk Sümerin dastanın yaranma dövrü ilə bağlı söylədikləri fikirlər bir-birinə ziddir.

**VI hissədə** rus alimi Bartold və ingilis alimi Cefri Luisin fikirləri bir-birini istisna etmir. Yəni dastanda həm Ağqoyunlular dövrünə aid hadisələr, həm də ən qədim dövrlərə aid mifoloji varlıqların təsvirinə rast gəlinir.

**7-2.1.1. Tapşırıq a (iş dəftəri).** Şagirdlər mətndən çıxış edərək verilmiş tarixlərdə baş verən hadisələri yazırlar:

XV–XVI əsrlərdə *"Kitabi-Dədə Qorqud" dastanı yazıya köçürülüb.*

1815-ci ildə *alman alimi Fridrix Fon Ditsin "Kitabi-Dədə Qorqud" haqqında kitabı dərc olundu.*

2015-ci ildə *Bakıda "Kitabi-Dədə Qorqud. Basat Təpəgözü öldürdüyü boyu bəyan edər" adlı kitab nəşr olundu.*

2022-ci ildə *Türkiyənin Bursa şəhərində "Quran və Əlyazmalar muzeyi"ndə dastanın 12 boydan ibarət yeni nüsxəsi aşkar edildi.*

**7-2.3.2. Tapşırıq b (iş dəftəri).** Mətnin VI hissəsindən belə qənaətə gəlmək olar ki, dastanın boylarında baş verən hadisələr müxtəlif dövrləri əhatə edir. Cavab: 3. Dastanın boylarında baş verən hadisələr eyni dövrü əhatə edir.

**7-2.1.1. Tapşırıq c (iş dəftəri).** Cavab:

Dədə Qorqud boylarının ilkin variantının IX–X əsrlərdə yarandığını iddia edir – *Türkiyəli alim Faruk Sümer*

Dastan XIII əsrdən sonra yaranıb – *Amerika alimi Maykl Meker*

Drezden nüsxəsinin dili Azərbaycan türkcəsinə, Vatikan nüsxəsi isə Osmanlı türkcəsinə daha yaxındır – *Fərhad Zeynalov və Ettore Rossi*.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

Layihə

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndəki əsas məlumatları müəyyənləşdirir. | Tap. **c, ç** (D.); **a, c** (İ.D.) |
| Mətndəki məlumatlardan çıxış edərək mühakimələr yürüdür. | Tap. **d, e, ə** (D.); **b** (İ.D.) |

## 2-ci dərs. "Bir əlyazmanın izi ilə" mövzusunda təqdimat

• Dərslik: səh. 80-81 • İş dəftəri: səh. 48

**Təlim məqsədləri**

**1.** Müxtəlif mətnlərdəki fakt və fikirləri müqayisə edərək həqiqəti aşkar edir **(st. 7-2.3.5).**
**2.** Qeyri-bədii mətnin forma və məzmun xüsusiyyətlərini şərh edir **(st. 7-2.3.5).**

### Mövzuya yönəltmə

Müəllim keçən dərsdə oxunmuş "Bir eposun izi ilə" mətnini xatırlatmaq üçün frontal sorğu keçirir:

– *Dastan nə vaxt qələmə alınmışdır?*

– *Fridrix Fon Dits Dədə Qorqud haqqında məqaləsini nə vaxt yazmışdı?*

– *Dastanın hansı əlyazmaları var? və s.*

### Oxuyub-qavrama

**7-2.3.5. Tapşırıq a (dərslik).** Tapşırıqda müxtəlif mənbələrdən verilmiş məlumatlar Drezden nüsxəsinin Almaniyaya gətirilməsi ilə bağlıdır.

Şamil Cəmşidovun kitabında bildirilir ki, əlyazma Azərbaycanda yaradılmış və 1578–1585-ci illərdə Türkiyəyə aparılmışdır. Azərbaycan dilindəki "Vikipediya" məqaləsinə əsasən XVIII əsrin sonlarında Prussiyanın Türkiyədəki nümayəndəsi Fridrix fon Dits əlyazmanı Almaniyaya apararaq Drezden kitabxanasına hədiyyə etmişdir. Bu o qədər də ağlabatan fikir deyil. Çünki Dits əlyazma haqqında ilk məqaləsini 1815-ci ildə yazıb. Belə qənaətə gəlmək olar ki, Dits əlyazmanı Drezden kitabxanasına hədiyyə etməzdən əvvəl tədqiq etməli idi. Bu, hədiyyə və tədqiqat arasında məntiqi uyğunsuzluq yaradır.

İngilis dilindəki "Vikipediya" məqaləsində isə göstərilir ki, Dits 1817-ci ildə vəfat edərkən 17000 cildlik şəxsi kitabxanasını Berlin Dövlət kitabxanasına vəsiyyət edib. Bu halda Ditsin eyni əlyazmanı həm Berlin, həm də Drezden kitabxanasına hədiyyə etməsi mümkün deyil.

Göründüyü kimi, Drezden nüsxəsinin Almaniyaya gətirilməsi, hədiyyə edilməsi və Ditsin tədqiqat prosesi arasındakı tarixlərdə ziddiyyətlər var. Əlyazmanın Drezden kitabxanasına necə keçdiyi ilə bağlı hələ dəqiq məlumatlar yoxdur.

**7-2.3.5. Tapşırıq b (dərslik).** Şagirdlər "Bir eposun izi ilə" mətninin qeyri-xronoloji mətn olduğunu sübuta yetirirlər: "Bir eposun izi ilə" mətninin qeyri-xronoloji olduğunu göstərmək üçün məlumatların zaman ardıcıllığı ilə verilməməsini vurğulamaq olar. Mətndə Dədə Qorqud eposunun müxtəlif dövrlərdəki tədqiqatçılarının işlərindən və dastanın tarixçəsindən bəhs olunur, lakin bu məlumatlar zaman sırasına uyğun verilmir. Məsələn, 2015-ci ildə Bakıda "Kitabi-Dədə Qorqud. Basat Təpəgözü öldürdüyü boyu bəyan edər" adlı kitabın nəşr olunduğundan, daha sonra Fridrix fon Ditsin 1815-ci ildə apardığı ilk tədqiqatdan, ardınca dastanın yaranması və qələmə alınması tarixindən danışılır. Bu, məlumatların xronoloji düzülmədiyini göstərir.

Şagirdlər bu mövzuda yazıla bilən xronoloji mətnin məzmun və strukturunu təxminən belə quracaqlarını söyləyə bilərlər:

– *Xronoloji bir mətn yazarkən əvvəlcə Dədə Qorqud əlyazmalarının XV–XVI əsrlərdə meydana gəldiyini qeyd edər və Fridrix fon Ditsin əlyazmanı Avropaya aparması və kitabı nəşr etməsi ilə orada tanındığına dair məlumatları yazardım. Daha sonra dastanın müasir dövrdə necə təhlil edildiyi və 2015-ci ildə Bakıda nəşr olunması kimi sonrakı hadisələri mətnin sonunda verərdim. Bu dəyişiklikl həm məlumatların ardıcıllığını təmin edər, həm də oxucuya "Kitabi-Dədə Qorqud" dastanının tarixdə keçdiyi yolu addımbaaddım izləməyə imkan verərdi.*

**Tapşırıq c (dərslik).** Şagirdlər tapşırıqda qoyulmuş suala müxtəlif cavablar verə bilərlər. Müəllim onların fikirlərini ümumiləşdirmək üçün diqqəti "Diqqət et" rubrikasına yönəldir. Rubrikada mətnin giriş hissəsinin məzmun-strukturu ilə bağlı məlumatlar oxunur.

**Tapşırıq ç (dərslik).** Şagirdlər mətnin girişində qeyd olunmuş problemlərə mətnin neçənci abzasında aydınlıq gətirildiyini müəyyənləşdirirlər.

1. Dədə Qorqud boyları nə vaxt yaranmış və qələmə alınmışdır? (4 və 5-ci abzasda) 2. Dastan-

Layihə

dakı hadisələr hansı dövrü əhatə edir? (6-cı abzasda) 3. Dədə Qorqud kimdir: əsərin müəllifi, yoxsa obrazlardan biri? (7-ci abzasda)

**Tapşırıq d (dərslik).** Mətnin 5-ci hissəsində iki tədqiqatçının fikirlərinə istinad edilir. Həmin fikirləri fərqli abzaslarda təqdim etmək olardı.

Cavab: Türkiyəli alim Faruk Sümer isə Dədə Qorqud boylarının ilkin variantının IX–X əsrlərdə yarandığını bildirir.

**Tapşırıq a (iş dəftəri).** Şagirdlər iş dəftərində verilmiş mətni oxuyur, mətnə aid suallar tərtib edirlər. Suallar təxminən aşağıdakı kimi ola bilər:

1. Fridrix Fon Dits nə üçün "Basatın Təpəgözü öldürdüyü boy"u araşdırmaq və tərcümə etmək qərarına gəlir? (yunan miflərinə həmin dövrdə böyük maraq vardı)

**2.** O həmin kitaba yazdığı ön sözdə nəyi sübut etməyə çalışır? ("Təpəgöz" boyunun Homerin Polifem haqqında hekayəsindən daha qədim olmasını)

**3.** Homerin Polifem haqqında hekayəsi ilə "Təpəgöz" boyu arasında hansı ortaq cəhətlər var? (hər ikisində təkgözlü nəhəng siklopun olması)

**4.** Homerin Polifemi ilə Təpəgöz arasında hansı fərq var? (həyatının doğumundan ölümünə qədər təsvir olunması, Təpəgözün daha qədim olması).

**5.** Qrimm qardaşları bu boyu özlərinin tərtib etdikləri hansı kitaba salmışlar? ("Dünya xalqlarının təpəgözləri" müntəxəbatına)

**Tapşırıq b (iş dəftəri).** Mətndəki əsas fikir belədir: Alman şərqşünası Fridrix Fon Ditsin "Basatın Təpəgözü öldürdüyü boy"u alman dilinə çevirib nəşr etdirməsi təsadüfi deyildi. O dövrdə Avropada yunan miflərinə böyük maraq vardı. Təpəgöz ilə yunan mifologiyasına məxsus olan siklopların oxşar olması alman şərqşünasının diqqətini çəkmişdir.

Mətn üçün təxminən bu başlıqlar seçilə bilər: "Təpəgözün izləri", "Təpəgöz və Polifem", "Oğuz və yunan mifologiyasında Təpəgöz obrazı" və s.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Həqiqəti aşkar etmək məqsədilə müxtəlif mətnlərdəki fakt və fikirləri müqayisə edir. | Tap. a (D.) |
| Qeyri-bədii mətnin forma və məzmun xüsusiyyətlərini şərh edir. | Tap. b, c, ç, d (D.); a, b (İ.D.) |

## 3-cü dərs. Dədə Qorqud kimdir?

• Dərslik: səh. 82-83

**Təlim məqsədləri**

**1.** Dinlədiyi mətndəki fikirlərə münasibət bildirir **(st. 7-1.1.3).**

**2.** Qeyri-xronoloji mətndə məlumatların ardıcıllığına riayət edir **(st. 7-3.1.1).**

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik).** Müəllim soruşur:

– "Bir eposun izi ilə" mətnində Dədə Qorqudun kimliyi ilə bağlı hansı informasiya verilib?

Mətndən belə bir nəticə çıxır ki, dastan "Kitabi-Dədə Qorqud" adlansa da, Dədə Qorqud bu eposun yeganə müəllifi deyil.

Şagirdlər Dədə Qorqudun kimliyi ilə bağlı fikir yürüdürlər (Hansı dövrdə və harada yaşayıb? Eposun müəllifidir, yoxsa dastanda iştirak edən obraz? və s.). Daha sonra suallarının cavabını araşdıra biləcəkləri mənbələri təxmin edirlər: "Kitabi-Dədə Qorqud" dastanı və orta əsrlərə aid tarixi mənbələr.

**Dinləmə**

**7-1.1.3. Tapşırıq b (dərslik).** Şagirdlər mətni dinləyirlər:

***"Kitabi-Dədə Qorqud". Müqəddimə***

*Məhəmməd peyğəmbərin zamanına yaxın Bayat boyunda Qorqud ata deyilən bir kişi vardı.*

*Qorqud Ata oğuzların bilicisi idi: nə deyirdisə, o da olurdu. Gələcəkdən qəribə xəbərlər söyləyər, Oğuz elinin müşkül işlərini çözərdi. Qorqud Ataya danışmayınca iş görməzdilər. O nə buyursa, əməl edər, sözündən çıxmazdılar.*

*Dədə Qorqud demişdi:*
*Qovuşaraq sular daşsa, dəniz olmaz.*
*Təkəbbürlük eyləyəni Tanrı sevməz.*
*Kül, təpəcik sevməz.*
*Köhnə pambıq bez olmaz.*
*Qarı düşmən dost olmaz.*
*Kişi, malına qıymayınca adı çıxmaz.*



Layihə

*Dədə Qorqud bir daha demişdi:*
*Yaxşı ata namərd minməsə yaxşıdı.*
*İti qılıncı müxənnət tutmasa yaxşıdı.*
*Qonağı gəlməyən evlər yıxılsa yaxşıdır.*
*Ata adını ucaltmayan oğul doğulmasa yaxşıdır.*
*Ağıllı oğul ata adını ucaldar.*
*Bu dünyada yalan söz olmasa yaxşıdır.*
*Doğruçular yüz il yaşasalar yaxşıdır.*

*Dədə Qorqud bir daha söylədi, görək nə söylədi:*
*Getdiyi yerin otlaqlarını keyik bilər.*
*Ayrı-ayrı yolların izini dəvə bilər.*
*Gecə ikən karvan keçdiyini torağay bilər.*
*İgidin çəkisini at bilər.*
*Yükün ağırlığını qatır bilər.*
*Harda ağrı varsa, çəkən bilər.*

Şagirdlər "Kitabi-Dədə Qorqud"un müqəddiməsində Dədə Qorqud haqqında verilmiş məlumatları dinləyirlər. Onun söylədiyi müdrik ifadələri təhlil edirlər.

**Yazı**

**7-3.1.1. Tapşırıq c (dərslik).** Şagirdlər verilmiş mənbələrdən və təlimatdan istifadə etməklə Dədə Qorqudun kimliyi haqqında məqalə yazırlar. Məqalə təxminən aşağıdakı kimi yazıla bilər:

*Dədə Qorqudun VI–VII əsrlərdə yaşadığı və ya ümumiləşmiş bir rəmz olduğu haqda müxtəlif fikirlər mövcuddur. Mənbələrdə onun əfsanəvi uzunömürlülüyü, həm el ağsaqqalı, həm də dövlət işlərində yüksək mövqedə olan şəxs kimi təsvir edilməsi diqqət çəkir. Məsələn, Fəzlullah Rəşidəddinin "Oğuznamə"sində Dədə Qorqud VI–VII əsrlərdə yaşamış ağıllı, bilikli bir insan kimi təsvir edilir. Əbülqazi Bahadır xanın "Şəcərei-Tərakimə" əsərindəki məlumatlara görə, Dədə Qorqud üç hökmdarın vəziri olmuş, 295 il yaşamışdır. Mənbələrdəki bu təsvirlər tarixi reallıqla əfsanənin bir-birinə qarışdığını göstərir. Tofiq Hacıyev isə Dədə Qorqudu konkret bir şəxsiyyət deyil, ümumiləşmiş bir simvol kimi təqdim edir.*

*Dastanların yaranmasında Dədə Qorqudun rolu haqqında da müxtəlif fikirlər mövcuddur. Əli Sultanlının fikrincə, Dədə Qorqud "Kitabi-Dədə Qorqud" dastanlarının ilk yaradıcısıdır. Digər mənbələrdə isə onun dastanlara bilavasitə aidiyyəti barədə fərqli fikirlər irəli sürülür. Aleksandr Yakubovski Dədə Qorqudun XII əsrdə Boz Oq tayfalarının əmiri Qorqud ibn Əbdülhəmidlə əlaqələndirilməsini inandırıcı hesab etmir.*

*Bir çox mənbələrdə Dədə Qorqudun İslam dini ilə sıx əlaqəsi vurğulanır. Həsən Mahmud oğlu Bayatinin "Cami-Cəm ayin" əsərinə görə, Dədə Qorqud Mədinədə Məhəmməd Peyğəmbərlə görüşmüş və İslamı yaymaq üçün geri qayıtmışdır. Bu fikir başqa mənbələrdə də öz təsdiqini tapır. Bəhlul Abdullayevin qeyd etdiyi farsca Oğuz dastanında da bu görüş təsvir edilir. Lakin belə bir görüşün tarixi gerçəkliyi elmi baxımdan mübahisəlidir. Çox güman ki, bu epizod İslam mədəniyyətinin türk dastanlarına təsirinin bir nümunəsidir.*

*Həm Adam Olearinin, həm də Övliya Çələbinin qeydlərində Dədə Qorqudun qəbrinin Dərbənddə olduğu haqqında məlumatlar var. Dərbəndin strateji mövqeyi və Oğuz tayfalarının buradakı varlığı bu iddianı əsaslandırır.*

*Göründüyü kimi, Dədə Qorqudun kimliyi ilə bağlı yekdil fikir yoxdur. Bu gün onun haqqında aparılan araşdırmalar təkcə tarixə deyil, həm də folklor və ədəbiyyata yeni baxış gətirir.*

**Tapşırıq a (iş dəftəri).** Şagirdlər bu fəsildə "Kitabi-Dədə Qorqud" haqqında əldə etdikləri məlumatları tezislər şəklində yazırlar:

**1-ci tezis.** (Qorqudşünaslıq elminin əsasının qoyulması haqqında) – "Kitabi-Dədə Qorqud"u ilk dəfə elmi şəkildə araşdırıb nəşr edən şəxs alman şərqşünası Fridrix fon Dits olmuşdur. O, 1815-ci ildə "Basatın Təpəgözü öldürdüyü boy"u alman dilinə tərcümə edərək elmi şərhlərlə nəşr etdirmiş və beləliklə, qorqudşünaslıq elminin əsasını qoymuşdur.

**2-ci tezis.** ("Kitabi-Dədə Qorqud"un əlyazmaları haqqında) – "Kitabi-Dədə Qorqud"un günümüzə qədər gəlib çatan iki əsas əlyazma nüsxəsi mövcuddur: Drezden və Vatikan nüsxələri. Drezden nüsxəsi 154 səhifədən ibarət olub bir müqəddimə və 12 boyu əhatə edir, Vatikan nüsxəsi isə özündə 6 boyu ehtiva edən 109 səhifədən ibarətdir. Əlyazmaların XV–XVI əsrlərdə yazıya alındığı ehtimal edilir.

**3-cü tezis.** ("Kitabi-Dədə Qorqud"un tədqiqatçıları haqqında) – "Kitabi-Dədə Qorqud" haqqında geniş tədqiqat aparan alimlər arasında Fridrix fon Dits, Yakob və Vilhelm Qrimm, eləcə də Fərhad Zeynalov və Şamil Cəmşidov, Tofiq Hacıyev və başqa azərbaycanlı alimlər xüsusi yer tutur. Bu alimlər dastanın təhlili, tərcüməsi və dünya mifologiyaları ilə müqayisəsi sahəsində əhəmiyyətli işlər görmüşlər.

**4-cü tezis.** ("Kitabi-Dədə Qorqud"un mövzusu,

Layihə

yarandığı dövr haqqında) – "Kitabi-Dədə Qorqud" dastanı, əsasən, Oğuz türklərinin qəhrəmanlıq, igidlik, ailə dəyərləri, vətən sevgisi, dostluq və sədaqət kimi mövzularını əhatə edir. XV–XVI əsrlərdə yazıya alınsa da, dastanın daha qədim dövrlərə əsaslandığı ehtimal edilir.

**5-ci tezis.** (Dədə Qorqudun kimliyi haqqında) *Dədə Qorqud Oğuz elinin ağsaqqalı, müdrik məsləhətçisi və dini lideridir. O, qəhrəmanlara yol göstərən, çətin anlarda məsləhət verən, adqoyma mərasimlərini icra edən bir ruhani rəhbər kimi təqdim olunur.*

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dinlədiyi mətndəki fikirlərə münasibət bildirir. | Tap. b (D.) |
| Qeyri-xronoloji mətndə məlumatların ardıcıllığına riayət edir. | Tap. c (D.) |

## 4-cü dərs. Sual, əmr və nida cümlələrinin yaranma yolları

• Dərslik: səh. 84 • İş dəftəri: səh. 50

**Təlim məqsədləri**

**1.** Cümlənin məqsəd və intonasiyasının formalaşmasında ədat, sual əvəzliyi və nidanın rolunu müəyyənləşdirir **(st. 7-4.2.5)**.

### Mövzuya yönəltmə

**Tapşırıq a (dərslik).** Şagirdlər əvvəlcə tapşırıqda verilmiş cümləri oxuyur, onların nəqli, əmr, yoxsa nida cümlələri olduğunu müəyyənləşdirirlər. Sonra həmin cümləri intonasiyanın köməyi ilə sual cümlələrinə çevirməyə çalışırlar. Aydın olur ki, nəqli cümlələri sual cümləsinə çevirə bilsələr də, əmr və nida cümlələrində bu mümkün olmur. Bununla onların diqqəti yeni mövzuya yönəldilir. Bu dərsin əsas məqsədi cümlənin məqsəd və intonasiyasına görə növlərinin formalaşmasında ədat, sual əvəzliyi və nidanın necə rol oynadığını şagirdlərə mənimsətməkdir.

<u>Cavab</u>: 1. Qalib gəlmək üçün oyunda iştirak etmək lazımdır? 3. Çaylar birləşəndə dənizə dönür?

### Dil qaydaları

**7-4.2.5. "Yadda saxla" rubrikası.** Rubrikada verilmiş məlumatlar oxunub şərh edilir.

**Tapşırıq b (dərslik).** Şagirdlər cümlələrdə müxtəlif sözləri sual əvəzlikləri ilə əvəz etməklə sual cümlələri yaradırlar:

1. Nə vaxt tətil başlayır?
2. Biz nəyi ulu babalardan öyrənmişik?
3. Hansı zalda yeddi-səkkiz nəfər məşq edirdi?

və s.

**Tapşırıq c (dərslik).** Şagirdlər cümlələrin məqsəd və intonasiyaya görə növünü təxminən aşağıdakı kimi dəyişə bilərlər:

1. İnsanları tanımaq *necə də* çətindir! İnsanları tanımaq çətindir**mi?**

2. *Bəs* toplantının sonunda qətnamə oxunsun? **Qoy** toplantının sonunda qətnamə oxunsun.

3. *Qoy* ürəyindən keçənləri söyləsin. Ürəyindən keçənləri söyləsin**mi?**

4. *Bəli,* siz bu layihəni uğurla həyata keçirərsiniz. **Bəs** siz bu layihəni uğurla həyata keçirərsiniz?

**Tapşırıq a, b, c (iş dəftəri).** Şagirdlər iş dəftərindəki tapşırıqlarda verilmiş frazeoloji birləşmələri və onların mənalarını müəyyənləşdirməklə mövzu üzrə bilik və bacarıqlarını inkişaf etdirirlər.

**Tapşırıq a (iş dəftəri).** <u>Cavab</u>:

1. Quşu qəfəsdən kim buraxıb ki? – Sual əvəzliyi və sual ədatı ilə;
2. Məgər sən məni tanımırsan? – Sual ədatı ilə;
3. Evinizin yaxınlığında mağaza var? – Yalnız intonasiya ilə;
4. Niyə yatmırsan, ay ana? – Sual əvəzliyi ilə;
5. Bəs ona hədiyyə almayıbsınız? – Sual ədatı ilə;
6. Deməк, sən buna görə ağlayırsan? – Yalnız intonasiya ilə.

**Tapşırıq b (iş dəftəri).** <u>Cavab</u>: Bu işi tez bitirmək çətindir ki?

Bəs bu işi tez bitirmək çətindir?
Məgər bu işi tez bitirmək çətindir?
Yəni bu işi tez bitirmək çətindir?
Bu işi tez bitirmək çətindirmi?

**Tapşırıq c (iş dəftəri).** <u>Cavab</u>:

1. Həyatın qədrini düşünün <u>barı</u>. *Əmr cümləsi.*
2. <u>Bəs</u> niyə sözünün üstündə durmursan? *Sual cümləsi.*
3. <u>Bəli</u>, təbiətə gözəllik verən insandır. *Nəqli*



Layihə

*cümlə.*

4. Qoy olsun gəncliyim Vətənə qurban! *Əmr cümləsi.*

5. Afərin! Çox dərin mənalı fikirlər dedin! *Nida cümləsi.*

6. Kainatın ən gizli sirlərini öyrənməliyik. *Nəqli cümlə.*

7. Hər doğulan oğuldumu, ərdimi? *Sual cümləsi.*

8. İnsan ömrünü ancaq insan qayğısı uzada bilər. *Nəqli cümlə.*

9. Keçmə namərd körpüsündən,
Qoy aparsın sel səni. *Əmr cümləsi.*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Ədat, sual əvəzliyi və nidanın köməyi ilə cümlənin növünü dəyişir. | Dərslik və iş dəftərindəki tapşırıqlar |

# 3-cü fəsil

## 1-ci dərs. Astronomiya tarixində ən böyük sual: heliosentrizm, yoxsa geosentrizm?

• Dərslik: səh. 85 • İş dəftəri: səh. 51

**Təlim məqsədləri**

**1.** Söz tərkibindəki morfemlərin semantikasından çıxış edərək sözün mənasını müəyyənləşdirir **(st. 7-4.4.1).**

**2.** Dinlədiyi mətndən götürdüyü qeydləri qruplaşdırıb nəql edir **(st. 7-1.1.1).**

**3.** Dinlənilən mətndəki faktların həqiqətə uyğunluğunu müəyyənləşdirir **(st. 7-1.1.3).**

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik).** Tapşırığın məqsədi şagirdlərə kainat və Günəş sistemi haqqında bildiklərini xatırlatmaqla fəslin mövzusuna maraq oyatmaq, dinləmə prosesinə hazırlaşdırmaqdır.

• Günəş sistemində 8 planet var: Merkuri, Venera, Yer, **Mars,** Yupiter, **Saturn,** Uran, Neptun.
• **Ay** Yerin təbii peykidir.
• Yer **24** saat ərzində öz oxu ətrafında fırlanır.
• Yer bir il ərzində **Günəş** ətrafında fırlanır.

**Söz ehtiyatı**

**7-4.4.1. Tapşırıq b (dərslik).** Şagirdlər tapşırıqda verilmiş izahlardan çıxış edərək “geosentrizm” və “heliosentrizm” sözlərinin mənalarını təxmin edirlər. Tapşırığın məqsədi şagirdin sözün tərkibinə əsasən onun mənasını müəyyənləşdirmək bacarığını formalaşdırmaqdır.

**Geosentrizm** – Yerin kainatın mərkəzində yerləşdiyini və bütün digər səma cisimlərinin onun ətrafında fırlandığını irəli sürən nəzəriyyə.

**Heliosentrizm** – Günəşin kainatın mərkəzində olduğunu və Yer də daxil olmaqla bütün planetlərin onun ətrafında fırlandığını irəli sürən nəzəriyyə.

**Dinləmə**

**7-1.1.1. Tapşırıq c (dərslik).** Müəllim mətni səsləndirməzdən öncə tapşırıqda verilmiş müvafiq təlimatları şagirdlərin diqqətinə çatdırır. Şagirdlər qeyd götürməklə mətni dinləyirlər.

Layihə

***Astronomiya tarixində ən böyük sual:***

*Astronomiya kainatda göy cisimlərinin yerləşməsi, hərəkəti, strukturu haqqında elmdir. Bu elmin kökləri çox qədim dövrlərə gedib çıxır.*

*Qədimdə insanlar elə düşünürdülər ki, Yer yastı formaya malikdir. İlk dəfə olaraq Miladdan əvvəl VI əsrdə yunan alimi Pifaqor Yerin kürə şəklində olduğuna dair fikir irəli sürdü və bir çox alimlər bu fikri qəbul etdilər.*

*Antik dövrdə alimləri ən çox düşündürən məsələ dünyanın, kainatın mərkəzini müəyyən etmək idi. Bir çoxları Yerin dünyanın mərkəzi olduğunu, Günəşin isə onun ətrafında fırlandığını düşünürdülər. Bu nəzəriyyə elmdə "dünyanın geosentrik sistemi" adlanır. Miladdan əvvəl IV əsrdə yaşamış Aristotel də geosentrizmin tərəfdarı idi.*

*Bununla belə, Qədim Yunanıstanda elə alimlər də var idi ki, Günəşin mərkəz olduğunu, Yerin və digər planetlərin onun ətrafında fırlandığını iddia edirdilər. Bu nəzəriyyə isə astronomiyada "heliosentrik sistem" adını aldı. Lakin antik dövrdə heliosentrizm ideyası geniş yayılmadı.*

*Miladdan sonra 140-cı illərdə yunan alimi Klavdi Ptolemey astronomiya üzrə o vaxta qədər məlum olan bilikləri sistemləşdirdi və "Əl-məcisti" adlı bir kitab yazdı. Bu kitab geosentrizm nəzəriyyəsi əsasında yazılmışdı. Təxminən 1500 il "Əl-məcisti" astronomiya üzrə dünyada ən çox istifadə edilən əsər oldu.*

*VIII–XVI əsrlərdə dünyada astronomiya elminin mərkəzi Yaxın Şərq və İslam ölkələri oldu. Bu dövrdə Marağada, Səmərqənddə, Bağdadda, Təbrizdə rəsədxanalar tikildi. Əl-Xarəzmi, Ömər Xəyyam, Nəsirəddin Tusi, Əl-Biruni, Uluqbəy kimi alimlər astronomiya elmində böyük kəşflər etdilər: astronomik cədvəllər, atlaslar, ulduz kataloqları yaratdılar. Lakin onlardan heç biri Ptolemeyə qarşı çıxıb heliosentrik sistemi müdafiə etmədi.*

*Nəhayət, XVI əsrin ortalarında polyak alimi Nikolay Kopernik "Göy cisimlərinin fırlanması haqqında" kitabını nəşr etdirdi və geosentrizm erasına son qoydu. Bu kitabda Kopernik riyazi dəlillərlə Yerin Günəş ətrafında fırlandığını sübut etdi və kainatın indi bildiyimiz mənzərəsini yaratdı.*

*Kopernikin kitabı o dövrdə birmənalı qarşılanmadı. Roma Katolik kilsəsi bu kitabı qadağan olunmuş kitablar siyahısına saldı və heliosentrizmi küfr elan etdi. Hətta 1600-cü ildə bu nəzəriyyəni dəstəkləyən böyük mütəfəkkir Cordano Bruno inkvizisiyanın – katolik kilsəsinin yaratdığı cəza sisteminin qurbanı oldu. XVII əsrdə italyan alimi Qalileo Qaliley və alman alimi İohan Kepler heliosentrizm ideyasını inkişaf etdirdilər. Lakin 1633-cü ildə inkvizisiya məhkəməsində Qaliley öz fikirlərindən imtina etməli oldu.*

*Heliosentrizm nəzəriyyəsinin inkişafında son nöqtəni ingilis alimi İsaak Nyuton qoydu. XVII əsrin sonlarında onun kəşf etdiyi Ümumdünya cazibə qanunu heliosentrik sistemin təkzibedilməz elmi əsası oldu.*

Şagirdlər mətni dinlədikcə aşağıdakı qeydləri götürə bilərlər:

Alim: *Pifaqor*

Dövr, məkan: *M.ö. VI əsr. Yunan.*

Elmə töhfəsi: *Yer kürə formasındadır.*

Alim: *Klavdi Ptolemey*

Dövr, məkan: *Miladdan sonra II əsr. Yunan.*

Elmə töhfəsi: *astronomiya üzrə o vaxta qədər məlum olan bilikləri sistemləşdirdi. "Əl-məcisti" adlı bir kitab yazdı.*

Alimlər: *Əl-Xarəzmi, Ömər Xəyyam, Nəsirəddin Tusi, Əl-Biruni, Uluqbəy*

Dövr, məkan: *VIII–XVI əsrlər. Yaxın Şərq və İslam ölkələri.*

Elmə töhfəsi: *Astronomik cədvəllər, atlaslar, ulduz kataloqları yaratdılar.*

Alim: *Nikolay Kopernik*

Dövr, məkan: *1543-cü il.*

Elmə töhfəsi: *"Göy cisimlərinin fırlanması haqqında" kitabında riyazi dəlillərlə Yerin Günəş ətrafında fırlandığını sübut etdi.*

Alim: *İsaak Nyuton*

Dövr, məkan: *XVII əsrin sonları*

Elmə töhfəsi: *Kəşf etdiyi Ümumdünya cazibə qanunu heliosentrik sistemin təkzibedilməz elmi əsası oldu.*

**7-1.1.3. Tapşırıq ç (dərslik).** Şagirdlər mətndə götürdükləri qeydlərə istinad edərək məlumatların doğru, yanlış, yoxsa ehtimal olduğunu izah edirlər.

1. Aristotel elə hesab edirdi ki, Yer Günəş ətrafında fırlanır. *Yanlış fikirdir. Aristotel geosentrizmin tərəfdarı idi.*

2. Klavdi Ptolemey "Əl-Məcisti" əsərini II əsrdə yazıb. *Doğrudur. Mətndə göstərilir ki, o, kitabını*



Layihə

*140-cı illərdə yazmışdı.*

3. Qədim Yunanıstanda heliosentrizmin tərəfdarları olub. *Doğru fikirdir. Qədim yunan alimlərindən bəziləri Günəşi kainatın mərkəzi hesab edirdilər.*

4. Uluqbəyin rəsədxanası Səmərqənddə yerləşirdi. *Ehtimal oluna bilər. Uluqbəyin yaşadığı dövrdə Səmərqənddə rəsədxanalar tikilmişdir.*

5. Cordano Bruno dünyanın heliosentrik sisteminin əsasını qoydu. *Yanlış fikirdir. Nikolay Kopernik 1543-cü ildə yazdığı kitabda ilk dəfə heliosentrizmi riyazi dəlillərlə sübut etdi.*

7-1.1.1. **Tapşırıq d (dərslik).** Şagirdlər dinlədikləri mətndən götürdükləri qeydləri astronomiya tarixinin dövrləri üzrə qruplaşdırıb ən vacib məlumatları sadalayırlar.

1. Qədim Yunanıstanda astronomiya elmi

**Əsas məlumatlar:** İlk dəfə olaraq Miladdan əvvəl VI əsrdə yunan alimi Pifaqor Yerin kürə şəklində olduğuna dair fikir irəli sürdü. II əsrdə yunan alimi Klavdi Ptolemeyin yazdığı geosentrizmə əsaslanan "Əl-Məcisti" adlı kitab 1500 il astronomiya elminin əsası oldu.

2. İslam dünyasında astronomiya

**Əsas məlumatlar:** VIII–XVI əsrlərdə dünyada astronomiya elminin mərkəzi Yaxın Şərq və İslam ölkələri oldu. Şərq alimlərinin araşdırmaları kainatın quruluşu haqqında düzgün təsəvvürlərin yaranmasına xeyli dəstək oldu. Lakin hələ də geosentrizm nəzəriyyəsi qəbul olunurdu.

3. XVI–XVII əsrlərdə astronomiya

**Əsas məlumatlar:** Nikolay Kopernik heliosentrizmi riyazi dəlillərlə sübut etdi. Bu nəzəriyyənin tərəfdarı Cordano Bruno edam edildi. İsaak Nyutonun ümumdünya cazibə qanununu kəşf etməsi ilə heliosentrizm astronomiyada qəbul olundu.

**Tapşırıq e (dərslik).** Şagirdlər qeydlərinə əsasən sübut edirlər ki, dinlədikləri mətn informativ xarakter daşıyır. Çünki astronomiya elminin tarixi haqqında məlumatlar verir. Xronoloji struktura malikdir. Bəli, ta qədim zamanlardan başlayaraq ardıcıllıqla astronomiya elminin inkişafı izlənilir.

Arqumentativ mətn deyil. Bəli, çünki mətndə hər hansı fikrin sübuta yetirilməsi cəhdi yoxdur. Məlumatverici xarakter daşıyır.

**Tapşırıq a (iş dəftəri).** Şagirdlər tapşırığı fərdi şəkildə yerinə yetirməklə mətni dinləyib-qavradıqlarını nümayiş etdirirlər. Şagirdlər müəyyənləşdirirlər ki, dinlədikləri mətndə astronomiya elminin inkişaf tarixindən bəhs edilir.

**Tapşırıq b (iş dəftəri).** Şagirdlər dinlədikləri mətnə əsasən cümlələri aşağıdakı kimi tamamlaya bilərlər:

Geosentrizm nəzəriyyəsinin tərəfdarları düşünürdülər ki, *Yer kainatın mərkəzində yerləşir və bütün digər səma cisimləri onun ətrafında fırlanır.*

Heliosentrizm nəzəriyyəsinin tərəfdarları düşünürdülər ki, *Günəş kainatın mərkəzindədir və Yer də daxil olmaqla bütün planetlər onun ətrafında fırlanır.*

**Tapşırıq c (iş dəftəri).** Şagirdlər dinlədiyi mətnə əsasən hadisələr arasında səbəb-nəticə əlaqəsini müəyyənləşdirirlər.

II əsrdə yunan alimi Klavdi Ptolemey geosentrizmə əsaslanan "Əl-Məcisti" adlı bir kitab yazdı. *Nəticədə astronomiya üzrə 1500 il dünyada ən çox istifadə edilən əsər oldu.*

1543-cü ildə polyak alimi Nikolay Kopernik "Göy cisimlərinin fırlanması haqqında" kitabını nəşr etdirdi. *Nəticədə heliosentrizm riyazi dəlillərlə sübut olundu.*

1600-cü ildə Cordano Bruno edam edildi. *Çünki o, heliosentrizm nəzriyyəsini təbliğ edirdi.*

1633-cü ildə məhkəmədə Qaliley öz fikirlərindən imtina etməli oldu. *Çünki heliosentrizm nəzəriyyəsini müdafiə edənlər ağır cəzalandırılırdı.*

İngilis alimi İsaak Nyuton ümumdünya cazibə qanununu kəşf etdi. *Nəticədə heliosentrik sistem sübut olundu.*

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Söz tərkibindəki morfemlərin semantikasından çıxış edərək sözün mənasını müəyyənləşdirir. | Tap. b (D.) |
| Dinlənilən mətndəki faktların həqiqətə uyğunluğunu müəyyənləşdirir. | Tap. ç (D.) |

Layihə

| | |
|---|---|
| Dinlədiyi mətndən götürdüyü qeydləri qruplaşdırıb nəql edir. | Tap. **d, e** (D.); **a, b, c** (İ.D.) |

## 2-ci dərs. Heliosentrizmin əsasını kim qoyub: Aristarx, yoxsa Kopernik?

• Dərslik: səh. 86-87 • İş dəftəri: səh. 52

**Təlim məqsədləri**

**1.** Mətnin struktur elementlərini (başlıq) onun məzmunu ilə əlaqələndirir **(st. 7-2.3.3).**

**2.** Arqumentativ mətnin struktur elementlərini müəyyənləşdirir **(st. 7-2.3.3).**

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik).** Şagirdlər oxuyacaqları mətnin başlığını nəzərdən keçirirlər. Mətnin başlığı sualla ifadə olunub. Sualdan aydın olur ki, mətndə mübahisəli bir məsələdən danışılacaq. Mətndə heliosentrizmin əsasının Aristarxın və ya Kopernikin qoyması ilə bağlı fikir yürüdüləcək və həmin fikir əsaslandırılacaq. Bu isə arqumentativ mətnin xüsusiyyətidir.

**Oxuyub-qavrama**

**7-2.3.3. Tapşırıq b (dərslik). "Heliosentrizmin əsasını kim qoyub: Aristarx, yoxsa Kopernik?" mətni.** Bu dərsdə şagirdlər arqumentativ mətnin strukturu barədə daha ətraflı məlumat alacaqlar. Odur ki təqdim olunan arqumentativ mətni oxuyarkən "Diqqət et" rubrikasında göstərilən məqamlara diqqət yetirilməsi vacibdir. Şagirdlər oxu prosesi bitdikdən sonra başlıqda qoyulmuş sualla bağlı müəllifin mövqeyini aydınlaşdırmalıdırlar. Həmçinin müəllifin mövqeyini əsaslandırmaq üçün istifadə etdiyi arqumentləri müəyyənləşdirməlidirlər.

**7-2.3.3. Tapşırıq c (dərslik).** Şagirdlər başlıqda qoyulmuş sualla bağlı müəllifin mövqeyini əks etdirən ilk abzasa diqqət edirlər. Həmin abzasda müəllif Aristarxın unudulmasını tarixi ədalətsizlik hesab edir.

**Tapşırıq ç (dərslik).** Şagirdlər oxuduqları mətnin girişini müəyyənləşdirirlər. Mətnin 1-ci abzasında müəllif problemi və problemlə bağlı öz mövqeyini bildirir. Mətnin növbəti hissələrində müəllif öz mövqeyini əsaslandırır. Tapşırıqda mətnin mövzusu ilə bağlı müqayisə üçün kiçik bir mətn verilir. Şagirdlər oxuduqları əsas mətnlə həmin variantı müqayisə edirlər.

• Hansı variantda mövzu və problemlə bağlı daha ətraflı məlumat verilir? İlk oxunan əsas mətndə

• Hansı variant daha cəlbedicidir və mətni oxumağa motivasiya yaradır? İlk oxunan əsas mətn

**"Diqqət et" rubrikası.** Daha sonra şagirdlər arqumentativ mətnin girişi ilə bağlı verilmiş nəzəri məlumatları oxuyub mətn əsasında təhlil edirlər.

İş dəftərində verilmiş tapşırıqları yerinə yetirməklə şagirdlər oxuduqları mətni qavradıqlarını fərdi şəkildə nümayiş etdirirlər.

**Tapşırıq a (iş dəftəri).** Cavab:

Şagirdlər mətndən çıxış edərək Aristarx haqqında məlumat vərəqini tamamlayırlar.

Yaşadığı illər: M.ö. 310–230

Yaşadığı yer: Qədim Yunanıstanın Samos adası

Kitabları: "Günəş və Ayın ölçüləri və məsafələri", "Ehtimallar"

İrəli sürdüyü fikirlər: Ay Günəşin işığını əks etdirir; Ay Yer ətrafında fırlanır; Yer Aydan 3 dəfə, Günəş isə Yerdən 6 dəfə böyükdür; Yerdən Günəşə qədər olan məsafə Yerdən Aya qədər olan məsafədən 20 dəfə çoxdur. Yer Günəş ətrafında fırlanır.

Davamçıları: Plutarx, Kopernik

**Tapşırıq b (iş dəftəri).** Mətnin müəllifi "Kopernik Aristarxın Günəş sistemi ilə bağlı fikirlərini təkzib edirdi" fikri ilə razılaşmaz. Çünki mətnin II abzasında göstərilir ki, Kopernik qədim yunan alimінə istinadlar edib. Yəni onun mütərəqqi fikirlərini dəstəkləyib.

**Tapşırıq c (iş dəftəri).** Şagirdlər mətnə aid fikirləri tamamlamaqla mətni qavradıqlarını nümayiş etdirirlər.

Heliosentrik nəzəriyyənin əsasını Samoslu Aristarx qoyub, amma Kopernik tanınıb.

Kopernik "Göy cisimlərinin fırlanması haqqında" (1543) kitabının əlyazmasında Aristarxa istinad etmişdi, amma nədənsə, kitabın nəşri zamanı bu istinadlar yoxa çıxıb.

Aristarxa qədər alimlər göy cisimləri haqqında fərziyyələrə əsaslanırdılar, Aristarx isə elmi müşahidələrdən və riyazi hesablamalardan çıxış edir.

**Tapşırıq ç (iş dəftəri).** Tapşırıq şagirdlərin ümu-

Lahiyə

miləşdirmə bacarığını inkişaf etdirir.

Cavab: b. Antik dövr astronomiyasında heliosentrik baxışlar

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnin struktur elementlərini (başlıq) onun məzmunu ilə əlaqələndirir. | Tap. a, b (D.) |
| Arqumentativ mətnin struktur elementlərini müəyyənləşdirir. | Tap. c (D.) |

## 3-cü dərs. Mövzu ilə bağlı müzakirə

• Dərslik: səh. 88

**Təlim məqsədləri**

**1.** Araşdırılan faktlardan istifadə etməklə qarşı tərəfin fikrinə münasibətini əsaslandırır (st. 7-1.2.2).

**Mövzuya yönəltmə**

Müəllim suallar vasitəsilə "Heliosentrizmin əsasını kim qoyub: Aristarx, yoxsa Kopernik?" mətnini xatırladır.

**Suallar:** *Müəllif mətndə hansı fikri sübuta yetirməyə çalışır? O, fikrini dəstəkləmək üçün hansı arqumentləri gətirir?*

**Danışma**

7-1.2.2. **Tapşırıq a (dərslik).** Tapşırıqda verilmiş məlumatların köməyi ilə şagirdlər oxuduqları mətnin müəllifinin fikirlərinə qarşı çıxırlar. Onlar əks-arqumentlər hazırlayaraq mətn müəllifinin opponenti qismində çıxış edirlər. Yaxşı olar ki, tapşırıq rollu oyun şəklində yerinə yetirilsin.

**Tapşırıq b (dərslik).** Müəllif mətnin 2-ci abzasının sonluğunda "Bəlkə, Kopernik... Nə isə, çox dərinə getməyək" cümlələri ilə fikrini yekunlaşdırmağa çalışır. Əslində, hazırlıqlı oxucuya artıq müəllifin nə demək istədiyi, nəyə eyham vurduğu aydın olur. Müəllif bu cümlələrlə demək istəyir ki, əslində, Kopernik Aristarxın fikirlərini öz adına çıxarmaq məqsədilə onun adının kitabın nəşri zamanı silinməsinə nail olub. Amma müəllif bu fikri açıq-aydın deyil, üstüörtülü şəkildə oxucuya çatdırır.

**"Diqqət et" rubrikası.** Şagirdlər emosional arqumentlər barədə məlumat əldə edir, "Qlossari" rubrikasında eyham və ritorik sual ifadələrinin mənasını aydınlaşdırırlar.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Araşdırılan faktlardan istifadə etməklə qarşı tərəfin fikrinə münasibətini əsaslandırır. | Tap. a (D.) |

## 4-cü dərs. Fədai alimlər

• Dərslik: səh. 89-90 • İş dəftəri: səh. 53

**Təlim məqsədləri**

**1.** Oxuduğu mətndə əsas fakt və fikirləri fərqləndirir (st. 7-2.1.1).

**2.** Mətndə qeyd olunan tarixləri, rəqəmləri müqayisə edərək birbaşa ifadə olunmayan məlumatları müəyyənləşdirir (st. 7-2.2.2).

**3.** Mətndəki məlumatlardan çıxış edərək mühakimələr yürüdür (st. 7-2.3.2).

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik).**

Şagirdlər Cordano Bruno, Qalileo Qaliley haqqında bildiklərini danışırlar. Müəllim şagirdlərə mətni oxuduqca vacib hesab etdikləri məlumatları qeyd etməyi tapşırır.

**Oxu. Söz ehtiyatı**

7-2.1.1. **"Fədai alimlər" mətni.** Şagirdlər mətni oxuyurlar. Seçdikləri vacib məlumatları təqdim edirlər.

**"Söz boğçası" rubrikası.** Mətn oxunduqdan sonra "Söz boğçası" və şagirdlərə tanış olmayan digər sözlər üzərində iş aparılır. Şagirdlər kontekstdən çıxış edərək tanış olmayan söz və ifadələrin təxmini mənasını söyləyirlər. Daha sonra müəllimin və ya izahlı lüğətin köməyi ilə (dərsliyin sonunda "Söz boğçası"na salınmış sözlərin izahı verilmişdir) həmin söz və ifadələrin mənası dəqiqləşdirilir.

**Tapşırıq a (iş dəftəri).** Şagirdlər "Söz boğçası"nda verilmiş sözlərin köməyi ilə krosvordu həll edirlər.

1. Dərin fəlsəfi fikir sahibi olan adam – *mütəfəkkir*

2. Mübarizə aparan tərəflərdən heç birinə

qoşulmayan – *neytral*

3. Ümumi bir iş yolunda, məslək uğrunda canından keçməyə hazır olan – fədai

4. Bir şeyin maddi, cismani ifadəsi, təzahürü – *təcəssüm*

6. Dini təlimin, yaxud nəzəriyyənin mütləq yerinə yetirilməli olan qanunları – *ehkam*

8. Bir şeyi yaxşılaşdırmaq məqsədilə edilən əsaslı dəyişiklik – *islahat*

5. Hər hansı bir sahədə daha qabaq fəaliyyət göstərmiş şəxs – *sələf*

7. Tanrının varlığı və birliyi kimi dini inancları inkaretmə, dinsizlik – *küfr*

8. Orta əsrlərdə katolik kilsəsinin yaratdığı vəhşi və amansız cəza sistemi – *inkvizisiya*

**Tapşırıq b (iş dəftəri).** Mətndə Qalileo Qalileyin kitabından bəhs olunarkən "populyar" sözü işlədilir. Həmin söz mətndə "Bu əsər çoxlarının başa düşə biləcəyi populyar üslubda – üç nəfərin dialoqu şəklində yazılmışdı" cümləsində işlənmişdi. Şagirdlər tapşırıqda verilmiş sözün etimoloji mənasından çıxış edərək müəyyənləşdirirlər ki, "populyar" sözü mətndə "çox sadə, aydın dildə ifadə edilən, hamının başa düşəcəyi bir tərzdə, hamı üçün anlaşılan" mənasında işlədilib.

### Oxuyub-qavrama

**7-2.2.2. Tapşırıq b (dərslik). Riyaziyyat fənni ilə inteqrasiya.** Şagirdlər tapşırıqda verilmiş nümunəni nəzərdən keçirərək mətndəki faktlarla bağlı sualları cavablandırırlar.

*Kopernikin "Göy cisimlərinin fırlanması haqqında" kitabı neçənci ildə nəşr olunub?* sualının cavabını tapmaq üçün mətnin müxtəlif yerlərində verilən faktlara diqqət yetirmək lazımdır.

Əgər Bruno 1600-cü ildə 52 yaşında öldürülübsə, deməli, o, 1548-ci ildə anadan olub (1600 – 52 = 1548). Mətndə deyilir ki, Bruno anadan olanda artıq beş il idi ki, Kopernikin "Göy cisimlərinin fırlanması haqqında" kitabı işıq üzü görmüşdü. Bu halda kitabın işıq üzü gördüyü il 1548-dən 5 il əvvəl olacaq: 1548 – 5 = 1543. Beləliklə, Kopernikin "Göy cisimlərinin fırlanması haqqında" kitabı 1543-cü ildə işıq üzü görmüşdür.

*"Qaliley neçənci ildə anadan olub?"* və *"Qaliley üzərində məhkəmə neçənci ildə qurulub?"* suallarına şagird belə cavab verə bilər:

Mətndə qeyd olunur ki, Cordano Bruno 1600-cü ildə tonqalda yandırılıb. Qalileyin üzərində məhkəmə isə onun ölümündən 33 il sonra qurulub: 1600 + 33 = 1633. Həmçinin deyilir ki, bu vaxt Qalileyin 69 yaşı olub. Deməli, Qalileyin doğum ilini hesablamaq üçün 1633-dən 69 çıxırıq: 1633 – 69 = 1564. Beləliklə, Qaliley 1564-cü ildə anadan olub.

**7-2.3.2. Tapşırıq c (dərslik).** Şagirdlər "Fədai alimlər" mətninin mövzusu və strukturu haqda təxminən belə fikir yürüdə bilərlər:

*Mətndə elmi həqiqətləri qəbul etdirmək üçün alimlərin tarix boyunca çəkdiyi çətinliklər və dini ehkamların elmin inkişafına qarşı təzyiqlərindən danışılır. Mətn arqumentativ struktura malikdir. Bu mətni yazmaqda müəllifin məqsədi oxucunu tarixən alimlərin təqib olunması fikrinə inandırmaqdır. Xüsusən də mətndə alimlərin inkvizisiya tərəfindən təqib olunması, Bruno və Qalileyi dinin ehkamlarına zidd gəldiklərinə görə cəzalandırmaları vurğulanır.*

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduğu mətndə əsas fakt və fikirləri fərqləndirir. | Tap. a (D.) |
| Mətndə qeyd olunan tarixləri, rəqəmləri müqayisə edərək birbaşa ifadə olunmayan məlumatları müəyyənləşdirir. | Tap. b (D.) |
| Mətndəki məlumatlardan çıxış edərək mühakimələr yürüdür. | Tap. c (D.) |

## 5-ci dərs. Mövzu üzrə arqumentativ mətnin yazılması

• Dərslik: səh. 91 • İş dəftəri: səh. 54

**Təlim məqsədləri**

**1.** Yazıda problemlə bağlı başqa mövqeləri təkzib etmək üçün əks-arqumentlər gətirir **(st. 7-3.2.2).**

### Mövzuya yönəltmə

Müəllim dərsin mövzusuna diqqəti yönəltmək üçün suallar verir:

– *Cordano Bruno nə üçün edam edilmişdir?*

– *İnkvizisiya məhkəməsində Qalileyə hansı*

Layihə

*hökm çıxarıldı? O, hökmü dinlədikdən sonra ayağını yerə vuraraq nə demişdi?*

### Oxuyub-qavrama

Şagirdlər bu dərsdə dərslikdə **a** tapşırığında verilmiş məlumatlardan istifadə edərək arqumentativ mətn yazmalıdırlar. Yazı prosesinə başlamazdan əvvəl şagirdlər həmin tapşırıqdakı məlumatları oxuyub anladıqlarını yoxlamaq məqsədilə iş dəftərində verilmiş tapşırıqları yerinə yetirirlər. Bununla şagirdlərin yazıya hazırlığı təmin olunur.

**Tapşırıq a (iş dəftəri).** Şagirdlər verilmiş fikirlərin doğru, yaxud yanlış olduğunu əsaslandırırlar.

1. Cordano Bruno təkcə heliosentrik ideyalarına görə deyil, bir sıra dini ehkamları inkar etdiyinə görə odda yandırıldı. *Doğrudur. Cordano Brunonun tələbəsi 1592-ci ildə öz məktubunda yazmışdı ki, C. Bruno İsa Məsihin heç bir möcüzə yaratmadığını və sadəcə, sehrbaz olduğunu deyirdi.*

2. C.Bruno iddia edirdi ki, bəzi ehkamların xristian dini ilə əlaqəsi yoxdur, onlar keşişlərin uydurmasıdır. *Doğrudur. O bu fikri hətta məhkəmə zamanı da dilinə gətirmişdi. Bunu məhkəmə protokolu təsdiq edir.*

3. C.Bruno tonqalda yandırılan dövrdə katolik kilsəsi Kopernik ideyalarını yaymağı qadağan etmişdi. *Yanlış fikirdir. Katolik kilsəsi Kopernik ideyalarını yaymağı rəsmən 1616-cı ildə qadağan etdi. Cordano Bruno isə 1600-cü ildə tonqalda yandırılmışdı.*

**Tapşırıq b (iş dəftəri).** Şagirdlər sualı təxminən belə cavablandıra bilərlər:

*Cordano Bruno xristian kilsəsinin keşişlərinə qarşı çıxdığına görə bu bəraətdən kənarda qaldı.*

**Tapşırıq c (iş dəftəri).** Tapşırıq şagirdlərin həm də söz ehtiyatını yoxlamaq məqsədi daşıyır. Onlar öyrəniblər ki, "sələf" sözünün mənası hər hansı bir sahədə daha qabaq fəaliyyət göstərmiş şəxs deməkdir. Tapşırığı yerinə yetirmək üçün şagirdlər dərslikdə 3-cü fəslə aid materialları nəzərdən keçirib Qalileo Qalileyin sələflərinin adlarını müəyyənləşdirib yaza bilərlər:

Cavab: Aristarx, Kopernik, Cordano Bruno

### Yazı

**7-3.2.2. Tapşırıq a (dərslik).** Şagirdlər tapşırığı cütlərlə iş formasında yerinə yetirə bilərlər. Hər cüt tapşırıqda verilmiş faktlardan çıxış edərək arqumentativ mətn yazır. Şagirdlərin tapşırığın sonunda verilmiş qiymətləndirmə meyarları ilə əvvəlcədən tanış olması tövsiyə olunur. Bununla şagirdlər arqumentativ mətni yazarkən nəyə diqqət edəcəklərini dəqiqləşdirə bilərlər.

***Cordano Brunonu heliosentrizm ideyalarına görə edam ediblər?***

*Cordano Brunonun edam edilməsinin əsas səbəbi onun kilsənin inanclarına və dini qaydalarına qarşı çıxması idi. Brunonun tələbəsi Covanni Moçeniqo, Brunonun İsa Məsihi sehrbaz adlandırdığını və keşişləri dinə hörmətsizlik etməkdə ittiham etdiyini yazır. Bu fikirlər o dövrdə çox təhlükəli sayılırdı, çünki kilsə öz inanclarını qorumağa çalışırdı. Bruno həm də "Tanrının oğlu" və "Müqəddəs Ruh" anlayışlarını rədd edirdi və bunun keşişlərin uydurması olduğunu düşünürdü. Bu kimi fikirlər, kilsə üçün heliosentrik ideyalardan daha böyük təhdid idi. Kilsə Günəşin mərkəz olduğunu deyən Kopernikin ideyalarını ancaq 1616-cı ildə rəsmi olaraq qadağan etdi. Bu isə Brunonun edamından sonra baş verdi. Yəni Bruno heliosentrik ideyalarına görə yox, əsasən, dini inanclara qarşı çıxışı səbəbindən cəzalandırıldı. Buna görə də Bruno elmi baxışlarından çox, dini görüşləri səbəbi ilə edam edilmişdi.*

***Doğrudanmı Qaliley "Hər halda, o fırlanır" deyib?***

*Qalileyin "Hər halda, o fırlanır" ifadəsini söylədiyinə dair müxtəlif mənbələrdən gələn məlumatlar birmənalı deyil.*

***Əvvəlcə** Qalileyin ardıcılı Vinçenso Viviani tərəfindən yazılan bioqrafiyada bu ifadənin yer almaması diqqəti çəkir. Əgər belə bir ifadə olmuşdursa, o zaman Viviani tərəfindən qeyd edilərdi.*

*Qalileyin ölümündən dörd il sonra ispan rəssamı Bartolome Esteban Murillo tərəfindən çəkilən portretdə **isə** Yerin Günəş ətrafında dövr etməsini göstərən eskizin fonunda "Hər halda, o fırlanır!" ifadəsi var. Ancaq bu, Qalileyin özü tərəfindən deyil, ölümündən sonra onun fikirlərinə hörmət əlaməti kimi əlavə edilmiş ola bilər.*

***Son olaraq** 1757-ci ildə Cüzeppe Barettinin "İtalyan kitabxanası" adlı kitabında bu ifadə ilk dəfə nəşr olunmuşdur ki, bu da ifadənin daha çox rəvayət kimi yayıldığına işarə edir.*

***Deməli,** "Hər halda, o fırlanır" ifadəsi, ehtimal ki, Qalileyin öz sözləri deyil, onun elmi nailiy-*

Layihə

*yətlərinin təsirini vurğulamaq üçün sonradan yaradılmış bir deyimdir.*

*Şagirdlər yazdıqları mətni dərslikdə verilmiş meyarlar əsasında qiymətləndirirlər.*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Yazıda problemlə bağlı başqa mövqeləri təkzib etmək üçün əks-arqumentlər gətirir. | Tap. **a** (D.) |

## 6-cı dərs. Mürəkkəb adların yazılışı

• Dərslik: səh. 92 • İş dəftəri: səh. 55

**Təlim məqsədləri**

**1.** Bəzi mürəkkəb adların (səma cismi bildirən, tarixi gün və bayram adlarının) böyük hərflə yazılışı qaydalarına əməl edir **(st. 7-4.1.2).**

**Mövzuya yönəltmə**

Müəllim suallar vasitəsilə şagirdlərin 4-cü sinifdə (4-cü sinif II hissə, səh. 74) mürəkkəb adlar haqqında əldə etdikləri bilgiləri xatırlada bilər.

**Dil qaydaları**

**7-4.1.2. Tapşırıq a (dərslik).** Tapşırıq şagirdlərin mürəkkəb adla bağlı ilkin biliklərini yoxlamaq və onların diqqətini bu mövzuya yönəltmək məqsədi daşıyır.

Cavab: 2. İlk dəfə kosmosdan baxanda Yer kürəsi su içində görünüb.

**Tapşırıq b (dərslik).** Cavab: Azərbaycan Respublikası, Kür çayı, Mərmərə dənizi, Mars planeti, Gəncə şəhəri.

**"Yadda saxla" rubrikası.** Bu rubrikada səma cisimlərinin adlarını bildirən mürəkkəb adların yazılışı ilə bağlı məlumatlar oxunub şərh olunur.

**Tapşırıq c (dərslik).** Şagirdlər mürəkkəb adlarla bağlı orfoqrafik səhvləri müəyyənləşdirirlər.

1. Planetlərin *Günəş* ətrafında hərəkət yolu orbit xətti adlanır.

2. Yerin yeganə təbii peyki *Aydır.*

3. Bala kərtənkələ *yerdə* sürünürdü.

4. 1781-ci il martın 13-də Uran *planeti* kəşf olundu.

5. Dumanlı *Andromeda* qalaktikasında ulduzların sayı Süd Yolu *qalaktikasından* çoxdur.

**Tapşırıq ç (dərslik).** Cavab:

3. "Xəbərlər" proqramında Ramazan bayramı ilə əlaqədar qeyri-iş günləri açıqlandı.

4. Hər il noyabrın 8-i Azərbaycan Respublikasında Zəfər Günü kimi təntənəli şəkildə qeyd edilir.

**Tapşırıq a (iş dəftəri).** Cavab: 2-ci və 3-cü cümlələrdə Yer və Günəş sözləri astronomik mənada işləndiyi üçün sözün ilk hərfi böyük yazılır.

2. Süni peyk Yerin ətrafında pilotsuz uçan kosmik aparatdır.

3. Yer Günəş sistemində Günəşə ən yaxın üçüncü planetdir.

**Tapşırıq b (iş dəftəri).** Cavab:

c. 20 Yanvar Ümumxalq Hüzn Günü

**Tapşırıq c (iş dəftəri).** Cavab: c. 28 may Müstəqillik Günü. "May" sözü böyük yazılmalıdır.

**Tapşırıq ç (iş dəftəri).**

**31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü** münasibətilə hamınızı ürəkdən təbrik edir, birlik, doğma Azərbaycanımıza nurlu gələcək arzulayırıq!

Sizi dünya müsəlmanlarının böyük təntənə ilə qeyd etdiyi **Ramazan bayramı** münasibətilə ürəkdən təbrik edir, ailənizə xoşbəxtlik, süfrənizə bol ruzi və xeyir-bərəkət arzulayıram!

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bəzi mürəkkəb adların (səma cismi bildirən, tarixi gün və bayram adlarının) böyük hərflə yazılışı qaydalarına əməl edir. | Dərslikdə və iş dəftərində verilmiş tapşırıqlar |

Layihə

# Ümumiləşdirici təkrar

• Dərslik: səh. 93 • İş dəftəri: səh. 56

**Təlim məqsədləri**

**1.** Kontekstdən çıxış edərək bəzi köməkçi nitq hissələrinin və şəkilçilərin omonimliyini müəyyən edir **(st. 7-4.2.2).**

**2.** Cümlənin məqsəd və intonasiyasının formalaşmasında ədat, sual əvəzliyi və nidanın rolunu müəyyənləşdirir **(st. 7-4.2.5).**

**3.** Bəzi mürəkkəb adların (səma cismi bildirən, tarixi gün və bayram adlarının) böyük hərflə yazılışı qaydalarına əməl edir **(st. 7-4.1.2).**

**4.** Nidaların semantik xüsusiyyətlərini müəyyənləşdirir **(st. 7-4.2.2).**

**Mövzuya yönəltmə**

Müəllim soruşur:

*– Bu bölmədə hansı dil qaydalarını öyrəndiniz?*

**Dil qaydaları**

**7-4.2.2. Tapşırıq 1 (dərslik).** Cümlələrdə "paho" nidasının ifadə etdiyi hissləri müəyyən edin.

1. Paho, indi gəl bu soyuq havada avtobus gözlə! – b) narahatlıq

2. Paho, xoş gəldin, səfa gətirdin! – a) sevinc

3. Paho, insan əməyinin qüdrətinə bir bax! – c) heyranlıq.

**7-4.2.2. Tapşırıq 2 (dərslik).** Şagirdlər cümlələrdə fərqləndirilmiş sözlərin qrammatik mənasını müəyyənləşdirirlər.

1. a. **Ax,** necə kef çəkməli əyyam idi... *(Mirzə Ələkbər Sabir)* – **nida.**

b. Arazım, ax, ax, qanıma **ax!** *(Cabir Novruz)* – **feil.**

2. a. Dedi: "Doktor, **aman,** doktor! Sağlığıma güman yoxdur..." *(Səməd Vurğun)* – **nida**

b. Get, düşmənə **aman** vermə davada. (Səməd Vurğun) – **isim**

3. a. Getdikcə Ataşın **heyi** kəsilir, dili çətinliklə tərpənirdi. *(Əli Vəliyev)* – **isim**

b. Vurun, **hey,** igidlər, bizimdir zəfər! *(Abdulla Şaiq)* – **nida.**

**7-4.2.5. Tapşırıq 3 (dərslik).** Şagirdlər ədatların növünü dəyişməklə sual cümlələri yaradırlar.

1. Axşamtərəfi sərin olanda parka gedəkmi?

2. Bəs hamı səni lider kimi qəbul edib?

3. Tale ilə razılaşa bilməmək böyük bəladırmı?

4. Məgər onların içində sənin kimi düşünənlər azdır?

**Tapşırıq 4 (dərslik).** <u>Cavab</u>: b. otur, danışın, soruş.

**7-4.1.2. Tapşırıq 5 (dərslik).** <u>Cavab</u>:

2. Araşdırmalara görə, hər il **Ay Yerdən** dörd santimetr uzaqlaşır.

5. Beynəlxalq Sülh Günü insanları barışa, birliyə səsləyir.

İş dəftərindəki **1-4-cü tapşırıqlar** bölmə üzrə mənimsədilən bilik və bacarıqların yoxlanılması məqsədi daşıyır.

**7-4.1.2. Tapşırıq 1 (iş dəftəri).** Qalileo Qaliley icad etdiyi teleskopu ulduzlu gecələrdə səmaya tuşlayaraq bir çox maraqlı şeylər öyrəndi. Alim gördü ki, səma saysız-hesabsız ulduzlardan ibarətdir. O, **Ayda** dağlar, kraterlər gördü. Ay **Yerin** ətrafında dolandığı kimi, **Yupiter** planetinin ətrafında da dörd peyk dövr edirdi. Deməli, **Yer** heç də kainatın mərkəzi deyilmiş, Kopernik və Bruno haqlı imişlər!

**Tapşırıq 2 (iş dəftəri).** <u>Cavab</u>:

Sual əvəzlikləri ilə: Sakinlər nəqliyyat vasitəsi kimi **nədən** istifadə edirlər?

Sual ədatları ilə: **Bəs** Venesiyada küçə və maşınlar var**mı**?

**Tapşırıq 3 (iş dəftəri).** <u>Cavab</u>:

1. Bayram adlarında ilk söz böyük yazılır.

2. Tərkibində "gün" sözü olan və təqvimə düşən əlamətdar günlərin adlarında bütün sözlər, həmçinin "gün" sözü də böyük yazılır.

3. Tarixi günlər rəqəmlə göstərilərsə, rəqəmdən sonrakı birinci sözün ilk hərfi böyük yazılır.

**Tapşırıq 4 (iş dəftəri).** <u>Cavab</u>:

1. Ay haray, tövləyə od düşüb!

2. Paho! Gör kimi görürəm, xoş gəldin, ay Nəsimi!

3. Ura! Axır ki bura da qar yağır!

4. Eh, elə deyirsən səbir et, səbir et, daha nə qədər səbir etmək olar?!

5. Of, yolu bağlayıblar, imtahana gecikirəm, ay aman!

6. Ay can, ay can, kəndə gedirik!

7. Hey, qoca dünya hey! Səndə nələr var. *(Hüseyn Cavid)*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

Layihə

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstdən çıxış edərək bəzi köməkçi nitq hissələrinin omonimliyini müəyyən edir. | Tap. **2** (D.) |
| Cümlənin məqsəd və intonasiyasının formalaşmasında ədat, sual əvəzliyi və nidanın rolunu müəyyənləşdirir. | Tap. **3** (D.); Tap. **2** (İ.D.) |
| Bəzi mürəkkəb adların (səma cismi bildirən, tarixi gün və bayram adlarının) böyük hərflə yazılışı qaydalarına əməl edir. | Tap. **5** (D.) **1, 3** (İ.D.) |
| Nidaların semantik xüsusiyyətlərini müəyyənləşdirir. | Tap. **1** (D.); **4** (İ.D.) |

Layihə

# bölmə 5 BEYNİMİZİ İŞLƏDƏK

| Dərs | Mövzu | Məzmun xətləri | Dərslik səh. | İş dəftəri səh. | MV səh. |
|---|---|---|---|---|---|
| **1-ci fəsil** | | | | | |
| 1 | İnsan beyni | Oxu. Danışma | 6-10 | - | 102-103 |
| 2 | Mətn üzrə təhlil. Elmi mətn | Oxu. Danışma | 11 | 3 | 103-104 |
| 3 | Morfemlər və onların semantikası | Dil qaydaları | 12 | 4 | 104-105 |
| 4 | Alınma morfemlər | Dil qaydaları | 13 | 5 | 105-106 |
| **2-ci fəsil** | | | | | |
| 1 | Beyin fırtınası | Dinləmə | 14 | 6 | 106-107 |
| 2 | Oxuyub anlama və oxu sürəti | Oxu. Danışma | 15-19 | - | 107-108 |
| 3 | Atalar sözləri və aforizmlər | Oxuyub-anlama | 20 | 7 | 108-109 |
| 4 | Hal şəkilçiləri qəbul etmiş sözlərin deyilişi və yazılışı | Dil qaydaları (Qrammatika) | 21 | 8 | 109-110 |
| **3-cü fəsil** | | | | | |
| 1 | Yaddaş texnikaları | Oxuyub-anlama | 22-23 | 9 | 110-112 |
| 2 | Yaddaş problem deyil (Orxan İbadovla müsahibə) | Oxu | 24-27 | 10 | 112-113 |
| 3 | Müzakirə. Müsahibə | Danışma | 27 | - | 113-114 |
| 4 | Yer zərfinin semantik xüsusiyyətləri və orfoqrafiyası | Dil qaydaları (Qrammatika) | 28 | 11 | 115 |
| 5 | Ümumiləşdirici təkrar | Dil qaydaları (Qrammatika) | 29 | 12-13 | 116-117 |

Layihə

# 1-ci fəsil

## 1-ci dərs. İnsan beyni

• Dərslik: səh. 6-10

**Təlim məqsədləri**

**1.** Mətndəki məlumatlardan çıxış edərək mühakimələr yürüdür **(st. 7-2.3.2).**

**2.** Mövzu üzrə əldə edilən məlumatları açar sözlər, tezislər şəklində qeyd edir və onların əsasında mətn qurub danışır **(st. 7-1.3.2).**

**Mövzuya yönəltmə**

Müəllim şagirdlərin diqqətini bölmənin adına yönəldir və soruşur:

– Sizcə, bu bölmənin mövzusu nədir?

Bölmədə verilən materiallar şagirdlərin insan beyni, oxu strategiyaları, yaddaşın gücləndirilməsi yolları haqqında bilik və təsəvvürlərini genişləndirməyə imkan yaradır və ən vacibi isə bu mövzulardan istifadə edilməklə onların nitq bacarıqları inkişaf etdirilir.

**Tapşırıq a (dərslik).** Şagirdlər "beynimizi işlədək" frazeoloji birləşməsinin mənası ilə bağlı fikirlərini bildirirlər. *Beynini işlətmək – bir şey üzərində dərindən düşünmək, çox fikirləşmək. Bu ifadənin dilimizdə bir neçə variantı var: başını işlətmək, baş sındırmaq, baş yormaq.*

Bu ifadənin həqiqi mənada işlənməsi yalnız bioloji-fizioloji prosesə istinad ediləndə mümkündür. Məsələn, neyrobiologiyada "beynin işləməsi" ifadəsi beynin neyronlarının aktiv fəaliyyəti, impuls ötürülməsi və məlumat emalı proseslərini təsvir etmək üçün işlənə bilər. Amma gündəlik danışıqda bu ifadə, adətən, məcazi mənada istifadə olunur.

Bu ifadənin şagirdlərlə müzakirəsinin məqsədi bölmənin mövzusuna maraq oyatmaq, onları bu barədə düşündürməkdir.

**Tapşırıq b (dərslik).** Şagirdlərə təbiət fənnindən sinir sistemi haqqında öyrəndiklərinin xatırladılması bölmə boyu bu mövzuda verilmiş mətnlərin oxunub-qavranılmasına zəmin yaradır. Əlavə suallarla şagirdlərin daha çox danışmasına kömək etmək olar: *Beyin nəyi idarə edir? Sinirlər hansı orqanlara siqnal ötürür?"* və s.

**Oxu. Danışma**

**7-2.3.2. Tapşırıq c (dərslik).** Şagirdlər "İnsan beyni" mətninin giriş hissəsini oxuyurlar, müəllimin suallarını cavablandırırlar: *Beynin çəkisi nə qədərdir? Beyin olmasaydı, insan nələri edə bilməzdi? Beyin hansı fəaliyyətlərimizi idarə edir?*

Həmçinin mətndəki şəkli və "Qlossari" rubrikasını nəzərdən keçirmək tövsiyə olunur.

**7-1.3.2. Tapşırıq ç (dərslik).** Bu tapşırıq şagirdlərin vizual analiz, tənqidi düşünmə və müqayisəetmə bacarıqlarını inkişaf etdirmək məqsədi daşıyır. Məqsəd mətndəki "beyni kompüterin prosessoru ilə müqayisə etmək" fikrini dərinləşdirmək və şagirdlərə bu iki anlayış arasında oxşar və fərqli cəhətləri müəyyənləşdirmək imkanı yaratmaqdır. Müəllim lövhədə "Venn diaqramı" çəkib tapşırığın kollektiv şəkildə icrasını təmin edə bilər: Bir tərəfdə "beyin", o biri tərəfdə "prosessor", ortaq hissədə isə oxşarlıqlar qeyd olunur.

Şagirdlərin cavab nümunələri:

**Oxşar cəhətlər:**

Həm beyin, həm prosessor məlumatı qəbul edir, yadda saxlayır və emal edir.

Beyin orqanizmin, prosessor isə kompüterin idarəetmə mərkəzidir.

**Fərqli cəhətlər:**

Beyin canlıdır, hiss edir, emosiyalar yaradır; prosessor isə texniki qurğudur.

Beyin yaratmaq, düşünmək və qərar vermək qabiliyyətinə malikdir; prosessor yalnız proqramlaşdırılmış əmrləri icra edir.

Beyin öyrənə bilir; prosessor dəyişmir, ancaq proqram yenilənə bilər.

Beynin enerjiyə ehtiyacı orqanizm vasitəsilə qarşılanır; prosessor elektrik cərəyanı ilə işləyir.

**Tapşırıq d (dərslik).** Şagirdlər qruplara bölünür və təlimatı oxuyurlar.

**7-2.3.2. Tapşırıq e (dərslik).** 1-ci qrupun oxuduğu hissəyə aid ilk tapşırıqda şagirdlər mətndəki əsas fikri, müəllifin münasibətini müəyyən edirlər.

**Tezis:** İnsan beyninin cəmi 10%-i işləyir, qalan 90%-i passivdir.

Müəllifin münasibəti: Mənfi. Müəllif bu fikri tənqid edir və əfsanə adlandırır. Müəllif mövqeyini göstərən ifadələr: "Bu əfsanə necə yaranıb?", "Müasir elm bu əfsanəni puç hesab edir", "Beyində "bikar" hissə tapılmayıb" və s.

**7-1.3.2. Tapşırıq ə (dərslik).** Şagirdlər yaddaş vərəqi hazırlamaqla mənbə tapmaq, qeyd götürmək bacarıqlarını inkişaf etdirirlər. Təqdimat zamanı şagirdlərin fikirlərini mənbələrə istinad etməklə söyləmələrinə diqqət yetirilməlidir.

Layihə

| Müəllif | Əsər | Tarix |
|---|---|---|
| Uilyam Ceyms | "Kişi enerjisi" məqaləsi | 1906 |
| Deyl Karnegi | "Dostları necə qazanmalı və insanlara necə təsir etməli" | 1936 |

**7-2.3.2. Tapşırıq f (dərslik).** Cavab: Müasir tədqiqatlar nəticəsində alimlər sübut ediblər ki, beyində "bikar" sahə yoxdur. Beyinin bütün hissələrinin müəyyən funksiyası var. Beyin zədələri göstərir ki, heç bir hissə təsirsiz ötüşmür.

**Tapşırıq g (dərslik).** Cavab: Deməli, beyinin bütün hissələri müəyyən funksiyaya malikdir və heç biri passiv deyil.

**Tapşırıq ğ (dərslik).** Bu tapşırıq II qrupun oxuduğu hissə ilə bağlıdır. Şagirdlər təqdimat zamanı cədvəl əsasında oxuduqları hissənin məzmununu şərh edirlər.

**7-1.3.2. Tapşırıq h (dərslik).** Bu tapşırıq III qrupun oxuduğu hissə ilə bağlıdır.

Cavab: Müəllif beyinin sağ və sol yarımkürələrinin funksional fərqliliyi məsələsini qaldırır. Beyinin yarımkürələri doğrudanmı bir-birindən fərqli funksiyaları yerinə yetirir?

Bəzi alimlər hesab edir ki, sol yarımkürə məntiqi və analitik düşüncə, sağ yarımkürə isə bədii təxəyyül və emosional təfəkkürlə bağlıdır. Rəssam, yazıçı və musiqiçilərdə sağ yarımkürə, elm adamlarında isə sol yarımkürə daha çox inkişaf etmiş olur.

Neyrobioloq Cefri Anderson bu fərqliliyin şişirdildiyini deyir. Onun fikrincə, beyində gedən əqli prosesləri sağa və sola ayıraraq bu cür bəsit şəkildə məntiq və fantaziyaya aid etmək olmaz.

Rus alimi Aleksey İvanitski hər iki fikri qismən qəbul edir. O, sol yarımkürədə nitq mərkəzinin yerləşdiyini təsdiqləyir. Amma eyni zamanda deyir ki, funksiyaları sərt şəkildə ayırmaq olmaz. Dahi insanlar həm yaradıcı, həm məntiqi düşünə bilirlər.

Müəllif bu problemlə bağlı öz mövqeyini birbaşa bildirmir. O hər iki fikrə yer verir.

**"Diqqət et" rubrikası.** Ardınca polemik mətn haqqında "Diqqət et" rubrikası nəzərdən keçirilir. Təqdimat zamanı III qrupun üzvləri oxuduqları hissə əsasında təqdimat edərkən yoldaşlarına polemik mətn barədə də məlumat vermiş olurlar.

**Tapşırıq x (dərslik).** Neyron – sinir sisteminin əsas hüceyrəsidir. Bu hüceyrələr beyində və onurğa beynində yerləşir, siqnalların ötürülməsi, informasiya mübadiləsi, reaksiyaların yaranması kimi funksiyaları yerinə yetirir.

**Neyrobioloq** – "neyro" – sinir sistemi ilə bağlı, "bioloq" – biologiya (canlılar aləmini öyrənən elm) sahəsində çalışan alim.

Neyrobioloq sinir sistemi və beyində gedən prosesləri öyrənən alimdir. Məsələn, beyin hüceyrələrinin necə işlədiyini, yaddaşın necə formalaşdığını araşdırır.

**Neyrocərrah** – "neyro" – sinir sistemi ilə bağlı, "cərrah" – əməliyyat edən həkim.

Neyrocərrah – beyin, onurğa və sinir sistemində əməliyyatlar aparan ixtisaslaşmış həkimdir.

**Neyrodinamika** – "neyro" – sinir sistemi ilə bağlı anlayışdır, "dinamika" – hərəkət və dəyişmə

Neyrodinamika – beyində və sinir sistemində siqnalların yayılma prosesi və sürətini öyrənən elmdir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndəki məlumatlardan çıxış edərək mühakimələr yürüdür. | Tap. c, e, f, g (D.) |
| Mövzu üzrə əldə edilən məlumatları açar sözlər, tezislər şəklində qeyd edir və onların əsasında mətn qurub danışır. | Tap. ç, d, ə, h (D.) |

## 2-ci dərs. Mətn üzrə iş. Elmi mətn

• Dərslik: səh. 11 • İş dəftəri: səh. 3

**Təlim məqsədləri**

**1.** Qeyri-bədii mətnləri dil-üslub, forma və məzmun xüsusiyyətlərinə görə fərqləndirir **(st. 7-2.3.5).**

**2.** Metafor, kinayə kimi bədii təsvir və ifadə vasitələrini fərqləndirir **(st. 7-4.4.3).**

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik).** Ötən dərsdə qruplar şəklində oxunulan "İnsan beyni" mətni üzrə bu dərsdə tezislər şəklində ümumiləşdirmələr aparılır.

**Oxuyub-anlama**

**7-2.3.5. Tapşırıq b (dərslik).** Şagirdlər "Diqqət et" rubrikasında verilmiş məlumatı nəzərdən

Layihə

keçirirlər. "İnsan beyni" mətninin nümunəsində elmi mətnin mahiyyətini, strukturunu, məzmun və üslub xüsusiyyətlərini aydınlaşdırırlar. Mətndən termin və akademik ifadələr seçməklə, həmçinin mətndə istinad edilən alimlərin və onların əsərlərinin siyahısını tutmaqla elmi mətnin məzmun və struktur xüsusiyyətlərini mənimsəmiş olurlar.

7-4.4.3. **Tapşırıq c (dərslik)**. Şagirdlər mətnin giriş hissəsində işlənmiş təkriri (tanımalıyıq) müəyyənləşdirirlər. İzah edirlər ki, "tanımalıyıq" sözü iki dəfə təkrar edilərək fikri gücləndirməklə oxucuya təsir edilməsi məqsədi daşıyır. Təkririn, adətən, bədii nümunələrdə işlənməsinə baxmayaraq, elmi mətnlərdə də rast gəlinməsi diqqətə çatdırılır və tapşırıqda verilmiş şeir nümunəsi ilə müqayisə olunur. Şeir nümunəsində "o zamandan" ifadəsi dəfələrlə təkrar edilərək fikri daha emosional, poetik şəkildə vurğulayır.

**Tapşırıq ç (dərslik).** Dırnaq içərisində verilmiş "mürgüləyir", "yuxudadır", "bikar", "cavabdehdir" kimi sözlər metaforik ifadələrdir. Şagirdlər "Qlossari" rubrikasında metafor haqqında verilmiş məlumatı nəzərdən keçirərək biliklərini xatırlayır və həmin sözlərin metafor olmasını təxminən aşağıdakı kimi əsaslandırırlar.

"Mürgüləyir"– insanın yuxuya getmək üzrə olmasını bildirir. Mətndə isə beynin fəaliyyət göstərməyən hissələri bu hala bənzədilmişdir. Beynin işləməyən sahələrinin fəaliyyətsiz, passiv olması bədii şəkildə ifadə edildiyi üçün dırnaq içərisində yazılmışdır.

"Yuxudadır" – fiziki olaraq beyin yuxuya gedə bilməz, bu insanın vəziyyətinə aid anlayışdır. Mətndə beynin bəzi hissələrinin qeyri-aktiv vəziyyətdə olduğunu göstərmək üçün istifadə olunub.

**Tapşırıq d (dərslik).** Dırnaq içində verilmiş "yararsız" sözü istehza ilə deyilmiş ifadədir, yəni kinayədir. Çünki müəllif əslində belə bir fikirlə razı deyil və həmin fikri tənqid edir. "Yararsız" adlandırılan beyin sahələrinin zədələnməsinin insan fəaliyyətinə təsir etdiyini göstərərək bu sözün əks mənada istifadə edildiyini göstərir.

**Tapşırıq a (iş dəftəri).** Cavab:

**İnsan beyninin gücü**

Cəmi 1,4 kq olsa da, beyin bütün ideyaların və fəaliyyətlərin idarə mərkəzidir; neyronlar informasiyanı qəbul edir, yadda saxlayır və cavab verir.

**Beyinin "yararsız" hissələri**

"Beynin yalnız 10%-i işləyir" fikri səhvdir; müasir elmi araşdırmalar göstərib ki, bütün hissələr daim fəaliyyətdədir.

**Beyin ilə intellektin bağlılığı**

İntellekt beyin ölçüsündən deyil, neyronların sayı, əlaqələri və beyin-bədən çəkisi nisbətindən asılıdır.

**Beyinin sağ və sol yarımkürələri**

Sol yarımkürə əsasən məntiq, sağ yarımkürə isə yaradıcı təfəkkürlə əlaqələndirilir. Lakin alimlər intellektin uğurunu hər iki yarımkürənin vəhdəti ilə izah edirlər.

**Tapşırıq b (iş dəftəri).** 1 – T; 2 – M; 3 – M; 4 – T; 5 – M, T.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bədii və qeyri-bədii mətnləri dil-üslub, forma və məzmun xüsusiyyətlərinə görə fərqləndirir. | Tap. **b** (D.) |
| Mətndə rast gəlinən söz və ifadələrin üslubi xüsusiyyətlərinin izah edir. | Tap. **c, ç, d** (D.) |

## 3-cü dərs. Morfemlər və onların semantikası

• Dərslik: səh. 12 • İş dəftəri: səh. 4

**Təlim məqsədləri**

**1.** Söz tərkibindəki morfemlərin semantikasından çıxış edərək sözün mənasını müəyyənləşdirir **(st. 7-4.4.1).**

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik).** Bu tapşırıq şagirdlərin sözün tərkibi ilə bağlı biliklərini xatırlatmaq məqsədi daşıyır. Şagirdlər sözləri kök və şəkilçiyə ayırır, şəkilçilərin sözdəki funksiyasını müəyyən edirlər.

**Dil qaydaları**

7-4.4.1. **"Yadda saxla" rubrikası.** "Morfemlərin semantik funksiyası" anlayışı Azərbaycan dili dərsliklərində ilk dəfə təqdim olunur. Bu anlayış şagirdlərə morfemlərin yalnız qrammatik deyil, məzmun və məna baxımından da müəyyən funksiya daşıdığını izah etmək üçün vacibdir.



Layihə

Eyni şəkilçinin fərqli kontekstlərdə işlənə bilməsi və bu zaman semantik funksiyasının necə dəyişməsi nümunələrlə izah olunur.

**Tapşırıq b (dərslik).** Bu tapşırıq vasitəsilə şagirdlər "açıq" morfeminin müxtəlif kontekstlərdəki məna çalarları təhlil edilir. Müəllim aşağıdakıları izah etməlidir:

"Açıq-qırmızı" – bu sözdə "açıq" rəngin aşağı dərəcədə olduğunu bildirir. (a funksiyası)

"Açıq-aydın" – bu sözdə hər iki komponentin semantikası eynidir: "aydın görünən, gizli olmayan". Qoşa işlənərək mənanı daha da gücləndirir (c funksiyası)

"Açıq qapı günü" – burada "açıq" sözü qapının fiziki olaraq açıq olması deyil, məcazi mənada istənilən şəxsin girişinə icazə verilməsi, "hər kəsə açıq", "məhdudiyyətsiz" anlamındadır. (b funksiyası)

Müəllim mütləq şəkildə kontekstin rolunu vurğulamalı və bu kontekstdə sözün necə fərqli məna çaları bildirdiyini izah etməlidir.

**Tapşırıq c (dərslik).** Bu tapşırıq vasitəsilə müəllim şəkilçili sözlərin məna çalarlarını izah etməlidir. Məsələn: "quşcuğaz" sözündə -cuğaz şəkilçisi varlığın kiçildiyini və əzizləndiyini bildirir. "Meydança" – -ça şəkilçisi obyektin kiçik forması olduğunu bildirir.

**Tapşırıq a (iş dəftəri).** <u>Cavab</u>: sarı – doğru; qədər – -cən; kimi – tək

**Tapşırıq b (iş dəftəri).** <u>Cavab</u>: 4. açıq-sarı 5. ağımtıl 6. ala-çiy 8. uzunsov

**Tapşırıq c (iş dəftəri).** <u>Cavab</u>:

**Çayçı** – -çı şəkilçisi qrammatik mənasına görə isimdən isim düzəldən leksik şəkilçidir. Semantik funksiyasına görə isə bir şəxsin peşəsini, məşğuliyyətini, müəyyən fəaliyyətlə bağlılığını bildirir.

**Çaydan** – -dan şəkilçisi qrammatik mənasına görə isimdən isim düzəldən leksik şəkilçidir. Semantik mənasına görə, əsasən bir əşyanın nədən hazırlandığını və istifadə məqsədini bildirir.

**Tapşırıq ç (iş dəftəri).** <u>Cavab</u>: 2-ci və 3-cü cümlələrdəki sözlərə qoşulan -ar$^2$ şəkilçisi semantik funksiyasına görə zaman ifadə edir. Digər cümlələrdəki sözlərə qoşulan -ar$^2$ şəkilçisi isə əlamət (axar sular, gülər üz) bildirir.

**Tapşırıq d (iş dəftəri).** <u>Cavab</u>: dağlıq, güllük, kolluq, otluq, qayalıq

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Söz tərkibindəki morfemlərin semantikasından çıxış edərək sözün mənasını müəyyənləşdirir. | Tap. **b, c** (D.) |

## 4-cü dərs. Alınma morfemlər

• Dərslik: səh. 13 • İş dəftəri: səh. 5

**Təlim məqsədləri**

**1.** Söz tərkibindəki morfemlərin (mikro və s.) semantikasından çıxış edərək sözün mənasını müəyyənləşdirir (st. 7-4.4.1).

### Mövzuya yönəltmə

**Tapşırıq a (dərslik).** Şagirdlər əvvəlki siniflərdə öyrəniblər ki, alınma şəkilçilər bir cür yazılır. Həmin biliklər xatırladılır. Cavab: 1-ci sırada "cəfakeş" sözündəki *-keş* şəkilçisi, 2-ci sırada "xəstəxana" sözündəki *-xana* morfemi, 3-cü sırada peşəkar sözündəki -kar şəkilçisi alınmadır. Çünki bir cür yazılan şəkilçilərdir.

### Dil qaydaları

7-4.4.1. **"Yadda saxla" rubrikası.** Azərbaycan dilinin lüğət tərkibində xeyli sayda alınma morfemli söz mövcuddur. Dilimizdə geniş işlənən bu morfemlərlə tanışlıq və onların semantik funksiyasının öyrənilməsi şagirdlərə rast gəldikləri yeni alınma morfemli sözlərin mənasını analoji yolla müəyyənləşdirməyə imkan yaradır.

**Tapşırıq b (dərslik).** <u>Cavab</u>: 1 – ç, ə; 2 – c, f; 3 – a, d; 4 – b, e.

**Tapşırıq c (dərslik).** <u>Cavab</u>: **Neologizm** (neo + logos + izm): neo – "yeni, təzə" mənası verən alınma morfem; logos – "söz, danışıq, məntiq" mənası verən alınma morfem; izm – "təlim, cərəyan" mənası verən alınma morfem.

**Monoteizm** (monos + theos + izm): monos – "tək, bir" mənası verən alınma morfem; theos – "tanrı" mənası verən alınma morfem; izm – "təlim, cərəyan" mənası verən alınma morfem.

**Politeizm** (poly + theos + izm): poly – "çox" mənası verən alınma morfem; theos – "tanrı" mənası verən alınma morfem; izm – "təlim, cərəyan" mənası verən alınma morfem.

Layihə

**Poliqlot** (poly + glotta): poly – "çox" mənası verən alınma morfem; glotta – "dil" mənası verən alınma morfem.

**Tapşırıq a (iş dəftəri).** Cavab: 1 – d; 2 – a; 3 – a; 4 – c.

**Tapşırıq b (iş dəftəri).** Cavab: *Dilçi, kimyagər, tarixşünas* sözləri peşə, fəaliyyət sahəsini bildirir, milyoner isə peşə deyil, var-dövlət sahibi olan şəxsi bildirir.

**Tapşırıq c (iş dəftəri).** Cavab: Bu sözlərdə -stan şəkilçisi qrammatik cəhətdən yer, məkan adları yaradan isim düzəldən şəkilçi, semantik cəhətdən isə müəyyən xalqın məskunlaşdığı ölkə və ya ərazi mənasını verir.

**Tapşırıq ç (iş dəftəri).** Cavab: xəttat – gözəl xətti olan adam, gözəl yazı yazan adam.

**Tapşırıq d (iş dəftəri).** Cavab: 1 – a; 2 – b; 3 – ç; 4 – c.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Söz tərkibindəki morfemlərin (mikro və s.) semantikasından çıxış edərək sözün mənasını müəyyənləşdirir. | Tap. b, c (D.) |

# 2-ci fəsil

## 1-ci dərs. Beyin fırtınası

• Dərslik: səh. 14 • İş dəftəri: səh. 6

**Təlim məqsədləri**

**1.** Dinlədiyi mətndən götürdüyü qeydləri yaddaş xəritəsi üzrə qruplaşdırır **(st. 7-1.1.1).**

**2.** Müzakirə zamanı həyatdan nümunələr gətirməklə mövzu üzrə münasibətini bildirir **(st. 7-1.2.2).**

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik).** Şagirdlər müzakirə zamanı fikirlərini açıq söyləməkdən çəkinmənin səbəbləri haqqında danışırlar, konkret nümunələr gətirirlər.

**Dinləmə**

**7-1.1.1. Tapşırıq b (dərslik).** "Beyin fırtınası" mətni səsləndirilir.

***Beyin fırtınası***

*"Breynstorminq" və ya "beyin fırtınası" bir çox təşkilatlarda, eləcə də təhsildə geniş yayılmış müzakirə metodudur. Bu metodun əsas məqsədi kollektiv şəkildə hər hansı problemin həllini tapmaq, düzgün qərar çıxarmaqdır. Beyin fırtınasında iştirak edənlər problemin həlli üçün ağıllarına gələn bütün ideyaları söyləyir, sonra həmin ideyaları analiz edib qərar verirlər.*

*"Beyin fırtınası" metodunu ilk dəfə amerikalı psixoloq Aleks Osborn tətbiq edib. Keçən əsrin 30-cu illərində Aleks reklam-marketinq şirkətində menecer vəzifəsində çalışırdı. Bu şirkət başqa müəssisələrin sifarişi ilə məhsulların satış həcminin artırılması üçün təkliflər hazırlayırdı. Şirkətin bir çox işçiləri kreativ düşüncəli insanlar idi. Amma Aleks görürdü ki, onlar kollektiv müzakirə zamanı sıxılır, öz fikirlərini bildirmirlər. Onda o, müzakirələri "beyin fırtınası" üsulu ilə keçirməyə başladı. Tezliklə bu üsul bir çox təşkilatlarda təkcə biznes-ideyaların deyil, eləcə də bir çox siyasi və iqtisadi problemlərin müzakirəsində istifadə olunmağa başladı.*

*"Beyin fırtınası"nın öz qaydaları var.*

*1. Müzakirə üçün moderator təyin olunur. O, iştirakçılara söz verir və səslənən ideyaları qeyd edir.*

*2. Heç bir ideyanı diqqətdən kənarda qoymaq və ya tənqid etmək olmaz.*

Layihə

*3. İştirakçılar düzgün fikir səsləndirməyə yox, ümumiyyətlə, fikir söyləməyə həvəsləndirilirlər.*

*4. “Beyin fırtınası” zamanı mümkün qədər çox fikir səsləndirilməsinə nail olmaq lazımdır.*

*“Beyin fırtınası” üç mərhələdən ibarətdir.*

*1-ci mərhələdə iştirakçılar qarşısında müəyyən problemdən doğan sual qoyulur.*

*Məsələn:*

*Problem: “Kiçik yaşlı uşaqlar mobil telefon və planşetə çox aludə olublar. Bu isə müəyyən fəsadlara yol açır”.*

*Sual: “Kiçik yaşlı uşaqları mobil telefondan ayırıb kitaba yönləndirmək üçün nə etmək lazımdır?”*

*2-ci mərhələdə iştirakçılar problemin həlli ilə bağlı təkliflərini səsləndirirlər. Heç bir təklifə münasibət bildirilmir. Moderator təklifləri lövhədə qeyd edir. Bu proses vaxt bitənəcən davam edir.*

*3-cü mərhələdə təkliflər analiz olunur:*

*• Hər bir təklif ayrı-ayrı fərdlərin deyil, kollektivin ideyası kimi qiymətləndirilir.*

*• Təkliflər “yaxşıdır”, “pisdir” kimi yox, “qəbul edilir”, “qəbul edilmir”, “düzəlişə ehtiyacı var” deyə qiymətləndirilir.*

*Tədris prosesində “beyin fırtınası” şagirdləri sərbəst fikir yürütməyə sövq edir və onların yaradıcı təfəkkürünü inkişaf etdirir.*

Mətn dinlənildikdən sonra tapşırıqda verilmiş sxemə uyğun yaddaş xəritəsi tərtib edilərək mətndəki əsas fikirlər müəyyənləşdirilir.

**Tapşırıq c (dərslik).** Yaddaş xəritəsi hazırlandıqdan sonra şagirdlər cütlərlə iş formasında bir-birinin yaddaş xəritəsinə tapşırıqdakı suallara uyğun münasibət bildirirlər.

**Danışma**

**7-1.2.2. Tapşırıq ç (dərslik).** Şagirdlər iki ifadəni müqayisə edirlər və hansı ifadənin sözügedən metodu daha dəqiq təsvir etməsinə münasibət bildirirlər:

“Beyin fırtınası” ifadəsi daha çox metaforik səslənir, yəni sanki beyində ideyalar “fırtına” kimi bir-birinə qarışır, çoxlu fikir yaranır.

“Beyin həmləsi” ifadəsində “həmlə” sözü “hücum” mənasını verdiyi üçün burada məqsədli, istiqamətli fikir hücumu təsəvvürü yaranır.

**Tapşırıq d (dərslik).** Bu tapşırıq “beyin fırtınası” keçirmək üçün hazırlıq məqsədi daşıyır.

**Tapşırıq e (dərslik).** “Beyin fırtınası” qaydaları xatırladılır:

– Bütün ideyalar dəyərlidir, heç biri dərhal tənqid olunmur.

– Hər kəs danışa bilər, təkrar fikirlər də ola bilər.

– Fikir çoxluğu önəmlidir, sonra seçim ediləcək.

Şagirdlər qrup və ya sinif şəklində cavablarını səsləndirirlər, müəllim lövhədə və ya kağızda qeyd edir. Məsələn: Hər gün müəyyən vaxt oxuma vərdişi yaratmaq; Səslə oxuma və səssiz oxuma məşqləri etmək; Fərqli janrlardan (hekayə, məqalə, şeir) istifadə etmək; Anlamadığın sözlərin mənasını lüğətdən tapmaq; Oxuduqlarını qısa şəkildə danışmaq və ya yazmaq; Maraqlı kitab siyahısı tutmaq; Texnologiyadan (audio kitablar, e-kitablar) faydalanmaq və s.

Fikirlər qruplaşdırılır və müzakirə edilir. Təkliflər “vərdişlər”, “mənbələr”, “məşq üsulları” kimi kateqoriyalara ayırmaq olar. Sonra hər qrupdan ən effektiv 3-4 üsul seçilir.

Müəllim seçilən üsulları ümumiləşdirərək “Oxu bacarığını inkişaf etdirmə planı” kimi təqdim edir.

**Tapşırıq a (iş dəftəri).** Cavab: 1 – D, 2 – D, 3 – Y, 4 – D, 5 – Y, 6 – Y, 7 – D.

**Tapşırıq b (iş dəftəri).** Şagirdlər beyin fırtınası” ilə bağlı öyrəndiklərini fərdi qaydada tətbiq edirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dinlədiyi mətndən götürdüyü qeydləri yaddaş xəritəsi üzrə qruplaşdırır. | Tap. **b, c** (D.) |
| Müzakirə zamanı həyatdan nümunələr gətirməklə mövzu üzrə münasibətini bildirir. | Tap. **ç, d, e** (D.) |

## 2-ci dərs. Oxuyub-anlama və oxu sürəti

• Dərslik: səh. 15-19

**Təlim məqsədləri**

**1.** Mətndə qeyd olunan məlumatlardan çıxış edərək yeni informasiya əldə edir **(st. 7-2.2.2).**

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik).** Şagirdlər suallar ətrafında

Layihə

oxuduqları, eşitdikləri, şahid olduqlarını danışırlar.

**Oxu**

**7-2.2.2. Tapşırıq b, c (dərslik).** Şagirdlər verilmiş mətni oxumazdan öncə təlimatla tanış olur və təlimata uyğun olaraq mətni oxumağa hazırlaşırlar. Şagirdlər mətni səssiz oxuyurlar, sonra saniyəölçəni dayandırıb mətni oxumağa sərf etdikləri vaxtı qeyd edirlər. Bu sonrakı tapşırığı yerinə yetirmək üçün vacibdir.

**Tapşırıq ç (dərslik).** Mətn oxunduqdan sonra 10 dəqiqə vaxt ərzində mətnin məzmunu ilə bağlı faktoloji sualları cavablandırırlar.

Cavablar: 1. 1) – b; 2) – c; 3) – a; 2. c; 3. b; 4. sol; 5. d; 6. c; 7. d; 8. d; 9. c; 10. c.

**Tapşırıq d (dərslik).** Şagirdlər oxu sürətini hesablamaq üçün düsturla tanış olurlar, daha sonra öz oxu sürətlərini hesablayırlar. Müəllim lövhədə aşağıdakı nümunə əsasında cədvəl tərtib edib, şagirdlərin məlumatlarını qeyd edir. Sonda şagirdlərlə sinfin orta oxu sürəti hesablanır. Bütün şagirdlərin OAS rəqəmləri toplanıb şagirdlərin sayına bölünür. Alınan nəticə sinfin 1 dəqiqədə orta anlama sürətini göstərir.

| № | Şagirdin adı, soyadı | OS söz/dəq. | AF % | OAS söz/dəq. |
|---|---|---|---|---|
| | | | | |

**Tapşırıq e (dərslik).** Şagirdlər mətnə əsasən Evelin Vudun nəticələrini düstura yerləşdirir:

OS = 2700 söz/dəq.

AF = 100% = 1 (çünki bütün suallara cavab verib)

OAS = 2700 × 1 = 2700 söz/dəq.

Daha sonra şagirdlər bu nəticəni öz nəticələri ilə müqayisə edirlər.

Tapşırığın məqsədi şagirdlərin real rekord göstəricilərlə öz nəticələrini müqayisə edərək motivasiya qazanması, yüksək nəticənin necə mümkün ola biləcəyi barədə müzakirə aparmaq (fitri istedad, xüsusi məşq, diqqət texnikaları və s.) və oxu sürətinin, həmçinin anlama səviyyəsinin fərqli amillərdən asılı olduğunu bir daha diqqətə çatdırmaqdır.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndəki hadisə və faktları əlaqələndirərək açıq şəkildə ifadə olunmamış informasiyanı müəyyən edir. | Tap. **b, c, ç, d, e** (D.) |

## 3-cü dərs. Atalar sözü və aforizmlər

• Dərslik: səh. 20 • İş dəftəri: səh. 7

**Təlim məqsədləri**

**1.** Mətnin struktur elementlərini (epiqraf) onun məzmunu ilə əlaqələndirir **(st. 7-2.3.3).**

**2.** Təkrir, antiteza, lakonizm kimi bədii təsvir və ifadə vasitələrini fərqləndirir **(st. 7-4.4.3).**

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik).** Əvvəlcə şagirdlərin aforizm və atalar sözləri ilə bağlı bilikləri xatırladılır. Bu iki anlayış arasındakı fərq müzakirə edilir.

**Oxuyub-anlama**

**7-2.3.3. Tapşırıq b (dərslik).** Tapşırıq vasitəsilə şagirdlərə epiqrafın mətnin ideyasını qısa, yığcam, cəlbedici və yaddaqalan formada ifadə etməsi müqayisə yolu ilə mənimsədilir.

Müəllim şagirdlərdən aforizmlərin niyə yaddaqalan olmasının səbəblərini (qısa olması, obrazlılığı, bədii təsir gücü və s.) soruşur. Şagirdlərin cavabları ümumiləşdirilir və nəticə çıxarılır.

**"Diqqət et" rubrikası.** Müəllim şagirdlərə əvvəlcə "məcaz" anlayışını xatırladır: Məcaz fikrin daha təsirli, obrazlı, emosional çatdırılması üçün sözün və ya ifadənin həqiqi mənasından kənara çıxaraq yeni bir obrazlı mənada işlədilməsidir.

Üslubi fiqur isə fikrin hansı formada və quruluşda ifadə edilməsidir. Cümlələrin xüsusi quruluşu və forması nitqə bədii gözəllik, ahəng, emosional təsir və yaddaqalanlıq qazandırır.

**7-4.4.3. Tapşırıq c (dərslik).** Cavab: 1. Əyri oturaq, düz danışaq. *(Atalar sözü)*

Məcaz: "Əyri oturmaq" burada həqiqi mənada deyil, rahat, qeyri-rəsmi şəraitdə olmaq deməkdir.

Üslubi fiqur: "Əyri" və "düz" sözləri antiteza yaratmışdır.

Şərh: Şərait necə olur-olsun, həmişə həqiqəti demək lazımdır.

2. Mübarizə aparan məğlub ola bilər, aparmayan isə artıq məğlubdur. *(B.Brext)*

Antiteza: mübarzə aparan/aparmayan, məğlub ola bilər – artıq məğlubdur.

Layihə

Şərh: Cəhd edən uduza bilər, amma heç cəhd etməyən əvvəlcədən məğlubdur.

3. Yalnız ümidlə yaşamaq olmaz, amma ümidsiz də yaşamaq olmaz. *(Y.Lents)*

Antiteza: (yalnız ümidlə/ümidsiz).

Şərh: Həyatda ümid lazımdır, amma tək ümid yetməz, fəaliyyət də olmalıdır.

4. Bir təbəssüm bütün qapıları açmağa qadirdir. *(A.Bek)*

Məcaz: "Qapıları açmaq" çətinlikləri aradan qaldırmaq mənasındadır. Mübaliğə: tək bir təbəssümün böyük təsir gücü.

Lakonizm var. Fikir yığcam ifadə edilib.

Şərh: Səmimi münasibət və pozitivlik insanlarla ünsiyyətdə çox şeyin həllinə kömək edir.

5. Öz qədrini bilməyən özgə qədrini heç bilməz. *(Atalar sözü)*

Üslubi fiqur: Lakonizm var. Fikir yığcam ifadə edilib.

Şərh: İnsan əvvəlcə özünü qiymətləndirməyi bacarmalıdır ki, başqalarını da dəyərləndirə bilsin.

6. Həqiqət heç zaman küncə qısılmaz. *(Atalar sözü)*

Məcaz: "Küncə qısılmaq" sıxışdırılmaq, gizlədilmək mənasındadır.

Üslubi fiqur: Lakonizm var. Fikir yığcam ifadə edilib.

Şərh: Həqiqət daim üzə çıxar, onu heç vaxt tam gizlətmək olmaz.

**Tapşırıq ç (dərslik).** Seçim edilərkən fikrin qısa, yığcam, ümumiləşdirilmiş olmasına, obrazlılıq daşıması və yaddaqalan olmasına diqqət yetirilir.

İntizam – çox istədiyin məqsədə nail olmaq üçün heç istəmədiyin işlərlə məşğul olmaqdır.

İnsanın gündəlik həyatda gördüyü bir çox "əhəmiyyətsiz" işlər böyük məqsədə doğru aparan kiçik addımlardır.

**Tapşırıq a (iş dəftəri).** Cavab: 1 – c; 2 – a; 3 – b.

**Tapşırıq b (iş dəftəri).** Cavab: Ekspressivlik baxımından b variantı daha güclüdür. Vaxtın "atlı", insanın isə "piyada" kimi təqdim edilməsi fikrə obrazlılıq və emosional təsir gücü verir. Digər variantlar isə daha çox neytral, informativ xarakter daşıyır və bədii obrazlılıq azdır.

**Tapşırıq c (iş dəftəri).** 2. Bulud ağlamasa, çəmən gülməz. *(N.Gəncəvi)*

Metafor: Ağlamaq – insana aid xüsiyyətdir. Antiteza: "ağlamaq" – "gülmək" qarşı-qarşıya qoyulub.

3. Qələm yazanı qılınc poza bilməz. *(Atalar sözü)*

Metafor: yazmaq və pozmaq insana aid xüsusiyyətlərdir.

Antiteza: Yazmaq-pozmaq; Qələmlə qılıncın, yəni sözlə zor-gücün qarşılaşdırılması.

4. Ağıllıdan gələn cəfa cahillərin vəfasından yaxşıdır. *(C.Rumi)*

Metafor: yoxdur.

Antiteza: "ağıllı" və "cahil" qarşılaşdırılır.

5. Yalan ayaq tutar, amma yeriməz. *(Atalar sözü)*

Metafor: "Ayaq tutmaq" və "yerimək" insana aiddir.

Antiteza: "ayaq tutmaq"– "yeriməmək".

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnin struktur elementlərini (epiqraf) onun məzmunu ilə əlaqələndirir. | Tap. b (D.) |
| Təkrir, antiteza, lakonizm kimi bədii təsvir və ifadə vasitələrini fərqləndirir. | Tap. c, ç (D.) |

## 4-cü dərs. Hal şəkilçiləri qəbul etmiş sözlərin deyilişi və yazılışı

• Dərslik: səh. 21 • İş dəftəri: səh. 8

**Təlim məqsədləri**

**1.** Yönlük halda olan sözlərdə açıq saitin qapalı saitə çevrilməsi qaydasına əməl edir **(st. 7-4.1.3).**

**2.** Sözlərdə -dan$^2$ çıxışlıq hal şəkilçisinin [nan$^2$] kimi tələffüzünə əməl edir **(st. 7-4.1.3).**

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik).** Şagirdlərin diqqəti beyin sözünə yönəldilir və söz kökündəki sait düşməsinin səbəbi aydınlaşdırılmaqla keçilmiş biliklər xatırladılır. Şagirdlər müəyyənləşdirirlər ki, ismin mənsubiyyətə görə dəyişməsi ikihecalı sözlərin kökündə dəyişikliyə səbəb olur.

**Tapşırıq b (dərslik).** Cavab: "qavrıya" sözü səhv yazılıb. Bu sözün kökü "qavra(maq)"dır. Məqsəd şagirdlərin diqqətini yeni mənimsədiləcək qaydaya yönəltməkdir.

**Dil qaydaları**

**"Yadda saxla" rubrikası.** Rubrikada verilmiş

Layihə

məlumatlar nəzərdən keçirilir. Şagirdlərin diqqətinə çatdırılır ki, yazılarında bu cür orfoqrafik səhvlərə yol verməmək üçün yönlük halda işlənən söz kökünü diqqətdə saxlamaq vacibdir.

**Tapşırıq c (dərslik).** Cavab: 2-ci cümlədə yönlük halda işlənən "körpə" sözü səhv yazılıb.

**Tapşırıq ç (dərslik).** Cavab: c. "xalaya" sözü səhvən "xalıya" yazılıb.

**Tapşırıq d (dərslik).** Cavab: 1 – c; 2 – a; 3 – ç; 4 – b.

**Tapşırıq a (iş dəftəri).** Cavab: 1 – c; 2 – ç; 3 – b; 4 – a.

**Tapşırıq b (iş dəftəri).** Cavab: 1. yarıya –yaraya; 3. mənzəriyə – mənzərəyə; 7. sərçiyə – sərçəyə.

**Tapşırıq c (iş dəftəri).** Cavab:

Çıxışlıq halda olan isim: satışından, yollarından.

Qoşma ilə işlənmiş isimlər: qələmlə, maşınla.

İsimdən düzəlmiş zərflər: güclə (tərzi hərəkət zərfi), həvəslə.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Yönlük halda olan sözlərdə açıq saitin qapalı saitə çevrilməsi qaydasına əməl edir. | Tap. c, ç (D.); b (iş dəftəri) |
| Sözlərdə -dan$^2$ çıxışlıq hal şəkilçisinin [nan$^2$] kimi tələffüzünə əməl edir. | Tap. d (D.); a, c (iş dəftəri) |

# 3-cü fəsil

## 1-ci dərs. Yaddaş texnikaları

• Dərslik: səh. 22-23 • İş dəftəri: səh. 9

**Təlim məqsədləri**

**1.** Mətnin struktur elementlərini (haşiyə) onun məzmunu ilə əlaqələndirir **(st. 7-2.3.3).**

**2.** Dinləmə zamanı götürdüyü qeydlər əsasında mətnlə bağlı sualları cavablandırır **(st. 7-1.1.1).**

**3.** Dinlədiyi mətndəki fakt və fikirlərə münasibətini bildirir **(st. 7-1.1.3).**

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik).** Şagirdlər məlumatı yadda saxlamağın yollarını nümunə əsasında müzakirə edirlər.

**Oxu**

**7-2.3.3. Tapşırıq b (dərslik).** Haşiyədəki məlumat mətndəki "Əsas məsələ yeni informasiya ilə əvvəl bildiyin arasında assosiativ əlaqə qurmaqdır" fikrini təsdiq edir. Gənc alim nömrəni yadda saxlamaq üçün onu ədədlərə parçalayaraq ardıcıl şəkildə təkrarlayır. Bu, birbaşa mexaniki yadda saxlama üsuludur. Albert Eynşteyn isə ədədləri tanış riyazi biliklə — kvadrat ədədlərlə əlaqələndirir (məsələn, 36 = $6^2$). Bu, assosiativ yadda saxlama texnikasıdır və daha effektivdir.

**Tapşırıq c (dərslik).** İlk üsulda rəqəmlər (0 və 1) tamamilə ardıcıl verilir, buna görə yadda saxlamaq çətindir, çünki beyində məna əlaqəsi qurulmur. İkinci üsulda isə rəqəmlər qruplara bölünür (1001, 1101, 1000, 0100, 1110). Qruplaşdırma sayəsində hər qrup ayrıca vahid kimi qəbul olunur. Beyin üçün 20 ayrı rəqəm əzbərləməkdənsə 5 kiçik "blok"u yadda saxlamaq daha asandır. Bu texnikaya bloklama deyilir. O, böyük həcmli informasiyanı kiçik hissələrə bölərək yadda saxlamağa kömək edir. Telefon nömrələrinin də 3-3-2-2 formatında yazılması buna nümunədir.

**Dinləmə**

**7-1.1.1. Tapşırıq ç (dərslik).** Şagirdlər mətni dinləməzdən əvvəl Orxan İbadovla ümumi tanışlıq mətnini oxuyurlar.

Dinləmə mətni səsləndirilir, şagirdlər mətni dinlədikcə qeyd götürürlər:

Layihə

***ORXAN İBADOVUN AVTOBİOQRAFİYASI***

*1986-cı ildə Bakı şəhərində sadə bir ailədə anadan olmuşam. Atam hüquqşünas, anam isə həkimdir. 5 yaşında məktəbə getmişəm. Məktəbdə xüsusi bir qabiliyyətimin olduğunu düşünmürəm. Sadəcə, yaşca özümdən böyük uşaqlardan daha yaxşı oxumağım istər-istəməz məni diqqət mərkəzinə çevirmişdi.*

*Məktəb vaxtı ən çox sevdiyim fənlər riyaziyyat, kimya, fizika olub. Bununla belə, mən də o vaxt oğlan uşaqlarının ən çox üstünlük verdiyi hüquq fakültəsinə imtahan verdim. Beləliklə, 15 yaşında BDU-nun hüquq fakültəsinə daxil oldum.*

*Tələbəlik dövründə dünyanın ən böyük dahilərinin həyatı ilə maraqlanırdım. Da Vinçi, Eynşteyn, Nyuton, Aristotel, Platon kimi şəxsiyyətlərin dahiliyinin sirrini öyrənməyə başladım. Bu maraq məni insan beyni üzərində araşdırmalara gətirib çıxardı. Mən beynimin imkanlarına yaxından bələd olmağa və ondan maksimum faydalanmağa çalışırdım.*

*Universitetdən sonra öz ixtisasım üzrə az işlədim. Bir müddət sonra internet üzərindən ticarət sahəsinə yönəldim. 2014-cü ildə onlayn marketinq xidmətləri göstərdiyim bir şirkətin sahibi məni Barselonaya işləməyə dəvət etdi, mən də təklifi qəbul etdim.*

*2017-ci ildə beyinlə bağlı araşdırmalarımı sınaqdan keçirmək məqsədilə yaddaş yarışlarına qoşulmaq qərarına gəldim. Həmin il noyabrın 25-26-sında İstanbulda keçirilən yaddaş yarışlarında ikili rəqəmlər kateqoriyasında qızıl medal qazandım. Bu kateqoriyanın mahiyyəti "0" və "1"-lərdən ibarət yüzlərlə rəqəmin ardıcıllığını yadda saxlamaqdan ibarətdir. Yarışa cəmi 3 ay hazırlaşsam da, çempion oldum və bu nailiyyətin verdiyi özünəinamla həyat hədəflərimi daha da böyütdüm.*

*2023-cü ilin noyabrında Hindistanın Mumbay şəhərində Dünya Yaddaş Çempionatı keçirildi. 780 nəfərin iştirak etdiyi yarışda 2 kateqoriyada (rəqəmlər, üzlər və adlar) birincilik qazandım. Eyni zamanda, ikili rəqəmlr kateqoriyası üzrə yeni dünya rekorduna imza atdım. Ümumilikdə 2 kateqoriyada qızıl, 4 kateqoriyada gümüş, 2 kateqoriyada bürünc medal qazandım.*

*Hal-hazırda mütəmadi olaraq yaddaş təlimləri keçirəm. Gələcəkdə beyin, insan potensialının inkişafı ilə bağlı həm şəxsi, həm də beynəlxalq səviyyədə ciddi planlarım var. Düşünürəm ki, bu sahədə dünyaya verəcəyim hələ çox töhfə var.*

Müəllim şagirdlərin mətni diqqətlə dinlədiklərini yoxlamaq üçün faktoloji suallar verir:

– Orxan İbadovun atası və anası hansı peşə sahibləridir? Orxan İbadov neçə yaşında məktəbə başlayıb? O, tələbəlik illərində hansı məşhur dahilərin həyatı ilə maraqlanıb? Orxan İbadov 2017-ci ildə hansı yarışda iştirak edib və hansı kateqoriyada qızıl medal qazanıb? "İkili rəqəmlər kateqoriyası" nədən ibarətdir? 2023-cü ildə hansı şəhərdə Dünya Yaddaş Çempionatında iştirak edib? Orxan İbadov həmin çempionatda neçə rəqəmi bir saat ərzində yadda saxlayaraq dünya rekordu qırıb? Orxan İbadov hal-hazırda hansı fəaliyyətlə məşğuldur? Onun gələcək planları nə ilə bağlıdır?

**Tapşırıq d (dərslik).** Cavab: Avtobioqrafiya – insanın öz həyatı haqqında özü tərəfindən yazılmış əsər. Bu sözün tərkibindəki morfemlərin iştirak etdiyi sözlər: avtomobil, avtopilot, avtopark; bioloq, biokimya; fotoqrafiya, kalliqrafiya.

**7-1.1.3. Tapşırıq e (dərslik).** Cavab: "Üzlər və adlar" kateqoriyasında iştirakçılara çoxlu sayda insanların fotoları və adları göstərilir. Müəyyən vaxt ərzində bu məlumatlar yadda saxlanılır. Daha sonra şəkillər qarışıq şəkildə təqdim edilir. Hər birinə uyğun ad düzgün şəkildə xatırlanmalıdır.

**Tapşırıq ə (dərslik).** Şagirdlər mətnə əsasən Orxan İbadovun xarakterini təxminən aşağıdakı kimi şərh edirlər:

– O, zəhmətkeş, məqsədyönlü və öyrənməyə maraqlı bir insandır. O, uşaqlıqdan elmə maraq göstərib, beyninin imkanlarını inkişaf etdirmək üçün çalışıb. Qısa müddətdə uğurlar qazanması onun iradəli, intizamlı olmasından xəbər verir.

**Tapşırıq f (dərslik).** Tapşırıq şagirdlərin müsahibə yolu ilə informasiya əldə etmək bacarığını inkişaf etdirir.

**Suallar:** Yaddaşınızı inkişaf etdirmək üçün gündəlik hansı məşqləri edirsiniz? Yarışa hazırlaşarkən hansı çətinliklərlə üzləşmisiniz? "Üzlər və adlar" kateqoriyasında yaddaş texnikalarınız hansılardır? Yaddaşı artırmaq üçün hansı kitabları tövsiyə edirsiniz? Gələcəklə bağlı hansı planlarınız var?

**Tapşırıq a (iş dəftəri).** Şagirdlər tapşırığı fərdi şəkildə yerinə yetirməklə yaradıcı təfəkkürlərini inkişaf etdirirlər.

Layihə

**Tapşırıq b (iş dəftəri).** Şagirdlər dinlədikləri mətnə əsasən cədvəli tamamlayırlar.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnin struktur elementlərini (haşiyə) onun məzmunu ilə əlaqələndirir. | Tap. **b** (D.) |
| Dinləmə zamanı götürdüyü qeydlər əsasında mətnlə bağlı sualları cavablandırır. | Tap. **c** (D.) |
| Dinlədiyi mətndəki fakt və fikirlərə münasibətini bildirir. | Tap. **e, ə** (D.) |

## **2-ci dərs.** Yaddaş problem deyil

• Dərslik: səh. 24-27 • İş dəftəri: səh. 10

**Təlim məqsədləri**

**1.** Mətni oxumağa başlayarkən məqsədini müəyyənləşdirir **(st. 7-2.1.1).**

**2.** Mətndəki faktlara əsaslanaraq müəllif mövqeyinə münasibətini bildirir **(st. 7-2.3.2).**

**3.** Təqdimat materialında qrafik informasiyadan (cədvəllərdən, sxemlərdən, diaqramlardan) istifadə edir **(st. 7-3.2.4).**

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik).** Şagirdlər tapşırığa əsasən müsahibə mətnindəki sualları oxuyurlar. Ötən dərsdə hazırladıqları suallarla müqayisə edirlər. Məqsəd şagirdlərə müsahibə üçün daha çox informasiya əldə etməyə imkan yaradan sualları diqqətə çatdırmaqdır. Suallarla tanışlıq şagirdlərdə həm də mətnin oxunmasına maraq yaradır.

**Oxu**

**7-2.1.1. Tapşırıq b (dərslik).** Şagirdlər əvvəlcə Orxan İbadovun “necə oxuyaq ki, öyrəndiklərimizi uzun müddət yaddaşımızda saxlaya bilək?” sualına cavabını, tövsiyəsini oxuyurlar. Daha sonra həmin təlimata uyğun olaraq mətni oxuyurlar.

**7-2.3.2. Tapşırıq c (dərslik).** Müsahibə götürən suallarını verərkən Orxan İbadov haqqında əvvəlcə bu məlumatları verir: “5 yaşında məktəbə getmisiniz, 15 yaşında universitetə daxil olmusunuz. Sonradan yaddaş üzrə dünya çempionatlarında yüksək nəticələr göstərmisiniz”. “Siz bir saat ərzində minlərlə rəqəmin ardıcıllığını yadda saxlaya bilirsiniz”. “Çıxışlarınızda dinləyiciləri həyatda ən yüksək hədəflər qurmağa dəvət edirsiniz.” Müsahibə alan həmçinin mövzuya dair bu məlumatı verir: “Həkimlər yaddaşı gücləndirmək üçün xüsusi qidalar (məsələn, balıq yağı) və vitaminlər tövsiyə edirlər”. Bu məlumat müsahibə alanın mövzuya yaxşı bələd olduğunu göstərir.

**Tapşırıq ç (dərslik).** Müsahibəni oxuduqdan sonra şagirdlər əldə etdikləri hansı bilikləri öz həyatlarında tətbiq edəcəklərini müzakirə edirlər.

**Tapşırıq d (dərslik).** Orxan İbadovun “ikinci beyin” haqqında fikirləri belədir: gündəlik həyatımızda beynimiz çoxlu məlumat qəbul edir. Bu məlumatların bir qismi vacib, bir qismi isə hələ reallaşmamış, yəni natamam olur. Natamam məlumatlar beynimizi yükləyir və bizə mane olur. Ona görə də bu cür informasiyaları kağız üzərində və ya etibarlı başqa bir yerdə yazmaq lazımdır. Belə olduqda beyin daha az yorulur və əsas, öyrənilməli məlumatı daha yaxşı yadda saxlayır. Yəni “ikinci beyin” bizim yaddaşımızı yüngülləşdirən köməkçi sistemdir.

Tam informasiya nümunələri: Yer kürəsi Günəşin ətrafında fırlanır. Səməd Vurğun Azərbaycan ədəbiyyatının görkəmli şairidir və s.

Natamam informasiya nümunələri: Sabah babama pay göndərəcəyəm. Bu kitabları kitabxanaya qaytarmalıyam və s.

**Tapşırıq e (dərslik).** Şagirdlər tapşırıqda verilmiş aforizmi Orxan İbadovun “Güclü yaddaş anadangəlmə deyil, qazanılan bacarıqdır və hər kəs məşqlər hesabına ona nail ola bilər” fikri ilə əlaqələndirirlər.

**7-2.1.1. Tapşırıq ə (dərslik).** Şagirdlər oxuya başlamazdan öncə məqsədin müəyyənləşdirilməsinin oxu zamanı diqqəti artırdığı qənatinə gəlmədidirlər. Nümunə: “Mən mətni oxuyanda məqsədim yaddaşı artırmağın üsulları ilə tanış olmaq idi, ona görə də diqqətimi məhz həmin hissələrə daha çox yönəldirdim”.

**Yazı**

**7-3.2.4. Tapşırıq f (dərslik). Cütlərlə iş.** Məqsəd şagirdlərin mətn üzərində işləmə, informasiyanı strukturlaşdırma və əməkdaşlıq bacarığını inkişaf etdirməkdir. Şagirdlər oxuduqları mətni

Layihə

sxem, cədvəl və ya qrafiklə ifadə etdikdə məlumat yaddaşda daha möhkəm qalır.

Cütlər mətni oxuyarkən götürdükləri qeydləri birlikdə müzakirə etməklə əsas informasiyaları qruplaşdırırlar. Məsələn: əsas fikir, vacib sitat, müəllifin mövqeyi və s.

Mətndə verilən "Oxudan əvvəl, oxu zamanı, oxudan sonra" bölgüsünü şagirdlər sxem, cədvəl və ya yaddaş xəritəsi formasında təqdim edə bilərlər. Məsələn, sxem şəklində mərhələlərin ardıcıllığını yazmaqla ona uyğun əsas texnikaları oxlar vasitəsilə göstərmək olar. Cədvəlin sütunlarında mərhələləri, sətirlərində isə oxu texnikalarını yazmaq olar.

Sonda cütlər hazırladıqları cədvəl və sxemləri lövhədə təqdim edirlər.

**Tapşırıq a (iş dəftəri).** Cavab: 1. Gələn həftənin cümə günü riyaziyyatdan kiçik summativ qiymətləndirmə olacaq. 4. Kitabları kitabxanaya fevralın 15-i qaytarmalıyam.

**Tapşırıq b (iş dəftəri).** Cavab:

1. Güclü yaddaş anadangəlmə deyil, qazanılan bacarıqdır.

– İnsanlar çox vaxt güclü yaddaşın yalnız istedadla bağlı olduğunu düşünürlər. Lakin Orxan İbadov öz təcrübəsi ilə sübut edir ki, xüsusi texnikalar və davamlı məşqlər vasitəsilə yaddaşı inkişaf etdirmək mümkündür.

2. Beynimiz düzgün üsullarla öyrəndiyimiz məlumatları daha yaxşı yadda saxlayır.

– İnsanın beyni mexaniki əzbərləmədən çox, məna əlaqələrinə əsaslanan öyrənməni daha yaxşı qəbul edir. Məsələn, bir şagird mətnin yalnız sözlərini əzbərləməyə çalışsa, tez unuda bilər. Amma mətnin ideyasını anladıqda, öz sözləri ilə ifadə etdikdə həmin məlumat uzunmüddətli yaddaşda qalır. Orxan İbadov göstərir ki, beynin işləmə prinsiplərinə uyğun öyrənmə üsulu seçmək yadda saxlama prosesini asanlaşdırır.

3. Fiziki sağlamlıqla yaddaş arasında güclü əlaqə var.

– Yaddaş təkcə zehni fəaliyyətlə bağlı deyil, insanın ümumi sağlamlığı da burada mühüm rol oynayır. Düzgün yuxu, sağlam qidalanma, idman yaddaşın güclənməsinə müsbət təsir göstərir.

4. Oxuduqlarımızı yadda saxlamaq üçün düzgün oxu strategiyası seçməliyik.

– Mətn mexaniki oxunarsa, uzun müddət yadda qalmır. Səmərəli oxu üçün məqsəd qoymaq, əsas fikirləri seçmək, qeydlər aparmaq və oxunan məlumatları şəxsi təcrübə ilə əlaqələndirmək vacibdir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətni oxumağa başlayarkən məqsədini müəyyənləşdirir. | Tap. **b, ə** (D.) |
| Mətndəki faktlara əsaslanaraq müəllif mövqeyinə münasibətini bildirir. | Tap. **c, ç, d, e** (D.) |
| Təqdimat materialında qrafik informasiyadan (cədvəllərdən, sxemlərdən, diaqramlardan) istifadə edir. | Tap. **f** (D.) |

## 3-cü dərs. Müzakirə. Müsahibə

• Dərslik: səh. 27

**Təlim məqsədləri**

**1.** Həyatdan nümunələr gətirməklə və ya araşdırılan faktlardan istifadə etməklə qarşı tərəfin fikrinə münasibətini əsaslandırır **(st. 7-1.2.2).**

**2.** Mövzu üzrə əldə edilən məlumatlardan çıxış etməklə müsahibə verir **(st. 7-1.3.2).**

**Mövzuya yönəltmə**

Müəllim şagirdlərin ötən dərsdə oxuduqları müsahibə mətnini xatırlatmaq üçün sual verir:

– Orxan İbadovun hansı fikirləri diqqətinizi çəkmişdi?

**Danışma**

**7-1.2.2. Tapşırıq a (dərslik).** Məqsəd şagirdlərin tənqidi düşünmə bacarığını, fikir mübadiləsi aparmaq vərdişini, mətnlə şəxsi mövqeyi əlaqələndirmə qabiliyyətini inkişaf etdirməkdir.

1. Müəllim internetdən vunderkindlər barədə araşdırma aparmaq üçün şagirdlərə vaxt verir. Daha sonra "Hamının potensialı eynidir" fikrinə şagirdlərin münasibətini öyrənir. Şagirdlər 2 qrupa bölünə bilər: razı olanlar və razı olmayanlar. Razı olanlar qrupu Orxan İbadovun nümunəsini göstərə bilər: istedad deyil, zəhmət və düzgün metodlar uğura aparır. Razı olmayanlar qrupu isə vunderkindlərin misalını gətirə bilər: bəzi uşaqlar

Layihə

doğuşdan üstün qabiliyyətlə seçilir.

Müəllim nəticə olaraq vurğulamalıdır ki, istedad başlanğıcda fərq yaratsa da, davamlı zəhmət və düzgün strategiya olmadan nəticə əldə etmək mümkün deyil.

2. Şagirdlər imtahandan əvvəl həyəcanlanmaları barədə şəxsi təcrübələrini paylaşırlar. Daha sonra "İkinci beyin"in (yəni qeydlərin vizual şəkildə cədvəl, diaqram, yaddaş xəritəsi vasitəsilə sistemləşdirilməsi) həyəcanı necə azalda biləcəyi barədə fikir mübadiləsi aparılır. Sonda şagirdlər belə qənaətə gəlirlər ki, imtahana sistemləşdirilmiş qeydlər vasitəsilə hazırlaşmaq həyəcanı azaldır, özünəinamı artırır.

**7-1.3.2. Tapşırıq b (dərslik).** Şagirdlər əvvəlcə Orxan İbadovun "öyrətdiyini təsəvvür etmək bilikləri möhkəmləndirir" fikrini müzakirə edirlər. Daha sonra cütlərə bölünürlər. Bir nəfər "müsahibə alan", digəri isə "müsahibə verən" rolunda çıxış etməlidir.

Müsahibə alan Orxan İbadovun oxu strategiyaları ilə bağlı suallar verir. Məsələn: "Oxudan əvvəl hansı addımlar yaddaşı gücləndirir?", "İmtahan ərəfəsində həyəcanı azaltmaq üçün nə etmək olar?" və s.

Müsahibə verən sualları cavablandırarkən mətndə öyrəndiyi məlumatları öz sözləri ilə ifadə etməli, aforizmlərə, şəxsi təcrübəyə və ya Orxan İbadovun həyatından faktlara istinad etməlidir. Şagirdlər dialoqu improvizasiya etməli, yalnız mətnlə məhdudlaşmamalıdırlar.

Bu tapşırıq şagirdlərdə həm məlumatı başqalarına ötürmə bacarığını, həm də öz biliklərini möhkəmləndirməyi təmin edir. Həmçinin şagirdlər auditoriya qarşısında çıxış etmə, suallara çevik cavab vermə və sərbəst nitq bacarıqlarını inkişaf etdirirlər.

**Şagirdlər təxminən aşağıdakı kimi dialoq qura bilərlər:**

– Oxumağa başlamazdan əvvəl hansı addımlar daha faydalıdır?

– İlk növbədə, mətnə sürətlə nəzər salmaq lazımdır. Başlıqlar, şəkillər, əsas sözlər beynimizdə ümumi təsəvvür yaradır. Sonra isə məqsəd qoymaq çox vacibdir. Məqsəd diqqəti toplayır, məqsədsiz oxu isə əksinə, insanı yorur.

– Oxu zamanı şagirdlərin ən çox buraxdığı səhv nədir?

– Ən çox edilən səhv qeyd götürmədən oxumaqdır. Biz oxuduqlarımızı yazıya köçürməsək, beynimizdə qarışıqlıq yaranar. Amma açar sözlər və qısa qeydlər etsək, yadda saxlamaq asanlaşar.

– İmtahan vaxtı həyəcan çox olur. Orxan İbadovun bununla bağlı fikri necədir?

– "İkinci beyin" sistemi qurmaq lazımdır. Yəni oxuduqlarını vizual şəkildə – cədvəl, diaqram və ya yaddaş xəritəsi ilə təqdim etmək. Sonradan bu qeydlərə baxmaq bilikləri tez xatırlamağa kömək edir və həyəcanı azaldır.

– Oxuduqlarımızı uzun müddət yadda saxlamaq üçün ən təsirli üsul hansıdır?

– Mənim sevimli üsulum öyrəndiklərimi başqasına öyrətməkdir. Əgər bir mövzunu başqasına izah edə biliriksə, deməli, mövzunu özümüz də yaxşı mənimsəmişik. Hətta tək qalsaq belə, xəyalımızda auditoriya təsəvvür edib danışa bilərik.

– Orxan İbadovun "Hamının potensialı eynidir" fikrinə necə baxırsınız?

– Məncə, bu çox düzgün fikirdir. Bəziləri istedadlı doğula bilər, amma davamlı məşq və düzgün üsullar olmadan heç kim uğur qazana bilməz. Mikelancelonun sözünü xatırlayaq: "İnsanlar mənim nə qədər işlədiyimi görsəydilər, istedadıma həsəd aparmazdılar."

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Həyatdan nümunələr gətirməklə və ya araşdırılan faktlardan istifadə etməklə qarşı tərəfin fikrinə münasibətini əsaslandırır. | Tap. a (D.) |
| Mövzu üzrə əldə edilən məlumatlardan çıxış etməklə müsahibə verir. | Tap. b (D.) |

Layihə

## **4-cü dərs.** Yer zərfinin semantik xüsusiyyətləri və orfoqrafiyası

• Dərslik: səh. 28 • İş dəftəri: səh. 11

**Təlim məqsədləri**

**1.** *Ora, bura, hara* sözlərinin bəzi hal şəkilçiləri qəbul edərkən deyilişi və yazılışı qaydalarına əməl edir **(st. 7-4.1.3).**

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik).** Cavab: Zərflər: burda, irəli, oradan;

İsimlər: Bağdadda, rayona, Tbilisiyə, Trabzona.

Tapşırığın məqsədi şagirdlərin diqqətini yeni mənimsədiləcək qaydaya yönəltməkdir.

**Dil qaydaları**

**7-4.1.3. "Yadda saxla" rubrikası.** Konkret bir məkanı bildirən isimlərdən fərqli olaraq, yer zərflərinin mənasında nisbilik var. Şagirdlərə nisbilik anlayışının nümunələrlə mənimsədilməsi yer zərflərinin məkan bildirən isimlərdən fərqləndirməyə kömək edə bilər. Nəzəri məlumat nümunələrlə izah edilir.

**Tapşırıq b (dərslik).** Cavab: 2. Bir həftədən sonra çaparlar geri**(yə)** döndülər.

3. Həyətdə səs-küy eşidib eyvandan aşağı**(ya)** boylandım.

**Dil qaydaları**

**"Yadda saxla" rubrikası.** Rubrikada verilmiş nəzəri məlumatar nəzərdən keçirilir.

**Tapşırıq c (dərslik).** Cavab: 1 – b; 2 – c; 3 – a.

**Tapşırıq a (iş dəftəri).** Cavab: 1. Təcili **bəri** gəl, səninlə söhbət etməliyəm.

2. O, tez-tez **geriyə** baxırdı, amma heç kimi görmürdü.

3. **Ordan** atəş səsləri gəlirdi.

4. Bacım topu **irəli** atdı, Toplan onun ardınca yüyürdü.

5. Onlar **burada** çadır qurub məskən saldılar.

**Tapşırıq b (iş dəftəri).** Cavab: 1 – b; 2 – d; 3 – c; 4 – b.

**Tapşırıq c (iş dəftəri).** Cavab: Təyyarə **yuxarı** qalxdı. Pəncərədən **içəri** soyuq külək dolur.

**Tapşırıq ç (iş dəftəri).** Cavab: 2 və 5-ci cümlələrdə.

**Tapşırıq d (iş dəftəri).** 1. Həyatda irəli getmək üçün hərdən geriyə də baxmaq lazımdır.

2. Uzaqda parlayan işıqlar kəndin yerini göstərirdi.

3. Möcüzələr çox vaxt yaxınlıqda olur, sadəcə, biz onları görmürük.

4. Aşağıdan baxanda təpənin başındakı qədim qala möhtəşəm görünürdü.

5. Mənə elə gəlir ki, işə elə buradan başlamalıyıq.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| *Ora, bura, hara* sözlərinin bəzi hal şəkilçiləri qəbul edərkən deyilişi və yazılışı qaydalarına əməl edir. | Tap. **b, c** (D.) |

Layihə

# Ümumiləşdirici təkrar

• Dərslik: səh. 28 • İş dəftəri: səh. 12-13

**Təlim məqsədləri**

**1.** Söz tərkibindəki morfemlərin semantikasından çıxış edərək sözün mənasını müəyyənləşdirir **(st. 7-4.4.1).**

**2.** Yönlük halda olan sözlərdə açıq saitin qapalı saitə çevrilməsi qaydasına əməl edir **(st. 7-4.1.3).**

**Mövzuya yönəltmə**

Bölmə boyu şagirdlərin əldə etdikləri bilik və bacarıqlar xatırladılır. Şagirdlərin bölmənin mövzusu, məzmunu ilə bağlı təəssüratları dinlənilir.

**Dil qaydaları**

**7-4.4.1. Tapşırıq 1 (dərslik).** Şagirdlər əvvəlcə “anormal” və “asimmetriya” sözlərindəki “a” morfeminin sözə gətirdiyi semantikanı (inkar mənası) müəyyən edirlər:

anormal – normal olmayan; asimmetriya – simmetriyanın olmaması, simmetriya pozuntusu.

Şagirdlər daha sonra verilmiş sözlərdəki morfemləri “a” morfeminin semantik funksiyası ilə müqayisə edirlər:

a) qeyri-adi – adi olmayan

b) nalayiq – layiq olmayan

d) dəyərsiz – dəyəri olmayan

c) antifaşist – “faşizmə qarşı olan” deməkdir. “anti-” əkslik, mübarizə bildirir, lakin bu, “olmama” yox, “əks mövqedə durma, mübarizə etmə” deməkdir.

Deməli, qeyri-, na-, -sız$^4$ morfemləri sözə inkarlıq semantikası gətirir, “anti-” morfemi isə “a-” morfemi ilə qrammatik sinonim deyil.

**Tapşırıq 2 (dərslik).** Cavab: “-xana” (fars mənşəli), “-teka” (yunan-latın mənşəli) və “-gah” (fars mənşəli) morfemlərinin ümumi funksiyası odur ki, hər üçü sözə yer, məkan semantikası qazandırır. Bu səbəbdən onlar qrammatik sinonimlik təşkil edir.

**Tapşırıq 3 (dərslik).** Cavab: kilometr – min metr – 3. Uzunluq ölçü vahidi bildirən bir çox sözlərin əsas komponenti.

b. ampermetr – amperi ölçən cihaz – 1. “Ölçü cihazı” mənasını əmələ gətirən morfem

c. metrologiya – ölçü vahidlərini öyrənən elm sahəsi – 2. Ölçü vahidləri haqqında elm sahəsini bildirən sözün əsas komponenti

**7-4.1.3. Tapşırıq 4 (dərslik).** Şagirdlər cümlələrdə səhv yazılmış sözləri seçib bu bölmədə öyrəndikləri qaydalara əsasən izah edirlər.

1. Qapıdan çıxanda bir oğlan**la (qoşma)** rastlaşdı.

2. Mənim bu adam**dan (çıxışlıq hal şəkilçisi)** heç gözüm su içmir.

3. Ağa ağ deyiblər, qarıya **(söz kökü: qara)** qara.

4. Çayın kənarı ilə xeyli gedib bir dər**i**yə **(söz kökü: dərə**) endi.

**Tapşırıq 5 (dərslik).** Cavab: 1 – a; 2 – b; 3 – c.

**Tapşırıq 1 (iş dəftəri).** “-daş” şəkilçisi adətən birlikdə olmaq, ortaq xüsusiyyətə sahib olmaq mənası yaradır:

soydaş – eyni soydan, eyni millətdən olan adam

əməkdaş – eyni işdə, ortaq əmək fəaliyyətində çalışan şəxs

sirdaş – sirrini bölüşdüyün, güvəndiyin adam

silahdaş – eyni silahlı mübarizədə, döyüşdə iştirak edən şəxs

yoldaş – birlikdə yolda olan və ya dost, tanış

**Tapşırıq 2 (iş dəftəri).** Cavab: c. güldan. Digər cümlələrdə -dan şəkilçili söz çıxışlıq haldadır.

**Tapşırıq 3 (iş dəftəri).** Cavab: 3-cü cümlədəki “yorucu”da *-ıcı* əlamət, xüsusiyyət bildirən söz düzəldir, digərlərində isə şəxs anlayışı ifadə edir.

**Tapşırıq 4 (iş dəftəri).** Cavab: Şəkilçilərin semantik funksiyası fərqli olanlar:

2. evdar – evli, evdar – ev işləri görən (-dar, müəyyən xüsusiyyəti daşıyan);

evli – ailəsi olan (-li - sahiblik bildirir).

5. qorxunc – qorxaq;

qorxunc – qorxu doğuran (-unc/-uncu səbəb bildirir); qorxaq – tez qorxan adam (-aq xasiyyət bildirir)

**Tapşırıq 5 (iş dəftəri).** Cavab: Mücərrəd məna yaradanlar: 2. mənlik; 4. insanlıq; 5. gözəllik; 6. pislik; 9. müəllimlik; 10. birlik.

**Tapşırıq 6 (iş dəftəri).** Cavab: c – “O, hirslə əlindəki topu uzağa tulladı.” Burada “uzağa” sözündəki yönlük hal şəkilçisini çıxarsaq, sözün mənası pozular.

**Tapşırıq 7 (iş dəftəri). Metafor** – meşənin yaşıl köynək geyinməsi;

**Bənzətmə** – “quş kimi” (bənövşə quşa bənzədilib); “könlüm kimi” (təbiətin gülməsi könlün gülməsinə bənzədilib).

**Epitet** – “yaşıl köynək” (rəng və geyim obrazı ilə meşə təsvir olunur); “qoca təbiət” (təbiət yaşlı insan obrazında təsvir edilir).

Layihə

**Tapşırıq 8 (iş dəftəri).** Cavab: 1-ci və 2-ci nümunədə "meqa" morfemi "iri, böyük, güclü, çox" məna çalarını verir. 3-cü cümlədə isə "meqa" morfemi "milyon" miqdar göstəricisini ifadə edir. (1 meqapiksel = 1 milyon piksel). Şəklin ən kiçik nöqtəsinə piksel deyilir. Rəqəmsal şəkil milyonlarla belə nöqtədən ibarət olur. Piksel sayı çoxaldıqca şəkil daha detallı və aydın görünür.

**Tapşırıq 9 (iş dəftəri).** Cavab: Yox olsun başından duman, Təbrizim!

**Tapşırıq 10 (iş dəftəri).** Cavab: 1. Yaxın gəl, azacıq yaxın gəl barı,

Dağıt qəlbimdəki iztirabları. *(S.Vurğun)*

2. Tora düşmüş maral balası sağa-sola çırpınır, getdikcə daha da çox ilişirdi.

3. Elə gəlsin, elə getsin, aralıqda söz olmasın. *(Xalq mahnısı)*

4. Alaçığın aşağı tərəfində beşik qoyulmuşdu.

5. Zabitlər aşağı-yuxarı qaçaraq hər şeyin öz yerində olmasını yoxlayırdılar.

6. Arada-bərədə söz gəzirdi ki, Bayram bəyi pristav qoyacaqlar. *(İ.Əfəndiyev)*

**Tapşırıq 11 (iş dəftəri).** Cavab: 1. Dəvəyə; 2. Qocaya; 3. talaya; 4. taxtaya.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Söz tərkibindəki morfemlərin semantikasından çıxış edərək sözün mənasını müəyyənləşdirir. | Tap. **1, 2, 3** (D.) |
| Yönlük halda olan sözlərdə açıq saitin qapalı saitə çevrilməsi qaydasına əməl edir. | Tap. **4** (D.) |

Layihə

bölmə **6** 

# NİYƏ BELƏ DEYİRİK?

| Dərs | Mövzu | Məzmun xətləri | Dərslik səh. | İş dəftəri səh. | MV səh. |
|---|---|---|---|---|---|
| **1-ci fəsil** | | | | | |
| 1 | Məşhur ifadələr | Oxuyub-anlama | 30-31 | 14 | 119-120 |
| 2 | Deyimlər | Oxuyub-anlama | 32-34 | 15 | 120-121 |
| 3 | Lətifələr | Oxuyub-anlama. Yazı | 34-36 | 16 | 121-122 |
| 4 | Mövzu üzrə esse yazı | Yazı | 36 | - | 122-123 |
| 5 | Məsdərin qrammatik xüsusiyyətləri | Dil qaydaları (qrammatika) | 37 | 17 | 123 |
| **2-ci fəsil** | | | | | |
| 1 | Eponimlər | Danışma. Yazı | 38-41 | 18 | 124-125 |
| 2 | Eponimlər haqqında təqdimat | Yazı. Danışma | 41 | 19 | 125 |
| 3 | "Gəncə şəhərinin tarixi adları" haqqında təqdimat | Yazı | 42 | 20 | 126-127 |
| 4 | Sadə və mürəkkəb söz birləşmələri | Dil qaydaları (qrammatika) | 43 | 21 | 127-128 |
| **3-cü fəsil** | | | | | |
| 1 | Pollianna | Oxuyub-anlama | 44-46 | 22 | 128-129 |
| 2 | Pollianna | Dinləmə | 46 | 23 | 129-131 |
| 3 | Polianna sindromu | Oxuyub-anlama | 47-49 | 24 | 131-133 |
| 4 | Esse yazı | Yazı | 49 | - | 133-134 |
| 5 | Feili birləşmələr cümlə üzvü kimi | Dil qaydaları (qrammatika) | 50 | 25 | 134-135 |
| 6 | Ümumiləşdirici təkrar | Dil qaydaları (qrammatika) | 51 | 26-27 | 135-137 |

Layihə

## 1-ci fəsil ur ifadələr

• Dərslik: səh. 30-31 • İş dəftəri: səh. 14

**Təlim məqsədləri:**

**1.** Mətnləri dil-üslub xüsusiyyətlərinə görə müqayisə edir **(st. 7-2.3.5).**

**2.** Mətndə rast gəlinən söz və ifadələrin üslubi xüsusiyyətlərini izah edir **(st. 7-2.3.4).**

**Mövzuya yönəltmə**

Müəllim şagirdlərin diqqətini bölmənin adına yönəldir və soruşur:

– Sizcə, bu bölmədə nədən danışılır?

Şagirdlər suala cavab verməklə bölmənin mövzusu haqqında fikirlərini bildirirlər. Bu mövzuda ilkin biliklərini nümayiş etdirirlər.

**Oxuyub-anlama**

**7-2.3.5. Tapşırıq a (dərslik).** Şagirdlər tapşırıqda "Molla Nəsrəddin" jurnalı haqqında verilmiş fikirləri dil-üslub xüsusiyyətlərinə görə müqayisə edirlər. Tapşırığın məqsədi şagirdlərin diqqətini bədii təsvir və ifadə vasitələrinə, onların fikri daha təsirli çatdırmaq xüsusiyyətinə yönəltməkdir.

**7-2.3.4. Tapşırıq b (dərslik).** Şagirdlər qruplara ayrılır və tapşırıqdakı ifadələrin etimologiyası ilə tanış olurlar. Aldıqları yeni məlumatlara istinad edərək "a" tapşırığındakı Səməd ağa Ağamalıoğlunun "Molla Nəsrəddin" jurnalı haqqında dediyi fikri şərh edirlər.

**"Qlossari" rubrikası.** Şagirdlər bu rubrikada təqdim edilmiş "publisistika" sözünün izahı ilə tanış olurlar. Məqsəd şagirdlərin söz ehtiyatını artırmaqdır.

Şagirdlərin cavabı təxminən belə ola bilər: Hamıya bəllidir ki, "Molla Nəsrəddin" jurnalı satirik jurnal idi. Jurnalda dövrünün nöqsanlarını kəskin tənqid edən yazılar dərc olunurdu. Həmin dövrdə Azərbaycan xalqının ən böyük problemlərindən biri savadsızlıq idi. Səməd ağa Ağamalıoğlu cəhalətin, savadsızlığın hökm sürdüyü mühiti obrazlı şəkildə "zülmət səltənəti" adlandırır. Həmin dövrdə Azərbaycan çar Rusiyasının işğalı altında olduğu üçün xalqın bir çox problemləri işıqlandırılmır, idaredici qüvvələr tərəfindən görməzliyə vurulurdu. Publisist bu səssizliyi "Məzar sükutu" adlandırır. Bu obrazlı ifadə ilə həddindən artıq səssizliyə, susqunluğa işarə etmişdir. Müəllif bu ifadəni işlətməklə oxucusunun həmin səssizliyi təsəvvür etməsinə kömək edir. "Homer gülüşü" ifadəsi qəhqəhəli gülüş mənasında işlədilir. Publisist bu ifadəni işlətməklə demək istəyir ki, "Molla Nəsrəddin" jurnalında dərc olunan yazılar oxucusunda qəhqəhəli gülüş yaradır. Sanki qəhqəhə səsi səssizliyi pozacaq, problemləri görməzdən gələnləri yuxudan oyadacaqdı.

**Tapşırıq c (dərslik).** Cavab: "Homerik gülüş" güclü, şaqraq, qəhqəhəli gülüş mənasında, "sardonik gülüş" isə acı, istehzalı mənasında işlədilir. "Sarkazm" sözünün mənası "sardonik gülüş" ifadəsinə daha yaxındır.

**"Diqqət et" rubrikası.** Müəllim rubrikada verilmiş məlumatları şərh edir. Tarixin yaddaşında qalmış məşhur ifadələrdən, şəxs adlarından istifadə etməklə fikirlər söyləyir. Həmin ifadələrin nitqdə yaratdığı təsiri nümayiş etdirir.

**Müəllimin nəzərinə!** Şagirdlər 5-ci sinif "Azərbaycan dili" dərsliyinin 4-cü bölməsindən (Niyə belə deyirik?) Azərbaycan ədəbiyyatından Hacı Qara, Novruzəli, Qurbanəli bəy kimi adları rəmzə çevrilmiş obrazları tanıyırlar. Məsələn, müəllim "Hacı Qara kimi xəsisdir", "Lap Qurbanəli bəyin qonağlığına döndü" və yaxud "O lap Novruzəli imiş ki?!" kimi cümlələrdən istifadə edə bilər.

**Tapşırıq ç (dərslik).** Şagirdlər "Bermud üçbucağı" ifadəsinin etimoloji izahı ilə tanış olur və bu ifadəni nitqlərində üslubi fiqur kimi istifadə edirlər.

**Tapşırıq d (dərslik). Müəllimin nəzərinə!** Şagirdlər bu tapşırığı yerinə yetirmək üçün araşdırma aparacaqlar. Onlar azleks.az vasitəsilə bu ifadələrin mənalarına baxa bilərlər.

Cavab: **Avropaya pəncərə** – Qərb dünyasına inteqrasiya etməyi, Avropa ilə ayaqlaşmağı, müasirləşməyi, dünya ilə əlaqələri genişləndirməyi bildirir. Yəni, Bakı–Tbilisi–Qars dəmir yolu Asiya üçün əlaqələrini genişləndirməyə imkan yaradır.

**Tarixi-Nadiri yarısına kimi oxumaq** – savadsız, məhdud dünyagörüşlü və ya yarımçıq təhsil sahibi olanlar haqqında istehza ilə işlədilən ifadədir. Yəni, bu cümlədə müəllif oxuduğundan bir şey anlamadığına işarə edir.

**Kim yatmış, kim oyaq?** – kimin hansı vəziyyətdə nə düşündüyünü, nə etmək istədiyini, bir iş üçün nə dərəcədə səfərbər və ayıq olduğunu bilmək məqsədilə işlədilir. Cümlədə müəllif atanın uşaqları ilə hal-əhval tutmasına işarə edir.

**Qurbanəli bəyin qonaqlığı** – söz verib vədindən qaçan yalançı və lovğa adamları, dil pəhlə-

Layihə

vanlarının davranışını səciyyələndirmək üçün işlədilir. Ramiz kişi ev sahibinin davranışını Qurbanəli bəyə bənzətməklə fikrini daha təsirli ifadə edib.

**Tapşırıq a (iş dəftəri).** Şagirdlər tapşırıqda verilmiş ifadələrinin etimologiyasını izah edir, işlənmə yerinə uyğun situasiyalar yazırlar. Bununla da, nitqdə üslubi fiqurların rolunu anladıqlarını nümayiş etdirirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| ləri dil-üslub xüsusiyyətlərinə görə müqayisə edir. | Tap. a (D.) |
| Mətndə rast gələnən söz və ifadələrin üslubi xüsusiyyətlərini izah edir. | Tap. b, c (D.); a (İ.D.) |

## 2-ci dərs. Deyimlər

• Dərslik: səh. 32-34 • İş dəftəri: səh. 15

**Təlim məqsədləri:**

**1.** Omonim və ya çoxmənalı sözün kontekstə uyğun mənasını müəyyən edir (st. 7-2.1.2).
**2.** Qeyri-bədii mətnlərdə struktur elementlərini (yarımbaşlıq) müəyyənləşdirir (st. 7-2.3.3).
**3.** Mətndə rast gələnən söz və ifadələrin üslubi xüsusiyyətlərini izah edir (st. 7-2.3.4).

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik).** Şagirdlər 5-ci sinifdə “Bəs zınqırovu kim asacaq?”, “İlanın zəhləsi yarpızdan gedər, o da gəlib yuvasının ağzında bitər” kimi məsəllərlə tanış olublar. Bir sıra atalar sözləri öyrəniblər. Şagirdlər aldıqları biliklərə istinad edərək atalar sözləri və məsəllərin nitqdə rolu haqqında danışırlar. Müəllim istiqamətləndirici suallarla şagirdləri danışma fəaliyyətinə cəlb edə bilər:

Sizcə, oxuduğunuz hər hansı bir mətnin əsas ideyasını ifadə edərkən nə üçün daha çox atalar sözündən istifadə etməyə çalışırıq?

Özünüzün və yaxud yaxınlarınızın nitqində hansı məsəllər tez-tez istifadə olunur?

**Mətn üzrə iş.** Şagirdlər “Deyimlər” mətnini oxuyur, “Söz boğçası”nda verilmiş sözlərin mənasını araşdırırlar.

**Söz ehtiyatı**

**7-2.1.2. Tapşırıq b (dərslik).** Cavab: “Qanadlı misralar” ifadəsində “qanadlı” sözü məcazi mənada işlənmişdir. Deyimlərin dildən-dilə düşərək yayılması quşların qanadlanıb bir yerdən başqa bir yerə uçması ilə əlaqələndirilir.

**Tapşırıq c (dərslik).** Kontekstə əsasən “təbir” sözünün mənası izah edilir. Cavab: “Təbir” sözü hansısa şəxsin dediyi kimi və yaxud hansısa şəxsin sözləri ilə desək mənasında işlədilir.

**Oxuyub-anlama**

**7-2.3.3. Tapşırıq ç (dərslik).** Cavab: Mətnin tərkib hissələrini aşağıdakı yarımbaşlıqlarla adlandırmaq olar:

Atalar sözləri
Məsəllər
Qanadlı misralar

**Tapşırıq a (iş dəftəri).** Cavab: 1 – c, 2 – a, 3 – b.

**7-2.3.4. Tapşırıq d (dərslik).** Şair nitqdə fikri daha təsirli ifadə etmək üçün anlayışları qarşılaşdırıb (razıyam-narazıyam), yəni bədii təzaddan, antitezadan istifadə edib.

**Tapşırıq e (dərslik).** Bəzi atalar sözlərində fikir həm müstəqim, həm də məcazi mənada işlədilə bilər. Bu tapşırıqda şagirdlər atalar sözlərində ifadə edilmiş məcazi fikri onun həqiqi mənası ilə əlaqələndirib mənasını anladıqlarını nümayiş etdirirlər.

Cavab:

***Dəyirman bildiyini eylər, çax-çax baş ağrıdar.*** Həqiqətən, dəyirman işləyəndə səs edir. Lakin bu atalar sözü, adətən, məcazi mənada işlədilir və bu zaman bildiyini edən adama məsləhət verməyin mənasız olması vurğulanır.

***Ağacı qurd içindən yeyər.*** Danılmaz faktdır ki, qurd ağacı içəridən yeyərək məhv edir. Lakin bu atalar sözü məcazi mənada işlənərək, “Düşməni uzaqda axtarma” fikrinə işarə edir.

***Od olmasa, tüstü çıxmaz.*** Doğrudan da, əgər ocaq qalanıbsa, od varsa, o zaman tüstü də olacaq. Amma bu atalar sözü vurğulayır ki, səbəbsiz söz-söhbət yaranmaz.

***Meşə çaqqalsız olmaz.*** Əlbəttə, meşədə çaqqal yaşayar. Atalar sözündə “Hamı ideal deyil” fikri vurğulanır.

**Tapşırıq ə (dərslik).** Cavab: 1 – A, 2 – AB, 3 – ABC, 4 – B, 5 – C.

**Tapşırıq b (iş dəftəri).** Cavab:

Bayraq mənliyimdir, bayraq kimliyim,
Bayraq – öz yurduma öz hakimliyim. *(Bəxtiyar*

Layihə

*Vahabzadə)*

**Bayraq mövzusunda esseyə nümunə:**

Bayraq dövlətin və xalqın kimliyinin, düşüncə tərzinin, mənəvi dünyasının görünən ən şəffaf, ən işıqlı meyarıdır. Dövlət bayrağımız suverenliyimizin rəmzidir.

Üçrəngli Dövlət Bayrağımız ilk dəfə 1918-ci il noyabrın 9-da Bakıda, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin iclasında qəbul edilib və iclasın keçirildiyi Nazirlər Şurasının binası üzərində qaldırılıb. Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşadı və 1920-ci ildə süqut etdi.

70 il Azərbaycan xalqı doğma və əziz bayrağından zorla ayrı salındı. Lakin bu 70 il ərzində xalqın min bir əziyyətlə əldə etmiş olduğu üçrəngli bayrağına sevgi və məhəbbəti az da olsa tükənmədi. Əksinə, millətimiz bu bayrağın nə vaxtsa yenə də vətənimizin, doğma Azərbaycanımızın üzərində məğrurluqla dalğalanacağı anı səbirsizliklə gözlədi. Həm də yalnız gözləməklə kifayətlənmədi. Onun uğrunda diktator Sovet hakimiyyətinin kəskin qadağalarına baxmayaraq əzmlə, təmkin və qeyrətlə mübarizə apardı.

1990-cı il noyabrın 17-də üçrəngli bayrağımız ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi təsdiqləndi. 1991-ci il fevralın 5-də isə Azərbaycan Respublikasının Ali Soveti üçrəngli bayrağımızın Azərbaycanın dövlət bayrağı kimi təsdiq olunması haqqında Konstitusiya Qanununu qəbul etdi.

Üçrəngli bayrağımıza dərin məhəbbət rəmzi olaraq hər il noyabrın 9-u Bayraq Günü kimi qeyd olunur. Paytaxtımızın yüksək yerində inşa olunmuş Bayraq meydanında dünyanın ən hündür bayraq dirəyi qurulmuşdur.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Omonim və ya çoxmənalı sözün kontekstə uyğun mənasını müəyyən edir. | Tap. **b, c** (D.) |
| Qeyri-bədii mətni yarımbaşlıqlara ayırır. | Tap. **ç** (D.) |
| Mətndə rast gəlinən söz və ifadələrin üslubi xüsusiyyətlərini izah edir. | Tap. **d, e** (D.); **b** (İ.D.) |

## **3-cü dərs.** Lətifələr

• Dərslik: səh. 34-36 • İş dəftəri: səh. 16

**Təlim məqsədləri:**

**1.** Məzmuna uyğun intonasiya, jest və mimikadan istifadə etməklə deyilən fikri tamamlayır **(st. 7-1.4.2).**

**2.** Mətndə rast gəlinən söz və ifadələrin üslubi xüsusiyyətlərini izah edir **(st. 7-2.3.4).**

**Mövzuya yönəltmə**

Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək üçün onların yaş səviyyəsinə uyğun lətifə danışa bilər.

**Danışma**

**7-1.4.2. Tapşırıq a (dərslik)**. Tapşırıq şagirdlərin danışma bacarığının inkişafına yönəldilib. Şagirdlər tapşırığa qoyulmuş təlimatla tanış olur və təqdimata hazırlaşırlar.

**Müəllimin nəzərinə!** Lətifələrdə, əsasən, əsas fikir son cümlədə açılır və bu cümlələr çox vaxt geniş yayılaraq məsələ çevrilir. Dərsin məqsədi şagirdlərdə həmin cümlələri seçmək və uyğun nitq situasiyasında istifadə etmək bacarığını inkişaf etdirməkdir.

Tapşırığın şərtləri əsasında könüllü şagirdlər arasında yarışma təşkil etmək olar. Bəzi insanların lətifələri özünəməxsus şirinliklə danışma xüsusiyyətləri var ki, bu tapşırıq həmin şagirdlərin bacarıqlarını nümayiş etdirməsinə imkan yaradır.

**7-2.3.4. Tapşırıq b (dərslik)**. Şeir parçalarından seçilən "qanadlı misralar"a nümunələr:

***Oğlum Məhəmmədə nəsihət***

***Ucalmaq istəsən, bir kamala çat,***
***Kamala ehtiram göstərər həyat.***

Şərhi: İnsan həyatda ağlı, kamalı ilə uğur qazanır. Ağıllı-kamallı şəxslər hörmət, ehtiram sahibi olurlar.

***Səadət kamalla yetişir başa.***

Şərhi: Ağıl, bacarıq insana xoşbəxtlik gətirər.

***Öz adına layiq işlər gör ki sən,***
***Axırda utanma xəcalətindən.***

Şərhi: İnsan elə hərəkət etməlidir ki, sonradan utanmasın.

Layihə

***Bir elmi öyrənmək istədikdə sən***
***Çalış ki, hər şeyi kamil biləsən.***
***Kamil bir palançı olsa da insan,***
***Yaxşıdır yarımçıq papaqçılıqdan.***

Şərhi: İnsan seçdiyi peşənin sirlərini tam bilməlidir.

***Bir insan əliboş gəzməsin gərək.***

Şərhi: Burada şair "əliboş" ifadəsini işsiz, bikar mənasında işlətmişdir.

**"Ömür" şeiri**

***Yaşamaq – yanmaqdır, yanasan gərək.***

Şərhi: İnsan çalışarkən, işləyərkən, mübarizə aparаrkən yaşayır. Yaşamaq – mübarizədir.

**Tapşırıq c (dərslik)**. Cavab: Deyimlərdə istifadə olunan təkrir, bədii təzad, antiteza kimi bədii ifadə vasitələri fikri lakonik və təsirli edir.

**Tapşırıq a (iş dəftəri).** Şagirdlər tarixi şəxsiyyət Şah İsmayıl Xətai haqqında rəvayəti oxuyub, məsələ çevrilmiş misranı müəyyənləşdirirlər. Cavab: Qılınc həmin qılıncdır, qol o qol deyil.

**Yazı**

**Tapşırıq b (iş dəftəri)**. Şagirdlər "Qılınc həmin qılıncdır, qol o qol deyil" məsəlinin işlənə biləcəyi müxtəlif situasiyalar düşünüb yazırlar.

**Tapşırıq c (iş dəftəri)**. Cavab:

Quyu qazan adam düşəcək özü.

Nə əksən, onu da sən biçəcəksən.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Məzmuna uyğun intonasiya, jest və mimikadan istifadə etməklə deyilən fikri tamamlayır. | Tap. a (D.) |
| Mətndə rast gəlinən söz və ifadələrin üslubi xüsusiyyətlərini izah edir. | Tap. b, c (D.); a, c (İ.D.) |

## 4-cü dərs. Esse yazı

• Dərslik: səh. 36

**Təlim məqsədləri:**

**1.** Atalar sözündəki bədii ifadə vasitələrini müəyyən edir **(st. 7-4.4.3).**

**2.** Yazıda problemlə bağlı mövqeyini əsaslandırmaq üçün arqumentlərdən istifadə edir **(st. 7-3.2.2).**

**Mövzuya yönəltmə**

**7-4.4.3. Tapşırıq a (dərslik).** Müəllim şagirdlərin diqqətini tapşırıqda verilmiş atalar sözlərinə yönəldir və yönəldici suallarla onları müzakirəyə cəlb edir:

"Axşamın xeyrindən səhərin şəri yaxşıdır" atalar sözündə hansı müdrik fikir ifadə edilir? (Yəni tələsməyin, səbirli olun və s.)

"Əldən qalan əlli il qalar" atalar sözündə hansı müdrik fikir ifadə edilir? (Yəni işinizi vaxtında görün, sabahı gözləməyin və s.)

Atalar sözlərinin ifadə etdiyi fikirlər arasında hansı ziddiyyətli məqamlar var?

Müəllimə müzakirələrin nəticəsini qısa, konkret fikirlərlə yekunlaşdırmaq və bu fikirləri lövhədə qeyd etmək tövsiyə edilir.

Məsələn:

Bəzən atalar sözləri zidd fikirləri ifadə edir.

Deməli, situasiyadan asılı olaraq fikirlər dəyişir.

**"Qlossari" rubrikası.** Şagirdlər bu rubrikada təqdim edilmiş sözlərin izahı ilə tanış olurlar. Alliterasiya (nitqdə ahəngdarlığı gücləndirmək məqsədilə eyni samit səslərin təkrarı) və assonans (sözlərdə eyni və ya yaxın saitlərin təkrarı) kimi ifadə vasitələri haqqında məlumat alırlar. Məsələn, "Əldən qalan əlli il qalar" atalar sözündə həm alliterasiya (l samitinin təkrarı), həm də assonans (ə saitinin təkrarı) var.

**Yazı**

**7-3.2.2. Tapşırıq b (dərslik).** Tapşırıq şagirdlərin yazı bacarığının inkişafına yönəlmişdir.

Esse nümunəsi:

Yəqin ki, hər birimiz bir sıra atalar sözlərini əzbər bilirik. Məsələn, mən "Tək əldən səs çıxmaz" fikrini tez-tez işlədirəm. Atalar sözü fikri daha yığcam, dəqiq çatdırmağa kömək edir. Nitqin ifadəliliyini, emosionallığını artırır. Lakin, düşünürəm ki, atalar sözləri nə qədər gözəl səslənsə də, onlara ehkam kimi yanaşmaq olmaz.

Böyüklərimdən vaxtaşırı "Böyük olan yerdə kiçik danışmaz" atalar sözünü eşidirəm. Əslində, haqq da verirəm. Axı nənə-babalarımız dünyagörmüş insanlardır. Əlbəttə ki, onlar daha təcrübəlidirlər. Verdikləri məsləhətlər artıq zamanın sınağından çıxıb. Lakin bu yaxınlarda mətnin əsas ideyasını müəyyənləşdirərkən diqqətimi bir atalar sözü cəlb etdi: Ağıl yaşda deyil, başdadır. Həqiqətən də, ağıl ilə yaşın nə əlaqəsi var ki?

Ümumiyyətlə, belə qərara gəldim ki, atalar sözləri də bəzən ziddiyyətli fikirlər ifadə edir. Əlbəttə,

Layihə

problemlərə müxtəlif rakurslardan baxanda hər bir fikir ağlabatan görünür.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Atalar sözündəki bədii ifadə vasitələrini müəyyən edir. | Tap. **a** (D.) |
| Yazıda problemlə bağlı mövqeyini əsaslandırmaq üçün arqumentlərdən istifadə edir. | Tap. **b** (D.) |

## 5-ci dərs. Məsdərin qrammatik xüsusiyyətləri

• Dərslik: səh. 37 • İş dəftəri: səh. 17

**Təlim məqsədləri:**

**1.** Əsas tərəfi məsdərlə ifadə olunan ismi birləşmələri feili birləşmələrdən fərqləndiririr **(st. 7-4.2.3).**

**2.** Kontekstdən çıxış edərək -ma$^2$ şəkilçisinin funksiyasını müəyyən edir **(st. 7-4.2.2).**

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik).** Şagirdlər tapşırıqda qoyulmuş suallara cavab verir, ismi və feili birləşmələri xatırlayırlar.

> **Müəllimin nəzərinə!** Şagirdlərə indiyə qədər məsdərlə bağlı ətraflı məlumat verilib (5-ci sinif, II hissə, səh. 62-63). Şagirdlərə məsdər haqqında əvvəlki biliklərini xatırlatmaq tövsiyə olunur.

**Dil qaydaları**

**7-4.2.3. "Yadda saxla" rubrikası.** Rubrikada məsdər haqqında verilmiş məlumat və nümunələr şərh olunur.

**Tapşırıq b (dərslik).**

Cavab: 1 – c; 2 – b; 3 – d; 4 – a.

**7-4.2.2. "Yadda saxla" rubrikası.** Rubrikada -ma$^2$ şəkilçisinin omonimlik xüsusiyyətindən danışılır.

**Tapşırıq c (dərslik).** Cavab:

1. feildən isim düzəldən leksik şəkilçi
2. məsdər şəkilçisinin ixtisar forması
3. feillərdə inkarlıq şəkilçisi
4. məsdər şəkilçisinin ixtisar forması
5. feildən isim düzəldən leksik şəkilçi

İş dəftərində təqdim edilmiş tapşırıqlar şagirdlərin məsdərin qrammatik xüsusiyyətləri haqqında aldıqları biliklərin möhkəmləndirilməsinə xidmət edir.

**Tapşırıq a (iş dəftəri).** Cavab:

1 – ismi birləşmə;
2 – feili birləşmə;
3 – ismi birləşmə;
4 – feili birləşmə;
5 – feili birləşmə;
6 – feili birləşmə;
7 – feili birləşmə;
8 – feili birləşmə.

**Tapşırıq b (iş dəftəri).** Cavab:

| Leksik şəkilçi | Məsdər şəkilçisinin ixtisar forması | Feilin inkar şəkilçisi |
|---|---|---|
| gəlmə | adam olması | çıxarmasın |
| suvarma | yolların bağlanması | |
| çəkmə | təmin edilməsi | |
| | (onun) geyinməsi | |

**Tapşırıq c (iş dəftəri).** Cavab:

Nənəm bağlamanı götürüb içəri keçdi.
Qapını möhkəm bağlaması xoşuma gəlmədi.
Evdən çıxanda pəncərələri bağlama.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Əsas tərəfi məsdərlə ifadə olunan ismi birləşmələri feili birləşmələrdən fərqləndiririr. | Tap. **b** (D.); **a, b** (İ.D.) |
| Kontekstdən çıxış edərək -ma$^2$ şəkilçisinin funksiyasını müəyyən edir. | Tap. **c** (D.); **c, ç** (İ.D.) |

Layihə

# 2-ci fəsil

## 1-ci dərs. Eponimlər

• Dərslik: səh. 38-41 • İş dəftəri: səh. 18

**Təlim məqsədləri:**

**1.** Mövzu üzrə əldə edilən məlumatları açar sözlər şəklində qeyd edir və onların əsasında mətn qurub danışır **(st. 7-1.3.2).**

**2.** Kontekstdən çıxış edərək tanış olmayan sözlərin mənasını müəyyən edir **(st. 7-2.1.2).**

**3.** Qeyri-bədii mətnləri məzmun xüsusiyyətlərinə görə müqayisə edir **(st. 7-2.3.5).**

**4.** İnformativ mətni düzgün strukturlaşdırıb yazır **(st. 7-3.1.1).**

**Mövzuya yönəltmə**

Müəllim lövhədə eponimlər işlənmiş bir neçə cümlə yaza bilər. Məsələn:

Zəhmət olmasa, mənə bir dilim napoleon verin.

Şagirdlərin diqqətini "napoleon" sözünə yönəldərək soruşur:

Bu cümlədə "napoleon" sözünün mənası nədir?

Bəs bu adı daha harada eşitmisiniz?

Napoleon kimdir?

**Danışma**

**"Qlossari" rubrikası.** Şagirdlər bu rubrikada təqdim edilmiş "eponim" sözünün izahı ilə tanış olurlar.

**7-1.3.2. Tapşırıq a (dərslik).** Cavab: Eponim – hər hansı xüsusi isimdən – şəxs adı, coğrafi ad və s.-dən törəmiş ümumi və ya xüsusi isimdir. Məsələn, Rudolf Dizel mühəndisdir. O, yanacaq növü ixtira etmişdir. Bu yanacaq ixtiraçının şərəfinə "dizel" adlandırılıb. Ümumi isim olduğu üçün kiçik hərflə yazılır.

**Diferensial təlim.** Artıq bir neçə ildir ki, şagirdlərin qrafik informasiyanı rabitəli nitq şəklində təqdim edə bilmək bacarıqları inkişaf etdirilir. Müəllim tapşırığı yerinə yetirərkən bu bacarığı zəif olan şagirdləri eyni qrupa cəlb edir. Onlara tapşırığı asanlıqla yerinə yetirmək üçün suallar təqdim edilir. Şagirdlər suallara cavab verərək məlumat vərəqindəki məlumatları rabitəli mətnə çevirirlər.

Məsələn:

Rudolf Dizel kimdir? O nə ixtira etmişdir? Bu yanacaq nə üçün "dizel" adlandırılı? "dizel yanacağı" birləşməsində "dizel" sözü nə üçün kiçik hərflə yazılır?

**Tapşırıq b (dərslik).** Şagirdlər dörd qrupa ayrılırlar. Qrup üzvləri tapşırıqda verilmiş cədvələ uyğun qeydlər götürməklə mətni oxuyurlar. Götürdükləri qeydlər əsasında mətnin qısa məzmununu sinfə təqdim edirlər.

**Söz ehtiyatı**

**7-2.1.2. Tapşırıq c (dərslik).** Şagirdlər tapşırıqda verilmiş sözlər arasındakı məna fərqini izah edirlər.

Şagirdlərin cavabı təxminən belə ola bilər: "İkrah" sözü iyrənmə, "nifrət" isə adama, işə, hərəkətə və s.-yə qarşı dərin ikrah, kin, narazılıq hissi deməkdir. Müəllif "ikrah" sözü ilə parlament üzvlərinin Boykotun davranışından sanki iyrəndiklərini ifadə edir.

**Tapşırıq ç (dərslik).** Cavab: "İmtiyaz" sözü müstəsna hüquq, üstünlük, güzəşt mənasını verir.

**Tapşırıq d (dərslik).** Cavab: Şagirdlər mətndən "reformator" və "islahatçı" sözlərinin olduğu cümlələri oxuyub bu sözlərin sinonim olduğunu sübut edə bilərlər.

**Tapşırıq e (dərslik).** Cavab: Sözlərin tərkibindəki "re" morfemi yenidən mənasını verir.

**Tapşırıq ə (dərslik).** Cavab: b. Qədim yunan mifologiyasında Olimp ilahlarına qarşı döyüşən nəhəng məxluq

**Oxuyub-qavrama**

**7-2.3.5. Tapşırıq f (dərslik).** "Atlas" mətnində "Xəritələr toplusu" mənasını verən "atlas" sözünün yaranması haqqında müxtəlif fikirlər təqdim edilmişdir:

I versiya – Qədim yunan mifologiyasında böyük gücə malik Atlantın adından yaranmışdır.

II versiya – Afrika ölkələrindən birinin əfsanəvi kralı Atlasın adı ilə bağlıdır.

**Yazı**

**7-3.1.1. Tapşırıq g (dərslik).** Cavab:

Mətn üçün başlıq – Eponimlər

Mətnin giriş hissəsi üçün nümunə: Nitqimizdə şəxs adlarından yaranmış bir sıra eponimlər vardır ki, bu sözlərin etimologiyası çox maraqlıdır.

Mətnin hissələri arasında işlənə biləcək keçid cümlələrə nümunə: İlk daşıyıcısı tarixi şəxsiyyət olan daha bir eponim də "Mesenat"dır.

"Siluet" insan sifətinin yandan görünüşü deməkdir. Bəs, görəsən, insan cizgiləri niyə məhz siluet adlandırılıb?

Layihə

"Xəritələr toplusu" mənasını verən "atlas" sözünün etimologiyası da çox maraqlıdır.

Mətnin sonluq hissəsinə nümunə:

Göründüyü kimi müasir dövrdə istifadə etdiyimiz bir çox sözlər vaxtilə tarixi şəxs adı olub.

*İş dəftərində verilmiş tapşırıqları yerinə yetirməklə şagirdlər mətni oxuyub anladıqlarını nümayiş etdirirlər.*

**Tapşırıq a (iş dəftəri).** Cavab:

Soldan-sağa: 1. Mesenat 6. Atlantik

Yuxarıdan aşağı: 2. Atlas 3. Boykot 4. Siluet 5. Atlantida

**Tapşırıq b (iş dəftəri).** Cavab: 1 – D, 2 – A, 3 – B, 4 – C.

**Tapşırıq c (iş dəftəri).** Cavab:

Parlament üzvləri Çarlz Kanningem Boykotdan üz çevirmişdilər, ***çünki o öz həmvətənlərinə qarşı çıxmışdı.***

Avqustun hakimiyyət illəri latın ədəbiyyatının qızıl dövrü kimi tanınır, çünki ***həmin dövrdə mədəniyyət naziri funksiyasını yerinə yetirən Mesenat elm, ədəbiyyat, incəsənət adamları üçün dövlətdən xeyli imtiyazlar almışdı.***

Zadəganlar maliyyə naziri Etyen de Silueti lağa qoyub xəsis adlandırdılar, çünki o, ***qənaət üçün vergi sistemində islahat aparıb saray xərcləri və zadəganların təqaüdlərini azaltmaq niyyətində idi.***

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mövzu üzrə əldə edilən məlumatları açar sözlər şəklində qeyd edir və onların əsasında mətn qurub danışır. | Tap. **a, b** (D.) |
| Mətnə əsasən tanış olmayan sözlərin mənasını müəyyən edir. | Tap. **c, ç, d, e, ə** (D.) |
| Qeyri-bədii mətnləri struktur elementlərinə görə müqayisə edir. | Tap. **f** (D.) |
| İnformativ mətni düzgün strukturlaşdırıb yazır. | Tap. **g** (D.) |

## 2-ci dərs. Eponimlər haqqında təqdimat

• Dərslik: səh. 41 • İş dəftəri: səh. 19

**Təlim məqsədləri:**

**1.** Təqdimat materialında məzmunu aydın şəkildə strukturlaşdırır **(st. 7-3.2.4).**

**Mövzuya yönəltmə**

Müəllim şagirdlərə təqdimat materialını hazırlayarkən diqqət ediləcək məqamları xatırladır:

- Təqdimat bir neçə slayddan ibarət ola bilər.
- Slaydları verbal informasiya ilə yükləməmək üçün geniş cümlələrdən deyil, açar söz və birləşmələrdən istifadə etmək lazımdır;
- Slaydları cəlbedici etmək üçün vizual məlumatlardan da istifadə etmək məqsədəuyğundur.

**7-3.2.4. Tapşırıq a (dərslik).** Tapşırığın kompüterlə təchiz olunmuş otaqda icra olunması tövsiyə olunur. Qrup üzvləri dərsliyin 38-ci səhifəsində "b" tapşırığında verilmiş cədvələ uyğun yaddaş xəritəsi hazırlaya bilərlər. Sinfə təqdim edərkən isə qeydlərini genişləndirərək bu haqda ətraflı danışırlar. Şagirdlər digər qrupların hazırladığı slaydlar haqqında rəy bildirirlər.

**Tapşırıq a (iş dəftəri).** Cavab:

Adın ilk daşıyıcısı: Mavsol adlı hökmdar

Dövr: E.ə. 377-ci ildə

Məkan: Kiçik Asiyanın cənub-şərqi

Müasir dövrdə mənası: mavzoley – dəbdəbə ilə bəzədilmiş böyük məqbərə

**Tapşırıq b (iş dəftəri).** Cavab:

**"Mavzoley"** sözü Halikarnas şəhərində ucaldılmış **sərdabə**nin adı ilə bağlı yaranıb. Hal-hazırda dəbdəbəli, böyük **məqbərələr** mavzoley adlanır.

**Tapşırıq c (iş dəftəri).** Cavab:

c. "Mavzoley" sözünün etimologiyasını izah etmək

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Təqdimat materialında məzmunu aydın şəkildə strukturlaşdırır. | Tap. **a** (D.) |

Layihə

## 3-cü dərs. “Gəncə şəhərinin tarixi adları” haqqında təqdimat

• Dərslik: səh. 42 • İş dəftəri: səh. 20

**Təlim məqsədləri:**

**1.** Təqdimat materialında qrafik informasiyadan (şəkillərdən, cədvəllərdən) istifadə edir **(st. 7-3.2.4).**

**Mövzuya yönəltmə**

Müəllim yönəldici suallarla şagirdlərin diqqətini mövzuya yönəldir:

– Gəncə şəhəri haqqında nə bilirsiniz?

**7-3.2.4. Tapşırıq a (dərslik).** Şagirdlərin diqqəti təlimata yönəldilir. Təlimatda təqdimatın planı verilmişdir. Şagirdlər təqdimatın hər bir slaydında yer alacaq məlumatlarla tanış olurlar. Təqdimatın mövzusu müzakirə edilir. Bəzi açar söz və ifadələrin mənası izah edilir.

Toponim – hər hansı bir yerin, coğrafi ərazinin xüsusi adı; coğrafi ad; məsələn: Qafqaz, Muğan, Şəki və.s

**Müəllimin nəzərinə!** Şagirdlərə aşağı siniflərdə öyrəndikləri xronoloji ardıcıllıq haqqında xatırlatma etmək məqsədəuyğundur. Onlar tarixi hadisələri baş vermə ardıcıllığı ilə təqdim etməlidirlər. Tapşırıq qruplarla da yerinə yetirilə bilər. Bu zaman qrup üzvləri arasında vəzifə bölgüsü müəyyənləşdirilməlidir.

**Tapşırıq b (dərslik).** Şagirdlərə aşağıdakı formatda qiymətləndirmə vərəqi təqdim edilir. Onlar yoldaşlarının təqdimatını dinləyərkən vərəqdə qeydlər götürür. Həmin qeydlərinə əsasən təqdimata rəy bildirirlər.

| Meyarlar | Bəli | Qismən | Xeyr | Xüsusi qeyd |
|---|---|---|---|---|
| Slaydların məzmunu plana uyğundur. | | | | |
| Slaydlarda qrafik informasiyadan (cədvəl, şəkil) istifadə edilib. | | | | |
| Slaydların dizaynı cəlbedicidir. | | | | |
| Məlumatlar qısa və konkretdir. | | | | |
| Məlumatlar xronoloji ardıcıllıqla verilib. | | | | |
| Təqdimat edən şəxsin nitqi təmiz, aydın və rəvandır. | | | | |

**Yazı**

**Tapşırıq a (iş dəftəri).** Tapşırıq şagirdlərdə arqumentativ mətn yazmaq bacarığını inkişaf etdirir. Şagirdlər şifahi şəkildə yazacaqları mətnin mövzusunu, məqsədini, strukturunu müzakirə edirlər. Onlar artıq Gəncə şəhərinin adı haqqında araşdırma aparıb təqdimat hazırlayıblar. İndi isə həmin məlumatlara istinad edərək yazı bacarıqlarını inkişaf etdirirlər.

**Mövzu:** Gəncə şəhərinin tarixi adı

**Mətnin növü:** Arqumentativ

**Mətni yazmaqda müəllifin məqsədi:** Toponimlərimizin müxtəlif dövrlərdə dəyişdirilməsinin səbəbləri və milli adların qorunmasının vacibliyini sübut etmək.

**Strukturu:** Şagirdlər mətnin giriş hissəsində mövzu ilə bağlı problemi açıqlayırlar. Bu problemə öz baxışlarını bildirirlər. Mətnin əsas hissəsində bu fəsildə aldıqları məlumatları, bilgiləri, faktları arqument kimi istifadə edərək fikirlərini əsaslandırmağa, sübut etməyə çalışırlar. Mətnin nəticə hissəsində mövzu ilə bağlı ümumiləşdirici fikir söyləyirlər.

**Esseyə nümunə:**

***Gəncə şəhərinin tarixi adları***

Azərbaycanın ən böyük şəhərlərindən biri də Gəncədir. Tarixdəki dəyişikliklər şəhərin adına təsir etmiş, şəhərin adı dəfələrlə dəyişdirilmişdir. Əlbəttə, toponimlərin zaman-zaman dəyişdirilməsinin müxtəlif səbəbləri var. Bunlardan biri də istila, işğaldır.

1804-cü ildə Gəncə şəhəri rus qoşunları tərəfindən işğal edildi və bununla da Gəncə xanlığı ləğv olundu. Şəhərin adını tarixdən silmək üçün Gəncə çar I Aleksandrın həyat yoldaşı Yelizavetanın adı ilə Yelizavetpol adlandırıldı. Gəncə sözünü işlədənin bir qızıl cərimə olunması barədə fərman da verildi.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yarandı və hökumətin 30 iyul 1918-ci il tarixli qərarı ilə Yelizavetpolun tarixi adı – Gəncə bərpa edildi və 1935-ci ilə qədər belə adlandırıldı. Lakin bu illərdə Azərbaycan Sovet hakimiyyətinin əsarəti altında idi. 1935-ci ildə Gəncənin adı dəyişdirilərək Sergey Ki-

Layihə

rovun adı ilə Kirovabad adlandırıldı.

Nəhayət 54 il sonra 30 dekabr 1989-cu ildə Gəncə şəhərinin adının özünə qaytarılması haqqında qərar qəbul edildi. Qərarda deyilirdi: "Gəncənin tarixi adını bərpa etmək haqqında şəhər vətəndaşlarının, əmək kollektivlərinin və respublikanın geniş ictimaiyyətinin çoxsaylı müraciətini, Kirovabad Şəhər Xalq Deputatları Sovetinin xahişini nəzərə alaraq və Azərbaycan SSR Konstitusiyasının 114-cü maddəsinə (18-ci bənd) uyğun olaraq "Kirovabad şəhəri Gəncə şəhəri adlandırılsın".

Tarix boyu azadlıq, istiqlaliyyət uğrunda mübarizə aparan, qurbanlar verən qədim və qəhrəman Gəncə şəhərinin adının bərpası ilə tarixi ədalətsizlik bərpa edildi.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Təqdimat materialında qrafik informasiyadan (şəkillərdən, cədvəllərdən) istifadə edir. | Tap. a (D.) |

## 4-cü dərs. Sadə və mürəkkəb söz birləşmələri

• Dərslik: səh. 43 • İş dəftəri: səh. 21

**Təlim məqsədləri:**

**1.** Söz birləşmələrini tərkibi sözlərdən və qoşma ilə işlənən sözlərdən fərqləndirir **(st. 7-4.2.3).**

**2.** Sadə və mürəkkəb söz birləşmələrini fərqləndirir **(st. 7-4.2.3).**

**Mövzuya yönəltmə**

**7-4.2.3. Tapşırıq a (dərslik).** Şagirdlər tapşırıqda qoyulmuş uyğunluğu müəyyən edir, söz birləşmələri, tərkibi sözlər və qoşma ilə işlənən sözlər haqqında biliklərini xatırlayırlar.

**Dil qaydaları**

**"Yadda saxla" rubrikası.** Rubrikada sadə və mürəkkəb söz birləşmələri haqqında verilmiş məlumat və nümunələr şərh olunur.

**7-4.2.3. Tapşırıq b (dərslik).** Cavab:

| Sadə söz birləşməsi | Mürəkkəb söz birləşməsi |
|---|---|
| xoşbəxtlik arzu etmək | otaqları silib-süpürmək |
| yaxşıca istirahət etmək | uşaqların şən səsləri |
| səhərə kimi çalışmaq | uşaqların hüquqlarını qorumaq |
| daha dərindən öyrənmək | çoxlu kitab oxumaq |
| yaxından tanış olmaq | beş min əsgər |
| | Şuşanın şüşə kimi təmiz havası |

**Tapşırıq c (dərslik).** Cavab:

1. Azərbaycanın məşhur milli bayramı olan (hansı?)

2. Günəş uca dağların arxasında gizlənəndə (nə vaxt?)

3. Şagirdlərimizin yazıb-yaratmaq həvəsini (nəyi?)

4. Qədim xalq adətinə görə (nəyə görə?), yalnız müəyyən şücaət göstərdikdən sonra (nə vaxt?) hər hansı ad sahibi ola bilərdilər (nə edərdilər?)

5. Təbiətlə mübarizədə aciz qalan (hansı?), insanlara yazığı gəldiyinə görə (nə üçün?) göydən od oğurlayaq (necə?)

*İş dəftərində təqdim edilmiş tapşırıqlar şagirdlərin sadə və mürəkkəb söz birləşmələri haqqında aldıqları biliklərin möhkəmləndirilməsinə xidmət edir.*

**7-4.2.3. Tapşırıq a (iş dəftəri).** Cavab:

| Mürəkkəb söz | Qoşmalı söz | Ədatla işlənmiş söz | Söz birləşməsi |
|---|---|---|---|
| kəklikotu | qəhrəman kimi | lap uzaqdan | ev sahibləri |
| heç kim | qonaqlar üçün | ən işgüzar | sözün qüdrəti |
| yaza bilmək | uşaqlardan savayı | olduqca maraqlı | durna qatarı |
| üç yüz əlli | | | qış yuxusundan oyanmaq |

**Tapşırıq b (iş dəftəri).** Cavab:

Atın qızılı saplarla bəzədilmiş yəhəri, bizim gündən-günə çiçəkləyən müstəqil ölkəmiz, ağacın ətrafa sərinlik gətirən kölgəsi, Qarabağın qəhrəmanlıqla dolu tarixi

**Tapşırıq c (iş dəftəri).** Cavab: Hərtərəfli təhqiqat aparanda, Azərbaycanın üçrəngli bayrağını

Layihə

qorumaq, səhərdən pıçıltı ilə söhbət edən, Zeynalabdin Tağıyev kimi yardım eləmək, islanmış otların üstündə gəzdikcə

**Tapşırıq ç (iş dəftəri).** Cavab: 1, 4, 5

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Söz birləşmələrini tərkibi sözlərdən və qoşma ilə işlənən sözlərdən fərqləndirir. | Tap. **a** (D.); **a** (İ.D.) |
| Sadə və mürəkkəb söz birləşmələrini fərqləndirir. | Tap. **b, c** (D.); **b, c, ç** (İ.D.) |

# 3-cü fəsil

## 1-ci dərs. Pollianna

• Dərslik: səh. 44-46 • İş dəftəri: səh. 22

**Təlim məqsədləri:**

**1.** Dialoqlar əsasında obrazların xarakteri haqqında fikir yürüdür **(st. 7-2.3.1).**

**2.** Baş qəhrəmanın xarakterindəki əsas cəhəti müəyyənləşdirir və onu mətnin ideyası ilə əlaqələndirir **(st. 7-2.3.1).**

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik).** Cavab: Müəllim şagirdlərin diqqətini tapşırıqdakı atalar sözünə yönəldir. Atalar sözündə bədii təsiri gücləndirmək məqsədilə antitezadan istifadə edilib, yəni əks mənalı fikirlər, anlayışlar qarşı-qarşıya qoyulub.

**Oxuyub-qavrama**

**7-2.3.1. Tapşırıq b, c (dərslik).** "Pollianna" mətni hissələrlə təqdim edilmişdir. Şagirdlər hər hissə ilə tanış olduqdan sonra istiqamətləndirici suallara cavab verirlər. Obrazların davranışlarından çıxış edərək onların xarakterləri haqqında ilkin fikirlərini və ya təxminlərini söyləyirlər.

**Tapşırıq ç (dərslik).** Bədii portret bədii əsərdə surətlərin zahiri görünüşünün təsviridir. Ədəbi əsərdə personajın xarakterini daha dərindən açmaq məqsədilə onun xarici görkəminin təsviri verilir. Portretdə surətin boyu, görkəmi, üz cizgiləri, geyimi, mimika və jestləri təsvir oluna bilir.

Cavab nümunəsi:

Pollianna 10-11 yaşında sarışın, zərif, uzunsaçlı qız idi. Üzündəki xırda çillər ona xüsusi gözəllik verirdi. Pollianna öz səmimiliyi və mehribanlığı ilə hamı ilə anında dostlaşırdı. Polliannanın şən xarakteri ətrafdakılara da xoş təsir edirdi. Ondan fərqli olaraq miss Polli çox soyuq, qaşqabaqlı bir insan idi. Xidmətçi Nensinin dediyi kimi daşqəlbli idi. Uşaqları sevməzdi. Onun ciddi, məsafəli davranışı ətrafdakılara da pis təsir edərdi. İnsanlar onunla münasibət qurmaqdan çəkinərdilər.

**Tapşırıq d (dərslik).** Mətnin bir neçə epizodundan aydın görünür ki, qarşılaşdığı xoşagəlməz hadisələr, əslində, Polliannanı kədərləndirir. Lakin o bunu ətrafdakılardan gizlədir. Məsələn, Pollianna vağzalda onu qarşılamağa gələn xidmətçinin miss Polli olduğunu zənn etmişdi. Yanıldığını biləndə o, əvvəlcə bir qədər tutulur, amma bunu büruzə vermir. Və yaxud xalası ona çardaqda yer

Layihə

ayırdığını bildirir. Pollianna otağı bəyəndiyini söyləsə də, xalası gedəndən sonra otağının çılpaq divarlarına, döşəməsinə baxır, dizi üstə yerə çöküb əlləri ilə üzünü örtür, kədərlənir.

**Tapşırıq e (dərslik).** Cavab: Pollianna optimist, nikbin insandır. Hər xoşagəlməz hadisədə müsbət bir tərəf tapır, hər şərin bir xeyir tərəfi olduğuna inanır. Eleanor Porterin "Pollianna" əsərinin əsas ideyası da məhz belədir: "Hər zərərdə bir xeyir vardır".

**Tapşırıq ə (dərslik).** Cavab: Mətnin əsas ideyası, əsasən, Pollianna ilə xidmətçi Nensi arasındakı dialoqda açılır. Pollianna atasının ona öyrətdiyi "Məmnun olmaq" oyunu haqqında Nensiyə danışır, oyunun şərtlərini izah edir. Əslində, ən kədərli anlarda da sevinməli bir məqam tapmaq o qədər də asan deyil. Çətin vaxtlarda insanın kədərlənməsi onun həmin anda keçirdiyi əhvaldır, lakin çətin anlarda nikbinlik göstərmək, həqiqətən də, iradə tələb edir.

**Tapşırıq a (iş dəftəri).** Cavab:

| Fikirlər | Mətndən epizodlar |
|---|---|
| Miss Polli özünü məsuliyyətli insan hesab edirdi. | Bəli. Miss Polli Polliannaya baxmağı özünə borc bilir və qeyd edir ki, bunun üçün ondan asılı olan hər şeyi edəcək. Miss Pollinin nitqindən: "Bacım vəfat edəndən sonra bu mənim borcumdur. Mən isə borcumu həmişə yerinə yetirirəm..." |
| Miss Polli istiqanlı və mehriban insan idi. | Xeyr. Miss Polli çox soyuq, məsafəli bir insan idi. 11 il görmədiyi bacısı qızını qarşılamağa belə getmir. Onu çox soyuq qarşılayır. |
| Nensi həssas və qayğıkeş qadın idi. | Bəli. Nensi həmişə Pollianna ilə maraqlanır, ona kömək etməyə can atırdı. Nensi Polliannanı vağzalda qarşılayır, çardaqda yerləşməsinə yardım edir. |
| Pollianna kasıb bir ailədə böyümüşdü. | Bəli. Mətnin sonunda Pollianna Nensiyə "Məmnun olmaq" oyunu haqda danışanda qeyd edir ki, xeyriyyə cəmiyyətindən hədiyyə gözləyirdi. Deməli, xeyriyyə cəmiyyətinin yardım etdiyi imkansız ailələrdən biri də onlar idi. |

**Tapşırıq b (iş dəftəri).** Cavab:

Miss Pollinin bacısı ilə münasibəti soyuq idi, **çünki onun fikrincə, ərə getmək axmaqlıq idi.**

Xidmətçi Nensi miss Pollinin qarasınca deyinirdi, **çünki o, evdə çoxlu otaq olmasına baxmayaraq Polliannaya çardaqda yer ayırmışdı.**

Pollianna teleqramda dəqiq təsvir edilmişdi, **ona görə də xidmətçi Nensi onu vağzalda asanlıqla tanıyır.**

Otağında güzgünün olmaması Polliannanı məyus etmədi, **çünki o üzündəki çilləri görüb kədərlənməyəcəkdi.**

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dialoqlar əsasında obrazların xarakteri haqqında fikir yürüdür. | Tap. b, c, ç, d (D.) |
| Baş qəhrəmanın xarakterindəki əsas cəhəti müəyyənləşdirir və onu mətnin ideyası ilə əlaqələndirir. | Tap. e, ə (D.) |

## 2-ci dərs. "Pollianna"

• Dərslik: səh. 46 • İş dəftəri: səh. 23

**Təlim məqsədləri:**

**1.** Mətni təxəyyülünə uyğun dəyişdirir, genişləndirir, davam etdirir (st. 7-2.3.6).

**Mövzuya yönəltmə**

Frontal sorğu vasitəsilə "Pollianna" mətninin məzmunu xatırlanır.

**Oxuyub-qavrama**

**7-2.3.6. Tapşırıq a (dərslik).** Tapşırıq şagirdlərin yaradıcı təfəkkürünü inkişaf etdirir. İlk əvvəl şagirdlər qruplara ayrılır. Şagirdlərin diqqəti tapşırığa



Lay!hə

çəkilmiş illüstrasiyalara və plana cəlb edilir. Şagirdlər Polliannanın xarakterini nəzərə alaraq mətnin məzmununa uyğun epizodlar düşünüb danışırlar.

Şagirdlər artıq “Pollianna” mətnini oxuyub analiz ediblər. Baş qəhrəmanın – Polliannanın xarakterinə bələddirlər. O, nikbin insandır. Həmişə kədərli anlarda da sevinməli bir məqam tapır. Pollianna bu xarakteri ilə xanım Snou və mister Cona necə yardım edir?

Qruplar genişləndirdikləri epizodu sinfə təqdim edirlər.

**Dinləmə**

**Tapşırıq b (dərslik).** Müəllim “Pollianna” əsərindən tapşırıqda verilmiş illüstrasiyalara aid hissələri səsləndirir. Şagirdlər bu hissələri dinləyir və öz variantları ilə müqayisə edirlər.

***Pollianna və xanım Snou***

*Miss Polli missis Snou adlı yoxsul, xəstə yatan bir qadına hər cümə axşamı yemək göndərirdi.*

*Bir gün xanım Snouya yeməyi Pollianna apardı. O, xəstənin otağına daxil olub qayğıkeşliklə soruşdu:*

*– Necəsiniz, xanım Snou? Polli xala bu gün sizin üçün ət qızartması hazırlatdırıb.*

*Qadın boğuq və acıqlı səslə dilləndi:*

*– İştaham yoxdur. Bütün gecəni yata bilməmişəm. Həm də bu gün bozbaş istəyirdim.*

*Pollianna şən səslə dedi:*

*– Bilirsiniz, mən yuxunu qətiyyən sevmirəm. Yatmaq əvəzinə gözəl işlərlə məşğul olmaq daha yaxşıdır. Yatmaq yaşamaq deyil. Yaşamaq işləmək, yaratmaqdır.*

*Qadın dodaq altından “Əcəb qəribə uşaqdır” deyə donquldandı, sonra dedi:*

*– Bu pəncərəni aça bilərsən? Yoxsa qaranlıqda üzünü görə bilmirəm.*

*Pollianna pərdəni çəkə-çəkə dedi:*

*– Yəqin, artıq üzümdəki çilləri görürsünüz. Mən də sizi yaxşı görürəm. Mənə sizin bu qədər gözəl olduğunuzu deməmişdilər!*

*Qadın qəmli-qəmli dilləndi:*

*– Kimdir gözəl? Mənmi?*

*– Əlbəttə, siz. Bəyəm özünüz bunu bilmirdiniz?*

*– Yox, bilmirdim.*

*– Məncə, saçlarınız və gözləriniz daha gözəldir. İkisi də qapqaradır. Hələ çəhrayı yanaqlarınızı demirəm. Amma mənə qəribə gəlir ki, siz indiyədək güzgüyə baxanda bütün bunları görməmisiniz!*

*Xəstə qadın dərindən köks ötürərək dedi:*

*– Əgər sən də mənim kimi bütün günü arxası üstə yatsaydın, yəqin, güzgüyə baxmaq bir dəfə də olsun ağlına gəlməzdi.*

*Pollianna qadının dağınıq saçlarını daradı, onun üst-başını qaydaya saldı. Güldandakı çəhrayı güllərdən birini götürüb xanım Snounun saçına taxdı. Daha sonra güzgünü qadına doğru tutdu. Xanım Snou güzgüyə heyrətlə baxırdı! Sanki özünü ilk dəfə görürdü. Birdən qadın yenə qaşqabaq tökdü:*

*– Çəhrayı gülün əvəzinə qırmızı gül olsaydı, daha yaxşı olardı. Heç bunun da fərqi yoxdur, onsuz da hər ikisi axırda solacaq.*

*– Sizin yerinizə olsaydım, çiçəklərin solmasına sevinərdim. Çünki onlar solduqdan sonra yerində təzə-tər güllər olacaq. Saçlarınızı pis daramamışam, elə deyilmi?*

*– Hə, pis deyil. Onsuz da yataqda o üz-bu üzə çevrildikcə yenidən dağılacaq.*

*– Məncə, saçlarınızın qara rəngdə olmasına sevinməlisiniz. Çünki qara saçlar ağ yastığın üstündə daha da gözəl görünür. Yoxsa mənimki kimi sarı saçlar nəyə lazımdır axı?!*

*Qadın özü də fərqində olmadan Pollianna sayəsində uzun müddətdən sonra ilk dəfə idi ki, xəstəlik yox, başqa şeylər haqqında danışırdı. Sanki həmişəki deyingən, zəhlətökən qadın deyildi.*

***Əsrarəngiz adam***

*Pollianna tez-tez yaxınlıqdakı parka gedərdi. Hər dəfə qara paltolu adamla rastlaşardı. Hər dəfə də onunla ünsiyyət qurmağaçalışardı. Növbəti dəfə qarşılaşanda şən səslə ona salam verdi:*

*– Bu gün hava bir o qədər də gözəl deyil. Yaxşı ki, yağış hər gün yağmır. Bax buna görə də sevinməyə dəyər!*

*Qara paltolu adam acıqlı səslə dilləndi:*

*– De görüm, niyə sən mənimlə danışmaq üçün bu qədər inad edirsən? Yadında saxla ki, hamı sənin kimi yalnız havanın necə olduğu haqqında düşünmür. Mənə gəldikdə isə hava günəşlidir, yoxsa yağışlı, əsla fərqində deyiləm.*

*– Elə siz fərqində olmadığınız üçün xəbər vermək istəyirəm. Əgər bu gün hava yağışlıdırsa, qəm yeməyə dəyməz. Bu o deməkdir ki, sabah hava günəşli olacaq.*

*– Bura bax görüm, balaca, nə üçün sən özünə yaşıdların arasından dost tapmırsan?*

*– Bilirsiniz, ətrafımda mənimlə yaşıd olan bir nəfər də uşaq yoxdur. Düzünə qalsa, heç mən də*

Layihə

*bunu çox arzulamıram. Böyüklərlə mənimki daha yaxşı tutur. Onlarla söhbət etməkdən zövq alıram.*

*Qara paltolu adam dillənmədi. Həmişəki kimi, iri və sərt addımlarla qızın yanından uzaqlaşdı.*

*Aradan bir neçə gün keçdi. Onlar yenidən rastlaşdılar. Amma bu dəfə söhbətə qara paltolu kişi başladı:*

*– Necəsən, balaca dost? Bu gün hava haqqında məlumata ehtiyacım yoxdur. Çünki günəşli bir gün olduğunu artıq özüm də bilirəm.*

*– Sizi görən kimi bunu bildiyinizi anladım. Üzünüzdəki təbəssüm və gözlərinizdəki işıqdan hər şey məlumdur.*

*Kişi ucadan qəhqəhə çəkdi. Başqa heç nə deməyib yoluna davam etdi.*

*Sonra qara paltolu adam nə vaxt Pollianna ilə qarşılaşsa, hal-əhval tutar, onun könlünü xoş edəcək bir neçə kəlmə deyərdi.*

*Bir dəfə Nensi Pollianna ilə yaşlı kişinin söhbət etdiyini görüb heyrətləndi:*

*– Gözlərimə inana bilmirəm, kiçik xanım. Hələ də o adamın səninlə danışması mənə yuxu kimi görünür. Sən bilirsənmi, o kimdir? Adı Con Pendeltondur. Bu adam heç kimlə danışmır. Baxmayaraq ki, şəhərin ən varlı şəxsidir, lakin evində nə yemək bişirən, nə də təmizlik işlərini görən xidmətçisi var. Ona görə də gündə üç dəfə şəhərə gəlir, buradakı kafelərdən birində qarnını doyurub geri qayıdır. Bəziləri cənab Pendeltonu dəli hesab edir. Bəziləri isə belə düşünür ki, o, həyatdan küsmüş bir adamdır. Bu fikirlərdən hansı doğrudur, demək çətindir. Amma bir şey dəqiqdir ki, Con Pendelton heç kimlə danışmır, ünsiyyət yaratmır.*

*– Sağ ol, Nensi. Söylədiklərindən cənab Pendelton haqqında çox şey öyrəndim. İndi başa düşürəm ki, o mənimlə danışdığına görə özümü bəxtəvər hesab edə bilərəm.*

**Tapşırıq a (iş dəftəri).** Şagirdlər "Pollianna" əsərindən dinlədikləri parçalara əsasən yaddaş xəritəsi hazırlayırlar. Mətni dinləyib anladıqlarını nümayiş etdirirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətni təxəyyülünə uyğun dəyişdirir, genişləndirir, davam etdirir. | Tap. a (D.) |

## 3-cü dərs. "Pollianna sindromu"

• Dərslik: səh. 47-49 • İş dəftəri: səh. 24

**Təlim məqsədləri:**

**1.** Mətndə rast gəlinən söz və ifadələrin üslubi xüsusiyyətlərini izah edir **(st. 7-2.3.4).**

**2.** Qeyri-bədii mətnlərin struktur elementlərini (fikir, arqument, dəlil və s.) müəyyənləşdirir **(st. 7-2.3.3).**

**3.** Kontekstdən çıxış edərək tanış olmayan sözlərin mənasını müəyyən edir **(st. 7-2.1.2).**

**4.** Bədii və qeyri-bədii mətnləri dil-üslub xüsusiyyətlərinə görə müqayisə edir **(st. 7-2.3.5).**

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik).** Tapşırıq şagirdlərin diqqətini mövzuya yönəldir. Şagirdlər aşağı siniflərdə rəmzə çevrilmiş adlar haqqında məlumat alıblar. Hacı Qara xəsislik, Herakl güc, Pollianna isə nikbinliyin simvoludur.

**"Diqqət et" rubrikası.** Müəllim rubrikada rəmzi adlarla eponimlərin fərqini izah edir.

**7-2.3.4. Tapşırıq b (dərslik).** Cavab: Pollianna hər şərdə bir xeyir tapan bədii obrazdır, nikbinlik simvoludur. "Sindrom" sözü də vaxtilə baş vermiş hadisəyə və ya məşhurlaşmış varlığa bənzər hadisə və varlığı adlandırmaq üçün işlədilən ifadədir. Polliannanın xarakterinə bənzərliyi ifadə etmək üçün istifadə edilir. "Pollianna sindromu" ifadəsi lüğətlərdə bir leksik vahid kimi təqdim olunur. Mənası "ifrat nikbinlik" deməkdir.

**Oxuyub qavrama**

**7-2.3.3. Tapşırıq c (dərslik).** Şagirdlər istiqamətləndirici suallarla tanış olur və mətni oxuyaraq bu suallara cavab verirlər.

Mətnin giriş hissəsində qaldırılan problemlə bağlı müəllifin mövqeyi nədən ibarətdir?

Mətnin giriş hissəsində qeyd edilir ki, bəzi insanlar ətrafda baş verən hadisələrə həddindən artıq nikbinliklə yanaşırlar. Psixoloqlar bunu patologiya hesab edir, belə pasiyentlərinə "Pollianna sindromu" diaqnozunu qoyurlar. Mətnin əsas hissəsində müəllif bu haqda öz mövqeyini bildirir: "Psixologiya elmi sübut edir ki, acı həqiqəti giz-

Layihə

lətməklə daim pozitivlik nümayiş etdirən insan qısa müddət ərzində özünü yaxşı hiss etsə də, sağlamlıq baxımından ciddi problemlərlə üzləşə bilər".

2) Müəllif mövqeyini əsaslandırmaq üçün hansı arqumentlərdən istifadə edir?

Müəllif Pollianna sindromunun fəsadlarını sadalayaraq mövqeyini əsaslandırır.

**Söz ehtiyatı**

**7-2.1.2. Tapşırıq ç (dərslik).** Cavab: "Pozitiv" və "neqativ" sözləri antonimdir.

**Tapşırıq d (dərslik).** Cavab: 1 – konsepsiya, 2 – diaqnoz, 3 – patologiya, 4 – psixologiya, 5 – personaj.

**Tapşırıq e (dərslik).** Cavab: 1 – c, 2 – a, 3 – b.

Bu morfemlərin iştirak etdiyi sözlərə nümunələr:

Kardiologiya – tibb elminin ürək xəstəliklərini tədqiq edən bölməsi.

Kardioloq – ürək xəstəlikləri mütəxəssisi olan həkim.

Kardioloji – ürəyə aid olan.

**Tapşırıq a (iş dəftəri).** Cavab:

Soldan-sağa: 3. patologiya 6. psixologiya 7. neqativ 8. diaqnoz

Yuxarıdan aşağı: 1. konsepsiya 2. sindrom 4. personaj 5. pozitiv

**Oxuyub qavrama**

**7-2.3.2. Tapşırıq ə (dərslik).** Tapşırıq şagirdlərin arqumentativ mətnlərin strukturu haqqında aldıqları bilikləri möhkəmləndirməyə imkan yaradır.

• Mətnin giriş hissəsində mövzu ilə bağlı problem açıqlanır: Bəzi insanlar ətrafda baş verən hadisələrə həddindən artıq nikbinliklə yanaşırlar. Psixoloqlar bunu patologiya hesab edir, belə pasiyentlərinə "Pollianna sindromu" diaqnozunu qoyurlar.

• Əsas hissənin ilk abzasında mövzu ilə bağlı ətraflı məlumat verilir: "Pollianna sindromu" konsepsiyası haqqında ətraflı məlumat verilir.

• Müəllif elmi nəticələrə əsaslanaraq problemlə bağlı fikir bildirir: Psixologiya elminə əsaslanaraq fikirlər söyləyir.

• Müəllif fikrini əsaslandırmaq üçün arqumentlər gətirir: Pollianna sindromunun xüsusiyyətləri və fəsadları haqqında arqumentlərlə çıxış edir.

• Müəllif mövqeyi qətiləşdirilir və oxucuya tövsiyələr verilir: İnsan xoşbəxt olmaq istəyirsə, hadisələrə real yanaşmağı öyrənməlidir.

**7-2.3.5. Tapşırıq f (dərslik).** Cavab: "Pollianna" mətni bədii mətndir. Burada məcazi mənalı sözlərdən istifadə edilmişdir ki, bu da öz növbəsində nitqdə emosionallıq yaratmışdır. Hadisələr müəllifin təxəyyülə uyğun təsvir edilmişdir. "Pollianna sindromu" isə qeyri-bədii mətndir. Burada terminlərdən geniş istifadə olunmuşdur. Müəllif fikirlərini məntiqi ardıcıllıqla əks etdirmişdir. Məlumatların bir hissəsini verbal-qrafik informasiya vasitəsilə çatdırmışdır.

**Tapşırıq b (iş dəftəri).** Cavab:

| ***Pollianna sindromunun xüsusiyyətləri*** | ***Polliannanın həmin xüsusiyyətləri büruzə verdiyi epizodlar*** |
|---|---|
| Reallığı obyektiv şəkildə dəyərləndirmir: həyatdakı problemləri inkar edir və ya kiçildir. | Xalasının onu sevmədiyini qəbul etmir. "Məmnun olmaq" oyunu ilə problemləri yox hesab edir. |
| Mənfi emosiyaları qəbul etməkdən çəkinir və ya onları gizlədir. | Pollianna otağı bəyənmədiyini gizlətdi, lakin xalası gedəndən sonra diqqətlə otağının çılpaq divarlarına, döşəməsinə baxdı və dizi üstə yerə çöküb əlləri ilə üzünü örtdü. |

**Yazı**

**Tapşırıq c (iş dəftəri).** Şagirdlərin Pollianna obrazına yazdıqları məktuba nümunə:

Salam, əziz Pollianna. Bu məktubu səninlə yenicə tanış olan oxucun Məleykə yazır.

Əvvəlcə onu qeyd edim ki, "Pollianna" əsərini oxuduğum və səninlə tanış olduğum üçün çox şadam. Pozitiv insanları çox sevirəm. Düşünürəm ki, nikbinlik insana uğur gətirir, işlərin qaydasında gedir.

Bu günlərdə isə bir məqalə oxudum. Sən demə, ətrafda baş verən hadisələrə həddindən artıq nikbinliklə yanaşmağı psixoloqlar patologiya hesab edirlər. İfrat nikbinlik sağlamlıq üçün təhlükə yarada bilər. Emosiyaların cilovlanması, büruzə verilməməsi daxili narahatlıq, stress, depressiya yaradır.

Əziz Pollianna, düşünürəm ki, insan kədərli olarkən bunu gizlətməyə çalışmamalıdır. Sevinc, xoşbəxtlik kimi kədər, qorxu və s. mənfi hisslər də insana xas olan duyğulardır. Sən də hisslərini gizlətmə.

*Hörmətlə, Məleykə Mirzəyeva*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndə rast gəlinən söz və ifadələrin üslubi xüsusiyyətlərini izah edir. | Tap. **b** (D.) |
| Qeyri-bədii mətnlərin struktur elementlərini (fikir, arqument, dəlil və s.) müəyyənləşdirir. | Tap. **c, ə** (D.); **b** (İ.D.) |
| Kontekstdən çıxış edərək mətndəki sözləri izahlarla uyğunlaşdırır. | Tap. **ç, d** (D.); **a** (İ.D.) |
| Bədii və qeyri-bədii mətnləri dil-üslub xüsuisyyətlərinə görə müqayisə edir. | Tap. **f** (D.) |

## 4-cü dərs. Herostrat sindromu

• Dərslik: səh. 49

**Təlim məqsədləri:**

**1.** Dinlədiyi mətndən götürdüyü qeydləri yaddaş xəritəsi üzrə qruplaşdırır **(st. 7-1.1.1).**
**2.** Öyrəndiyi dil qaydalarını yazısında tətbiq edir **(st. 7-3.1.2).**
**3.** Yazıda problemlə bağlı mövqeyini əsaslandırmaq üçün arqumentlərdən istifadə edir **(st. 7-3.2.2).**

**Mövzuya yönəltmə**

Müəllim şagirdlərə “eponim” və “sindrom” sözlərinin mənasını xatırladır.

**Dinləmə**

**7-1.1.1. Tapşırıq a (dərslik).** Müəllim “Herostrat sindromu” mətnini səsləndirir.

***Herostrat sindromu***

*Efes şəhərində ovçuluq ilahəsi Artemisin şərəfinə tikilmiş məbəd dünyanın yeddi möcüzəsindən biri sayılır. Eramızdan əvvəl 356-cı il iyulun 21-də Herostrat adlı bir şəxs bu məbədə od vurdu. Herostrata iki cəza kəsdilər: birincisi, ölüm cəzası, ikincisi, əbədi olaraq unudulmaq cəzası. Carçılar yunan şəhərlərini gəzir və insanları xəbərdar edirdilər: “Yolunu azıb ilahəyə hörmətsizlik etmiş bu adamın adını xatırlamağa cəsarət etməyin!” Amma yunan tarixçisi Feopomp Herostratın cinayətini yazıya almış və bununla da onun adını əbədiləşdirmişdir. Onun yazdığına görə, Herostrat işgəncələr altında bildirib ki, məbədi tarixə düşmək və gələcək nəsillərin yaddaşında qalmaq üçün yandırıb.*

*Həmin vaxtdan Herostrat təkəbbür, şöhrətpərəstlik simvoluna çevrilib. Ad çıxarmaq üçün ən çirkin əməllərdən belə çəkinməyən insanları ona bənzədirlər. Hətta psixoloqlar bunu patologiya hesab edir, belə pasiyentlərinə “Herostrat sindromu” diaqnozunu qoyurlar.*

Cavab:

| İfadədəki eponim | Adın ilk daşıyıcısı | Dövr, məkan | Hadisə |
|---|---|---|---|
| Herostrat | Artemida məbədini yandıran şəxs – Herostrat | e.ə. 356-cı il, Yunanıstan | Herostrat şöhrət qazanmaq üçün Artemida məbədini yandırır. |

**Yazı**

**7-3.1.2. 7-3.2.2. Tapşırıq b (dərslik).** Tapşırıq şagirdlərin yazı bacarığının inkişafına yönəlmişdir.

Esse nümunəsi:

***Etimoloji araşdırmaların faydaları***

Etimologiya — sözlərin mənşəyini, yaranma tarixini öyrənməklə məşğul olan dilçilik sahəsidir. “Etimologiya” yunan sözüdür, “sözün əsl mənası” deməkdir. Bəs sözlərin mənşəyini araşdırmağın nə faydası var? Mən düşünürəm ki, sözlərin mənşəyini, tərkibini və tarixi inkişafını araşdırmaq çox vacibdir.

Etimologiya dillərin inkişafını, sözlərin dəyişiklik proseslərini anlamağa kömək edir. Sözlərin mənşəyi və onların keçdiyi inkişaf mərhələləri, insanların keçmiş həyat tərzi, inancları və mədəniyyətləri haqqında məlumat verir. Məsələn, bir çox sözlər müəyyən mədəni hadisələrdən, ixtiralardan və ya coğrafi kəşflərdən sonra dilə daxil olmuşdur. Etimologiya bu mənşəyi açıq şəkildə öyrənərək dilin necə dəyişdiyini və zənginləşdiyini göstərir.

Etimologiya, yeni dillər öyrənmək istəyənlər üçün çox faydalıdır. Sözlərin kökünü və mənşəyini öyrənmək, dil öyrənmə prosesini asanlaşdırır və sözləri yadda saxlamağa kömək edir.

Sözlərin mənşəyini araşdırmaq yalnız dilçiliklə

Layihə

maraqlananlar üçün deyil, həm də tarix, arxeologiya və digər elmlər üçün də əhəmiyyətlidir. Etimologiya vasitəsilə əldə olunan məlumatlar, dillərin qarşılıqlı təsirini və onların inkişaf proseslərini anlamağa imkan verir, dünyagörüşünü formalaşdırır, dünyanın mədəni mənzərəsi haqqında təsəvvür yaradır.

Sözlərin mənşəyini araşdırmaqla məşhur insanların tərcümeyi-halı, şəhərlərin, dövlətlərin tarixi, obyektlərin coğrafi xüsusiyyətləri ilə tanış oluruq. Bununla da, təkcə dili öyrənməklə kifayətlənməyib, həm də tarix, coğrafiya, tibb, musiqi və s. sahələrə aid biliklər qazanırıq.

Etimoloji araşdırmalar zamanı etimologiya lüğəti ən etibarlı mənbə sayılır.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dinlədiyi mətndən götürdüyü qeydləri yaddaş xəritəsi üzrə qruplaşdırır. | Tap. a (D.) |
| Öyrəndiyi dil qaydalarını yazısında tətbiq edir. | Tap. b (D.) |
| Yazıda problemlə bağlı mövqeyini əsaslandırmaq üçün arqumentlərdən istifadə edir. | Tap. b (D.) |

## 5-ci dərs. Feili birləşmələr cümlə üzvü kimi

• Dərslik: səh. 50 • İş dəftəri: səh. 25

**Təlim məqsədləri:**

**1.** Feili birləşmələrin cümlədə sintaktik funksiyasını müəyyən edir (st. 7-4.2.3).

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik).** Şagirdlər aşağı siniflərdə mübtəda haqqında məlumat alıblar. Motivasiya xarakterli bu tapşırıq eyni zamanda bilikləri təkrarlamağa, xatırlamağa imkan yaradır.

Cavab: d. Bu izahatdan sonra məsələni həll etmək o qədər də çətin olmadı.

**Dil qaydaları**

**7-4.2.3. "Yadda saxla" rubrikası.** Rubrikada tərkiblər haqqında verilmiş məlumat və nümunələr şərh olunur.

**Tapşırıq b (dərslik).** Cavab: 1 – b, 2 – a, 3 – c.

**"Yadda saxla" rubrikası.** Rubrikada tərkiblərin cümlədə rolu haqqında verilmiş məlumat və nümunələr şərh olunur.

**Tapşırıq c (dərslik).** Cavab:

1. **Gündəlik dərslərə hazırlaşanlar** çətinlik çəkmirlər. (feili sifət tərkibi, mübtəda vəzifəsində)

2. Məqsədimiz olimpiadada **birinci yeri tutmaqdır.** (məsdər tərkibi, xəbər vəzifəsində)

3. Mən uşaqkən **ulduzları seyr etməyi** sevərdim. (məsdər tərkibi, tamamlıq vəzifəsində)

4. **Boz dağların arxasından axan** Kür susuz səhraları dolaşır. (feili sifət tərkibi, təyin vəzifəsində)

5. Bülbül sanki **qəfəsə salındığını anlayıb** susmuşdu. (feili bağlama tərkibi, zərflik vəzifəsində)

**Tapşırıq ç (dərslik).** Cavab:

*Məktəbə çatar-çatmaz* zəng vuruldu. (feili bağlama tərkibi, zərflik vəzifəsində)

*Zirvəyə qalxmaq* asan olmadı. (məsdər tərkibi, mübtəda vəzifəsində)

*Güclü küləkdən dalğalanan* dəniz insanı vahiməyə salırdı. (feili sifət tərkibi, təyin vəzifəsində)

İş dəftərində verilmiş tapşırıqlar şagirdlərin tərkiblər haqqında aldıqları bilikləri möhkəmləndirməyə xidmət edir.

**Tapşırıq a (iş dəftəri).** Cavab: 1 – b, 2 – a, 3 – b, 4 – c.

**Tapşırıq b (iş dəftəri).** Cavab: e. Qanunlara riayət etmək bütün vətəndaşların borcudur.

**Tapşırıq c (iş dəftəri).** Cavab:

1. Əsgər səliqəli xətlə yazılmış məktubu bir daha oxudu. (təyin)

2. Faytonçu müştərisinin səsini eşidib geri döndü. (səbəb zərfliyi)

3. Dumanlı havada da quşlar öz nəğmələrini oxumağa davam edirdilər. (tamamlıq)

4. Sizin vəzifəniz yalnız həqiqəti söyləməkdir. (xəbər)

5. Bayramda bir-birinin evinə qonaq getmək qədim adətdir. (mübtəda)

6. Əkin yeri vaxtaşırı suvarılmadığı üçün taxıl yanmışdı. (səbəb zərfliyi)

**Tapşırıq ç (iş dəftəri).** Cavab:

Dövlətimizin inkişafı naminə çalışmaq hər bir vətəndaşın borcudur. (mübtəda)

Bulaqdan su içmək istəyən marallar ürküb qaçdılar. (təyin)

Arxeoloji qazıntılar zamanı tapılmış əşyaları muzeyə təqdim etdilər. (təyin)

Layihə

Günəş dağların arxasında batanda yola düşdük. (zərflik)

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Feili birləşmələrin cümlədə sintaktik funksiyasını müəyyən edir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar |

# Ümumiləşdirici təkrar

• Dərslik: səh. 51 • İş dəftəri: səh. 26-27

**Təlim məqsədləri:**

**1.** Əsas tərəfi məsdərlə ifadə olunan ismi birləşmələri feili birləşmələrdən fərqləndiririr **(st. 7-4.2.3).**

**2.** Kontekstdən çıxış edərək –ma² şəkilçisinin funksiyasını müəyyən edir **(st. 7-4.2.2).**

**3.** Sadə və mürəkkəb söz birləşmələrini fərqləndirir **(st. 7-4.2.3).**

**4.** Feili birləşmələrin cümlədə sintaktik funksiyasını müəyyən edir **(st. 7-4.2.3).**

**Mövzuya yönəltmə**

Müəllim soruşur:

– Bu bölmədə söz birləşmələri haqqında nə öyrəndiniz?

**Dil qaydaları**

**7-4.2.3. Tapşırıq 1 (dərslik).** Cavab: 2, 3, 5.

**Tapşırıq 2 (dərslik).** Cavab:

| Leksik şəkilçi | Məsdər şəkilçisinin ixtisar forması | Feilin inkar şəkilçisi |
|---|---|---|
| toxunma<br>qazma | geyinməyi<br>qorunması<br>keçirməyi | baxmayan<br>qorxma |

**Tapşırıq 3 (dərslik).** Cavab:

- tələsə-tələsə evə tərəf getmək
- neçə illərdir qürbətdə yaşayan
- dağların insanı valeh edən gözəlliyi
- hər il neft istehsal etmək
- gənclərin bir çoxu
- ölkənin tarixi simvolu
- işdən vaxtında qayıdanda
- bülbülün cəh-cəh vurub oxumağı
- üçrəngli dövlət bayrağı

**Tapşırıq 4 (dərslik).** Cavab:

1. ***Bayaqdan kənarda sakitcə dayanan*** uşaq birdən irəli atıldı. (hansı?)

2. Həsən bəy Zərdabi ***"Əkinçi" adlı milli qəzetin çap olunmasına*** nail oldu. (nəyə?)

3. ***Sizin uğur qazanmağınızı eşitmək*** bizim üçün xoşdur. (nə?)

4. ***Milli paltar geyinmiş*** qızlar və oğlanlar meydandakı tonqalın ətrafında yallı oynadılar. (hansı?)

5. Anası ***qiymətli əşyaları saxlamaq üçün*** ona bir mücrü vermişdi. (nə üçün?)

Layihə

**Tapşırıq 5 (dərslik).** Cavab:

1. ***Açıq pəncərənin qarşısından keçəndə*** həzin musiqi səsi eşitdim. (zərflik)

2. ***Kitabxanaya yeni gətirdiyimiz*** kitabları şagirdlərə göstərin. (təyin)

3. Hər kəs ***xalqına sədaqətlə xidmət etməyə*** çalışmalıdır. (tamamlıq)

4. ***Təbiətin nadir sərvətlərini mühafizə etmək*** çox vacibdir. (mübtəda)

*İş dəftərindəki tapşırıqlar bölmədə dil qaydaları üzrə mənimsədilən bilik və bacarıqların yoxlanılması məqsədi daşıyır.*

**Tapşırıq 1 (iş dəftəri).** Cavab:

| Söz birləşməsi | Məns.ş | Hal ş. | i.b. | f.b. |
|---|---|---|---|---|
| şagird nailiyyətlərinin qiymətləndirilməsində | + | + | + | |
| haqq səsini qaldırmağımız | + | | + | |
| azadlıq uğrunda mübarizə aparmaqdan | | + | | + |
| oxucunun yazıçını duyması | + | | + | |
| alimin ilkə imza atması | + | | + | |

**Tapşırıq 2 (iş dəftəri).** Cavab: 4, 6

**Tapşırıq 3 (iş dəftəri).** Cavab:

| Sadə söz birləşməsi | Mürəkkəb söz birləşməsi |
|---|---|
| səhərdən bəri başlayan | yaylaqdan qışlağa qayıdış |
| ən ədalətli qərar | xalqın məhəbbətini qazanmaq |
| sərvətə sahib olan | Xudafərin körpüsünün tağları |
| dağlara tərəf baxanda | günəş şüalarından qorunmaq üçün |
| | əsrlərin sınağından çıxmış |
| | vətən uğrunda çalışanlar üçün |

**Tapşırıq 4 (iş dəftəri).** Cavab: b. Redaktor jurnalda günün problemlərini işıqlandırmağı qarşısına məqsəd qoymuşdu.

**Tapşırıq 5 (iş dəftəri).** Cavab:

| Söz birləşməsi | Məsdər tərkibi | Feili sifət tərkibi | Feili bağlama tərkibi |
|---|---|---|---|
| qürbət ellərdə çalışmaq | + | | |
| yarışda birinci yeri tutan | | + | |
| sualları diqqətlə oxumadan | | | + |
| ayaqlarını sürüyə-sürüyə | | | + |
| günəş görünər-görünməz | | | + |
| qürbət ellərdən çalışmaqdan | + | | |
| elmi işlə məşğul olanlar | | + | |

**Tapşırıq 6 (iş dəftəri).** Cavab:

1. İnsan ***vaxta qənaət etmək üçün üçün*** bəzi işləri avtomatlaşdırmışdır. (zərflik)

2. Təqdimata hazırlaşarkən ***mövzu ilə bağlı araşdırma aparmaq*** lazımdır. (mübtəda)

3. ***Vətən uğrunda canından keçənləri*** el unutmaz. (zərflik)

4. Bu gün ***cəmiyyətə təsir göstərmək üçün*** böyük nüfuza malik media şirkətləri mövcuddur. (zərflik)

5. ***Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaranan*** BDU-nun 105 yaşı tamam olur. (təyin)

6. ***Bir şeyi olmadığı yerdə axtarmaq*** onu axtarmamaq deməkdir. (mübtəda)

**Tapşırıq 7 (iş dəftəri).** Cavab: b. Deməyə sözü olmayan hamıdan çox danışar. *(Lev Tolstoy)*

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Əsas tərəfi məsdərlə ifadə olunan ismi birləşmələri feili birləşmələrdən fərqləndiririr. | Tap. 1 (D.); 1 (İ.D.) |
| Kontekstdən çıxış edərək – ma$^2$ şəkilçisinin funksiyasını müəyyən edir. | Tap. 2 (D.) 2 (İ.D.) |

Layihə

| | |
|---|---|
| Sadə və mürəkkəb söz birləşmələrini fərqləndirir. | Tap. **3, 4** (D.) **3, 4** (İ.D.) |
| Feili birləşmələrin cümlədə sintaktik funksiyasını müəyyən edir. | Tap. **5** (D.) **5, 6, 7** (İ.D.) |

Layihə

bölmə **7**

# Məktublar

| Dərs | Mövzu | Məzmun xətləri | Dərslik səh. | İş dəftəri səh. | MV səh. |
|---|---|---|---|---|---|
| **1-ci fəsil** | | | | | |
| 1 | Şəxsi və rəsmi-işgüzar məktublar | Oxuyub-anlama | 52-53 | 28-29 | 139 |
| 2 | Vanka | Oxuyub-anlama | 54-57 | 30 | 140-141 |
| 3 | Vanka | Oxuyub-anlama | 57-58 | 31 | 141-142 |
| 4 | Vanka | Yazı | 58 | - | 142-143 |
| 5 | Feili xəbər və ismi xəbər | Dil qaydaları (sintaksis) | 59 | 32 | 143 |
| **2-ci fəsil** | | | | | |
| 1 | Avraam Linkolnun oğlunun müəlliminə məktubu | Oxuyub-anlama | 60-62 | 33 | 144-145 |
| 2 | Avraam Linkolnun oğlunun müəlliminə məktubu | Oxuyub-anlama | 63-64 | 34 | 145-146 |
| 3 | Eynşteynin Atatürkə tarixi məktubu | Dinləmə Oxuyub-anlama | 64 | 35 | 146-148 |
| 4 | Eynşteynin məktəbli qıza məktubu | Oxuyub-anlama | 64 | | 148 |
| 5 | Mübtəda və xitabın fərqləndirilməsi | Dil qaydaları (sintaksis) | 65 | 36 | 148-149 |
| **3-cü fəsil** | | | | | |
| 1 | Səssiz kinonun kralı | Dinləmə. | 66 | 37 | 149-150 |
| 2 | Çarli Çaplinin qızı Ceraldinaya məktubu | Oxuyub-anlama. Yazı | 67-69 | 38 | 151-152 |
| 4 | Həmcins cümlə üzvləri | Dil qaydaları (sintaksis) | 70 | 39 | 152-153 |
| 5 | Ümumiləşdirici təkrar | Dil qaydaları (sintaksis) | 71 | 40-41 | 153-154 |

Layihə

# 1-ci fəsil

## 1-ci dərs. Şəxsi və rəsmi-işgüzar məktublar

• Dərslik: səh. 52-53 • İş dəftəri: səh. 28-29

**Təlim məqsədləri:**
**1.** Məktubları dil-üslub və struktur xüsusiyyətlərinə görə fərqləndirir **(st. 7-2.3.4).**
**2.** Mətnin məzmunundan çıxış edərək obrazları xarakterizə edir **(st. 7-2.3.1).**

**Mövzuya yönəltmə**

Müəllim şagirdlərin diqqətini dərsin əvvəlində verilmiş motivasiya suallarına yönəldir. Müzakirəyə cəlb etmək üçün şagirdlərə aşağıdakı suallar verilə bilər:

– Yaxınlığınızda olmayan birinə hər hansı məlumatı necə çatdırırsınız?

Bunu telefon vasitəsi ilə etdiklərini söyləyən şagirdlərə növbəti sual:

– Bəs telefon olmayan zamanlarda bir-birindən uzaqda olan insanlar arasında ünsiyyət necə baş verirdi?

"Məktublar vasitəsilə" cavabı səsləndikdən sonra şagirdləri bu barədə bildiklərini danışmağa sövq etmək olar.

**Söz ehtiyatı**

Şagirdlərin diqqəti "Qlossari"yə cəlb edilir. Əlavə məlumat kimi bu ifadənin (post scriptum) latın dilindən tərcümədə "yazılanlardan sonra" demək olduğu nəzərə çatdırıla bilər.

**Oxuyub-anlama**

**7-2.3.4. Tapşırıq b (dərslik).** Şagirdlər dərslikdə verilən məktubları oxuyaraq onlarla bağlı ilkin təəsüratlarını söyləyirlər.

**7-2.3.1. Tapşırıq c (dərslik).** Bu tapşırıq şagirdlərin məktubun məzmununu nə dərəcədə qavradıqlarını göstərir.

**Tapşırıq ç (dərslik).** Ordu sıralarında xidmət, xüsusən də müharibə zamanı mobil telefonlardan istifadə gizli informasiyanın düşmən tərəfin əlinə keçməsi ilə nəticələnə bilər.

**7-2.3.4. Tapşırıq d (dərslik).** İkinci məktubun məzmunu ilə tanış olan şagirdlər onun təşəkkür məktubu olduğunu müəyyənləşdirirlər. Mövzunu genişləndirmək məqsədilə müəllim şagirdlərə müxtəlif məzmunlu (təklif, şikayət, izahat, xəbərdarlıq və s.) məktublar təqdim edərək onların növünü təyin etməyi tapşıra bilər.

**Tapşırıq e (dərslik).** Bu tapşırığı şagirdlər "Diqqət et" rubrikasında verilən məlumatlardan və təqdim edilmiş məktub mətnlərdən çıxış edərək yerinə yetirməlidirlər. Bu zaman onlar şəxsi və işgüzar məktubların təlimatda verilmiş xüsusiyyətlərini məktubların mətninə istinad edərək açıqlamalıdırlar. Məsələn, şəxsi məktubda işlənən "burnumun ucu göynəyir", "səni bərk-bərk öpüb bağrıma basıram" cümlələrindəki ekspressivlikdən, işgüzar məktubun struktur elementlərindən və s. danışa bilərlər.

**Tapşırıq a (iş dəftəri).** Bu tapşırıq isə şagirdlərin mətndəki məlumatlara əsaslanaraq yeni informasiya əldə etmək bacarığını yoxlamağa imkan verir. Belə ki, onlar "Mən cəbhəyə yollananda Kamran söz vermişdi ..." cümləsindəki "cəbhə" sözünə və sonda qeyd olunan tarixə (12 oktyabr, 2020-ci il) əsaslanaraq məktubun Vətən müharibəsi dövründə yazıldığı qənaətinə gələ bilərlər.

**7-2.3.1. Tapşırıq b (iş dəftəri).** Cavab: 1 – B, 2 – A, 3 – C, 4 – D.

**Tapşırıq c (iş dəftəri).** Mətndəki məlumatlar ananın evdar qadın olduğunu söyləməyə imkan vermir.

**Tapşırıq ç (iş dəftəri).** Bu tapşırıq vasitəsilə şagirdlərin konteksdən çıxış etməklə frazeoloji birləşmələrin mənasını müəyyənləşdirmək bacarığı üzə çıxarılır. C variantında işlənmiş "ürəyim əsir" frazeologizmi məktubdakı "burnumun ucu göynəyir" frazeologizmi ilə eyni məna (çox darıxmaq) daşıyır.

**Tapşırıq d (iş dəftəri).** Tapşırıq şagirdlərin mətnin məzmununa yaradıcı yanaşmaqla onu yeni situasiyaya uyğun dəyişmə bacarığının inkişaf etdirilməsinə yönəlmişdir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Məktubları dil-üslub və struktur xüsusiyyətlərinə görə fərqləndirir. | Tap. **b, d, e** (D.) |
| Mətnin məzmunundan çıxış edərək obrazları xarakterizə edir. | Tap. **c** (D.); **b, c** (İ.D.) |



Layihə

## **2-ci dərs.** Vanka

• Dərslik: səh. 54-57 • İş dəftəri: səh. 30

**Təlim məqsədləri:**

**1.** Mətndəki əsas fakt və epizodları müəyyən edir (st. 7-2.1.1).

**2.** Mətndəki hadisə və faktları əlaqələndirərək açıq şəkildə ifadə olunmamış informasiyanı əldə edir (st. 7-2.2.2).

**3.** Mətnin məzmunundan çıxış edərək obrazları xarakterizə edir (st. 7-2.3.1).

**4.** Mətnin müxtəlif hissələrində əks olunmuş hadisələr arasındakı səbəb-nəticə əlaqəsini müəyyənləşdirir (st. 7-2.2.1).

### Mövzuya yönəltmə

**Tapşırıq a (dərslik).** Müəllim şagirdlərin diqqətini dərslikdə verilmiş tabloya yönəldir. Şagirdlər təsvir edilən mənzərəni şərh edərək əsərin uşaq əməyinin istismarına həsr edildiyi qənaətinə gələ bilərlər. Şagirdlərin diqqətinin detallara (çəlləkdən tökülən su donur, külək uşaqların saçlarını və paltarlarını yelləndir, qarı yerdən sovurur) cəlb edilməsi tabloda təsvir edilən uşaqların acınacaqlı halı haqqında daha dolğun təsəvvür yaradar. Su ilə dolu ağır çəlləyi dartıb aparmaq özlüyündə çox çətindir (bunu tabloda çəlləyi arxadan itələyən adamın təsvir edilməsi də göstərir). Üstəlik şaxtalı hava və güclü külək uşaqların əzabını daha da artırır.

### Oxu

Şagirdlər mətni səssiz oxuyurlar. Müəllim şagirdlərə hekayənin məzmunu ilə bağlı faktoloji suallar (Vanka kimdir? Əvvəllər harada yaşayıb? Moskvaya nə üçün göndərilib? Nə üçün babasına məktub yazmaq qərarına gəlib? Məktubda nə yazır və s.) verməklə mətni nə dərəcədə qavradığını yoxlaya bilər.

Qlossaridə izahı verilən anlayışlar şagirdlərin söz ehtiyatının artmasına xidmət etməklə yanaşı, həm də onların bilik dairəsinin yeni məlumatlarla genişlənməsinə səbəb olur.

### Söz ehtiyatı

**Tapşırıq b (dərslik).** Hekayədə hadisələr 3-cü şəxsin və Vankanın dilindən nəql olunur. Təbii ki, onların nitqləri arasında fərq var. Şagirdlər mətnin müvafiq hissələrinə istinad edərək bu fərqi izah etməlidirlər. Bu zaman onlar “Söz boğçası”nda verilən söz və ifadələrə də fikir verməlidirlər. Sonda belə bir qənaətə gəlirlər ki, Vankanın nitqində xalq danışıq dilinə məxsus söz və ifadələr işlənir, o, fikrini qısa, sadə cümlələrlə ifadə edir. 3-cü şəxsin nitqi isə səlisliyi, ədəbi dil normalarına uyğunluğu ilə seçilir (məsələn, Vankanın babası Konstantin Makarıçın, kənd gecəsinin təsvir edildiyi hissə və s.).

### Oxuyub-anlama

7-2.1.1. **Tapşırıq c (dərslik).** Mətnin ilk cümləsində və məktubun ilk abzasında Vankanın 9 yaşı olmağı, üç ay əvvəl çəkməçi Alyaxinə şagirdliyə verildiyi, ata-anasını itirdiyi, yalnız babasına ümid bəslədiyi haqqında faktlar yer almışdır.

**Tapşırıq ç (dərslik).** Vankanın həyatının ən xoş anları kənddə keçirdiyi xoşbəxt günlərlə əlaqədardır. O həmin günləri, xüsusilə Milad bayramını həsrətlə xatırlayır. Yenidən kəndə qayıtmaq arzusu ilə yaşayır.

7-2.2.2. **Tapşırıq d (dərslik).** Vankanın məktubu yazmamışdan əvvəl bir neçə dəfə qorxa-qorxa qapıya və pəncərələrə baxması “o, ağasından xəbərsiz məktub yazdığı üçün qorxur” qənaətinə gəlməyə əsas verir.

**Tapşırıq e (dərslik).** Mətnin əvvəlin-də verilmiş epizodda yer alan detallar (Vankanın şkafdan ucu paslanmış qələm götürməsi, əzik bir kağız parçası tapıb məktub yazması) bu ev sakinlərinin təhsil və mədəniyyətdən çox uzaq olduqlarından xəbər verir.

7-2.3.1. **Tapşırıq ə (dərslik).** Mətndə deyilir ki, Vanka Olqa İqnatyevnanın xətrini çox istəyirdi. Xanım tez-tez uşağa şirni verir, yazıb-oxumağı, yüzə qədər saymağı, hətta rəqs etməyi öyrədirdi. Lakin elə mətnin özündə qeyd olunur ki, o bütün bunları bikarlıqdan edirdi. Vanka onun üçün sadəcə olaraq vaxtını əyləncəli keçirdiyi oyuncaq idi. Vankanın anası vəfat edəndən sonra Olqa İqnatyevna uşağın taleyi ilə maraqlanmır, babasından ayrılaraq Moskvaya göndərilməsinə etiraz etmir. Bütün bunlara görə onun müsbət obraz kimi dəyərləndirmək olmaz.

**Müəllimin nəzərinə!** Şagirdlər bu obrazın analizi zamanı çətinlik çəkə, başqalarına nisbətən Vankaya yaxşı davranan Olqa İqnatyevnanı müsbət obraz hesab edə bilərlər. Bu zaman yönəldici suallarla şagirdlərin düzgün nəticəyə gəlməsinə kömək etmək tövsiyə olunur.

7-2.2.1. **Tapşırıq f (dərslik).** Vankanın məktubu yazıb zərfə qoyması və üstündə ünvanı yazması səhnəsini əsərin əsas epizodu hesab etmək olar.

Layihə

Oxucu əsər boyu Vanka ilə bərabər babanın nəvəsinin halından xəbər tutaraq gəlib onu kəndə aparacığına ümid bəsləyir. Lakin bu epizodda oxucu başa düşür ki, ünvan düzgün yazılmadığına görə məktub babaya çatmayacaq. Deməli, Vankanın arzusu da yerinə yetməyəcək.

**7-2.1.1. Tapşırıq g (dərslik).** Cavab:

| Psixoloji-emosional hallar | Əlaqədar olduğu epizod |
|---|---|
| ... Vanka xəyala daldı. | Malikanədə gözətçi işləyən babası gözünün önünə gəlir. |
| Vanka dərindən ah çəkdi ... | Babasına Alyaxinin evində çəkdiyi müsibətlər haqqında yazır. |
| Vanka doluxsundu... hıçqırdı. | Babasına yalvarır ki, onu xilas etsin, gəlib kəndə aparsın. |
| Vanka kənddə keçirdiyi xoşbəxt günləri həsrətlə xatırladı. | Milad bayramı ərəfəsində babası ilə meşəyə getməsini, malikanədə keçirilən bayramı gözlərinin önündə canlandırır. |

**7-2.2.2. Tapşırıq a (iş dəftəri).** Cavab:

1 – C. Vanka məktubu dekabrın sonuna təsadüf edən milad gecəsində yazır. Hekayənin ilk cümləsində Vankanın çəkməçi Alyaxinə şagirdliyə üç ay əvvəl verildiyi qeyd olunur. Deməli o, şəhərə sentyabr ayının sonlarında, yəni payız fəslində gəlmişdi.

2 – A. Bu sualın cavabı mətndə var. Vankanın çəkməsi yoxdur, şaxtadan qorxduğu üçün kəndə gedə bilmir.

3 – B. Bu sualın cavabı yoxdur. Vankanın anasının hansı səbəbdən vəfat etdiyi məlum deyil.

**7-2.1.1. Tapşırıq b (iş dəftəri).** Tapşırıqda verilən epizodlar şagirdlərdə fərqli hisslər yarada bilər. Məsələn:

Qəzəb səbəbi: Ağanın və xanımının Vanka ilə qeyri-insani davranışı, qəddarlığı

Kədər səbəbi: Vankanın daim döyülməsi, ac qalması, acınacaqlı həyatı

Təəssüf səbəbi: Ünvan düz yazılmadığına görə məktubun babaya çatmaması

**7-2.2.1. Tapşırıq c (iş dəftəri).** Cavab:

1. Vankanın yeganə ümid yeri babası idi, çünki onun atası və anası yox idi.
2. Milad gecəsi Vanka evdə tək qalmışdı, çünki ağalar və usta köməkçiləri pasxa ibadəti üçün kilsəyə getmişdilər.
3. Vanka Olqa İqnatyevnanın xətrini çox istəyirdi, çünki xanım tez-tez ona şirni verir, bekarçılıqdan yazıb-oxumağı, yüzə qədər saymağı, hətta rəqs etməyi öyrədirdi.
4. Vanka bəzən bütün gecə oyaq qalırdı, çünki ağanın körpəsi ağlayanda bütün gecəni beşik yırğalamalı olurdu.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndəki əsas fakt və epizodları müəyyən edir. | Tap. c, ğ (D.) b, c (İ.D.) |
| Mətnin məzmunundan çıxış edərək obrazları xarakterizə edir. | Tap. ç, ə (D.) |
| Mətndəki hadisə və faktları əlaqələndirərək açıq şəkildə ifadə olunmamış informasiyanı əldə edir. | Tap. d, e (D.) a (İ.D.) |
| Mətnin müxtəlif hissələrində əks olunmuş hadisələr arasındakı səbəb-nəticə əlaqəsini müəyyənləşdirir. | Tap. g (D.) c (İ.D.) |

## 3-cü dərs. Vanka

• Dərslik: səh. 57-58 • İş dəftəri: səh. 31

**Təlim məqsədləri:**

**1.** Əsərin əsas ideyasının açılmasında mətnin adının, tərkib hissələrinin rolunu müəyyənləşdirir (st. 7-2.3.3).

**2.** Mətndə işlənmiş bədii ifadə vasitələrini müəyyənləşdirir (st. 7-4.4.3).

**3.** Mətnin məzmununa yaradıcı yanaşmaqla sonluq hissəsini dəyişir (st. 7-2.3.6).

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik).** Müəllim şagirdlərin diqqətini dərsin əvvəlində verilmiş motivasiya sualına yönəldir. Çox güman ki, şagirdlər hekayənin məzmunundan çıxış edərək deyəcəklər ki, həmin gecə ev sakinləri kilsəyə ibadətə getmişdilər. Van-

Layihə

ka evdə tək qalır və fürsətdən istifadə edərək babasına məktub yazır. Lakin şagirdlər Yeni il bayramı haqqında bildiklərinə əsaslanaraq deyə bilərlər ki, bayram ərəfəsində uşaqlar, adətən, Şaxta babaya arzuları yazılmış məktub göndərirlər və bu arzuların yerinə yetəcəyinə inanırlar. Vanka da məhz buna görə babasına məktubu Milad gecəsində yazır.

**Oxu**

**Tapşırıq b (dərslik).** Şagirdlər rəyi oxuyaraq qənaətləri ilə müqayisə etməlidirlər.

**7-2.3.3. 7-4.4.3. Tapşırıq c (dərslik).** Şagirdlər "Vanka" hekayəsinin məzmunundan çıxış edərək təxminən belə fikirlər səsləndirə bilərlər: Vanka babasına məktub yazaraq düşdüyü ağır vəziyyətdən şikayət edir, özü yazdığı kimi onu bu "it həyatından" qurtarması üçün yalvarır. Vanka inanır ki, babası məktubu oxuyub onun dalınca gələcək. Buna görə də məktubu yola salandan sonra Vanka şirin xəyallarla dərin yuxuya gedir. Yuxuda sobanın yanında oturaraq onun məktubunu oxuyan babasını görür... Lakin, təəssüf ki, bu xəyallar gerçəkləşməyəcək, məktub onun babasına çatmayacaq və arzuların çin olduğu gecədə Vankanın böyük ümidlə qurduğu xəyallar puç olacaq. Bu baxımdan rəyin başlığındakı "arzuların çin olduğu gecə" və "xəyalların puç olduğu həyat" ifadələri qarşılaşdırılaraq güclü bədii təzad, antiteza yaradır.

**7-2.3.3. Tapşırıq ç (dərslik).** Milad hekayələrinin adından da məlum olduğu kimi bu əsərlərdə həmin gecə baş verən bir hadisə təsvir olunur. Bu hekayələrin qəhrəmanları müəyyən çətinliklərlə üzləşirlər, onların öhdəsindən gələ bilmirlər. Lakin hansısa möcüzə, ilahi qüvvə və ya xoş təsadüf onları bu vəziyyətdən çıxarır və əsər xoşbəxt sonluqla bitir.

**Tapşırıq d (dərslik).** Şagirdlər "anti" hissəciyinin daşıdığı məna ilə (əks, zidd) tanışdırlar. Buna görə də "Vanka" hekayəsinin ənənəvi Milad hekayələrinin əksinə olaraq bədbin bir sonluqla bitdiyini, janrın tələblərinə uyğun gəlmədiyini və, beləliklə, antimilad xarakter daşıdığını söyləyə bilərlər.

**7-2.3.6 Tapşırıq e (dərslik).** Şagirdlər əsərin xoşbəxt sonluqla bitməsi üçün müxtəlif situasiyalar düşünüb tapa bilərlər. Məsələn, Vankanın məktubu təsadüfən xeyirxah bir adamın əlinə düşür və o, uşağı axtarıb taparaq kəndə qayıtmasına kömək edir. Malikanədən şəhərə gələn bir nəfər Alyaxinin evinə gəlir, burada Vankanın acınacaqlı həyatının şahidi olur və onu özü ilə kəndə aparır. Vanka aclıqdan zəifləyərək və ya döyülməkdən xəsarət alaraq xəstəxanaya düşür. Uşağın faciəsi qəzetlərdə əks olunur və xəbər Vankanın yaşadığı kəndə çatır. Vanka babasının yanına qaytarılır və s.

**Yazı**

**Tapşırıq a (iş dəftəri).** Bu tapşırıq şagirdlərin esse yazmaq bacarığının inkişaf etdirilməsinə yönəlmişdir. Tapşırığı asanlaşdırmaq məqsədilə əvvəlcə verilmiş aforizmlər ətrafında müzakirə aparmaq, şagirdləri bu fikirlərə münasibət bildirməyə sövq etmək olar.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Əsərin əsas ideyasının açılmasında mətnin adının, tərkib hissələrinin rolunu müəyyənləşdirir. | Tap. c, ç, d (D.) |
| Mətndə işlənmiş bədii ifadə vasitələrini müəyyənləşdirir. | Tap. c (D.) |
| Mətnin məzmununa yaradıcı yanaşmaqla sonluq hissəsini dəyişir. | Tap. e (D.) |

## 4-cü dərs. Vanka

• Dərslik: səh. 58

**Təlim məqsədləri:**

**1.** Tanış olduğu məlumatlar əsasında informativ mətn (rəy) yazır (st. 7-3.2.1).

**Mövzuya yönəltmə**

Müəllim şagirdlərə keçən dərs tanış olduqları rəyi xatırladır. Rəyin məzmunu və məqsədilə bağlı suallar verir. Sonra elan edir ki, şagirdlər bu gün Çexovun Vanka hekayəsinə uşaq əməyinin istismarı probleminin işıqlandırılması aspektindən yanaşaraq rəy yazmalıdırlar. ("Aspekt" sözünün mənası "Qlossari"də verilmişdir).

**Yazı**

**7-3.2.1. Tapşırıq a (dərslik).** Şagirdlər Çexovla bağlı bioqrafik məlumatdan və təlimatdan istifadə edərək rəy yazmalıdırlar.

Layihə

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Tanış olduğu məlumatlar əsasında rəy yazır. | Tap. a (D.) |

## 5-ci dərs. Feili xəbər və ismi xəbər

• Dərslik: səh. 59 • İş dəftəri: səh. 32

**Təlim məqsədləri:**

**1.** Cümlədəki fikrin ifadə olunmasında cümlə üzvlərinin (xəbərin) rolunu müəyyən edir **(st. 7-4.2.4).**

**2.** Feili və ismi xəbərin ifadə vasitələrini müəyyənləşdirir **(st. 7-4.2.4).**

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik).** Şagirdlərin diqqəti tapşırıqda verilmiş cümlələrə yönəldilir. Onlar cümlələrdəki mübtəda və xəbərləri seçirlər. Sonra hansı cümlədə xəbərin mübtədaya aid hərəkəti, hansında hökmü bildirdiyini müəyyənləşdirirlər.

**Dil qaydaları**

**7-4.2.4. "Yadda saxla" rubrikası.** Rubrikada feili və ismi xəbərlə bağlı verilmiş qayda şərh edildikdən sonra şagirdlərin aldıqları nəzəri bilik tapşırıqlar vasitəsilə möhkəmləndirilir.

**Tapşırıq b (dərslik).** Cavab: 1 – ç, 2 – a, 3 – d, 4 – c, 5 – b.

2-ci "Yadda saxla" rubrikasında ismi xəbərin inkarının yaranma yolu izah edilir və yox, var, lazım, gərək, mümkün, bəs sözlərinin suala cavab vermədən müstəqil ismi xəbər kimi işlənə bilməsi nəzərə çatdırılır.

**Tapşırıq c (dərslik).** Cavab:

1. Yarışda qalib gəlmək üçün bizə bircə xal *lazımdır.*
2. Hər qaranlıq gecənin bir işıqlı səhəri *vardır.*
3. Daha sənə sözüm *yoxdur.*
4. Bu məsələni yalnız bir üsulla həll etmək *mümkündür.*

**Tapşırıq a (iş dəftəri).** Cavab:

1. Kaş hər şey ürəyinizcə *ola.*
2. Axşam atəşfəşanlıq *olasıdır.*
3. Qoy həmişə günəş *olsun.*
4. İclasa gecikən yenə sən *oldun.*
5. Sabah məktəbdə tədbir *olmalıdır.*

**Tapşırıq b (iş dəftəri).** Cavab:

3. Şagird gözlənilməz sualdan özünü itirdi.
5. Arif insan sözü göydə tutar.
6. Suda boğulan saman çöpünə əl atar.

**Tapşırıq c (iş dəftəri).** Cavab:

1. Bu gün hava çox sərindir. (sifət)
2. Bu da həyatın bizə hazırladığı bir sınaqdır. (isim)
3. Narahat olma, son söz həmişəki kimi, sənindir. (əvəzlik)
4. Onun ən böyük arzusu səyahət etməkdir. (məsdər)
5. Deyilənə görə, axtardığımız xəzinə buradadır. (zərf)
6. Hər işin öz vaxtı, öz vədəsi var. ("var" sözü)
7. Yarışın bugünkü qalibi ön sırada gedəndir. (feili sifət)

**Tapşırıq ç (iş dəftəri).** Cavab:

1. Yaxşı çalışmaqla ən çətin məsələnin öhdəsindən gəlmək mümkündür.
2. Məncə, bir stəkan çaya üç qaşıq şəkər tozu bəsdir.
3. Düşdüyümüz çətin vəziyyətdən bircə çıxış yolu var.
4. Qərib insanın könlünü almaq lazımdır.
5. Xəstəni xilas etmək üçün əməliyyatdan başqa çarə yoxdur.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Feili və ismi xəbərləri fərqləndirir. | Tap. a (D.) |
| Feili xəbərin ifadə vasitələrini müəyyənləşdirir. | Tap. b (D.)<br>a, b (İ.D.) |
| İsmi xəbərin ifadə vasitələrini müəyyənləşdirir. | Tap. c (D.)<br>c, ç (İ.D.) |

Layihə

# 2-ci fəsil

## 1-ci dərs. Avraam Linkolnun oğlunun müəllliminə məktubu

• Dərslik: səh. 60-62 • İş dəftəri: səh. 33

**Təlim məqsədləri:**
**1.** Kontekstdən çıxış edərək sözün məcazi mənasını müəyyən edir **(st. 7-2.1.2).**
**2.** Mətndəki məlumatlardan çıxış edərək mühakimələr yürüdür **(st. 7-2.3.2).**

**Mövzuya yönəltmə**

Müəllim şagirdlərin diqqətini dərsin əvvəlində verilmiş motivasiya sualına yönəldir. Müzakirəyə cəlb etmək üçün şagirdlərə aşağıdakı suallar verilə bilər:

– İlk müəlliminizi necə xatırlayırsınız?

– Onun sizin həyatınızdakı rolu ilə bağlı nə deyə bilərsiniz?

– Müəllimlərdən ilk növbədə nələri öyrənirsiniz?

– Sizcə, yaxşı müəllim necə olmalıdır?

– Sizcə, müəllim-şagird münasibətləri necə olmalıdır?

**Oxu**

**Tapşırıq a (dərslik).** Mətnə keçməzdən əvvəl şagirdlər Avraam Linkoln haqqında tarixi arayışla tanış olurlar. Sonra mətni səssiz oxuyurlar. Müəllim şagirdlərin mətni nə dərəcədə qavradığını öyrənmək üçün soruşa bilər: Məktub nə məqsədlə yazılıb? Bundan sonra “Söz boğçası” üzərində iş aparılır.

**Söz ehtiyatı**

**7-2.1.2. Tapşırıq b (dərslik).** Taşırıqda “iflas” sözünün həqiqi mənası verilib. Şagirdlər bu mənadan çıxış edərək həmin sözün mətndə işləndiyi məcazi mənanı müəyyənləşdirirlər. Sonra təxminlərini lüğətdə verilən izah ilə müqayisə edə bilərlər: “Hər hansı ictimai fəaliyyətdə, yaxud şəxsi həyatda tam uğursuzluq, müvəffəqiyyətsizlik.”

**Tapşırıq c (dərslik).** Şagirdlər “dolanbac” sözünün çox dolaşıq, əyri-üyrü mənasında işləndiyinə əsaslanaraq kənd yolunun dolanbacları ifadəsində dolanbac sözünün həqiqi, həyat yolunun dolanbacları ifadəsində isə məcazi mənada işləndiyini müəyyənləşdirməlidirlər.

**Tapşırıq ç (dərslik).** Şagirdlər “prizma” sözü ilə bağlı tapşırıqda verilənlərə və mətnin 7-ci abzasına əsaslanaraq “gördüklərini həqiqət prizmasından dəyərləndirmək” ifadəsini təxminən belə izah edə bilərlər: insanlar həyatda müxtəlif situasiyalarla qarşılaşırlar. Bu zaman onların eşitdikləri və gördüklərini düzgün qiymətləndirməsi çox vacibdir. İnsan hər bir halda obyektiv olmalı, rastlaşdığı situasiyanı düzgün qiymətləndirməli, həqiqəti üzə çıxarmağa çalışmalı və onun tərəfini tutmalıdır.

**Tapşırıq d (dərslik).** Şagirdlər müvafiq abzasların məzmunundan çıxış edərək asanlıqla “yerində oturtmaq” (çox lovğa, iddialı adama əslində nəyə qadir olduğunu anlatmaq) və “bel bağlamaq” (güvənmək, inanmaq, etibar etmək, arxalanmaq) ifadələrini izah edə bilərlər. Tapşırıq eyni zamanda şagirdlərin nitqini dilimizin lüğət fonduna daxil olan frazeologizmlərlə zənginləşdirməyə xidmət edir.

**7-2.3.2. Tapşırıq e (dərslik).** Şagirdlər fikirlərini təxminən belə ifadə edə bilərlər: 2-ci abzas: nikbinlik, insanlara inam; 3-cü abzas: ləyaqətlə uduzmağı və qələbə çalmağı bacarmaq; 4-cü abzas: nəciblik, inam, məhəbbət, zəhmətkeşlik; 5-ci abzas: təbiətin əbədi sirlərini anlamağa çalışmaq, mütaliəyə həvəs, kitab – müdriklik mənbəyi; 6-cı abzas: ideallarına inam və sədaqət; 7-ci abzas: öz ağlına və qəlbinə arxalanma, həmişə xeyrin tərəfində olmaq, həqiqəti üzə çıxarmaq; 8-ci abzas: qorxu və kədərə qalib gəlmək, 9-cu abzas: bacarıq və istedadından düzgün istifadə etmək, ağlına və gücünə güvənmək, vicdanının səsinə qulaq asmaq; 10-cu abzas: mübariz və mərd olmaq.

**Tapşırıq ə (dərslik).** Şagirdlər mətinin adındakı ikimənalılığı aradan qaldırmaq üçün belə variantlar irəli sürə bilərlər: Avraam Linkolndan oğlunun müəllliminə məktub; Avraam Linkoln tərəfindən oğlunun müəllliminə yazılan məktub və s.

**Tapşırıq a (iş dəftəri).** Şagirdlər mətnin abzaslarında ifadə olunmuş fikirlərdən vacib hesab etdiklərini seçib öz sözləri ilə ifadə etməlidirlər. Məsələn: Həyatda hər zalımın qarşısına mütləq bir qəhrəman çıxacaq. Həyatda udmağı da uduzmağı da bacarmaq lazımdır. İnsan ləyaqətli həyat sürməli, əlinin əməyi ilə yaşamalıdır. İnsan

Layihə

təbiəti dərk etməli, kitablardakı müdrikliyə sahib olmağa can atmalıdır. İnsan həyatda öz ideallarına sadiq qalmalıdır. İnsan həqiqəti tapmağı bacarmalı, həmişə xeyirin tərəfində olmalıdır. İnsan həyatda qorxu və kədərin də olduğunu bilməli, onlara qalib gəlməyi bacarmalıdır və s.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstdən çıxış edərək sözün məcazi mənasını müəyyən edir. | Tap. **b, c, ç** (D.) |
| Mətndəki məlumatlardan çıxış edərək mühakimələr yürüdür. | Tap. **e** (D.) |

## 2-ci dərs. Avraam Linkolnun oğlunun müəlliminə məktubu

• Dərslik: səh. 62 • İş dəftəri: səh. 34

**Təlim məqsədləri:**

**1.** Mətndəki faktlara əsaslanaraq müəllif mövqeyinə münasibət bildirir **(st. 7-2.3.2)**.

**2.** Bədii mətnlərdə sadə məcazları və üslubi fiqurları (metafora, antiteza) müəyyənləşdirir **(st. 7-4.4.3)**.

**Mövzuya yönəltmə**

Bu dərsdə mətndə səslənən fikirlərin şərh olunması üzrə işin davam etdirilməsi ilə yanaşı, Avraam Linkolnun aforizmlərindəki fikirlərin açılması ilə əlaqədar tapşırıqlar da yer almışdır.

**7-2.3.2. Tapşırıq a (dərslik).** Tapşırıq qruplar şəklində yerinə yetirilir. Hər qrup ona tapşırılan abzaslardakı fikirləri öz sözləri ilə şərh etməlidir. Məsələn:

III-IV abzaslar: Oğlum bilməlidir ki, insanın düşməni də, dostu da ola bilər. O həyatda uduza da bilər, amma bu zaman ləyaqətini qorumalıdır. Qələbə çaldıqda isə sevinməlidir. Lakin ağılsız və lovğa adamlara qalib gəldiyinə görə qürrələnməməlidir, çünki bu çox asandır. İnsan paxıl olmamalıdır. Ləyaqətlə yaşamaq üçün nəciblik, inam və məhəbbət əsas şərtdir. İnsan zəhmətkeş olmalı, halal zəhmətlə pul qazanmalıdır.

Tapşırıq şagirdlərin mətndəki fikirləri düzgün və səlis şərh etmə bacarığının inkişafına yönəldilmişdir.

**7-2.3.2. 7-4.4.3. Tapşırıq b (dərslik).**

**Müəllimin nəzərinə!** Tapşırığın icrasına keçməzdən əvvəl şagirdlərə bədii ifadə vasitələri ilə bağlı bildiklərini xatırlatmaq tövsiyə olunur.

Şagirdlər tapşırıqda verilmiş fikri belə izah edə bilərlər:

İnsanın təbiətin ona verdiyi və özünün qazandığı ağıl, bilik və bacarıqlardan şəxsi mənafeyi və rifahı üçün istifadə etməsi təbiidir. Hətta bunlardan maksimum dərəcədə yararlanmağa çalışmalıdır. Lakin hər zaman qəlbinin səsini dinləməli, öz xeyri üçün vicdanının səsini boğmamalıdır.

Bununla yanaşı şagirdlər cümlədə işlənən bədii ifadə vasitələrini də müəyyənləşdirməlidirlər. Onlar mövzu ilə bağlı biliklərindən yararlanaraq cümlədə metaforlardan – analogiyaya əsasən söz və ya ifadənin məcazi mənada işlənməsindən (beyni və əzələ gücünü satmaq, ürəyi və qəlbi ilə alver etmək) istifadə edildiyi qənaətinə gəlməlidirlər. Bununla yanaşı metaforlardan birinin inkarda işlənməsi nəticəsində (ürəyi və qəlbi ilə alver etməmək) cümlədə antitezanın da (bədii nitqdə fikri daha təsirli ifadə etmək üçün anlayışların, obrazların, situasiyaların qarşılaşdırılmasından istifadə) yaranmasını müəyyənləşdirməlidirlər.

**Tapşırıq c (dərslik).**

**Müəllimin nəzərinə!** Bu tapşırığın icrasına keçməzdən əvvəl isə şagirdlərə aforizmlə bağlı bildiklərini xatırlatmaq məqsədəuyğundur. Bundan əlavə onlara bildikləri bir neçə aforizmi söyləyərək mənasını açıqlamağı təklif etmək olar.

Şagirdlər oxuduğu mətndən aforizmin tələblərinə uyğun hesab etdikləri cümlələri seçirlər. Bu cümlələrdə müəyyən dəyişikliklər də edilə bilər. Məsələn:

Həyatda hər zalımın qarşısına gec-tez bir qəhrəman çıxacaq, hər eqoist siyasətçini xalqına sadiq bir lider əvvəl-axır yerində oturdacaq.

İnsan ləyaqətlə uduzmağı da, qələbədən həzz almağı da bacarmalıdır.

Həyatda uğursuzluğa düçar olmaq fırıldaqçılıqla qələbə qazanmaqdan daha şərəflidir və s.

Bundan sonra şagirdlər seçdikləri aforizmlərdə işlənmiş bədii ifadə vasitəsinu (antiteza) müəyyən edirlər.

**7-2.3.2. Tapşırıq ç (dərslik).** Şagirdlər əvvəlcə aforizmdə ifadə olunan fikri şərh edirlər (bir işə başlamazdan öncə yaxşı hazırlaşmalı, onun səmə-

Layihə

rəli olması üçün əvvəlcədən hər şeyi nəzərə almalısan). Sonra onlar öz şəxsi təcrübələrindən və həyatdan misallar gətirməklə fikrin doğruluğunu sübut etməlidirlər. Məsələn: Sinif yoldaşlarımla stadionda görüşməliydim. Qardaşım velosipedin təkərlərinə hava vurmağı məsləhət görmüşdü. Amma mən düşündüm ki, vaxtımı buna sərf eləsəm, stadiona vaxtında çata bilmərəm. Yolda velosipedin təkərləri boşaldı və mən stadiona gedə bilmədim.

**Tapşırıq a (iş dəftəri).** Cavab: Yüz ölç, bir biç.

**Tapşırıq b (iş dəftəri).** Cavablar təxminən belə ola bilər:

1. Düşmən bildiyin adamla dostluq münasibətləri qura bilsən, o artıq sənin düşmənin olmur. Deməli, sən ədavətə son qoyaraq düşmənliyə qalib gəlmisən.
2. Bir adamı sevmirsənsə, özünə sual ver: bəlkə, mən bu adamı yaxşı tanımıram? Bəlkə, onun çox yaxşı cəhətləri də var? Bəlkə, onu daha yaxşı tanısam, sevilməyə layiq insan olduğunu anlayacağam? Və s.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnə əsaslanaraq müəllif mövqeyinə münasibət bildirir. | Tap. **a, b, ç** (D.) **a, b** (İ.D.) |
| Fikirlərdə və aforizmlərdə işlənmiş bədii ifadə vasitələrini müəyyən edir. | Tap. **b, c** (D.) |

## 3-cü dərs. Eynşteynin Atatürkə tarixi məktubu

• Dərslik: səh. 63-64 • İş dəftəri: səh. 35

**Təlim məqsədləri:**

**1.** Dinləmə zamanı götürdüyü qeydlər əsasında mətnlə bağlı sualları cavablandırır **(st. 7-1.1.1).**

**2.** Sözü izah edərkən anlayışın xüsusiyyətlərinə açar sözlərə, hiperonimlərə istinad edir **(st. 7-4.4.2).**

**3.** Mətnin müxtəlif hissələrində əks olunmuş hadisələr arasındakı səbəb-nəticə əlaqəsini müəyyənləşdirir **(st. 7-2.2.1).**

### Mövzuya yönəltmə

**Tapşırıq a (dərslik).** Şagirdlər Albert Eynşteynlə bağlı bilgilərini xatırlayaraq danışırlar.

### Dinləmə

***Eynşteynin Atatürkə tarixi məktubu***

*1949-cu ilin noyabrında ABŞ-nin Prinston Universitetində təhsil alan türk alimi Münir Ülgürlə (1917–2007) Albert Eynşteyn arasında təsadüfi görüş baş tutur. Söhbət əsnasında Ülgürün türk olduğunu öyrənən Eynşteyn Türkiyə Cümhuriyyətinin qurucusu və ilk prezidenti Mustafa Kamal Atatürkdən söhbət açır və onu "dünyanın ən böyük lideri" adlandırır. Ardınca da Atatürkün 1930-cu illərin əvvəllərində Türkiyədəki universitetlərdə dərs demək üçün onu ölkəsinə dəvət etdiyini söyləyir. Təəssüflə qeyd eləyir ki, müəyyən səbəblərdən həmin dəvəti qəbul edə bilməyib.*

*İllər sonra isə Türkiyənin hökumət arxivində qiymətli bir sənəd tapılır. Bu, Yəhudiləri Müdafiə Cəmiyyətinin fəxri prezidenti Albert Eynşteynin 1933-cü il sentyabrın 17-də Atatürkə yazdığı məktub idi. Məktubda alim Almaniyada qorxu və təzyiq altında yaşayan yəhudi əsilli 40 elm adamı və həkimin Türkiyəyə gəlməsinə icazə istəyirdi. Belə ki, 1933-cu ilin aprelində hakimiyyətə gələn Hitler alman millətindən olmayanların dövlət xidmətindən uzaqlaşdırılması haqqında qanun imzalamışdı.. Bundan sonra yəhudi müəllimlər və tələbələr kütləvi şəkildə universitetlərdən qovulurdu.*

*Eynşteynin həmin məktubu Türkiyənin ovaxtkı baş naziri İsmət İnönüyə catdırılır. İnönü isə məktubu Təhsil nazirinə göndərərək araşdırılmasını istəyir. Təhsil naziri tərəfindən məktubun üzərinə "Qanunlarımız buna imkan vermir" qeydi yazılır və arxivə göndərilir.*

*İsmət İnönü Eynşteynə cavab yazaraq bildirir ki, təklif çox cəzbedici olsa da, Türkiyənin mövcud qanunvericiliyi 40 elm adamının və həkimin ölkəyə gəlişinə icazə vermir. Məktubun sonunda İnönü mənfi cavaba görə Eynşteynə üzrxahlığını da bildirir. Ancaq çox keçmədən Atatürk təsadüfən bu məktubdan xəbər tutur və dərhal yəhudi alimləri ölkəyə dəvət edir. Bundan sonra 40 yəhudi elm adamı qardaş ölkəyə gəlir, Ankara və İstanbul universitetlərində dərs deməyə başlayır.*

*İstisna deyil ki, Eynşteynə Türkiyəyə gəlməsi və burada işləməsi üçün təklif də məhz həmin vaxt edilib. Lakin belə görünür ki, artıq ABŞ-yə köçmək qərarına gələn dahi fizik Atatürkün dəvətinə müsbət cavab verə bilməyib.*

Layihə

**7-1.1.1. Tapşırıq b (dərslik).** Şagirdlər mətni qeyd götürməklə dinləyib suallara cavab verirlər. İlk dörd sual faktoloji xarakter daşıdığından şagirdlər onları asanlıqla cavablandıracaqlar. 5-ci suala isə Atatürkün bu məsələyə münasibətini təhlil edərək cavab verə bilərlər. Mətndə adı çəkilən dövlət məmurlarından fərqli olaraq Atatürk alman alimlərini dərhal Türkiyəyə dəvət edir. Bu onun elmə, təhsilə və mədəniyyətə böyük önəm verən müdrik və humanist dövlət xadimi olduğunu bir daha sübut edir.

**Tapşırıq a (iş dəftəri).** Cavab:

1 – B, 2 – A, 3 – B, 4 – C.

A və C variantlarına uyğun sualların cavabları:

2. Hitlerin imzaladığı qanuna görə yəhudilər Almaniyada sərbəst yaşayıb işləmək hüququndan məhrum olmuşdular.

4. Yəhudiləri Müdafiə Cəmiyyətinin fəxri prezidenti olan Albert Eynşteynin özü də yəhudi olduğu üçün ABŞ-yə köçmüşdü.

**Tapşırıq c (dərslik).** Şagirdlər dərslikdə verilən məktubları oxuyur, Bazar günü məktəbi ilə əlaqədar “Qlossari”də verilən məlumatla tanış olurlar.

**Tapşırıq ç (dərslik).** Cavab: İnsanlar eyni zamanda həm elmə, həm də dinə inana bilərlərmi?

**Söz ehtiyatı**

Şagirdlər “fövqəltəbii” sözü ilə əlaqədar “Qlossari” də verilmiş izahla tanış olduqdan sonra “Söz boğçası” rubrikasında verilən sözləri izah edirlər.

**7-4.4.2. Tapşırıq d (dərslik).** Tapşırıqda dua və iman sözlərini izah etmək üçün onların hiperonimləri və açar sözlər verilmişdir.

**Dua** sözünün izahı üçün açar sözlər: Allah, müqəddəslər, arzu, təşəkkür

**Dua** sözünün hiperonimi: müraciət

**İman** sözünün izahı üçün açar sözlər: Allah, peyğəmbər

**İman** sözünün hiperonimi: etiqad, inam

Sözlərin izahı:

Dua – Arzu və təşəkkürlərini bildirmək məqsədilə Allaha, peyğəmbərə edilən müraciət

İman – Allaha, peyğəmbərə etiqad edilməsi, inam bəslənilməsi

**Tapşırıq e (dərslik).** Cavab:

Ruh[1] **a** b

Ruh[2] a **b**

**7-2.2.1. Tapşırıq ə (dərslik).** Cavab təxminən belə ola bilər:

1. Bütün hadisələr və hətta insanların fəaliyyəti təbiətin qanunları sayəsində baş verdiyinə görə alimlər hadisələrin gedişatına duaların təsir edəcəyini düşünmürlər.

2. İnsanların fövqəltəbii güclər haqqında bilikləri bəsit olduğu üçün onların vahid ruhla bağlı inancları imana əsaslanır.

3. Elmlə dərindən məşğul olan alimlər güclü bir ruhun bəşəriyyətin qanunlarını idarə etdiyinə əmin olur və bu da onlarda uydurma dini inanclardan fərqlənən xüsusi növ dini hissin yaranmasına gətirib çıxarır.

**Tapşırıq f (dərslik).** Cavab variantları:

P.S.Sizin kimi düşünməyi bacaran ağıllı şagirdlər yetişdirdiyi üçün müəlliminiz missis Ellisə təşəkkürlərimi çatdırın.

P.S. Ümid edirəm ki, müraciət etdiyiniz alimlər və görkəmli şəxslər də sizin məktubunuza cavab verəcəklər.

P.S. Sizi maraqlandıran suallarla hər zaman mənə müraciət edə bilərsiniz. Onları bacardığım qədər cavablandırmağa çalışaram.

**Tapşırıq b (iş dəftəri).** Tapşırıq şagirdlərin məktub yazma bacarıqlarının inkişaf etdirilməsinə yönəlmişdir.

**Tapşırıq c (iş dəftəri).**

1. Bütün hadisələr təbiətin qanunları sayəsində baş verir.

2. Dünyada baş verən hadisələrin gedişatına dualar təsir etmir.

3. İnsanların vahid bir ruhla bağlı inancları imana əsaslanır.

Mətndə 2-ci və 3-cü fikirləri təsdiq edən arqumentlər verilib, 1- fikri sübut edən arqument isə yoxdur. Lakin şagirdlər başqa fənlərdən aldıqları biliklərinə, təbiətdə müşahidə etdikləri hadisələrə əsaslanaraq həmin fikrin səbəbini izah edə bilərlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dinləmə zamanı götürdüyü qeydlər əsasında mətnlə bağlı sualları cavablandırır. | Tap. **b** (D.); **a** (İ.D) |
| Sözü izah edərkən anlayışın xüsusiyyətlərinə açar sözlərə, hiperonimlərə əstinad edir. | Tap. **d, e** (D.) |

Layihə

| Mətnin müxtəlif hissələrində əks olunmuş hadisələr arasındakı səbəb-nəticə əlaqəsini müəyyənləşdirir. | Tap. ə (D) |
|---|---|

## 4-ci dərs. Qruplarla iş

• Dərslik: səh. 64

**Təlim məqsədləri:**

**1.** Arqumentlər gətirərək müəllifin fikrini təsdiq edir və genişləndirir **(st. 7-2.3.2).**

**7-2.3.2. Tapşırıq a (dərslik).** Şagirdlər başqa fənlərdən aldıqları biliklərə əsaslanaraq müxtəlif təbiət hadisələrini izah etməklə Eynşteynin məktubunda fərqləndirilmiş cümləni genişləndirirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Arqumentlər gətirərək müəllifin fikrini təsdiq edir və genişləndirir. | Tap. a (D.) |

## 5-ci dərs. Mübtəda və xitabın fərqləndirilməsi

• Dərslik: səh. 65 • İş dəftəri: səh. 36

**Təlim məqsədləri:**

**1.** Cümlədə xitabı mübtədadan fərqləndirir və xüsusiyyətlərini müəyyənləşdirir **(st. 7-4.2.4).**

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik).** Şagirdlərin diqqəti tapşırıqda verilmiş cümlələrə yönəldilir. Onlar ikinci cümlədəki "dostum" sözünün daha yüksək intonasiya ilə deyildiyini və heç bir suala cavab vermədiyini müəyyənləşdirirlər.

**Dil qaydaları**

**7-4.2.4. "Yadda saxla" rubrikası.** Rubrikada xitab haqqında məlumat verilir, onun mübtəda ilə oxşar (adlıq halda olması) cəhəti ilə yanaşı fərqləri də açıqlanır: 1) cümlə üzvü olmadığı; 2) qrammatik cəhətdən digər sözlərlə əlaqələnmədiyi; 3) yazıda durğu işarəsi (vergül, nida) ilə ayrıldığı. Xitabla bağlı qayda şərh edildikdən sonra şagirdlərin aldıqları nəzəri bilik tapşırıqlar vasitəsilə möhkəmləndirilir.

**Tapşırıq b (dərslik).** Cavab:

1. Çatlayır, Xanbacı, qəmdən ürəyim. *(M.Ə.Sabir)*

2. Qeyrətimiz, namusumuz var, bəy, dözərik. *(F.Kərimzadə)*

3. Di indi əhvalatı nağıl elə, Novruzəli! *(C.Məmmədquluzadə)*

4. Əziyyət çəkməyin, Züleyxa xala, sizin çayınız qəndsiz də şirin olar. *(İ.Şıxlı)*

5. Qızım, sənə deyirəm, gəlinim, sən eşit. *(Atalar sözü)*

2-ci "Yadda saxla" rubrikasında adətən insana aid olan xitabın bədii dildə cansız əşyalara və mücərrəd anlayışlara da aid ola bildiyi vurğulanır. Bu cür xitabların ritorik müraciət, yaxud bədii xitab adlandığı nəzərə çatdırılır.

**Tapşırıq c (dərslik).** Şagirdlər buraxılmış durğu işarələrini bərpa edir və 4-cü misradakı "duman" sözünün xitab kimi işləndiyini müəyənləşdirirlər.

Dağlardan endi duman,
Yerlə süründü duman.
Yolu-izi kəsibsən
Gör neçə gündü, duman!

**Tapşırıq a (iş dəftəri).** Cavab:

d. Biz gəldi-gedərik, sən yaşa, dünya!

**Tapşırıq b (iş dəftəri).** Cavab:

1. Əziz Şuşa! Sən azadsan. Əziz Şuşa, biz qayıtmışıq! *(İ.Əliyev)*

3. Ayağa dur, Azərbaycan, səninləyəm! *(M.Araz)*

**Tapşırıq c (iş dəftəri).** Cavab:

1. Siz piyada, mənsə atlı,
Bulaq suyu, dağ havası. *(C.Novruz)*

2. Ovçu, insaf elə, keçmə bu düzdən! *(S.Vurğun)*

3. Quş kimi üstünüzdən qanad çalım, dərələr! *(N.Xəzri)*

4. Ey hörmətli müəllim,
Hər könüldə yerin var. *(B.Vahabzadə)*

5. Nə yatmısan, qoca vulkan, səninləyəm! *(M.Araz)*

6. Vətən oğlu, çoban Qara,
Yay sürünü göy dağlara. *(M.Dilbazi)*

7. Atıl cahana sən, ey ildırım, alış, parla! *(C.Cabbarlı)*

8. Qızım, bu dünyada xoşbəxt yaşa, ay qızım. *(A.Babayev)*

Layihə

| | İnsan | Cansız varlıq |
|---|---|---|
| söz | 2, 8 | 3, 7 |
| söz birləşməsi | 4, 6 | 1, 5 |

**Tapşırıq ç (iş dəftəri).** Cavab: 1. Artıq bir qərara gəlmək vaxtıdır, qardaşlar.

2. Bir az səbir elə, körpə balam, indi dayanıb dincələrik.

3. Gözümün işığı, bir gör kimdi qapını döyən?

4. Əsgərlər, Vətənin sərhədlərini siz qorumalısınız!

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mübtəda və xitabı fərqləndirir. | Tap. **a** (D.) |
| Xitabları müəyyənləşdirib durğu işarələrini bərpa edir. | Tap. **b, c** (D.) **a, ç** (İ.D.) |

# 3-cü fəsil

## 1-ci dərs. Səssiz kinonun kralı

• Dərslik: səh. 66 • İş dəftəri: səh. 37

**Təlim məqsədləri:**

**1.** Verilmiş şəkillər üzrə mətn qurub nəql edir **(st. 7-1.3.1).**

**2.** Dinləmə mətnindən götürdüyü qeydləri yaddaş xəritəsindəki başlıqlar üzrə qruplaşdırıb nəql edir **(st. 7-1.1.1).**

**3.** Dinlədiyi mətndəki fakt və fikirləri ümumiləşdirirərək nəticə çıxarır **(st. 7-1.1.2).**

**Mövzuya yönəltmə**

**7-1.3.1. Tapşırıq a (dərslik).** Şagirdlər Çarli Çaplinin filmlərindən kadrlara baxaraq səssiz kino kralının yaratdığı obrazın xarici görkəmi və xarakteri haqqında danışırlar. Yəqin ki, Çaplinin qəhrəmanının yöndəmsiz geyimi (köhnə şlyapa, qısa pencək, enli şalvar, iri ayaqqabı) onların nəzərindən qaçmayacaq. Eyni zamanda bu miskin görkəmli, kədərli adamın mərhəmətli ürəyə sahib olduğu qənaətinə gələcəklər. Kadrlarda gördüyümüz səhnələr – küçə itinin ona necə sığınması, onun balaca uşağı necə şəfqətlə bağrına basması, uşağın da onu bərk-bərk qucaqlaması bunu sübut edir. Başqa bir kadrda isə Çaplinin qəhrəmanının küçədə gül satan kor qızla tanış olması epizodu əks olunub. Dərslikdə verilmiş kino lentinin ilk kadrında Çaplinin qəhrəmanı gülsatan qızın ona verdiyi gülü əlində tutaraq dalğın halda oturub. Yəqin ki, kor qızın acı taleyini düşünür. Gözlərində isə dərin bir kədər var.

**Dinləmə**

***Səssiz kinonun kralı***

*Dünya kinosunun ən məşhur obrazlarından birinin – sərsəri Çarli obrazının yaradıcısı Çarlz Çaplin 1889-cu ildə Londonda anadan olmuşdur.*

*Çarlinin anası restoran müğənnisi idi. Ailə Londo¬nun ən kasıb məhəllələrindən birində yaşayırdı. Londonun bu miskin məhəlləsi Çarli Çaplinin həyatı boyunca ilham aldığı yer olacaqdı. Məşhurlaşandan sonra bu həyatını filmlərində də göstərmiş, yaddaşlarda daha çox "balaca adam", sərsəri obrazı ilə qalmışdı.*

*Çarli 9 yaşından səhnədə oxuyub-oynamağa başlayıb, pantomim, akrobatika, klounada texnika¬sının sirlə¬rinə yiyələnib. Gələcəkdə bu*

Layihə

*bacarıqlar onun səssiz kino aktyoru kimi məşhurlaşmasında böyük rol oynadı.*

*Balaca Çarlinin iştirak etdiyi teatr truppası komik tamaşalar göstərirdi. Bu tamaşaların personajları arasında avaralar, məzlum, uğursuz adamlar xüsusi yer tuturdu. Çaplin ilk filmlərinin personaj¬la¬rını yaradarkən məhz onlardan ilham almışdı.*

*Amerikaya köçən Çarli 1914-cü ildə kino sənətində ilk addımlarını atmağa başladı. Elə ilk filmlərindən həm xarici görünüş, həm də xarakter baxımından təkrar¬olunmaz obraz yaratdı. Onun geyimi komik təsir bağışlayan detallardan ibarət idi: köhnə şlyapa, qısa pencək, enli şalvar, iri ayaqqabı. Qəribə yerişli bu "balaca adam" daim özündən güclülərlə qarşılaşır, lakin qürurunu itirmir, bacardığı kimi müdafiə olunur. Tamaşaçılar onun hərəkətlərinə ürəkdən gülür, eyni zamanda halına acıyırdılar.*

*Çarli Çaplin 300-ə yaxın filmdə çəkilib. O, bir çox filmlərdə yalnız aktyor deyil, həm də rejissor, bəstəkar kimi çıxış edirdi. 1940-cı ildə ilk səsli filmində ("Diktator") Çarli Çaplin artıq məzlum sərsəri obrazından uzaqlaşdı və onun incə yumoru kəskin satira ilə əvəz olundu. Alman faşizmini, onun lideri Adolf Hitleri gülüş hədəfinə çevirən "Diktator" filmi Oskar mükafatına layiq görüldü.*

*Kino tarixini Çarli Çaplinsiz təsəvvür etmək mümkün deyil. Onu dünyanın hər yerində uşaqdan böyüyədək hamı tanıyır. Çaplin haqqında onlarla kitablar yazılıb, filmlər çəkilib. Hətta 1981-ci ildə kəşf edilmiş asteroidə onun adı verilib. Dünyasını 88 yaşında dəyişmiş bu görkəmli aktyor qeyri-adi istedadı və zəhmətkeşliyi sayəsində adını tarixə qızıl hərflərlə yazdırmağa nail olub.*

**Tapşırıq b (dərslik).** Şagirdlər mətni qeyd götürməklə dinlədikdən sonra şəkillər əsasında gəldikləri fikirləri mətndəki məlumatlarla müqayisə edirlər.

**7-1.1.1. Tapşırıq c (dərslik).** Şagirdlər mətni dinləyərkən götürdükləri qeydləri dərslikdə şəklin ətrafında verilmiş yarımbaşlıqlar altında qruplaşdırır, sonra nəql edirlər.

**7-1.1.2. Tapşırıq ç (dərslik).** Çarli Çaplinin yaratdığı "balaca adam" obrazı daim komik vəziyyətlərə düşür, özündən güclülərlə qarşılaşır, lakin qürurunu itirmir, özünü müdafiə edir. Tamaşaçılar onun hərəkətlərinə ürəkdən gülsələr də, halına acıyırdılar. Eyni zamanda ona rəğbət də bəsləyirdilər. Çünki Çarli Çaplinin özü dediyi kimi onun yaratdığı obraz bütün filmlərində mütləq nəsə bir işə düşür, amma öz ləyaqətini qoruyur və hətta döyülsə belə, əzilmiş şlyapasını hamarlayır, pencəyinin tozunu silir və məğrur şəkildə yoluna davam edir.

**Tapşırıq d (dərslik).** Çaplinin 1940-cı ildə çəkdiyi ilk səsli filmi ("Diktator") alman faşizminin, onun lideri Adolf Hitlerin ifşasına həsr edilmişdi. Bu filmdə Çarli Çaplinin məzlum sərsəri obrazını yaradarkən istifadə etdiyi incə yumoru kəskin satira ilə əvəz olundu.

**Tapşırıq a (iş dəftəri).** Tapşırıq iki hissədən ibarətdir. Birinci hissədəki beş sual faktoloji xarakter daşıyır. Yəni bu məlumatlar dinləmə mətnində var və şagirdlər mətni dinləyərkən götürdükləri qeydlər əsasında sualları cavablandıracaqlar. Bu cavablardan istifadə etməklə isə ikinci hissədəki üç sualın cavabını tapmaq mümkündür.

1. 1889-cu ildə
2. Londanda
3. 9 yaşından
4. 1940-cı ildə
5. 88 yaşında

İkinci hissədəki sualların cavabları:

1. Səhnəyə ilk gəlişi neçənci ildə olub? 1898-ci ildə
2. İlk səsli filmini neçə yaşında çəkib? 51 yaşında
3. Neçənci ildə vəfat edib? 1977-ci ildə

**Tapşırıq b (iş dəftəri).** Bu tapşırıq şagirdlərin dinləmə zamanı götürdükləri qeydlər əsasında mətndəki məlumatları ümumiləşdirərək qısa cümlələr şəklində ifadə etmək bacarığının inkişafına yönəlib.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Şəkil üzrə mətn qurub nəql edir. | Tap. a (D.) |
| Dinlədiyi mətndən götürdüyü qeydləri yarımbaşlıqlar üzrə qruplaşdırır. | Tap. c (D.) |
| Dinlədiyi mətndəki fakt və fikirləri ümumiləşdirirərək nəticə çıxarır. | Tap. ç, d (D.)<br>Tap a, b (İ.D.) |

Layihə

## 2-ci dərs. Çarli Çaplinin qızı Ceraldinaya məktubu

• Dərslik: səh. 67-69 • İş dəftəri: səh. 38

**Təlim məqsədləri:**

**1.** Cümlədə məcazi mənada işlənmiş sözləri və üslubi fiqurları müəyyən edir **(st. 7-4.4.3).**

**2.** Mətnin məzmunundan çıxış edərək obrazı xarakterizə edir **(st. 7-2.3.1).**

**3.** Mətndə faktlara əsaslanaraq müəllif mövqeyinə münasibət bildirir **(st. 7-2.3.2).**

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik).** Şagirdlərin diqqəti motivasiya tapşırığına yönəldilir. Əlbəttə, onlar dinləmə mətninə əsaslanaraq Çarli Çaplinin məktubda qızına tam olaraq nə yazdığını təxmin edə bilməzlər. Amma, yenə də öyrəndiyi məlumatlardan çıxış edərək müəyyən qənaətlərə gələcəklərini gözləmək olar. Məsələn, onlar Çaplinin xarakterindən çıxış edərək onun məktubda qızına zəhmətdən qorxmamağı, sadə insanlara hörmət və mərhəmətlə yanaşmağı, həyatda həmişə ləyaqətlə yaşamağı tövsiyə etdiyini söyləyə bilərlər.

**Oxu**

Dərslikdə Çarli Çaplin və onun övladları ilə bağlı verilmiş "Qısa arayış"la tanış olduqdan sonra şagirdlər "Çarli Çaplinin qızı Ceraldinaya məktubu" mətnini oxuyub təxminləri ilə müqayisə edirlər.

**Söz ehtiyatı**

Mətnlə tanışlıqdan sonra "Söz boğçası" üzrə iş aparılır. Şagirdlər kontekstən çıxış edərək burada verilmiş sözlərin mənasını müəyyənləşdirib lüğətdə verilmiş məna ilə müqayisə edirlər.

7-4.4.3. **Tapşırıq b (dərslik).** Cavab:

**2. Hər hansı sahədə məşhur, tanınmış şəxs**

• İşıq saçmaq ifadəsində hansı bədii təsvir vasitəsindən istifadə edilmişdir? Cavab: c. metafor

7-2.3.1. **Tapşırıq c (dərslik).** Məktubun mətni şagirdlərə Çaplinin həyatı ilə bağlı müəyyən məlumat əldə erməyə imkan verir. Məsələn, yoxsul bir məhəllədə doğulub böyüməsi, bəzən ac, yurdsuz-yuvasız qalması, gənclik həyatının çətin keçməsi, hamını güldürdüyü halda özünün ağlaması, təlxək olduğu üçün alçaldılması və s. Məktubda onu xarakterizə edən cəhətlər də vurğulanıb: qayğıkeş ata, xeyirxah, mərhəmətli, səxavətli, təvazökar, eyni zamanda məğrur insan olması və s.

7-2.3.2. **Tapşırıq ç (dərslik).** Cavab:

2. Əliaçıq, mərhəmətli ol, kasıblara əl tut.

Mətndən çıxış etməklə əsaslandırma: Ancaq səni evə aparan taksi sürücüsündən onun ailəsi barədə soruşmağı unutma. Əgər onun körpə uşağı üçün bələk almağa pulu yoxdursa, onda onun cibinə pul qoy. Nə vaxt iki frank pul xərcləsən, bil ki, pulqabındakı üçüncü frank sənin deyil. O sənin tanımadığın, ancaq bu pula ehtiyacı olan birisinə məxsusdur. Sən o adamı çox asanlıqla tapa bilərsən. Yoxsullar hər yerdədir...

4. Həmişə öz mövqeyin, prinsiplərin olsun, hətta atanla da mübahisə etməkdən çəkinmə.

Mətndən çıxış etməklə əsaslandırma: Bilirəm ki, atalarla övladların fikirləri daim toqquşur. İstəyirəm, elə bir möcüzə baş versin ki, sən mənim dediklərimi, həqiqətən də, tam anlaya biləsən. Mənimlə, düşüncələrimlə döyüş, əziz qızım! Mən itaətkar uşaqları sevmirəm..

6. Öz valideynlərinə, nəslinə layiq insan ol.

Mətndən çıxış etməklə əsaslandırma: Tez-tez vaxt tapıb metro və ya avtobusla get, piyada gəzib insanlara göz yetir! Dul qadınlara və yetim uşaqlara bax! Heç olmasa, gündə bircə dəfə özünə de: "Mən də onlardan biriyəm!" Bəli, sən də onlardan birisən, qızım! Unutma: Çarli ailəsində elə bir kobud insan olmayıb ki, getdiyi faytonun sürücüsünü söysün, yaxud bir yoxsulu ələ salıb gülsün.

**Tapşırıq d (dərslik).** Şagirdlər mətnin 5-ci abzasından çıxış edərək bu suala cavab verə bilərlər. Çaplinin uşaqlıq, gənclik illəri asan keçməyib, ac, yurdsuz-yuvasız keçirdiyi günlər az olmayıb. Amma ürəyi qan ağlasa da, tamaşaçıları əyləndirmək məcburiyyətində qalıb. Ona təlxək kimi baxan, qabağına qəpik-quruş atan adamların münasibətindən sarsılıb, özünü alçaldılmış hiss edib. Buna görə də insanları güldürdüyü halda özünün ağladığını yazır.

**Müəllimin nəzərinə!** Şagirdlər çox güman ki, bu fikirləri səsləndirəcəklər. Lakin Çaplini ağladan yalnız öz dərdi deyildi. Onu kədərləndirən, düşündürən həyatda gördüyü ədalətsizlik, qəddarlıq, biganəlik, obrazlarını yaratdığı məzlum insanların faciəsi idi. Müəllimə yönəldici suallar vasitəsilə şagirdləri daha dərindən düşündürərək bu nəticəyə gəlməyə sövq etmək tövsiyə olunur.

**Tapşırıq e (dərslik).** Çünki Çarli Çaplin də həmin küçə rəqqaslarının, kasıb aktyor və müğənnilərin içərisindən çıxmışdı. Onların ağır həyat-

Layihə

larına, dərdlərinə bələd idi. Çaplin həmişə onlara qayğı ilə yanaşır və qızına da bunu tövsiyə edirdi.

**Tapşırıq ə (dərslik).** Cavab: a – 4, b – 1, c – P.S. , d – 2, e – 3.

**Tapşırıq f (dərslik).** Bu tapşırıqda şagirdlərin cavabları müxtəlif ola bilər. Onların öz seçimini necə əsaslandırmalarına xüsusi diqqət yetirilməsi tövsiyə olunur.

**Tapşırıq g (dərslik).** Tapşırığı yerinə yetirərkən şagirdlər ilk növbədə bu iki mətnin ortaq nöqtəsini müəyyənləşdirməlidirlər. Bu, Çaplinin özünün də uşaqlıqdan mənsub olduğu mühit, əhatəsində böyüdüyü sadə insanlar və dahi sənətkarın bu insanlara münasibətidir. Dinləmə mətnində bütün bunlar geniş işıqlandırılıb və məktubdakı fikirləri dərindən anlamağa kömək edir. Şagirdlər bu nəticəyə hər iki mətni təhlil və müqayisə edərək, bu mətnlərdən gətirdikləri nümunələrə əsaslanaraq gəlməlidirlər.

**Tapşırıq a (iş dəftəri).** Cavab: e.

**7-2.3.2. Tapşırıq c (iş dəftəri).** Tapşırıq mətndən seçilmiş fikirləri şərh etmək və dəyərləndirmək bacarığının üzə çıxarılmasına yönəlmişdir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Cümlədə məcazi mənada işlənmiş sözləri və üslubi fiqurları müəyyən edir. | Tap. b (D.) |
| Mətnin məzmunundan çıxış edərək obrazı xarakterizə edir. | Tap. c (D.) |
| Mətndə faktlara əsaslanaraq müəllif mövqeyinə münasibət bildirir. | Tap. ç, d, f (D.)<br>b, c (İ.D.) |

## 3-cü dərs. Həmcins cümlə üzvləri

• Dərslik: səh. 70 • İş dəftəri: səh. 39

**Təlim məqsədləri:**

**1.** Həmcins cümlə üzvlərində şəkilçi və köməkçi nitq hissələrinin ixtisarı qaydalarına əməl edir **(st. 7-4.2.4).**

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik).** Şagirdlərin diqqəti tapşırıqdakı cümlələrə yönəldilir. Onlar cümlələrdə eyni suala cavab verən və sadalama intonasiyası ilə əlaqələnən cümlə üzvlərini müəyyən edirlər.

**Dil qaydaları**

**7-4.2.4. "Yadda saxla" rubrikası.** Rubrikada cümlənin həmcins üzvləri haqqında məlumat verilir, hər bir cümlə üzvünün həmcins ola bilməsi, həmcins üzvlər arasında vergül qoyulması nəzərə çatdırılır. Cümlənin həmcins üzvləri ilə bağlı qayda şərh edildikdən sonra şagirdlərin aldıqları nəzəri bilik tapşırıqlar vasitəsilə möhkəmləndirilir.

**Tapşırıq b (dərslik).** Tapşırığı yerinə yetirən şagirdlər bütün cümlə üzvlərinin həmcins ola bildiyini əyani surətdə görürlər:

1. Saralır get-gedə **çöl, çəmən, çayır,**
Könül hər saatı ömürdən sayır.
*(B. Vahabzadə)*

2. Şiddətli külək **ağacları, kolları** əyirdi.

3. Palçığa batmış maşın **nə irəli, nə geri** gedə bilirdi.

4. **Yaşıl, sarı** yarpaqlar bir-birinə qarışmışdı.

5. Budağa qonan bülbül həvəslə **oxuyur, cəh-cəh vurur.**

2-ci "Yadda saxla" rubrikasında şagirdlərin nəzərinə çatdırılır ki, həmcins üzvlərdə bəzi təkrar olunan qrammatik şəkilçi və bir sıra qoşmalar sonuncuda saxlanılmaqla ixtisar edilə bilər.

**Tapşırıq c (dərslik).** Cavab:

1. cəm şəkilçisi
2. üçün qoşması
3. cəm və yönlük hal şəkilçisi
4. qədər qoşması

**Tapşırıq a (iş dəftəri).** Cavab:

1. Səyyah getdiyi hər yerdə kəndləri, obaları qarış-qarış gəzirdi. (tamamlıq)

2. Bayatılar, oxşamalar, qoşmalar heç vaxt nənəmin dilindən düşməzdi. (mübtəda)

3. İşıqlı, geniş, rahat sinif otaqları şagirdlərin yolunu gözləyir. (təyin)

4. Ad günü şən keçdi, qonaqlar doyunca oynadılar, güldülər, əyləndilər. (xəbər)

5. Hamı yeni teatr binasının açılışını həyəcanla, səbirsizliklə gözləyirdi. (zərflik)

**Tapşırıq b (iş dəftəri).** Cavab:

1. Ot üstündə oturan it kimidir; *nə* özü yeyir, *nə də* başqasına verir.

2. Qızın halından baş çıxarmaq olmur; *gah* gülür, *gah da* ağlayır.

3. Hər yarışın sonunda *ya* qalibiyyət olur, *ya da* məğlubiyyət.



Layihə

4. Çaplinin qəhrəmanı tamaşaçıları *həm* güldürür, *həm də* düşündürür.

**Tapşırıq c (iş dəftəri).** Cavab:

1 – B, 2 – D, 3 – A, 4 – C.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Həmcins cümlə üzvlərini müəyyən edir. | Tap. **a, b** (D.); **a, c** (İ.D.) |
| Həmcins cümlə üzvlərində ixtisar edilmiş şəkilçi və köməkçi nitq hissələrini müəyyənləşdirir. | Tap. **c** (D.) |

# Ümumiləşdirici təkrar

• Dərslik: səh. 71 • İş dəftəri: səh. 40-41

**Təlim məqsədləri:**

**1.** Feili və ismi xəbərin ifadə vasitələrini müəyyənləşdirir **(st. 7-4.2.4).**

**2.** Xitabı mübtədadan fərqləndirir və ifadə vasitəsini müəyyənləşdirir **(st. 7-4.2.4).**

**3.** Həmcins cümlə üzvlərini müəyyən edir, aralarında müvafiq bağlayıcılar işlədir **(st. 7-4.2.4).**

**Dil qaydaları**

**Tapşırıq 1 (dərslik).** Cavab: c. Uşaq bu məsələnin üzərində xeyli baş sındırdı.

**Tapşırıq 2 (dərslik).** Cavab:

1 – ç, 2 – a, 3 – c, 4 – d, 5 – b.

**Tapşırıq 3 (dərslik).** Cavab: d. Sizdən kimlər keçib dağlar?

**Tapşırıq 4 (dərslik).** Cavab: Bahar nə xoş gəlir, ruha dad verir,
Xəyala, duyğuya qol-qanad verir.
Var olsun şeirimiz, şairlərimiz!
Hər gülə, çiçəyə təzə ad verir. *(S.Vurğun)*

**Tapşırıq 5 (dərslik).** Cavab:

1. Qanacaqlı adam *həm* qanar, *həm də* qandırar.
2. Artıq aş *ya* qarın ağrıdar, *ya da* baş.
3. Dairənin *nə* əvvəli olar, *nə də* axırı.
4. Qəti fikir bildirmir; *gah* nala vurur, *gah da* mıxa.
5. *Nə* yoğurdum, *nə* yapdım, hazırca kökə tapdım.

İş dəftərindəki **1-8-ci** tapşırıqlar bölmə üzrə mənimsədilən bilik və bacarıqların yoxlanılması məqsədi daşıyır.

**Tapşırıq 1 (iş dəftəri).** Cavab: 1. Əvvəl-axır qələbəni mən *qazanasıyam.* (lazım şəkli)

2. Kaş ki bu yarışda qələbəni biz *qazanaq.* (arzu şəkli)

3. Axır ki çoxdan gözlədiyimiz qələbəni *qazandıq.* (xəbər şəkli)

4. Əzmlə yarışıb qələbə *qazan.* (əmr şəkli)

5. Bu yarışda qələbəni mütləq sən *qazanmalısan.* (vacib şəkli)

**Tapşırıq 2 (iş dəftəri).** Cavab: c. Z.Tağıyevin adı xalqımızın tarixində önəmli yer tutur.

**Tapşırıq 3 (iş dəftəri).** Cavab: 1. Nəyə qadir olduğunu yalnız sınamaqla bilmək **mümkündür.**

2. Onun üçün həll yolu olmayan heç bir məsələ **yoxdur.**

Layihə

3. İnanıram ki, işi başa çatdırmaq üçün hələ imkan **vardır.**

4. Bu xörəyi hazırlamaq üçün aldığımız ərzaq tamamilə **bəsdir.**

5. Bir işə başlamazdan əvvəl hər şeyi ölçüb-biçmək **lazımdır.**

**Tapşırıq 4 (iş dəftəri).** Cavab:

1. Ey coşqun dəniz, səni ram etməyə gəlmişik!
2. Sənin üçün yaman darıxmışam, dostum!
3. Ah, tənbəllik, bircə sənin daşını ata bilsəydim!
4. Cənab baş leytenant, əmriniz yerinə yetirildi!

| | İnsan | Cansız varlıq | Mücərrəd anlayış |
|---|---|---|---|
| söz | 2 | | 3 |
| söz birləşməsi | 4 | 1 | |

**Tapşırıq 5 (iş dəftəri).** Cavab:

Budur gəlir **atlılar** **mübtəda**
Atları qanadlılar
Baş götürüb gedirsiz
Deyin hara **atlılar** **xitab**

**Tapşırıq 6 (iş dəftəri).** Cavab:

1. O, mehriban, mülayim xasiyyəti ilə hamının könlünü almışdı. (təyin)
2. Yazın gəlişi ilə dağlar, dərələr yaşıllığa bürünmüşdü. (mübtəda)
3. Dostlarından ayrı düşən uşaq çaşqınlıqla sağa, sola boylanırdı. (zərflik)
4. Nənə kiçik nəvəsinin saçını hər gün özü darayır, hörürdü. (xəbər)
5. Yaz gələndən hamı qapıları, pəncərələri taybatay açıb. (tamamlıq)

**Tapşırıq 7 (iş dəftəri).** Cavab: 1. *Ya* göründüyün kimi ol, *ya da* olduğun kimi görün. *(C.Rumi)*

2. O *həm* tarda, *həm də* sazda eyni məharətlə çalır.

3. Günəş sanki bizimlə gizlənqaç oynayır; *gah* çıxır, *gah da* batır.

4. Bu qız bütün günü işləyib; *nə* yatıb, *nə də* dincəlib.

**Tapşırıq 8 (iş dəftəri).** Cavab:

1. Evdə bişən paxlavanın, şəkərburanın, şorqoğalının ləzzəti ayrı olur.

Evdə bişən paxlava, şəkərbura, şorqoğalının ləzzəti ayrı olur.

2. Bu işin sənə görə, mənə görə ləngiməsi yolverilməzdir.

Bu işin sənə, mənə görə ləngiməsi yolverilməzdir.

3. Nənə üçün, baba üçün nəvədən şirin nə ola bilər?

Nənə, baba üçün nəvədən şirin nə ola bilər?

4. Gənclər tonqalın ətrafında rəqs edirdilər, yallı gedirdilər.

Gənclər tonqalın ətrafında rəqs edir, yallı gedirdilər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Feili və ismi xəbərin ifadə vasitələrini müəyyənləşdirir. | Tap. **1, 2** (D.); **1, 2, 3** (İ.D.) |
| Xitabı mübtədadan fərqləndirir və ifadə vasitəsini müəyyənləşdirir. | Tap. **3** (D.) **4, 5** (İ.D.) |
| Həmcins cümlə üzvlərini müəyyən edir, aralarında müvafiq bağlayıcılar işlədir. | Tap. **4, 5** (D.) **6, 7** (İ.D.) |

Laylə

# bölmə 8 TƏBİƏTSEVƏRLƏR

| Dərs | Mövzu | Məzmun xətləri | Dərslik səh. | İş dəftəri səh. | MV səh. |
|---|---|---|---|---|---|
| **1-ci fəsil** | | | | | |
| 1 | Düşərgələr | Danışma | 72-73 | - | 156-157 |
| 2 | Obyektiv və subyektiv informasiya | Oxu. Danışma | 74-75 | 42-43 | 157-158 |
| 3 | Dünya Skaut Hərəkatı Təşkilatı | Oxu.Dinləmə | 76 | 44 | 158-159 |
| 4 | Mövzuya aid rəsmi-işgüzar məktubun yazılması | Yazı | 77 | 45 | 160-161 |
| 5 | Köməkçi nitq hissələri (təkrar) | Dil qaydaları (Qrammatika) | 78 | 46 | 161-162 |
| **2-ci fəsil** | | | | | |
| 1 | İki il ağacda yaşayan qadın | Oxu | 79-80 | 47 | 162-163 |
| 2 | Culiya Hillin məktubu | Oxu. Danışma | 80-81 | 48 | 163-165 |
| 3 | Parafraz. Mövzu üzrə təqdimat | Danışma | 83-84 | | 165-166 |
| 4 | Əsas nitq hissələri (təkrar) | Dil qaydaları (Qrammatika) | 85 | 49 | 166-167 |
| **3-cü fəsil** | | | | | |
| 1 | Plastik materialın ixtirası, inkişafı, bu günü (xronoloji mətn) | Oxuyub-anlama | 86-87 | 50 | 168-169 |
| 2 | Həyatımızı asanlaşdıran plastik qablar (qeyri-xronoloji mətn) | Danışma | 88-89 | 51 | 169-170 |
| 3 | Ekoloqlardan həyəcan təbili: təbiət bizdən kömək istəyir! | Oxu | 90-91 | 52 | 170-172 |
| 4 | Mövzu üzrə debat | Danışma | 92 | | 172 |
| 5 | Ümumiləşdirici təkrar (Sintaksis, orfoqrafiya, punktuasiya) | Dil qaydaları (Qrammatika) | 92-93 | 53-55 | 173-174 |

Layihə

# 1-ci fəsil

## 1-ci dərs. Düşərgələr

• Dərslik: səh. 72-73

**Təlim məqsədləri**

**1.** Həyatdan nümunələr gətirməklə söylənilən fikrə öz münasibətini bildirir **(st. 7-1.2.2).**

**2.** Araşdırma aparmaq üçün suallar tərtib edir **(st. 7-1.2.2).**

**Mövzuya yönəltmə**

Müəllim şagirdlərin diqqətini bölmənin adına yönəldir və soruşur:

– Sizcə, bu bölmənin mövzusu nədir?

Bölmədə verilən materiallar şagirdlərin düşərgə həyatı haqqında bilik və təsəvvürlərini genişləndirməyə, ətraf mühitə münasibətdə onlarda ekoloji düşüncəni formalaşdırmağa imkan yaradır və ən vacibi isə bu mövzulardan istifadə edilməklə onların nitq bacarıqları inkişaf etdirilir.

**Danışma**

**7-1.2.2. Tapşırıq a (dərslik).** Şagirdlər istirahət düşərgələri ilə bağlı suallara cavab verməklə bu barədə danışırlar. Tapşırığı qruplarla iş formasında yerinə yetirmək olar. Müəllim hər qrupa tapşırıqda verilmiş bir sualı müzakirə etməyi tapşıra bilər.

1-ci qrupun üzvləri birlikdə müxtəlif yerlərin (meşə, dağ, göl kənarı və s.) üstünlüklərini və çətinliklərini müzakirə edib ən uyğun düşərgə yerini seçirlər.

Müəllim 2-ci qrupa düşərgədə görülə biləcək fəaliyyətlərin siyahısını tərtib etmələrini tapşırır (məsələn, odun yığmaq, oyunlar oynamaq, çadır qurmaq, yemək hazırlamaq və s.). Şagirdlər fikir mübadiləsi aparıb düşərgədə hansı fəaliyyətlərin maraqlı ola biləcəyi barədə qərara gəlirlər.

3-cü qrup ilin fəsilləri üzrə düşərgə şəraitinin fərqlərini müzakirə edərək (yayda günəşli hava, payızda yağış ehtimalı, qışda soyuq və çətinliklər, yazda təbiətin oyanması və s.) seçdikləri fəsli əsaslandırmaq üçün müzakirə edirlər.

4-cü qrup "Düşərgə təcrübəsi hansı bacarıqları inkişaf etdirir?" sualı ətrafında müzakirə aparır. Şagirdlərdən düşərgədə inkişaf etdirilə biləcək bacarıqların siyahısını tərtib etmələri istənilir (məsələn, komanda işi, yemək bişirmək, od qalamaq, təbiəti tanımaq və s.). Hər bir bacarığın nə üçün vacib olduğu haqqında müzakirə aparılır.

**7-1.2.2. Tapşırıq b (dərslik).** Müasir dövrdə şagirdlər sosial media və mesajlaşma tətbiqlərindən geniş istifadə edirlər. Dərslikdə şagirdlərin gündəlik həyatda istifadə etdikləri ünsiyyət formalarına üstünlük vermək onların mətnləri real həyat kontekstində qavramalarına kömək edir. Onlar həm öz fikirlərini qısa və dəqiq ifadə etməyi, həm də düzgün sual verməyi öyrənirlər.

Şagirdlər rəsmi-işgüzar məktub üslubu ilə tanışdırlar. Tapşırıqda verilmiş məktublaşma ilə rəsmi məktubun dil-üslub xüsusiyyətlərini müqayisə etmək keçilmiş bilikləri xatırlatmağa imkan verər.

**Tapşırıq c (dərslik).** Tapşırıq şagirdlərin məlumatları diqqətlə oxuduqlarını yoxlamaq məqsədi daşıyır. Aylin yazır ki, düşərgə barədə ilk məlumatı İradə müəllimin şəxsi bloqundan alıb. O həmçinin düşərgə barədə ətraflı öyrənmək üçün rəsmi sayta baxıb, şirkətlə əlaqə saxlayıb və s. Bu, şagirdlərə hər hansı bir qərar verməzdən əvvəl araşdırma aparmağın vacibliyini öyrədir.

**Tapşırıq ç (dərslik).** Şagirdlər rəfiqəsindən təklif alan Gülayda yarana biləcək sualları, həmin sualların cavabını necə öyrənə biləcəklərini müzakirə edir, cavablarını bildirirlər.

Şagirdlərin ehtimal etdiyi suallar: *Düşərgə harada yerləşir? Neçə gün davam edir? Düşərgədə hansı fəaliyyətlər təşkil olunur? Yaşayış şəraiti necədir (palatka, otaq və s.) Qidalanma necə təşkil olunur? Təhlükəsizlik tədbirləri varmı? Neçə nəfər iştirak edir? Düşərgəyə kimlər qatıla bilər (yaş məhdudiyyəti varmı)? Qiyməti nə qədərdir? Nə aparmaq lazımdır? (Geyim, şəxsi əşyalar və s.)*

Şagirdlərin bu sualların cavablarını necə tapa biləcəklərinə dair fikirləri təxminən aşağıdakı kimi ola bilər:

Düşərgənin rəsmi saytına baxmaq – Burada ümumi məlumat, tarix, yer və qiymət göstərilir.

Düşərgəni təşkil edən şirkətə zəng etmək və ya imeyl yazmaqla şəxsi suallara daha konkret cavab almaq olar.

Bu düşərgəyə getmiş insanlardan soruşmaqla daha real məlumat almaq olar.

Sosial şəbəkələrdə və forumlarda rəy və şərhləri oxumaqla insanların düşərgə haqqında fikirlərini öyrənmək mümkündür.

Təşkilatçıların paylaşdığı videolara və şəkillərə baxmaqla düşərgənin necə keçirildiyini görmək

Layihə

olar.

Müəllim şagirdlərin verdiyi cavabları dinləyir və fikirlərin konkret və məntiqli olmasını təmin etmək üçün müəyyən məqamlarda istiqamət verir:

– Sizcə, yalnız sayt məlumatı kifayət edərmi, yoxsa düşərgəyə daha əvvəl gedənlərdən də soruşmaq lazımdır? Düşərgənin yerləşdiyi yerin iqlimi haqqında məlumat toplamaq niyə vacibdir? Məlumatın etibarlı olub-olmadığını necə yoxlamaq olar? və s.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Həyatdan nümunələr gətirməklə söylənilən fikrə öz münasibətini bildirir. | Tap. **a** (D.) |
| Araşdırma aparmaq üçün suallar tərtib edir. | Tap. **b, c, ç** (D.) |

## 2-ci dərs. Obyektiv və subyektiv informasiya

• Dərslik: səh. 74-75 • İş dəftəri: səh. 42-43

**Təlim məqsədləri**

**1.** Mətndəki faktlara əsaslanaraq müəllif mövqeyinə münasibətini bildirir **(st. 7-2.3.2).**

**2.** Oxuduğu mətndə obyektiv və subyektiv fikirləri müəyyən edir (**st. 7-2.3.5**).

**Mövzuya yönəltmə**

Ötən dərsdə düşərgəyə getmək istəyənləri düşündürən suallar ətrafında müzakirə aparılmışdı. Müəllim həmin sualları xatırladır.

**Oxu**

**7-2.3.2. Tapşırıq a (dərslik).** Bu dərsdə şagirdlər həmin sualların cavabını düşərgə təşkil edən şirkətin veb-səhifəsini nəzərdən keçirməklə tapmağa çalışırlar. Şagirdlər mətni oxuyur, həmçinin illüstrativ elementlərə, qrafik işarələrə diqqət yönəldirlər. Mətn oxunduqdan sonra iş dəftərində onun qavranılmasını yoxlayan **a** və **b** tapşırıqlarını icra etmək tövsiyə olunur.

**Tapşırıq a (iş dəftəri).** Cavab: 6 il təcrübə, 10 xidmət sahəsi (zirvə yürüşləri, muzeylərə ekskursiya, velosiped turu və s.) var. 460-dan çox müştərisi olub. Səyahət sığortası var.

**Tapşırıq b (iş dəftəri).** Cavab: 1 – Y, 2 – Y, 3 – D, 4 – Y, 5 – D, 6 – D, 7 – D, 8 – D.

**7-2.3.5. Tapşırıq b (dərslik)**. Şagirdlər veb-səhifədəki mətnin insanlara hansı mesajı ötürmək istədiyini (oxucunu şirkətin fəaliyyətinin üstün olduğuna inandırmaq) təhlil etməlidirlər. Bu tapşırıq şagirdlərə mətn daxilində faktlara əsaslanan (obyektiv) və şəxsi fikirlərə, emosiyalara söykənən (subyektiv) informasiyanı ayırd etməyi öyrədir, onların informasiya ilə işləmə bacarıqlarını inkişaf etdirir.

**"Diqqət et" rubrikası.** Müəllim sinfə obyektiv və subyektiv informasiya anlayışlarını izah edib, gündəlik həyatdan nümunələr gətirə bilər. Məsələn, "Bu gün hava 25°C-dir." – obyektiv informasiya, "Bu gün hava çox istidir və dözülməzdir!" – subyektiv informasiya.

Şagirdlər aşağı siniflərdə fakt və fikir, obyektiv və subyektiv informasiya anlayışlarını öyrənmişlər. Bu dərsdə isə onlar mətnlər üzərində işləyərək obyektiv və subyektiv məlumatları müəyyənləşdirməyi öyrənir, eyni zamanda bu informasiyaların hansı məqsədlə təqdim edildiyini araşdırırlar. Bu yanaşma şagirdlərin tənqidi təfəkkürünü inkişaf etdirir və gündəlik həyatda daha şüurlu oxumaq səriştəsi qazandırır.

**7-2.3.5. Tapşırıq c (dərslik).** Bu iki mətnin əsas fərqi onların informasiyanı təqdimetmə tərzi və məqsədidir. **"Macəra" şirkətinin mətnində** oxucunu cəlb etmək üçün emosional və subyektiv ifadələrdən istifadə edilir. Məsələn, "Təbiətin qoynunda unudulmaz anlar yaşa!" ifadəsi fakt deyil, çünki "unudulmaz" subyektiv qiymətləndirmədir. "Bizə qoşulun, unudulmaz anlar yaşayın!" Bu, oxucunu cəlb etmək üçün çağırış xarakterli bir ifadədir, obyektiv deyil.

**"Psixoloq məsləhəti" məqaləsi** isə düşərgələrin real təsiri haqqında məlumat verən obyektiv informasiyadır. Bu mətn faktlara və elmi əsaslandırmaya söykənir. Məqsədi oxucunu düşərgənin psixoloji təsiri haqqında məlumatlandırmaqdır. Obyektiv ifadələr: "Düşərgələr, adətən, təbiət qoynunda təşkil olunur." – Bu, ümumi qəbul olunmuş faktdır.

"Düşərgələr uşaqlara özlərinə güvənməyi öyrədir." Bu, müşahidəyə əsaslanan, araşdırmalarla təsdiqlənə biləcək bir fikirdir.

"Uşağın hazır olub-olmaması, təşkilatçılığın keyfiyyəti və düşərgədə təhlükəsizlik tədbirləri

Layihə

diqqətlə nəzərdən keçirilməlidir”. Bu, psixoloqun bilik və təcrübəsinə əsaslanan bir tövsiyədir.

**Tapşırıq c (iş dəftəri).** Bu tapşırıqlar vasitəsilə subyektiv və obyektiv informasiyanın fərqləndirilməsi bacarığı yoxlanılır.

Taleh Kərimovun rəyi – Subyektiv (O)
Ömər Sarvanlının rəyi – Obyektiv (O)
Xətai Surxayzadə – Subyektiv (S)
Nərmin Süleymanova – Subyektiv (S)

**Tapşırıq ç (iş dəftəri).** Cavab: Obyektiv olmayan (subyektiv) rəylər Xətai Surxayzadəyə və Nərmin Süleymanovaya məxsusdur. Çünki Xətai Surxayzadə yalnız bir şirkəti reklam edir və başqalarının işini əsassız olaraq bəyənmir. Nərmin Süleymanova isə “Macəra” şirkətində işlədiyini açıq şəkildə bildirir. Şirkətini tərifləməsi reklam məqsədi daşıyır. Ona görə də bu rəylər subyektiv hesab olunur.

**Danışma**

**Tapşırıq ç (dərslik).** Şagirdlər 4 qrupa bölünür və hər qrup müəyyən bir problemin həll yollarını araşdırır:

I qrup: Qida və su təminatı – Təbii su mənbələrindən istifadə, yemək tapmaq yolları və s.

II qrup: Sağlamlıq və təhlükəsizlik – Heyvan təhlükələri, zəhərli bitkilər və ilkin tibbi yardım.

III qrup: Hava şəraitinin çətinlikləri – İsti-soyuq hava, yağış, külək və geyim seçimi.

IV qrup: Psixoloji çətinliklər – Tək qalmaq qorxusu, stres, komanda işi.

Hər qrup öz mövzusu ilə bağlı 2-3 həll yolu hazırlayır.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndəki faktlara əsaslanaraq müəllif mövqeyinə münasibətini bildirir. | Tap. a (D.), a, b (İ.D.) |
| Oxuduğu mətndə obyektiv və subyektiv informasiyanı müəyyən edir. | Tap. b (D.), c (İ.D.) |

## 3-cü dərs. Dünya Skaut Hərəkatı Təşkilatı

• Dərslik: səh. 76 • İş dəftəri: səh. 44

**Təlim məqsədləri**

**1.** Müəllifinin oxucuya çatdırmaq istədiyi əsas fikri müəyyən edir **(st. 7-2.3.2).**

**2.** Dinləmə zamanı götürdüyü qeydlər əsasında mətnlə bağlı sualları cavablandırır **(st. 7-1.1.1).**

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik).** Şagirdlər coğrafiya fənnindən skautlar barədə məlumat əldə etmişlər. Müəllim suallar verməklə şagirdlərin skautlar haqqında bildiklərini soruşur.

**Oxuyub-qavrama**

Şagirdlər mətni oxuduqca əldə etdikləri yeni məlumatları qeyd edirlər.

**7-2.3.2. Tapşırıq b (dərslik).** Şagirdlər təxminən belə cavablandıra bilərlər:

Müəllifin mətni yazmaqda əsas məqsədi skaut təşkilatının təşkil etdiyi yay düşərgəsi və ekologiya mövzusunda keçirdiyi təlimlər barədə məlumat verməkdir. Mətnin reportaj janrında yazıldığını əsaslandırmaq üçün bir neçə amili qeyd etmək olar: 1. Hadisə haqqında məlumat vermə: Mətn skautların yay düşərgəsi haqqında fakt və məlumatları təqdim edir, bu, reportajın əsas xüsusiyyətidir – məlumat vermək və oxucuya hadisə barədə ətraflı məlumat çatdırmaq.

2. Mətndəki informasiya obyektivdir və sadə, anlaşıqlı dillə təqdim olunub. Müəllifin hadisəyə münasibəti və şəxsi fikirləri yoxdur.

3. Mətn düşərgədə iştirak edən 150 skaut haqqında məlumat verir və oradakı oyunlar, ekologiya ilə bağlı təlimlər kimi konkret fəaliyyətləri təqdim edir. Bu da reportajın əsas xüsusiyyətlərindəndir.

4. Mətndə oxucunun məlumatı, xəbəri daha yaxşı başa düşməsi üçün şəkil verilir. Reportaj janrı üçün vizual təsvirlərin təqdim olunması xarakterik xüsusiyyətdir.

**Dinləmə**

**7-1.1.1. Tapşırıq c (dərslik).** Müəllim şagirdlərə mətni dinlədikcə qeydlər götürməyi tapşırır. Mətn səsləndirilir.

Layihə

***Dünya Skaut Hərəkatı Təşkilatı***

*Ümumdünya Skaut Hərəkatı bütün dünyada fəaliyyət göstərən gənclər təşkilatıdır.*

*İlk skaut təşkilatı 1907-ci ildə Böyük Britaniyada Lord Baden Pauell tərəfindən yaradılmışdır. Təşkilat qısa müddət ərzində dünyada yayılmış və Ümumdünya Skaut Hərəkatına çevrilmişdir. Hazırda 216 ölkədən 35 milyon uşaq, yeniyetmə və gənc bu hərəkatın üzvüdür. 2000-ci ildə Azərbaycan Skautlar Assosiasiyası da bu təşkilatın tam hüquqlu üzvü olmuşdur.*

*"Skaut" sözü ingilis dilində kəşfiyyatçı deməkdir. Əvvəllər "boyskaut" adlanan hərəkat yalnız oğlanlar üçün nəzərdə tutulurdu. 1910-cu ildə qızlar da bu hərəkata qoşuldular. Təşkilat üzvləri müxtəlif yaş qruplarını əhatə edir. Uşaqlar (6–14 yaş), Gənclər (14–29 yaş), Orta yaşlılar (29–50 yaş). Ümumdünya Skaut Hərəkatının mənzil qərargahı İsveçrədədir.*

*Skaut hərəkatının əsas fərqləndirici nişanı qalstukdur. Hər bir milli təşkilat öz ölkəsinə aid rəmzlər seçə bilər. Azərbaycanda skaut üzvlərinin üç rəngli bayraq rəngində qalstuku və xüsusi geyimləri var. Onlar bir-birini hərbçisayağı salamlayır, üzvlüyə qəbul olunanda dövlət bayrağının qarşısında baş əyir və bayrağı öpürlər. Skautlar "Hər gün bir xeyirxah iş görək" devizi altında fəaliyyət göstərirlər.*

*Ümumdünya Skaut Hərəkatı Təşkilatının üç əsas prinsipi var və onlar hər bir skaut üçün qanundur.*

*1-ci prinsipdə dini və mənəvi dəyərlərə sadiqlik, müxtəlif dinlərə münasibətdə tolerantlıq nəzərdə tutulur. 2-ci prinsip ölkəyə sədaqəti, həmvətənlərə hörməti və təbiətin qorunmasına töhfəni nəzərdə tutur. 3-cü prinsipə görə isə hər bir skaut öz bacarıqlarını inkişaf etdirməkdə məsuliyyət daşıyır.*

*Skautlar böyük bir ailə kimi fəaliyyət göstərirlər. 6–9 nəfərlik qruplara "patrul" deyilir. Hər patrulun bir rəhbəri olur. Qrup üzvlərinin hər birinin öz vəzifəsi var. Bir neçə patrul birləşərək daha böyük bir dəstə – "bölük" yaradır. Bölüyə rəhbərlik edən şəxs bütün patrullara nəzarət edir və onlara dəstək olur. Skautların komanda halında işləməsi onların ünsiyyət, əməkdaşlıq və məsuliyyət kimi sosial bacarıqlarını inkişaf etdirir.*

**Tapşırıq a (iş dəftəri).** Şagirdlər dinləmə mətninə əsasən fikirlərin doğru, yoxsa yanlış olduğunu müəyyənləşdirirlər.

Doğru fikirlər: 1. Ümumdünya Skaut Hərəkatı 1907-ci ildə Lord Baden-Pauell tərəfindən yaradılmışdır.

3. Azərbaycan Skautlar Assosiasiyası 2000-ci ildə Ümumdünya Skaut Hərəkatı Təşkilatına üzv qəbul edilmişdir.

5. 1910-cu ildə qızlar da bu hərəkatın üzvü ola bildilər.

6. Ən kiçik skautun 6, ən böyük üzvün isə 50 yaşı ola bilər.

7. Azərbaycan skautlarının qalstuku bayrağımızın rənglərinə uyğundur.

8. Skautların əsas prinsiplərindən biri skautun şəxsi qabiliyyətlərinin inkişaf etdirilməsində məsuliyyət daşımasıdır.

**Tapşırıq b (iş dəftəri).** Cavab: 1. Qəbilə başçısı sol əli ilə qarşı tərəfin əlini sıxmaqla öz etibarını və dostluğunu nümayiş etdirirdi. Çünki sol əllə əl sıxmaq üçün döyüşçü qalxanını buraxmalı idi. Bu isə güvən və səmimiyyət rəmzi idi. Başçı göstərirdi ki, qarşısındakı insana təhlükə kimi baxmır və ona inanır.

2. Skautlar arasında sol əllə görüşmək etibar, dostluq və cəsarətin rəmzi kimi qəbul edilir. Bu, bir-birinə güvənməyi, qorxu hissindən uzaq olmağı və birlik ruhunu gücləndirməyi simvolizə edir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Müəllifin oxucuya çatdırmaq istədiyi əsas fikri müəyyən edir. | Tap. b (D.) |
| Dinləmə zamanı götürdüyü qeydlər əsasında mətnlə bağlı sualları cavablandırır. | Tap. c (D.); a, b (İ.D.) |

Layihə

## **4-cü dərs.** Mövzuya aid rəsmi-işgüzar məktubun yazılması

• Dərslik: səh. 77 • İş dəftəri: səh. 45

**Təlim məqsədləri**

**1.** Müzakirə zamanı həyatdan nümunələr gətirməklə mövzu üzrə münasibətini bildirir **(st. 7-1.2.2).**

**2.** Məqsədə uyğun rəsmi-işgüzar məktub yazır **(st. 7-3.2.3).**

**Mövzuya yönəltmə**

Müəllim ötən dərsdə şagirdlərin skautlar barədə dinlədiyi mətni xatırladır.

**Danışma**

**7-1.2.2. Tapşırıq a (dərslik).** Bu tapşırıqda şagirdlər skautlara aid kodekslə tanış olur və qaydaları şərh edirlər. Bu tapşırığı cütlərlə iş formasında yerinə yetirmək tövsiyə olunur. Hər cüt bir qaydanı götürüb, onun həyatda necə istifadə oluna biləcəyini müzakirə edir, konkret nümunələr təqdim edir.

**Tapşırıq b (dərslik).** Şagirdlər fikirlərini təxminən aşağıdakı kimi bildirə bilərlər:

*Məncə, "Skautun borcu faydalı olmaq və başqalarına kömək etməkdir" prinsipi çox önəmlidir. Çünki bu qayda bizə sadəcə özümüzü deyil, cəmiyyətimizi də düşünməyi öyrədir. Bu, bir vətəndaş kimi məsuliyyətli olmağın təməlidir.*

*Fikrimcə, "Skaut sədaqətlidir, verdiyi sözə əməl edir, öhdəliklərini yerinə yetirir" qaydası çox vacibdir. Bu, bizim verdiyimiz sözün qiymətli olduğunu göstərir, bizə məsuliyyətli olmağı öyrədir.*

**Tapşırıq c (dərslik).** Bu tapşırıq skaut andının məzmununu təxmin etmək və onu şagirdlərin öz sözləri ilə ifadə etməsi məqsədi daşıyır. Andın tərsinə yazılması maraq oyadır və şagirdlər üçün onu oxumaq interaktivlik yaradır.

**Yazı**

**7-3.2.3. Tapşırıq ç (dərslik).** Tapşırığın məqsədi şagirdlərin rəsmi-işgüzar məktubla bağlı bilik və bacarıqlarını möhkəmləndirməkdir. Şagirdlərə rəsmi məktubun quruluşu (giriş, əsas hissə, sonluq) xatırladılmalıdır. Tapşırıq təlimata uyğun olaraq yerinə yetirildikdən sonra dərsdə müzakirə aparılması və şagirdlərin bir-birinin məktubuna rəy bildirməsi tövsiyə olunur.

Şagirdlər bir-birinin məktubunu aşağıdakı meyarlar əsasında qiymətləndirə bilərlər:

*Məktub rəsmi üsluba uyğun yazılıbmı? Məktubun yazılma məqsədi aydın ifadə olunubmu? Orfoqrafik qaydalara əməl olunubmu?*

Məktub nümunəsi:

Azərbaycan Skautlar Assosiasiyasının rəhbərliyinə

Hörmətli Azərbaycan Skautlar Assosiasiyası!

*Mən Gülay Sarvanlı, 12 yaşım var. Bakı şəhərində yerləşən 55 nömrəli tam orta məktəbin 7-ci sinif şagirdiyəm. Sizə bu məktubu yazmağımın əsas məqsədi skaut hərəkatına qoşulmaq istəyimi bildirməkdir.* ***(Giriş)***

*Uşaqlıqdan təbiətə, macəralara və komanda işinə marağım var. Düşərgə həyatı, yeni dostlarla tanışlıq və faydalı bacarıqlar qazanmaq mənim üçün çox maraqlıdır. Skaut hərəkatından gözləntilərim çoxdur. Burada nizam-intizamlı olmaq və liderlik xüsusiyyətimi inkişaf etdirəcəyimi düşünürəm. Eyni zamanda, müxtəlif tədbirlərdə və aksiyalarda iştirak edərək cəmiyyətə faydalı olmaq istəyirəm.* ***(Əsas hissə)***

*Ümid edirəm ki, məktubumu nəzərə alaraq məni skaut hərəkatına qəbul edərsiniz. Cavabınızı səbirsizliklə gözləyirəm.*

*Hörmətlə, Gülay Sarvanlı.* ***(Sonluq)***

**Tapşırıq a (iş dəftəri).** Şagirdlər verilən məlumatlardan istifadə edərək reportaj hazırlayırlar.

Nümunə:

*3 avqust 2023-cü il tarixində Koreyanın Saemangeum şəhərində 25-ci Dünya Skaut Festivalı baş tutdu. 158 ölkədən 43 000 skautun iştirak etdiyi bu möhtəşəm tədbirin açılış mərasimi avqustun 3-də baş tutdu. Mərasimdə Koreyanın prezidenti və digər yüksək rütbəli rəsmi şəxslər də iştirak edirdilər. Azərbaycan skautları da bu beynəlxalq tədbirdə iştirak edirdilər. Açılış mərasimində Azərbaycan bayraqdarı Nəzrin Vəlizadə ölkəmizi təmsil etdi. Azərbaycan bayrağı festivalda dalğalandı. Tədbirin ən yaddaqalan məqamlarından biri 500 dronun iştirakı ilə baş tutan işıq şousu oldu. Bu möhtəşəm şou gecəyə xüsusi rəng qatdı və festival iştirakçılarında unudulmaz təəssüratlar yaratdı. Qeyd edək ki, növbəti festival 2027-ci ildə Polşada keçiriləcək.*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

Layihə

| Meyarlar | Materiallar |
|---|---|
| Müzakirə zamanı həyatdan nümunələr gətirməklə mövzu üzrə münasibətini bildirir. | Tap. **a, b, c** (D.) |
| Məqsədə uyğun rəsmi-işgüzar məktub yazır. | Tap. **ç** (D.); |

## **5-ci dərs.** Köməkçi nitq hissələri (təkrar)

• Dərslik: səh. 78 • İş dəftəri: səh. 46

**Təlim məqsədləri**

**1.** Köməkçi nitq hissələrinin semantik xüsusiyyətlərini müəyyənləşdirir **(st. 7-4.2.2).**

**2.** Kontekstdən çıxış edərək bəzi köməkçi nitq hissələrinin və şəkilçilərin omonimliyini müəyyən edir **(st. 7-4.2.2).**

**Mövzuya yönəltmə**

Bu dərsdə 7-ci sinifdə köməkçi nitq hissələri mövzusu üzrə keçilmiş biliklər xatırlanır və möhkəmləndirilir.

**Dil qaydaları**

**7-4.2.2. Tapşırıq a (dərslik).** Şagirdlər verilmiş cümlələrdə işlənən köməkçi nitq hissələrini seçib, funksiyasını müəyyən edirlər.

| Söz | Köməkçi nitq hissəsi | Cümlədə funksiyası |
|---|---|---|
| şübhəsiz | modal söz | Fikrə münasibət bildirir. |
| daha | ədat | Sifətin çoxaltma dərəcəsini yaradır. |
| ki | bağlayıcı | Cümlələr arasında əlaqə yaradır. |
| heç | ədat | Fikri qüvvətləndirir. |
| həm, həm də | bağlayıcı | Sözlər arasında əlaqə yaradır. |
| bəli | ədat | Fikri təsdiqləyir. |
| və | bağlayıcı | Sözlər arasında əlaqə yaradır. |
| vay | nida | Hiss-həyəcan bildirir. |
| axı | ədat | Fikri qüvvətləndirir. |
| ən | ədat | Sifətin çoxaltma dərəcəsini yaradır. |

**7-4.2.2. Tapşırıq b (dərslik).** Cavab: 1. Dostuna bildir **ki,** mən ona çox güvənirəm.

2. Bu işi **ki** Eldar görüb, əminəm **ki,** heç bir səhv yoxdur.

3. Şeiri elə gözəl səsləndirdi **ki,** hamı ayağa qalxıb onu alqışladı.

4. Avropa mədəniyyəti ilə bizim**ki** çox fərqlidir.

5. Bir ev **ki** qonaq-qaralıdır, o evin ruzisi bol olar.

6. Sənin **ki** qar qədər təmizliyin var,
Bağışlamaq olar soyuqluğunu. *(M.Yaqub)*

7. Dünən**ki** hadisəni heç vaxt unutmayacağam.

**Tapşırıq ç (dərslik).** Şagirdlər cümlələrdə kontekstə əsasən fərqləndirilmiş sözlərin hansı nitq hissəsi olduğunu müəyyən edirlər.

Cavab: 1. a. Gərək açıq-aşkar **deyəsən, (feil)** bir də belə səhv etməsin.

b. **Deyəsən, (modal söz)** bu məsələdə onunla razılaşan olmayacaq.

2. a. Həqiqəti öyrənmək üçün **qoy (ədat)** araşdırsın.

b. Bu sənədi stolun üstünə **qoy (feil)** və dərhal qayıt.

3. a. Sən **də (bağlayıcı)** gəlsən, səyahətimiz daha maraqlı olar.

b. Mən elə onu deyəcəkdim **də (ədat)!**

**7-4.2.2. Tapşırıq ç (dərslik).** Cavab:
*həm də, bəli, əgər, düzü, ki, lap, heç*

1. **Əgər** hava yaxşı olsa, həftəsonu piknikə gedəcəyik.

2. Biz həm təbiət yürüşünə çıxdıq, **həm də** komanda oyunları oynadıq.

3. Çox sevinirəm, **lap** vaxtında gəlib çıxdınız!

4. **Bəli,** dostlar həmişə bir-birinə kömək etməlidirlər.

5. **Düzü,** gözləməzdim **heç** sizdən bunu.

6. Sən bu barədə heç kəsə demədin **ki**?

Şagirdlər iş dəftərində təqdim edilmiş tapşırıqlar vasitəsilə köməkçi nitq hissələri üzrə bilik və bacarıqlarını fərdi şəkildə nümayiş etdirirlər.

**Tapşırıq a (iş dəftəri).** Cavab: 1. **Əgər** əvvəlcədən xəbərdarlıq edilsəydi, görüşə hamımız gələrdik.

2. Görüşə heç kim gəlməmişdi, **amma** əvvəlcədən xəbərdarlıq edilmişdi.

3. Görüş barədə xəbər verilməmişdi, **ona görə**

Layihə

**də** heç kim gəlməmişdi.

4. Görüşə heç kim gəlməmişdi, **çünki** əvvəlcədən xəbər verilməmişdi.

**Tapşırıq b (iş dəftəri).** Cavab: 1. Oxu, oğlum, dünyanı cəhalətdən qurtaran ancaq **(ədat)** elmin ziyası olacaq. *(M.İbrahimov)*

2. Deyirsən, yaxşıyam, ancaq **(bağlayıcı)** eşitdiyimə görə, işlərin düz getmir.

3. Körpələri evdə yalnız **(zərf)** qoymayın, amandır!

4. Bu müəmmalı işdən yalnız **(ədat)** sən baş çıxararsan.

5. Şübhəsiz, **(modal söz)** onu yenə buralarda görəcəyik.

6. Onun şübhəsiz **(sifət)** davranışları məndə inam yaratmışdır.

**Tapşırıq c (iş dəftəri).** Şagirdlər cümlələrdə işlənən modal sözlərin ifadə etdiyi semantik mənasını müəyyən edib cədvəl üzrə qruplaşdırırlar.

| Əminlik | Güman, şübhə | Nəticə | Bənzətmə |
|---|---|---|---|
| düzü, əlbəttə | bəlkə, ehtimal ki | xülasə, deməli | sanki, elə bil |

**Tapşırıq ç (iş dəftəri).** Bu tapşırıq vasitəsilə şagirdlər sifətin çoxaltma dərəcəsinin düzəlməsində ədatların rolunu xatırlayırlar. Cümlələr təxminən aşağıdakı kimi tamamlana bilər:

1. Bu, Rauf üçün yaxşı**ca** dərs oldu.
2. Bu gün mənə **ən** böyük yaxşılığı sən etmisən.
3. Biz nənəmgilin bağında olanda **daha** dadlı çiyələklər yedik.
4. Turistlər deyir ki, Bakı paxlavası **lap** şirindir.
5. Bura gəlişin mənə **çox** gözəl hədiyyə idi.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Köməkçi nitq hissələrinin semantik xüsusiyyətlərini müəyyənləşdirir. | Tap. **a, ç** (D.); **a, c, ç** (İ.D.) |
| Kontekstdən çıxış edərək bəzi köməkçi nitq hissələrinin və şəkilçilərin omonimliyini izah edir. | Tap. **b, c** (D.); **b** (İ.D.) |

# 2-ci fəsil

## 1-ci dərs. İki il ağacda yaşayan qadın

• Dərslik: səh. 79-80 • İş dəftəri: səh. 47

**Təlim məqsədləri**

**1.** Mətnin müxtəlif hissələrində əks olunmuş hadisələr arasındakı səbəb-nəticə əlaqəsini müəyyənləşdirir **(st. 7-2.2.1).**

**2.** Söz tərkibindəki morfemlərin *(eko və s.)* semantikasından çıxış edərək sözün mənasını müəyyənləşdirir **(st. 7-4.4.1).**

**3.** Mövzu ətrafında daha çox məlumat əldə etmək üçün açıq suallar tərtib edir **(st. 7-2.2.2).**

**Mövzuya yönəltmə**

Bu fəsildə şagirdlərə ekoloji problemlər və onların həlli yolları haqqında mətnlər təqdim edilir.

**Tapşırıq a (dərslik).** Şagirdlər mövzu ətrafında oxuduqları, eşitdikləri, şahid olduqları hadisələr barədə danışırlar. Müəllimin mövzuya uyğun olaraq ekoloji problemlər, aksiyalar, fəallarla bağlı video və şəkillər nümayiş etdirməsi tövsiyə olunur.

**Oxu**

Şagirdlər mətnin başlığını oxuyur, illüstrasiyaya diqqət yetirirlər. Bununla onların oxuyacaqları mətnin məzmununu təxmin etmək bacarığı inkişaf etdirilir, həmçinin oxu prosesinə maraq yaradılır.

**7-2.2.1. Tapşırıq b (dərslik).** Şagirdlər mətni oxuduqdan sonra mətnin məzmunu ilə bağlı faktoloji sualları cavablandırırlar.

**Tapşırıq a (iş dəftəri).** *Kaliforniyada "Pasifik Lamber" adlı taxta emalı şirkəti qədim sekvoya ağaclarını kəsirdi.* Koliforniyada qədim sekvoya meşələrini ağaclarının sayı gündən-günə azalırdı.

Culiya Hill meşələrin məhv edilməsinə diqqət çəkmək istəyirdi. *O, nəhəng sekvoya ağacının zirvəsinə çıxdı və iki il oradan enmədi.*

*"Pasifik Lamber" şirkəti iqtisadi maraqlara görə aksiya işrakçıları ilə razılaşmaq istəmirdi.* Onun aksiyası uzun müddət – 738 gün davam etdi.

Pasifik Lamber şirkəti Culiya Hilli aksiyanı dayandırmağa razı saldı. *Həmin ərazidəki ağaclar qorundu.*

Layihə

**Söz ehtiyatı**

**7-4.4.1. Tapşırıq c (dərslik).** Şagirdlər biologiya fənnində öyrəndikləri biliklərə əsaslanaraq "ekosistem" anlayışını izah etməlidirlər. Onların cavabları təxminən belə ola bilər:

– Ekosistem canlıların (bitkilər, heyvanlar, mikroorqanizmlər) və cansız mühitin (torpaq, su, hava) bir-biri ilə qarşılıqlı əlaqədə olduğu bir sistemdir. Məsələn, meşə ekosistemi ağaclar, heyvanlar, torpaq və iqlim şəraitinin birgə mövcud olduğu bir mühitdir.

Müəllim *eko-* morfemi barədə əlavə informasiya verə bilər: *eko-* yunan dilində *oikos* sözündəndir və ev, məskən, təsərrüfat deməkdir. Bir çox sözlərə qoşularaq ətraf mühit və ya təsərrüfat, iqtisadiyyat mənalarını bildirən hissəcik; məs. ekosistem, ekonomiks və s.

**Tapşırıq ç (dərslik).** Bu tapşırıq şagirdlərə eyni kökdən yaranmış, lakin fərqli mənalar daşıyan sözlər arasındakı əlaqəni başa düşməyə kömək edir.

*Ekologiya (isim) – Canlıların mühitlə əlaqəsini öyrənən elm sahəsi.*

*Ekoloji (sifət) – Ekologiya ilə bağlı olan, ətraf mühitə aid.*

*Ekoloq (isim) – Ekologiyanı öyrənən mütəxəssis.*

**Tapşırıq d (dərslik).** Şagirdlər mətndəki məlumatlardan çıxış edərək mühakimələr yürüdürlər.

**7-2.2.2. Tapşırıq e, ə (dərslik).** Tapşırığın məqsədi şagirdlərin düzgün sual tərtibetmə bacarıqlarını inkişaf etdirməkdir. Əvvəlcə mətni oxuyarkən Culiya Hillin maraqlı həyat hekayəsi ilə bağlı şagirdlərdə yaranan suallar müzakirə olunur. Sonra tapşırıqda verilmiş suallar oxunur. Daha çox informasiya toplaya bilən suallar aydınlaşdırılır. Şagirdlər açıq suallar (məsələn, "Necə?", "Niyə?" və s.) ilə daha çox məlumat almağın mümkünlüyünü xatırlamalı, həmin su-alları müəyyən etməlidirlər. 3, 4, 7, 8, 10-cu suallarla qarşı tərəfi daha çox danışdırmaq mümkündür. Digər suallar isə əsasən *bəli, xeyr* cavabları ilə məhdudlaşır.

**ə** tapşırığında isə şagirdlərdən **e** tapşırığında müəyyənləşdirdikləri qapalı sualları redaktə edərək açıq suala çevirmək tələb olunur. Bu tapşırıq şagirdlərin düzgün sual tərtib etmək səriştəsi ilə yanaşı, həm də redaktə bacarıqlarını inkişaf etdirir. Şagirdlərin redaktə etdikləri nümunələr təxminən aşağıdakı kimi ola bilər:

*1. Aksiyanızın bu qədər böyük təsir yaradacağını əvvəlcədən necə təsəvvür edirdiniz?*

*2. Ağacda yaşamaq qərarını verərkən hansı çətinlikləri gözləyirdiniz və gerçəkdə qarşılaşdığınız əsas çətinliklər nələr oldu?*

*5. Təbiəti qorumaqla bağlı verdiyiniz mesajın dünyada necə yayıldığını düşünürsünüz və bu mesajın real nəticələri nə oldu?*

*6. İki ildən sonra gündəlik həyata uyğunlaşmaq sizin üçün necə keçdi və bu prosesdə hansı çətinlikləri yaşadınız?*

**Tapşırıq b (iş dəftəri).** Nümunə:

*Əziz Culiya Hill, sənin hekayən mənə dərin təsir bağışladı. Sən tək bir ağacı qorumaq üçün göstərdiyin fədakarlıq və iradənlə bütün təbiəti müdafiə etmisən. Luna ilə keçirdiyin iki il ərzində göstərdiyin səbir, əzmkarlıq və təbiətə olan sevgin mənim üçün böyük bir ilham mənbəyidir. Sən sübut etdin ki, bir insanın fədakarlığı dünyanı dəyişə bilər. Ağır günlərə baxmayaraq, öz əməlinə sadiq qaldın. Bu, mənə və çoxlarına güc verir.*

*Sənə dərin hörmətlə, Aysel.*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnin müxtəlif hissələrində əks olunmuş hadisələr arasındakı səbəb-nəticə əlaqəsini müəyyənləşdirir. | Tap. b (D.); a (İ.D) |
| Söz tərkibindəki morfemlərin (eko və s.) semantikasından çıxış edərək sözün mənasını müəyyənləşdirir. | Tap. c, ç (D.) |
| Mövzu ətrafında daha çox məlumat əldə etmək üçün açıq suallar tərtib edir. | Tap. e, ə (D.) |

## 2-ci dərs. Culiya Hillin məktubu

• Dərslik: səh. 81-82 • İş dəftəri: səh. 48

**Təlim məqsədləri**

**1.** Mətndə qeyd olunan rəqəmləri müqayisə edərək birbaşa ifadə olunmayan məlumatları müəyyənləşdirir **(st. 7-2.2.2).**

**2.** Mətndəki faktlara əsaslanaraq müəllif mövqeyinə münasibətini bildirir **(st. 7-2.3.2).**

**3.** Mətndəki məlumatlardan çıxış edərək müha-

Layihə

kimələr yürüdür (st. 7-2.3.2).

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik).** Şagirdlərin diqqəti Culiya Hillin gənclərə ünvanladığı məktubdakı faktiki şəkillərə yönəldilir.

**Oxuyub-qavrama**

Şagirdlər məktubu səssiz oxuyurlar. Daha sonra şagirdlərdən birinin Culiya Hillin keçirdiyi hiss-həyəcanı ifadə edərək məktubu müvafiq intonasiya ilə səsləndirməsi və səsləndirmənin digər şagirdlərlə müzakirəsi tövsiyə olunur.

**7-2.2.2. Tapşırıq b (dərslik).**

<u>Ağacın hündürlüyü (təxminən)</u>

Ağac 200 fut hündürlüyündədir. Bilirik ki, 1 fut = 30 sm 48 mm = 30,48 sm = 0,3048 metr. 200 fut × 0.3048 m = 60.96 metr. Ağacın hündürlüyü təxminən 61 metr-dir. Bu, təxminən 20 mərtəbəli bina qədərdir.

<u>Köşkün sahəsi</u>: Köşk 6 fut × 8 fut ölçüsündədir.
8 × 30,48 = 182,88
6 × 30,48 = 243,84
182,88 × 243,84= 4.46 (təqribən)

Köşk təxminən 4.46 kvadrat metr sahəyə malikdir. Bu da kiçik bir otaqdan bir az balacadır.

Şagirdlər məktubda məkanın detallı təsvir olunmasının səbəblərini təxminən aşağıdakı kimi aydınlaşdıra bilərlər:

Məkanın kiçik olması, sərt hava şəraiti və məhdud imkanlar onun fədakarlığını daha qabarıq göstərir. Belə detallı təsvirlər sayəsində oxucular özlərini onun yerində təsəvvür edə bilirlər. Bununla o, təbiəti qorumaq uğrunda belə çətin bir şəraitdə yaşamağın vacibliyini vurğulayır və bu mübarizənin dəyərini oxuculara çatdırır.

**7-2.3.2. Tapşırıq c (dərslik).** Culiya Hillin məktubu yazmaqda əsas məqsədi yaşadığı hadisə ilə bağlı duyğu və xatirələrini bölüşməkdir.

**Tapşırıq ç (dərslik).** Hill məktubunda ağacda qaldığı günlərin nə qədər uzun və çətin olduğunu belə ifadə edir:

*Mənim üçün iki il dedikləri ayrılıqda 738 gün idi: gündə iyirmi dörd saat; saatda altmış dəqiqə; dəqiqədə altmış saniyə. Hər anım mübarizə demək idi.*

**Tapşırıq d (dərslik).** Culiya Hill məktubunda oxucularla səmimi ünsiyyət qurur və duyğularını bölüşür. Aksiya haqqında yazılmış məqalə isə daha çox faktlara əsaslanır, ümumi məlumat verir və hadisələri təhlil edir.

<u>Cavab</u>: 2, 4, 5-ci fikirlər məktuba aiddir.

**7-2.3.2. Tapşırıq e (dərslik).** Şagirdlər 5 qrupa ayrılır. Hər qrup öz mövzusunu 3-4 dəqiqə müzakirə edir. Sonra hər qrupdan bir nümayəndə çıxış edərək qrupun mövqeyini sinfə izah edir. Digər qruplar bu fikirlə razılaşıb-razılaşmadığını bildirir.

Məsələn: Kütləvi informasiya vasitələrinin belə aksiyalara dəstək verməsi vacibdir, çünki KİV bu, problemi daha çox insana çatdıra bilir.

Ağac emalı şirkətləri isə bu cür aksiyalardan narahat ola bilər, çünki onların işinə mane olur və s.

**Tapşırıq a (iş dəftəri).** Bu tapşırıq şagirdlərin yaradıcı təxəyyülünü inkişaf etdirmək məqsədi daşıyır. Culiya Hillin aksiyası məktubda onun dilindən təqdim olunub, bu tapşırıq isə şagirdləri hadisələrə fərqli – təbiətin, konkret olaraq “Luna” adlı ağacın perspektivindən baxmağa təşviq edir.

*... İlk dəfə onun addımlarını hiss edəndə qorxdum. Düşündüm ki, o da başqaları kimi məni kəsib aparmağa gəlmişdir. Ancaq o, mənlə yaşamağa başladı. Günlər keçdi, fəsillər dəyişdi, o isə getmədi. Soyuqda titrədi, ac qaldı, susuz qaldı, amma yenə də getmədi. O, mənim üçün bir qoruyucu, dost, sirdaş idi. Əgər danışa bilsəydim, ona sadəcə “təşəkkür edirəm” deməzdim. Ona “sən mənim nəfəsimsən” deyərdim. O, məni xilas etməklə, həm də bütün ağacların səsini dünyaya çatdırdı.*

**Tapşırıq b (iş dəftəri).** Fon üçün iki rəng yaşıl və boz seçilə bilər. Fonun bir tərəfində sağlam ağac, digər tərəfində quru, kəsilmiş kötük təsvir edilə bilər.

Nümunələr: *Bir ağacı qoru – bir dünyanı yaşat!, Təbiət səssiz ağlayır – onu eşit!*

*Kəsilən hər ağac, nəfəsimizdən kəsilir!*

*Culiya Hill tək idi, amma səsi milyonlara çatdı. Sən də səssiz qalma və s.*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndə qeyd olunan rəqəmləri müqayisə edərək birbaşa ifadə olunmayan məlumatları müəyyənləşdirir. | Tap. b (D.) |
| Mətndəki faktlara əsaslanaraq müəllif mövqeyinə münasibətini bildirir. | Tap. c, ç, d (D.) |

Layihə

| | |
|---|---|
| Mətndəki məlumatlardan çıxış edərək mühakimə yürüdür. | Tap. **e** (D.); |

## **3-cü dərs.** Parafraz. Mövzu üzrə təqdimat

• Dərslik: səh. 83-84

**Təlim məqsədləri**

**1.** Mətndə təhkiyəçini dəyişməklə məzmunu obrazlardan birinin dilindən nəql edir **(st. 7-2.3.6).**
**2.** Müxtəlif mənbələrə əsasən mövzu üzrə gəldiyi qənaətləri tezislər şəklində təqdim edir **(st. 7-3.2.4).**

**Mövzuya yönəltmə**

Müəllim lövhəyə bir fikir yazır: "Təbiəti qoruyan insanlar bizim gələcəyimizi qoruyurlar".

Sonra şagirdlərə deyir:

– Bu cümləni elə dəyişin ki, sözləri fərqli olsun, amma fikir eyni qalsın. Elə yazın ki, cümlənin əsas mənası, yəni təbiəti qorumağın vacibliyi itməsin.

Şagirdlər təxminən belə cümlələr qura bilərlər:

*Gələcəyimizi düşünənlər təbiəti qorumağa çalışırlar.*

*Ətraf mühiti qorumaq insanlığın gələcəyini qorumaq deməkdir.*

*Təbiətə sahib çıxmaq gələcəyə sahib çıxmaqdır.*

Bu dərsdə şagirdlər parafraz etməyin müxtəlif yollarını öyrənəcəklər. Bu həm şagirdlərin oxuduqları mətnləri fərqli şəkildə ifadə etmə bacarıqlarını, həm də söz ehtiyatını inkişaf etdirir.

**Danışma**

**7-2.3.6. Tapşırıq a (dərslik).** Şagirdlər əvvəlcə "Qlossari" rubrikasında parafraz haqqında verilmiş izahı oxuyurlar. Ardınca tapşırığın yerinə yetirilməsi üçün təlimatı nəzərdən keçirirlər. Müəllimin köməyi ilə parafraz etməyin üsullarını öyrənirlər. Şagirdlər Culiya Hill haqqında oxuduqları iki mətndən istifadə etməklə çıxış hazırlayırlar. Çıxış təxminən aşağıdakı kimi ola bilər.

*Hörmətli yoldaşlar, mən sizə ətraf mühitin qorunması uğrunda qeyri-adi fədakarlıq göstərən Culiya Hillin keçirdiyi aksiyadan danışmaq istəyirəm. O, bir insanın tək halda dünyada böyük dəyişikliklər edə biləcəyini bizə sübut etdi. Culiya Hill 1997-ci ildə Kaliforniyada təxminən 1000 yaşı olan "Luna" adlı nəhəng ağacın zirvəsinə qalxaraq orada yaşamağa başladı və onun kəsilməsinin qarşısını aldı. Təxminən iki il, daha dəqiqi, 738 gün ərzində o, yerə enmədən həmin ağacın üstündə qaldı. O, gənclərə yazdığı məktubda yaşadıqları barədə öz təəssüratlarını bölüşüb. Culiya Hill yazırdı ki, həmin il Kaliforniyada qış çox sərt keçirmiş. Bu müddətdə dostları ona kömək edib.* (Şagirdlər məktubdan Culiya Hillin öz dilindən danışdıqlarını parafraz edərək çıxışa davam edə bilərlər) ...

*Diqqətinizə görə təşəkkür edirəm.*

**Tapşırıq b (dərslik). Nümunə:** *Culiya Hill xatırlayırdı ki, bəzən o qədər halsız olurdu ki, adi bir hərəkət, məsələn, bir stəkan suya əl uzatmaq belə ona böyük bir sınaq kimi gəlirdi. Lakin belə anlarda o, "Luna" adlandırdığı ağacın yerə necə möhkəm kök saldığını və həyatda qalmaq üçün necə inadla dayandığını xatırlayaraq ruh yüksəkliyi tapırdı. "Luna" ona davam etmək üçün motivasiya verirdi. Başqa bir xatirəsində isə o qeyd edir ki, uzun müddət kimsə ilə danışa bilmədiyi günlər, hətta bəzən həftələr olurdu. Bu tənha dövrlərdə onun yeganə yoldaşı təbiətin səsləri idi – quşların ötüşü, küləyin vıyıltısı və ağacın yarpaqlarının xışıltısı sanki onunla danışırdı. Bu təklik bəzən ona ağır gəlsə də, zamanla anladı ki, o tək deyil. O, sanki "Luna" ilə bir cana çevrilmişdi – onunla birgə yaşayır, onun nəfəsini hiss edirdi.*

**7-3.2.4. Tapşırıq c, ç (dərslik).** Sekvoya ağacı haqqında məlumatlara əsasən onların çox uzunömürlü və nəhəng olduğu məlum oldu. Bu ağacların hündürlüyü təxminən 100 metr, qalınlığı 30 metr ola bilir və 2000 ilə qədər yaşaya bilirlər. Gövdələri qalın və möhkəmdir, ağacın qırmızımtıl, sərt və çürüməyə davamlı olduğu qeyd edilir. Bu xüsusiyyətlərinə görə sekvoya meşələri ağac sənayesi üçün çox əhəmiyyətlidir. Çünki onların taxtası möhkəmdir, uzun müddət xarab olmur və iqlim dəyişikliklərinə davam gətirə bilir. Bundan əlavə budaq və zoğ əmələ gətirmə qabiliyyətinin yüksək olması onların sənayedə daha çox istifadə edilməsinə şərait yaradır. Lakin Culiya Hillin aksiyasından da göründüyü kimi bu cür nadir və qədim ağacların sənaye məqsədilə kütləvi şəkildə kəsilməsi düzgün deyil.

**Tapşırıq d (dərslik).** Tapşırıqda Azərbaycanın "Qırmızı kitabı"na daxil edilmiş 4 nadir ağac haqqında araşdırma aparmaq və məlumat vərəqi hazırlamaq tələb olunur. Təqdimatın məzmunu üzrə təlimat oxunur və tapşırıq qruplarla iş

Layihə

formasında yerinə yetirilir.

**Müəllimin nəzərinə!** Müəllim sinfin texniki imkanları zəif olduğu halda müvafiq mövzu üzrə araşdırma işini şagirdlərə dərsdən bir-iki gün öncə tapşıra bilər.

1-ci qrup – **Lənkəran akasiyası.** Azərbaycanda yalnız Lənkəran bölgəsində bitən nadir bitkidir, çiçəkləri çox gözəldir. O, həmçinin "İpək akasiya", "Lənkəran albissiyası", "İpək gülü" adı ilə də tanınır. Bitki 4-5 ildən sonra çiçəkləyir. Münbit torpaqlarda 10 il müddətində 10-12 metr yüksəkliyə çatır.

**Mühit:** Rütubətli, subtropik iqlimdə inkişaf edir.

**Təhlükə:** Tikinti və torpaq istifadəsi artımı ilə təbii yayılma sahəsi azalır. Azərbaycanın "Qırmızı kitab"ına daxil edilmişdir.

**Təkliflər:** Toxumlarının toplanması, botanika bağlarında artırılması.

2-ci qrup – **Şabalıdyarpaq palıd.** Yarpaqları şabalıd ağacına bənzəyir, çox az saydadır.

**Yayıldığı ərazi:** İsmayıllı, Quba, Tərtər, Şəmkir, Şamaxı, Bərdə rayonlarında, Talış zonasında təsadüf edilir.

**Mühit:** İsti və işıqsevən bitkidir. Şaxtaya, quraqlığa az davamlıdır.

**Təhlükə:** Ağacların qanunsuz kəsilməsi və torpaq eroziyası səbəbindən nəsli tükənməkdədir. Azərbaycanın "Qırmızı kitab"ına daxil edilmişdir.

**Təkliflər:** Qorunma gücləndirilməli, maarifləndirmə aparılmalıdır.

3-cü qrup – **Eldar şamı** nadir ağac növüdür. Hündürlüyü 20 metrə çatır. Yaxşı tikinti materialıdır.

**Yayıldığı ərazi:** Azərbaycanın Eldar düzünün qərb hissəsində Eldar oyuğunda təbii halda bitir.

**Mühit:** Quraq, daşlı ərazilərdə böyüyür, istiyə davamlıdır.

**Təhlükə:** Meşələrin məhv edilməsi və iqlim dəyişmələri səbəbindən azalır. Azərbaycanın "Qırmızı kitab"ına daxil edilmişdir.

**Təkliflər:** Yeni meşə zolaqları salınmalı, qoruqların sayı artırılmalıdır.

4-cü qrup – **Dəmirağac.** Azərbaycanın nadir ağac növlərindən biridir. Oduncağı çox bərk, sərt və ağır olduğuna görə "Dəmirağac" adlanır. Yarpaqlarının payızda qırmızıya və narıncıya çalması ağaca gözəl görünüş verir. Dəmirağac uzunömürlüdür, 100–150 il və daha artıq yaşaya bilir. Oduncağı çürüməyə davamlı, çox sıx və sərtdir, bu səbəbdən sənaye əhəmiyyətlidir.

**Yayıldığı ərazi:** Talış meşələrində, Lənkəran-Astara bölgəsində yayılıb.

**Mühit:** Subtropik iqlimə malik nəmli və dərin torpaqlı meşələrdə bitir.

**Təhlükə:** Meşələrin qeyri-qanuni kəsilməsi. Tikinti və təsərrüfat sahələrinin genişlənməsi. Azərbaycanın "Qırmızı kitab"ına daxil edilmişdir.

**Təkliflər:** Qoruqların sayının artırılması, yayıldığı ərazilərdə bərpa işlərinin həyata keçirilməsi, maarifləndirmə işləri və s.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndə təhkiyəçini dəyişməklə məzmunu obrazlardan birinin dilindən nəql edir. | Tap. **a, b** (D.) |
| Müxtəlif mənbələrə əsasən mövzu üzrə gəldiyi qənaətləri tezislər şəklində təqdim edir. | Tap. **c, ç, d** (D.) |

## 4-cü dərs. Əsas nitq hissələri

• Dərslik: səh. 85 • İş dəftəri: səh. 49

**Təlim məqsədləri**

**1.** Kontekstdən çıxış edərək əsas nitq hissələrinin morfoloji tərkibini müəyyənləşdirir **(st. 7-4.2.1).**

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik).** Şagirdlər fərqləndirilmiş sözləri tələbə uyğun olaraq müvafiq feil şəklində işlədərək cümlələri tamamlayırlar.

1. Fuadı çox incit**məyin,** onun günahı yoxdur.
2. Bilin ki, bu məsələyə çox vaxt itir**məməlisiniz.**
3. Məktubu bu gün həmin ünvana çatdır**asıyam.**
4. Yeni ildə kaş siz də yeni evinizə köç**əsiniz.**
5. Anası gəl**məsə,** körpə yatmayacaq.
6. Onları yaxşı tanıyıram, heç vaxt doğru danış**mırlar.**

**Dil qaydaları**

**7-4.2.1. Tapşırıq b (dərslik).** Cavab:

Vurğusunu dəyişməklə mənası dəyişən sözlər:

1. di**'**mdik (bərk, düz vəziyyətdə) — sifət. *Quş başını di'mdik saxladı.*

dimdi**'**k (quşun dimdiyi) — isim. *Dimdik quşların ən iti silahıdır.*

2. soyutm**á** (yemək) — isim. *Bu gün naharda*



Layihə

*soyutm**á** bişirilib.*

soy**ú**tma — əmr şəklində olan feil. *Kompotu çox soy**ú**tma, uşaqlar içəcək.*

3. qovurm**á** (yemək) — isim. *Qış üçün çoxlu qovurm**á** hazırlanıb.*

qov**ú**rma (qovurmaq prosesi) — feil. *Soğanı çox qov**ú**rma.*

4. satir**i’**k (istehzalı, gülməli) — sifət. *Yazıçı satir**i’**k əsərlər yazır.*

sat**i’**rik (satira ustası) — isim. *O, tanınmış sat**i’**rik idi.*

5. elektr**i’**k (enerji növü) — isim. *Elektr**i’**k kəsildi, evlər qaranlıq qaldı.*

el**é**ktrik (elektrik işçisi) — isim. *Binanın problemlərini el**é**ktrik gəlib yoxladı.*

6. akad**é**mik (alim) — isim. *Bu kitabı tanınmış akad**é**mik yazıb.*

akadem**i’**k (elmi, rəsmi) — sifət. *Onun çıxışı çox akadem**i’**k üslubda idi.*

7. süzm**ə’** (süzülmüş qatıq) — isim. *Səhər yeməyində dadlı süzm**ə’** yedik.*

s**ű**zmə —əmr şəklində olan feil. *Düyünü hələ s**ű**zmə, məni gözlə.*

8. ək**i’**n (əkin sahəsi) — isim. *Bu kənddə geniş ək**i’**n sahələri var.*

**ə’**kin — əmr şəklində olan feil. *Yazda kartof **ə’**kin, bol məhsul götürün.*

9. bur**ú**n — isim. *Bur**ú**n soyuqdan qızarıb.*

b**ú**run — əmr şəklində olan feil. *Açarı iki dəfə b**ú**run, qapı açılsın.*

10. oy**ú**n (əyləncə, şənlik) — isim. *Uşaqlar həyətdə oy**ú**n oynayırdılar.*

**ó**yun — əmr şəklində olan feil. *Qara turpun ortasını **ó**yun, içərisinə bal tökün və şirəsini için.*

11. qov**ú**n (meyvə adı) — isim. *Yayda ən çox qov**ú**n yeyilir.*

q**ó**vun — əmr şəklində olan feil. *İstəmədiyiniz adamları buradan q**ó**vun.*

**Tapşırıq c (dərslik).** Tapşırıqda kontekstdən çıxış edərək transkripsiyada verilmiş sözlərin morfoloji tərkibini müəyyənləşdirmək tələb olunur. Cavab:

2. [Vaqonnan] – söz kökü + çıxışlıq hal şəkilçisi
3. [stəkannan] – söz kökü + "ilə" qoşmasının ixtisarı
4. [sözünnən] – söz kökü + mənsubiyyət şəkilçisi + çıxışlıq hal şəkilçisi
5. [gücnən] – söz kökü + "lə" zərf düzəldən şəkilçi.

**Tapşırıq ç (dərslik).** Cavab:

1. təmir**çi** – "-çi" morfemi peşə semantikası yaradır.
2. **poli**klinika – "poli" morfemi yunan mənşəlidir, "çox" mənasını verir, klinika isə "müalicə müəssisəsi" deməkdir. "Poli" morfemi "klinika" sözünə qoşularaq klinikanın çoxsaylı xidmət sahələrinin olması semantikasını ifadə edir.
3. İsin**mə** – "mə" morfemi feilə qoşularaq proses, fəaliyyət bildirən isim yaradıb.
4. **Avia**kassa – təyyarə biletlərinin satıldığı yerdir. **"Avia-"** morfemi latınca "uçuş, hava" mənasını verir. Bu morfem kassa sözünə qoşularaq məkanın uçuş fəaliyyəti ilə bağlı olması semantikası yaradır.
5. **Mini**futbol – kiçik sahədə oynanılan futbol növüdür. "Mini-" morfemi sözə qoşularaq "standartdan kiçik, az ölçülü" semantikası yaradır.

**Tapşırıq d (dərslik).** Şagirdlər əvvəlcə sözlərin mənalarını izah edirlər. Sonra **-çı⁴** şəkilçisinin semantik funksiyasını müəyyənləşdirirlər:

– **-çı⁴** şəkilçisi peşə, fəaliyyət bildirir: idmançı, islahatçı, oyunçu, xeyriyyəçi;

– xüsusiyyət bildirir: yalançı;

– bir şəxsin var-dövlət sahibi olduğunu bildirir: milyonçu;

– hal, vəziyyət bildirir: yolçu (yolda olan)

Şagirdlər iş dəftərindəki tapşırıqlarda verilmiş əsas nitq hissələrini və onların xüsusiyyətlərini müəyyənləşdirməklə mövzu üzrə bilik və bacarıqlarını möhkəmləndirirlər.

**Tapşırıq a (iş dəftəri).** Cavab: 2 – arzu şəkli, III şəxsin təki; 3 – xəbər şəkli, III şəxsin təki;
4 – şərt şəkli, II şəxsin təki; 5 – lazım şəkli, I şəxsin təki; 6 – vacib şəkli, II şəxsin təki.

**Tapşırıq b (iş dəftəri).** 1 – a, c, e; 2 – d; 3 – b, ç.

**Tapşırıq c (iş dəftəri).** Cavab: tanış olmaq (feil), bu gün (zərf), hər kim (əvəzlik), üçdə bir (say), iyirmi iki (say).

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstdən çıxış edərək əsas nitq hissələrinin morfoloji tərkibini müəyyənləşdirir. | Dərslik və iş dəftərindəki tapşırıqlar |

Lavinə

# 3-cü fəsil

## 1-ci dərs. Plastik materialın ixtirası, inkişafı, bu günü

• Dərslik: səh. 86-87 • İş dəftəri: səh. 50

**Təlim məqsədləri**

**1.** Müzakirə zamanı həyatdan nümunələr gətirməklə mövzu üzrə münasibətini bildirir **(st. 7-1.2.2).**

**2.** Çoxmənalı sözün kontekstə uyğun mənasını müəyyən edir **(st. 7-2.1.2).**

**3.** Mətnin məzmunu ilə bağlı sualları cavablandırmaqla mətni mənimsədiyini nümayiş etdirir **(st. 7-2.1.1).**

**Mövzuya yönəltmə**

Bu fəsildə verilən materialların əsas məqsədi şagirdləri ətraf mühit və plastik materiallar barədə düşünməyə, fikirlərini ifadə etməyə sövq etmək, tənqidi düşüncə, müqayisə və arqument gətirmək bacarıqlarını inkişaf etdirməkdir.

**Tapşırıq a (dərslik).** Şagirdlər sinif daxilində ətraflarına baxaraq plastik əşyaların adlarını sadalayırlar (qələm, su qabı, çanta və s.). Sonra niyə bu əşyalara üstünlük verdiklərini (yüngül, ucuz, rahat və s.) müzakirə edirlər.

**Danışma**

**7-1.2.2. Tapşırıq b (dərslik).** Şagirdlər şəkillərin (mətbəx, tikinti, tibb sahəsi) köməyi ilə plastik əşyalar olmasaydı, gündəlik həyatımızın necə dəyişə biləcəyini təsəvvürlərində canlandıraraq plastik materialları əvəz edə bilən alternativ variantlar təklif edirlər. “Əgər olmasaydı...” strukturlu cümlələr qurmaqla təsəvvür və tənqidi təfəkkürlərini inkişaf etdirirlər.

**Tapşırıq c (dərslik).** Əvvəlcə “Qlossari” rubrikasında verilmiş “polietilen” sözü izah edilir. Daha sonra polietilen paketlərin istifadəsinin mənfi təsirləri ilə bağlı şagirdlərin ilkin bilikləri yoxlanılır.

**Oxu. Söz ehtiyatı**

**Tapşırıq ç (dərslik).** Şagirdlər mətnin oxunmasına başlamazdan öncə tapşırıqda verilmiş sualı cavablandırırlar. Gündəlik istifadə olunan plastik materialın necə hazırlanmasına dair şagirdlərin təxmini fikirləri müzakirə olunur.

**7-2.1.2. Tapşırıq d (dərslik).** Şagirdlər verilmiş cümlələrdə “plastik” sözünün fərqli kontekstlərdə müxtəlif mənalar daşıdığını, amma bunların ortaq semantikasının olmasını müşahidə edirlər. Belə tapşırıqlar şagirdlərin dil duyumunun inkişafına kömək edir.

“Plastik” sözü yunanca “plastikos” sözündən yaranıb və “forma vermək, şəklə salmaq” mənasını daşıyır. İncəsənət sahəsində (1-ci cümlə) formalarla işləyən sənət növlərinə (heykəltəraşlıq, mozaika və s.) aid edilir.

Material mənasında (2-ci cümlə) “plastik material” forma verilə bilən, yəni formalaşdırılması asan olan süni maddə kimi təqdim olunur.

Tibbi mənada (3-cü cümlə) “plastik əməliyyat”da bədəndə forma dəyişdirmə, bərpaetmə əməliyyatıdır.

Yəni bunlar eyni semantik kökdən törəyən çoxmənalı sözlərdir, amma zamanla müxtəlif terminoloji mənalar ifadə edib.

**Oxuyub-qavrama**

**7-2.1.1. Tapşırıq e (dərslik).** Mətnin ilk abzasında qədim zamanlarda plastikdən öncə hansı materiallardan istifadə olunduğu və plastikin ixtirasını zəruri edən amillər barəsində məlumat verilmişdi. Şagirdlər həmin abzasa istinad edərək sualı cavablandırırlar.

**Tapşırıq ə (dərslik).** Şagirdlər mətnə əsasən yaddaş vərəqi hazırlamaqla mətndəki əsas faktları müəyyənləşdirmək bacarığını nümayiş etdirirlər.

**Tapşırıq f (dərslik).** Mətndə plastik materialın yaranması və inkişafı ilə bağlı xronologiya – tarixi dövrlər öz əksini tapır. Şagirdlər vacib tarixi hadisələri müəyyənləşdirib mətnin planını belə qura bilərlər: *1. Qədim dövr 2. Parkesin ixtirası 3. Bakelitin ixtirası 4. Polietilenin kəşfi.*

**Tapşırıq a (iş dəftəri).** Şagirdlər tapşırığı fərdi şəkildə yerinə yetirməklə mətni oxuyub-qavradıqlarını nümayiş etdirirlər.

1. Qədim dövrdə plastik: Qədim insanlar plastik material əvəzinə buynuz, kəhrəba və s. istifadə edirdilər.

2. Parkesin ixtirası: 1862-ci ildə Aleksandr Parkes “parkesin” adlı ilk süni plastik materialı ixtira etdi.

3. Bakelitin ixtirası: 1907-ci ildə Leo Bakelit tərəfindən ixtira edilən bakelit təbii maddələrə əsaslanmayan ilk tam sintetik material sayılır.

4. Polietilenin kəşfi: 1933-cü ildə təsadüfən kəşf edilən polietilen bu gün ən çox istifadə olu-



Layihə

nan plastik növüdür.

**Tapşırıq b (iş dəftəri).** Şagirdlər mətnə əsasən səhv fikirləri müəyyən edib düzgün şəkildə yazırlar.

*Səhv fikir:* Polietilenin istehsalı mürəkkəb və bahalı idi. *Düzgün fikir:* Polietilenin istehsalı sadə və ucuz olduğuna görə geniş istifadə olunmağa başladı.

*Səhv fikir:* Mətn plastikin həm müsbət, həm mənfi təsirlərindən bəhs edir. *Düzgün fikir:* Mətndə plastikin yalnız müsbət xüsusiyyətlərindən bəhs edilir.

**Tapşırıq c (iş dəftəri).** Şagirdlər mətndə işlənmiş terminləri (bir çox terminlər ümumişlək sözlərə çevrilib) müəyyənləşdirib yazırlar: sellüloz, maddə, sintetik, eroziya, polietilen, etilen qazı, oksigen və s.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Müzakirə zamanı həyatdan nümunələr gətirməklə mövzu üzrə münasibətini bildirir. | Tap. b, c, ç (D.) |
| Çoxmənalı sözün kontekstə uyğun mənasının müəyyən edir. | Tap. d (D.) |
| Mətnin məzmunu ilə bağlı sualları cavablandırmaqla mətni mənimsədiyini nümayiş etdirir. | Tap. e, ə, f (D.); a, b (İ.D.). |

## 2-ci dərs. Həyatımızı asanlaşdıran plastik qablar

• Dərslik: səh. 88-89 • İş dəftəri: səh. 51

**Təlim məqsədləri**

**1.** Mətnin struktur elementlərini (illüstrasiya) onun məzmunu ilə əlaqələndirir **(st. 7-2.3.3).**
**2.** Mətndəki faktlara əsaslanaraq müəllif mövqeyinə münasibətini bildirir **(st. 7-2.3.2).**
**3.** Müxtəlif mətnlərdəki fakt və fikirləri müqayisə edərək həqiqəti aşkar edir **(st. 7-2.3.5).**

### Mövzuya yönəltmə

**Tapşırıq a (dərslik).** Şagirdlər tapşırığa əsasən şüşə su butulkalarını birdəfəlik plastik su butulkaları ilə müqayisə edirlər. Onların müsbət və mənfi xüsusiyyətlərini sadalayırlar. Müəllim müqayisə üçün açar sözlər söyləməklə şagirdlərə kömək edə bilər: rahat, qırılmaz, ucuz, əlçatan, yüngül, gigiyenik cəhətdən əlverişli olması və s.

### Oxu

**7-2.3.3. Tapşırıq b (dərslik).** Tapşırığın məqsədi şagirdin verbal və qrafik informasiyanı əlaqələndirməklə şərh etmək bacarığını inkişaf etdirməkdir.

Su butulkasının üzərindəki ideoqram onun təkrar emala yararlı olub-olmaması və nə qədər təhlükəli olduğunu göstərir. Mətnə əsasən, “1” kodu ilə işarələnmiş butulkalar yalnız bir dəfə istifadə üçün nəzərdə tutulub və təkrar istifadə olunduqda suyun tərkibinə zərərli maddələr qarışa bilər.

**Tapşırıq c (dərslik).** Cavab: b.

Əsaslandırma: Müəllif plastik butulkaların təhlükəsizlik kodlarına diqqət etməyin vacibliyini vurğulayır və onların təkrar istifadəsinin fəsadları barədə məlumat verir. Müəllifin məqsədi insanları maarifləndirmək, diqqəti plastik məmulatlardan düzgün istifadəyə yönəltməkdir.

**Tapşırıq ç (dərslik).** Şagirdlər tapşırıqda verilmiş şəkli təxminən belə təsvir edə bilərlər:

*Plastik butulkalar istifadə olunandan sonra onları xüsusi təkrar emal qutularına atmalıyıq. Sonra maşınlar bu butulkaları toplayıb zavoda aparır. Zavodda butulkalar əridilir və onlardan yenidən yeni butulkalar, vedrələr və başqa şeylər hazırlanır. Beləliklə, plastiklər yenidən işlənib faydalı olur. Biz də bu yolla təbiəti qorumuş oluruq!*

**Tapşırıq d (dərslik).** Şagirdlər plastik qablar istehsal edən bir şirkətin hazırladığı reklam mətnini oxuyur, tənqidi oxu bacarıqlarını nümayiş etdirirlər.

**Tapşırıq e (dərslik).** “Prioritet” sözü mətndə “ən vacib, birinci dərəcəli məsələ, əsas məqsəd” mənasında işlənib. Şirkət bildirir ki, müştərilərinin sağlamlığı və rahatlığı onlar üçün birinci yerdədir, həmişə onların diqqət mərkəzindədir.

**7-2.3.2. Tapşırıq ə (dərslik).** Mətn reklam məqsədilə yazılıb. Məqsəd şirkət tərəfindən istehsal edilən plastik qabların təhlükəsiz və rahat olduğunu vurğulamaq, məhsulun satışını təmin etməkdir. Sonda verilən “20% endirim” cümləsi bu məqsədi daha da aydın göstərir.

**Tapşırıq f (dərslik).** Mətn müəyyən həqiqət-

Lahiyə

ləri özündə daşısa da, obyektiv deyil, çünki yalnız bir tərəfin – istehsalçının maraqlarını əks etdirir.

**7-2.3.5. Tapşırıq g (dərslik).** Şagirdlər mətndə reklam olunan məhsulun keyfiyyətini araşdırmaq üçün tapşırıqda verilmiş məlumatı oxuyurlar. Şagirdlər mətnlərdəki məlumatları müqayisə etməklə həqiqəti aşkar edirlər. Məlum olur ki, reklam olunan plastik növü (üzərində “5” kodu olan) sağlamlıq üçün, demək olar ki, təhlükəsizdir və təkrar emal üçün uyğundur. Yəni şirkət məhsulun reklamında həqiqətə söykənir.

**Tapşırıq a (iş dəftəri).** Şagirdlər mətnə aid fikirləri tamamlamaqla mətni qavradıqlarını nümayiş etdirirlər. Cavab:

1. ... hər plastik növü üçün ayrıca təhlükəsizlik qaydalarına əməl etmək vacibdir.
2. Yüngül, davamlı və münasib qiymətlidir, ...
3. ... təkrar istifadədə zərərli maddələr suya qarışa bilər.
4. ... istilik zamanı zəhərli qazlar ayrılır və hava çirklənir.
5. ... kimyəvi reaksiyalar nəticəsində tərkibində sağlamlığa zərərli maddələr əmələ gələ bilər.

**Tapşırıq b (iş dəftəri).** Cavab:

*Mətn məhsulun rahat və təhlükəsiz olduğunu, təkrar istifadə və emal imkanlarını vurğulayır. Lakin texniki detallara tam yer verilmir. Sağlamlıq, təhlükəsizlik və beynəlxalq standartlara istinad edilsə də, bəzi iddialar faktlara əsaslanmadan təqdim olunub.*

*“İndi sifariş edin”, “20% endirim əldə edin” kimi ifadələrlə oxucunu hərəkətə gətirməyə çalışır.*

*Mətn qısa və cəlbedicidir. İfadələr sadə və anlaşıqlıdır.*

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnin struktur elementlərini (illüstrasiya) onun məzmunu ilə əlaqələndirir. | Tap. b (D.) |
| Mətndəki faktlara əsaslanaraq müəllif mövqeyinə münasibətini bildirir. | Tap. ə, f (D.) |
| Müxtəlif mətnlərdəki fakt və fikirləri müqayisə edərək həqiqəti aşkar edir. | Tap. g (D.); b (İ.D.). |

## 3-cü dərs. Ekoloqlardan həyəcan təbili: təbiət bizdən kömək istəyir!

• Dərslik: səh. 88

**Təlim məqsədləri**

**1.** Oxuduğu mətndə əsas fakt və fikirləri fərqləndirir (st. 7-2.1.1).
**2.** Mətndəki faktlara əsaslanaraq müəllif mövqeyinə münasibətini bildirir (st. 7-2.3.2).
**3.** Qeyri-bədii mətnləri dil-üslub, forma və məzmun xüsusiyyətlərinə görə fərqləndirir (st. 7-2.3.5).

### Mövzuya yönəltmə

**Tapşırıq a (dərslik).** Şagirdlər təbiət fənnindən əldə etdikləri biliklərə əsasən tapşırıqda verilmiş sualı cavablandıra bilərlər. Bu dərsdə plastik tullantılar və ətraf mühitin qorunması mövzusunda təqdim olunmuş mətn şagirdlərin bu mövzuda düşünməsinə, problemlərin həll yollarını tapmaq üçün fikir mübadiləsi aparmalarına imkan verir.

### Oxu. Oxuyub-qavrama

**7-2.1.1. Tapşırıq b (dərslik).** Müəllim şagirdlərə mətni oxuduqca vacib hesab etdikləri məlumatları qeyd etməyi tapşırır. Mətn oxunduqdan sonra şagirdlərə suallar verilə bilər:

*– Plastik tullantılar təbiətə hansı zərərləri verir?*

*– Ekoloji təşkilatlar hansı addımları atmağa çalışır?*

*– Bəs siz plastik tullantıların qarşısını almaq üçün hansı tədbirləri görə bilərsiniz? və s.*

Coğrafiya fənni ilə inteqrasiya. Şagirdlər coğrafi biliklərinin köməyi ilə plastik tullantıların daha çox okeanlarda rast gəlinməsinin səbəbini müzakirə edirlər. Böyük su kütlələrinin okean və dənizin bir yerindən başqa yerinə üfüqi istiqamətdə aparılması (yerdəyişməsi) cərəyan adlanır. Bu proses çaylara və dənizə atılan bu tullantıları bir yerə toplayır. Plastik materiallar uzun müddət çürümədiyi üçün okeanlarda yığılıb qalır, bu da zibil adaları yaradır. Məsələn, Sakit okeanda “Böyük Zibil Adası” adlanan nəhəng bir tullantı sahəsi var. Təxminən 1,6 milyon kvadrat kilometr ərazini əhatə edir.

Layihə

**7-2.3.2. Tapşırıq c (dərslik).** Müəllifin mətni yazmaqda əsas məqsədi plastik tullantıların ciddi ekoloji problemlər yaratdığını vurğulamaqla insanları problemlərin həlli yolları barədə düşündürmək və plastik tullantılarla mübarizəyə səsləməkdir. Mətnin adı (Ekoloqlardan həyəcan təbili: təbiət bizdən kömək istəyir!) çağırış xarakterlidir. Mətndə problemin çox ciddi olmasını göstərən faktların olması oxucunu düşündürür. Müəllif mətnin sonunda problemin həlli yollarını sadalamaqla oxucuları mübarizəyə səsləyir. Hətta mətnin sonu da çağırış nidası ilə bitir: Unutmayaq, Yer üzünün bizə yox, bizim ona ehtiyacımız var!

**7-2.1.1. Tapşırıq ç (dərslik).** Tapşırığı cütlərlə iş formasında yerinə yetirmək tövsiyə olunur. Şagirdlər tapşırıqda verilmiş sxemi təxminən aşağıdakı kimi şərh edirlər:

***Ətraf mühitə təsiri:*** *Plastik tullantılar suyu, torpağı və havanı çirkləndirir, təbiətdə uzun müddət çürümür və ekosistemi pozur.*

***Canlı aləmə təsiri:*** *Plastik tullantılar dəniz heyvanları və quşlar üçün təhlükə yaradır. Bu tullantılarla qidalanmaq onların məhvinə gətirib çıxarır.*

***Statistika:*** *Dünya üzrə plastik tullantılar hər il artan sürətlə toplanır. Hər il 300 milyon ton plastik istehsal olunur. Onlardan 50%-i yalnız birdəfəlik istifadə üçün nəzərdə tutulub. Plastiklərin təkrar emal olunması azdır, bu da problemi daha da ağırlaşdırır. Hazırda okeanlarda 5,25 trilyon ədəd plastik tullantı olduğu təxmin edilir.*

***Sosial və iqtisadi təsirlər:*** *Plastik tullantıların artması, həm də insan sağlamlığına ciddi təhlükədir. Tullantıların düzgün idarə edilməsi bir sıra sosial-iqtisadi problemlərə yol açır. Məsələn, okeanda tullantıların yığılması və suyun mikroplastiklərdən təmizlənməsi böyük maliyyə vəsaiti tələb etdiyi üçün işlər ləng gedir.*

*– **Problemlərin həll yolları:** Plastik tullantıların təkrar emalını çoxaltmaq; təbiətdə uzun müddət çürüməyən plastiklərdən istifadəni azaltmaq; bu mövzuda daha çox insanı maarifləndirmək və s.*

*– **Proqnozlar:** Əgər plastik tullantıların azaldılması üçün tədbirlər görülməzsə, bu, okean və torpaq sistemlərinə daha çox zərər verəcək və gələcəkdə daha ciddi ekoloji böhranlara yol açacaq.*

**7-2.3.5. Tapşırıq d (dərslik).** Şagirdlər bu fasildə oxuduqları mətnləri mövzusuna və məqsədinə görə müqayisə edirlər.

1. Plastik materialın ixtirası, inkşafı, bu günü
2. Həyatımızı asanlaşdıran plastik qablar
3. Plastik qablar: təhlükəsiz və rahat vasitə
4. Ekoloqlardan həyəcan təbili: təbiət bizdən kömək istəyir!

Bu mətnləri mövzu, məzmun və struktur baxımından müqayisə edirlər.

<u>Mövzu baxımından</u>: bu mətnlərin hamısı plastiklərlə əlaqəlidir — 1-ci mətn ixtira tarixi barədə məlumat verir, 2-ci mətndə düzgün istifadə qaydalarından danışılır, 3-cü mətndə plastik məhsullar reklam olunur, sonuncu mətndə isə plastik tullantıların yaratdığı ciddi ekoloji problemlərdən danışılır.

**Mətnlərin yazılma məqsədinə görə:** Müəllifin məqsədi 1-ci mətndə plastik materialın tarixi barədə ətraflı məlumat vermək, 2-ci mətndə plastik məhsullardan düzgün istifadə qaydaları barədə maarifləndirmək, 3-cü mətndə keyfiyyətli plastik məhsulları almağa təşviq etmək, 4-cü mətndə isə plastik tullantılarla mübarizə aparmağa çağırış etməkdir.

**Tapşırıq a (iş dəftəri).** Şagirdlər plastik materialın mənfi və müsbət xüsusiyyətlərinə dair əldə etdikləri məlumatlara əsasən cədvəli tamamlayırlar.

**Yazı**

**Tapşırıq b (iş dəftəri).** Rəsmi-işgüzar məktubun məzmunu təxminən aşağıdakı kimi ola bilər:

*Hörmətli Ekologiya və Təbii Sərvətlər Nazirliyi!*

*Mən bir vətəndaş kimi ətraf mühitdə artmaqda olan plastik tullantılardan narahatam. Yaşadığım ərazidə və xüsusilə çay kənarlarında plastik qablar, torbalar və digər tullantılar təbiətə ciddi ziyan vurur. Bu tullantılar heyvanların və su canlılarının həyatını təhlükə altına alır. Dövlətin bu məsələ ilə bağlı plastik torbalara və birdəfəlik plastik əşyalara məhdudiyyətlər qoyması, təkrar emal zavodlarının sayını artırması və maarifləndirmə tədbirləri keçirməsi vacibdir. Bununla yanaşı, plastik tullantıların çeşidlənməsi üçün bu ərazidə konteynerlər yerləşdirilməsini təklif edirəm. Biz vətəndaşlar da bu işdə fəal ola bilərik.*

*Ətraf mühitimizin qorunması naminə tədbirlərin görüləcəyinə ümid edir və təşəkkür edirəm.*

*Hörmətlə, Lalə Kazımlı*

Lahiyə

*Gəncə şəhəri, 10.04.2025-ci il.*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduğu mətndə əsas fakt və fikirləri fərqləndirir. | Tap. **b, ç** (D.) |
| Mətndəki faktlara əsaslanaraq müəllif mövqeyinə münasibətini bildirir. | Tap. **c** (D.) |
| Qeyri-bədii mətnləri dil-üslub, forma və məzmun xüsusiyyətlərinə görə fərqləndirir. | Tap. **d** (D.) |

## 4-cü dərs. Mövzu üzrə debat

• Dərslik: səh. 89-90

**Təlim məqsədləri**

**1.** Araşdırılan faktlardan istifadə etməklə qarşı tərəfin fikrinə münasibətini əsaslandırır **(st. 7-1.2.2).**

**2.** Çıxış üçün müəyyən olunmuş vaxt məhdudiyyətini nəzərə alır **(st. 7-1.2.1).**

**Mövzuya yönəltmə**

**Tapşırıq a (dərslik).** Məqsəd şagirdlərin öz fikirlərini ifadə etmə, arqumentləri düzgün şəkildə təqdim etmə və mövzunun hər iki tərəfini araşdırma bacarığını inkişaf etdirməkdir.

**Danışma**

**7-1.2.2. 7-1.2.1.** Şagirdlər tapşırıqda verilmiş təlimata uyğun olaraq debat keçirirlər.

– **“Plastik qabların istehsalını qadağan etmək lazımdır”** mövqeyini dəstəkləmək üçün aşağıdakı arqumentləri gətirmək olar:

1. Ətraf mühitə zərərlidir: Plastik tullantılar torpağı və suyu çirkləndirir, canlılara zərər verir. Dənizlərdə plastiklər səbəbindən hər il minlərlə canlı tələf olur.

2. Təbii parçalanma mümkün deyil. Plastiklər yüz illər ərzində parçalanmır. Bu, ekosistemdə uzunmüddətli fəsadlar yaradır.

3. İnsan sağlamlığına təsiri. Plastik qabların bəziləri qida ilə təmasda olduqda zərərli maddələr buraxa bilər (məsələn, isti yeməklə istifadə zamanı).

4. Alternativlər mövcuddur. Şüşə, kağız, metal və bioloji parçalana bilən qablar artıq istehsal olunur. Bir çox ölkələrdə plastik əvəzinə bu məhsullardan istifadə edilir.

– **“Plastik qabların istehsalını qadağan etmək olmaz”** mövqeyini dəstəkləmək üçün aşağıdakı arqumentləri gətirmək olar:

1. Gündəlik həyatda praktik və əlverişlidir. Plastik qablar ucuz, yüngül, möhkəmdir. Daşınması və istifadəsi rahatdır.

2. Əsas problem istehsal deyil, tullantıların düzgün toplanmaması və təkrar emal olunmamasıdır. Qadağa əvəzinə təkrar emal sistemləri inkişaf etdirilməlidir.

3. Bütün plastiklər zərərli deyil. Qida üçün nəzərdə tutulan bir çox plastik növü təhlükəsizlik standartlarına cavab verir. Tibbdə, texnologiyada və digər sahələrdə plastik əvəzolunmaz materialdır.

4. Qadağa iqtisadi çətinlik yarada bilər. Plastik qab istehsalı ilə bağlı minlərlə insan işlə təmin olunub. Qadağa qoyularsa, müəssisələr bağlana və işsizlik arta bilər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Araşdırılan faktlardan istifadə etməklə qarşı tərəfin fikrinə münasibətini əsaslandırır. | Tap. **a** (D.) |
| Çıxış üçün müəyyən olunmuş vaxt məhdudiyyətini nəzərə alır. | Tap. **a** (D.) |

Layihə

# Ümumiləşdirici təkrar

• Dərslik: səh. 93 • İş dəftəri: səh. 56

**Təlim məqsədləri**

**1.** Xitabı cümlədə yerindən asılı olaraq digər sözlərdən vergüllə ayırır **(st. 7-4.3.1).**

**2.** Əsas tərəfi məsdərlə ifadə olunan ismi birləşmələri feili birləşmələrdən fərqləndirir **(st. 7-4.2.3).**

**3**. Həmcins cümlə üzvlərində vergül işarəsindən yerində istifadə edir **(st. 7-4.3.2).**

**4.** Cümlədə söz birləşmələrinin sintaktik funksiyasını müəyyən edir **(st. 7-4.2.3).**

**5.** Kontekstdən çıxış edərək bəzi köməkçi nitq hissələrinin və şəkilçilərin omonimliyini müəyyən edir **(st. 7-4.2.2).**

**Dil qaydaları**

Bu bölmədə hər fəslin sonunda il ərzində mənimsədilmiş dil qaydaları təkrar edildi. Bu dərsdə də şagirdlərin dil qaydaları üzrə bilik və bacarıqlarının yoxlanılması davam etdirilir.

**7-4.3.1. Tapşırıq 1 (dərslik).** Bu tapşırıq vasitəsilə şagirdlərin punktuasiya qaydaları üzrə bilik və bacarıqları yoxlanılır. Cavab:

1. **Ah,** oğlum, of, mənim qəhrəman oğlum!
Bu qədər qəm yemə, qurbanın olum! *(S.Vurğun)*
2. Durun, **ay uşaqlar,** yolçu yolda gərək.
3. Bir zaman havada qanad saxlayın,
Sözüm vardır mənim sizə, **durnalar!** *(M.P.Vaqif)*
4. Sülhə gəlin, **ey insanlar,**
Yoxsa dünya məhv olar. *(N.Gəncəli)*
5. Səndən doymaq olarmı, **həyat,** sən nə şirinsən?! *(B.Vahabzadə)*

**7-4.2.3. Tapşırıq 2 (dərslik).** Cavab: c.

**7-4.3.2. Tapşırıq 3 (dərslik). d.** *Atalar demişkən, igid ölər, adı qalar, müxənnətin nəyi qalar?!* cümləsi mürəkkəbdir, çünki üç qrammatik əsası, yəni hər cümlənin öz mübtəda və xəbəri var. Digər cümlələrdə isə həmcins xəbərlər işlənmişdir.

**7-4.2.3. Tapşırıq 4 (dərslik).** Cavab:

1. Ah, mən gündən-günə bu gözəlləşən *(təyin)*
işıqlı dünyadan necə əl çəkim?! *(M.Müşfiq)*

2. Kəndə doğru yol alan *(feli sifət, təyin)* maşınımız asfalt yola çıxanda *(feili bağlama, zaman zərfliyi)* sürətini artırdı.

3. Gözləmədiyi vəziyyətlə qarşılaşan *(feli sifət, təyin)* gənc özünü itirmişdi.

4. Gərgin iş həftəsindən sonra istirahət etmək *(məsdər, mübtəda)* hamımızın haqqıdır.

5. Ən böyük həqiqəti, azadlığı, məhəbbəti, nifrəti söyləməyə qadir olan *(feli sifət, təyin)* dilim var. *(R.Rza)*

**Tapşırıq 5 (dərslik).** Cavab: 1. Mən *günorta dərsdən qayıdanda* küçüyün axsadığını gördüm.

2. *Həmişə özünə güvənən* adam heç vaxt çənlikdən qorxmaz.

3. Pişik balası ocağın yanında *yumaq kimi büzüşərək* yatmışdı.

4. *Hər kiçik nöqsana görə deyinməyi* normal hal hesab etmək olmaz.

5. Biz *satılmaq üçün nəzərdə tutulmuş* meyvələri yük maşınlarına yığdıq.

**7-4.2.2. Tapşırıq 6 (dərslik).** Dünən aldığım kitab **da** (bağlayıcıdır, ayrı yazılır) çox maraqlı idi.

2. Xanım, mən **də** (bağlayıcıdır, ayrı yazılır) bilmirəm, bu məsələ necə həll olunacaq.

3. Əlbəttə, yorulmuşam, heç taqətim **də** (bağlayıcıdır, ayrı yazılır) qalmayıb.

4. Bu film maraqlıdır, əminəm **ki,** (bağlayıcıdır, ayrı yazılır) Səbinə **də** (bağlayıcıdır, ayrı yazılır) baxsa, çox bəyənəcək.

5. Kitabxana**da** (yerlik hal şəkilçisidir, sözə bitişik yazılır) o qədər yaxşı mənbə var ki, bir az araşdır**sana!** (ədatdır, sözə bitişik yazılır)

6. Siz **ki** (ədatdır, ayrı yazılır) bu məsələdən xəbərdarsınız, niyə bizə də (bağlayıcıdır, ayrı yazılır) deməmisiniz?

**7-4.3.1. Tapşırıq 7 (dərslik).** Cavab:

• Modal sözlərin vergüllə ayrılması – 1, 3
• Nidalarda durğu işarələri – 2, 4, 5
• Xitabın vergüllə ayrılması – 6

1. Düzü**,** sən özün də bəzən ədalətli davranmırsan axı?

2. Oh**,** sən**,** doğrudan da**,** əla bacarırsan! Təbrik edirəm səni.

3. Fikrimcə**,** bu lap böyük uğurdur, yəqin ki**,** davamlı olacaq!

4. Boy**,** sən bunu necə bacardın? İnanılmazdır!

5. Vay**,** sənə demişdim axı, ehtiyatlı ol!

6. Ey cavan oğlan, bir dəqiqə dayan görək!

**Tapşırıq 1 (iş dəftəri).** Cavab:
1 – c; 2 – ç; 3 – a; 4 – b.

**Tapşırıq 2 (iş dəftəri).** Cavab: 1. Sakit okeanın

Layihə

dərinliklərində nadir canlılar yaşayır.

2. Okean suyunun sürətlə çirklənməsi ekoloqları düşündürür.

3. Elmi araşdırmaların nəticələri bu sahədə böyük dəyişikliklər yaradıb.

4. Bakı şəhərinin mərkəzi hissəsində çoxlu turist var idi.

5. Qəbul edilmiş qərarlar ekoloji problemlərin həllinə kömək edəcək.

**Tapşırıq 3 (iş dəftəri).** Cavab:

1. Festivalda aktiv iştirak edən (feili sifət tərkibi, təyin) könüllülərdən müsahibə alacağıq.

2. Gecədən səhərə qədər əsən (feili sifət tərkibi, təyin) güclü külək yenicə sakitləşmişdi.

3. Mən divanda sakitcə oturub (feili bağlama tərkibi, tərzi-hərəkət zərfliyi) Ariflə Səmanın oyununu seyr edirdim.

4. Sinifdə nizam-intizam qaydalarına əməl etmək (məsdər tərkibi, mübtəda) hər bir şagirdin borcudur.

**Tapşırıq 4 (iş dəftəri).** Cavab:

1. Uzaqdan *sakit, həzin, ürəyəyatan* musiqi eşidilirdi. (təyin)

2. Tədbir *Bakıda, Gəncədə, Sumqayıtda* keçirildi. (yer zərfliyi)

3. Ayxan *tərbiyəli, savadlı, çalışqan* şagirddir. (təyin)

4. *Arif, Gülay və Ayxan* bir qərara gələ bilmirdilər. (mübtəda)

5. Uşaqlar *rəqs edir, mahnı oxuyur, şənlənirdilər. (xəbər)*

6. Yarışdan sonra *Əlini, Gülnarı* və *Sevdanı* mükafatlandırdılar. (tamamlıq)

7. Tikinti üçün bir maşın *daş, qum, sement* gətirdilər. (tamamlıq)

Əlavə etdiyin həmcins üzvləri sıra ilə yaz.

**Tapşırıq 5 (iş dəftəri).** Cavab:

1. Eh, ağıllı balam, həmişə hər şey istədiyimiz kimi olmur ki.

2. Əzizim, yaxşı valideynin övladı pis olmaz.

3. Zaman, belə tələsmə,
Zaman, mənə zaman ver. *(B.Vahabzadə)*

4. Vətən, sənin çiçəyinə, daşına qurban!

5. Allaha şükür, sənə nə olub ki, ay bibi, varındövlətin başdan aşır. *(İ.Şıxlı)*

**Tapşırıq 6 (iş dəftəri).** Cavab:

**Defislə yazılır:** uzaqdan-uzağa tanımaq, üz-üzə gəlmək, başdan-başa səhv olmaq, gündən-günə qocalmaq, dildən-dilə düşmək, əldən-ələ gəzmək

**Ayrı yazılır:** ağacdan ağaca qonmaq, sinifdən sinfə keçmək, sətirdən sətrə keçirmək, məclisdən məclisə görüşmək

**Tapşırıq 7 (iş dəftəri).** Cavab: 1. Dağın başından üzüaşağı sürüşdük.

2. Sürəti azalt, döngəyə çatırıq.

3. Atalar demişkən, doğruya zaval yoxdur.

4. Allah dəvəyə qanad versəydi, uçmamış dam qalmazdı.

5. Çiynimdən elə bil dağ götürüldü.

**Tapşırıq 8 (iş dəftəri).** Cavab:

2. Evə tez gedək (də), görüləsi işlərimiz çoxdur. *(Ayrı yazılır, ədatdır, sözün, cümlənin təsir gücünü artırır).*

*3. Onlar (da) bilirlər ki, sonra məni çox axtaracaqlar. (Ayrı yazılır, iştirak bağlayıcısıdır).*

*4. Məlum oldu ki, evin açarı çanta (da) qalıb. (Bitişik yazılır, yerlik hal şəkilçisidir).*

**Tapşırıq 9 (iş dəftəri).** Cavab: 1. Təntənəli gecədə məktəbin bütün müəllimləri, hətta şəhərdən gələn qonaqlar da iştirak edirdilər.

2. İclasa mən də getmişdim, ancaq çıxış etmədim.

3. Çəltik də gətir, buğda da, arpa da, əkinçi. *(M.Ə.Sabir)*

4. İgid oğul qayalarda yaşamağı, ot-ələflə qidalanmağı və yağış suyu ilə dolanmağı bacarmalıdır.

**Tapşırıq 10 (iş dəftəri).** Cavab: b

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Xitabı cümlədə yerindən asılı olaraq digər sözlərdən vergüllə ayırır. | Tap. 1, 7 (D.); 5 (İ.D.) |
| Əsas tərəfi məsdərlə ifadə olunan ismi birləşmələri feili birləşmələrdən fərqləndirir. | Tap. 2 (D.); 4 (İ.D.) |
| Həmcins cümlə üzvlərində vergül işarəsindən yerində istifadə edir. | Tap. 3 (D.) 9 (İ.D.) |
| Cümlədə söz birləşmələrinin sintaktik funksiyasını müəyyən edir. | Tap. 4, 5 (D.); 2, 3 (İ.D.) |
| Kontekstdən çıxış edərək bəzi köməkçi nitq hissələrinin və şəkilçilərin omonimliyini müəyyən edir. | Tap. 6 (D.), 1, 8 (İ.D.) |

Layihə

*BURAXILIŞ MƏLUMATI*

*Ümumi təhsil müəssisələrinin 7-ci sinifləri üçün*
*Azərbaycan dili (tədris dili) fənni üzrə dərsliyin*
***metodik vəsaiti***


**Tərtibçi heyət**

Müəlliflər **Rafiq İsmayılov**
**Aysel Xanalıyeva**
**Ülkər Nurullayeva**
**Dilrüba Cəfərova**
**Reyhan Həbibli**

Dil-üslub redaktoru **Fidan Məmmədova**
Texniki redaktor **Nərmin Həsənova**
Korrektor **Vəfa Əliyeva**



**© Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun
hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq,
elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.



Hesab-nəşriyyat həcmi: 17,5. Fiziki çap vərəqi: 21.
Səhifə sayı 175. Formatı: 57×82 1/8. Kəsimdən sonra ölçüsü: 195×275.
Şriftin adı və ölçüsü: Calibri 11.5 pt. Ofset kağızı. Ofset çapı.
Sifariş ___. Bakı – 2025.

Çap məhsulunu nəşr edən:
Azərbaycan Respublikasının Təhsil İnstitutu (Bakı ş., A.Cəlilov küç., 86).


Layihə

Pulsuz

Layihə